AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA, ETNOQRAFİYA VƏ ANTROPOLOGİYA İNSTİTUTU

ƏLİBABA BABAYEV

# MAŞTAĞA VƏ ONUN ƏTRAF ƏRAZİLƏRİNİN TARİXİ

– 31084 –

*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurasının 5 aprel 2019-cu il tarixli iclasının qərarı ilə (5№-li protokol) çap olunur*

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2023

Elmi redaktor: **Arif Məmmədov**
*tarix elmləri doktoru, professor*

Redaktorlar: **İdris Əliyev**
*tarix üzrə fəlsəfə doktoru*

**Ağanəcəf Qədirov**
*filoloq, müəllim*

Rəyçilər: **Xeyirbəy Qasımov**
*tarix elmləri doktoru*

**Taleh Əliyev**
*tarix üzrə fəlsəfə doktoru*

Rəssam: **Rəna Cəfərova**

Texniki tərtibatçı: **Səbinə Əliyeva**

**Əlibaba Babayev.**
MAŞTAĞA VƏ ONUN ƏTRAF ƏRAZİLƏRİNİN TARİXİ.
Bakı: 2023,—224 səh.


*Monoqrafiyada Maştağa və onun ətrafı ərazilərinin qədim dövrdən bu günə qədərki tarixi, memarlıq və arxeoloji abidələri, mədəniyyəti barədə ətraflı məlumat verilir. Kitabda həmçinin Maştağa kəndinin yetirmələri olan, tanınmış ziyalılardan, elm və mədəniyyət xadimlərindən də bəhs olunur. Əsər geniş oxucu kütləsi üçün nəzərdə tutulur.*


**ISBN** 978-9952-541-63-2



© Ə.H.Babayev, 2023


## İÇİNDƏKİLƏR


**GİRİŞ** ........ 4

**I FƏSİL. Bölgənin Qədim və Orta əsrlər tarixi** ........ 7
1. Bölgənin tarixi-arxeoloji tədqiqi ........ 7
2. «Maştağa» toponiminə dair mülahizələr ........ 20
3. Maştağa Xanlıqlar hakimiyyəti və Çar Rusiyasının işğalı dövründə (XVIII-XIX əsrlər) ........ 31
4. Əhalinin təsərrüfat həyatı ........ 39
5. Maştağa zəlzələləri ........ 68

**II FƏSİL. Maştağanın tarixi-memarlıq abidələri** ........ 73
1. Dini təyinatlı abidələr ........ 73
2. Müdafiə təyinatlı tikililər ........ 99
3. Ovdanlar və hamamlar ........ 102
4. Maştağaəsilli olan memar-ustalar ........ 111

**III FƏSİL. Maştağa XX əsrdə və XXI əsrin əvvəllərində** ........ 113
1. Maştağa XX əsrdə ........ 113
2. Maştağa Cümhuriyyət və Dövlət quruculuğu dövründə ... 134
3. Maştağa 1920-1991-ci illərdə ........ 139
4. Maştağanın elm xadimləri ........ 140
5. Maştağanın mədəniyyət və incəsənət xadimləri ........ 145
6. Maştağanın idman həyatı ........ 150
7. Maştağanın qoçuları ........ 151

**NƏTİCƏ** ........ 160

**ЗАКЛЮЧЕНИЕ** ........ 163

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT** ........ 166

**İLLÜSTRASİYALAR** ........ 172

*Atam **Hüseynqulu Əlibaba oğlu Babayevin***
*əziz xatirəsinə ithaf edirəm*

## GİRİŞ

Həm kənd, həm də şəhər tipli yaşayış məntəqələri müəyyən tarixi təkamülün nəticəsidir. Azərbaycanın ayrı-ayrı yaşayış məntəqələrinin tarixinin araşdırılması və təbliği son dövrdə Vətən tarixi elminin diqqəti cəlb edən gerçəkliklərindəndir. Təbiidir ki, bu araşdırma bütövlükdə Azərbaycan tarixinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Çünki həm kənd, həm də şəhər tipli yaşayış məntəqələri yalnız özünəməxsus həyat tərzi ilə məhdudlaşmır, eyni zamanda ümummilli, zəngin dəyərlərin daşıyıcısı kimi çıxış edir.

Azərbaycanın zəngin tarixə malik olan yaşayış məntəqələrindən biridə Bakı şəhərinin ətrafında yerləşən Maştağa qəsəbəsidir. Ümumiyyətlə, Abşeron yarımadasının şimal–şərq hissəsinin hərtərəfli tədqiq olunmasına böyük ehtiyac duyulur. Fikrimizcə, Maştağanın tarixi ətraf ərazilərin, xüsusilə Nardaran və Bilgəh kəndlərinin keçmişi ilə əlaqəli şəkildə öyrənilməlidir. Xüsusilə qeyd etmək lazımdır ki, Bakı şəhərini onun ətrafındakı kəndlər olmadan təsəvvür etmək qeyri-mümkündür. Bakı şəhəri və onun ətrafında yerləşən kəndlər üzvi vəhdət təşkil edən bir gerçəklikdir. Xalq arasında həmin kəndlərin «Bakı kəndləri» adlandırılması da təsadüfi deyildir.

Məhz buna görə də Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin tarixini Abşeron kəndlərinin keçmişi ilə birlikdə, kompleks şəkildə araşdırmaq və təbliğ etmək vacibdir.

Əski çağları indiyədək nisbətən az öyrənilmiş Bakı (Abşeron) kəndləri qədim tarixə, çoxsaylı tarixi-memarlıq abidələrinə və zəngin folklora malikdir.

Maştağa Abşeron yarımadasının ən qədim və böyük yaşayış məntəqələrindən biridir. XX əsrin birinci rübündən, xüsusilə həmin





yüzilliyin 60-cı illərindən etibarən Abşeron yarımadasında aparılmış arxeoloji və etnoqrafık tədqiqatlar bizə bu müddəanı irəli sürmək imkanı verir. Ümidvarıq ki, gələcək araşdırmalar bu müddəanın doğru olduğunu isbat edəcəkdir. Hal-hazırda da əlimizdə tutarlı, təkzib olunmaz elmi dəlillər vardır. Bu dəlillər artıq çoxlarının söylədiyi kimi "nağıl", "rəvayət" deyildir.

Maştağanın orta əsrlər dövrü araşdırıcılarımıza daha yaxından tanışdır və həmin tarixi dövr daha zəngindir. Azərbaycan tarix elminə Maştağanın həm orta çağlarına, həm də xanlıqlar dövrünə dair xeyli məlumat bəllidir. Bu yaşayış məntəqəsinin Rusiya işğalı və XX əsr tarixi haqqında məlumatlar daha çoxdur.

Qədim tarixi olan Maştağa kəndi, qəsəbəsi həm də zəngin mədəniyyətə malikdir. Onun ərazisində uzaq keçmişin şahidi olmuş xeyli dəyərli memarlıq abidəsi vardır. Həmin abidələrin üzərindəki daş kitabələr tədqiqatçılara tarixi həqiqətləri üzə çıxarmaq imkanı verən nadir, ilkin mənbələrdir. Bu mənbələr Vətənimizin orta əsrlər tarixinin öyrənilməsi baxımından xüsusilə qiymətlidir.

Tarixi qaynaqlarda əlverişli strateji mövqedə yerləşmiş Maştağanın adı, əhalisi, təsərrüfat həyatı, mədəni mühiti, məişəti haqqında xeyli məlumat vardır.

Maştağa kəndi əhalisinin dini etiqada, adət-ənənələrə sadiqliyi baxımından Azərbaycan Respublikasında fərqlənən yaşayış məntəqələrindən biridir.

Azərbaycan xalqına xidmət etmiş bir çox görkəmli şəxsiyyətlər məhz bu kənddə yetişmişlər. Maştağa sakinləri həmin övladları ilə həmişə fəxr etmişlər. Onların arasında müxtəlif tarixi dövrlərdə yaşamış din xadimləri, alimlər, ədiblər, memarlar, müxtəlif və ixtisas sahibləri vardır.

Maştağanın igid oğulları Vətən tarixinin yazılmasında həm maddi-mənəvi irsin təşəkkülündə, həm AXC-nin (1918-1920) qurulmağında, həm erməni daşnaklarına bolşeviklərə qarşı mübarizədə (1920-1945), həm də Şimali Azərbaycanda milli-azadlıq hərəkatının gücləndiyi dövrdə (1988-1993) fəal, seçilən, təəssübkeş,

qəhrəman bir övlad olduqlarını Vətən və millət qarşısında həmişə təsdiq etmişlər. Qəsəbənin xeyli övladı erməni hərbi təcavüzünə məruz qalmış Qarabağ bölgəsi uğrunda müharibədə şəhid olmuş, sağlamlığını itirmiş və ya itkin düşmüşdür.

Beləliklə, həm vahid, bütöv Azərbaycanın, həm də onun ayrı-ayrı bölgələrinin, şəhər və kəndlərinin tarixinin, maddi mədəniyyət abidələrinin, folklor irsinin, görkəmli şəxsiyyətlərinin həyatının araşdırılması və təbliği tarixçilərimizin qarşısında duran çox mühüm və şərəfli vəzifələrdəndir.

Biz də Maştağa kəndi, qəsəbəsi haqqında ilkin qaynaqlardan, elmi ədəbiyyatdan, arxeoloji və etnoqrafik araşdırmaların nəticələrindən bəhrələnərək, şəxsi araşdırmalarımızın nəticələrini yekunlaşdıraraq bu monoqrafiyanı dəyərli oxucuların nəzərinə çatdırmaq qərarına gəldik. Bununla biz doğma Maştağa və maştağalılar qarşısında övladlıq borcumuzu müəyyən dərəcədə yerinə yetirməyə çalışdıq. Oxucuların müzakirəsinə təqdim olunan bu monoqrafiyanın böyük maraq doğuracağına ümid bəsləyirik.



# I FƏSİL

# BÖLGƏNİN QƏDİM VƏ ORTA ƏSRLƏR TARİXİ

## 1. BÖLGƏNİN TARİXİ-ARXEOLOJİ TƏDQİQİ

Dünyanın ən qədim mədəniyyət ocaqlarından olan Azərbaycanın istər kənd, istərsə də şəhər tipli yaşayış məskənlərinin qədim sakinləri özlərindən sonra minilliklər ərzində zəngin maddi və mənəvi irs qoyub getmişlər. Müxtəlif tarixi qaynaqlar, maddi və yazılı abidələr əsasında bütün Vətənimizin, habelə onun ayrı-ayrı şəhər və kəndlərinin tarixini öyrənmək mümkündür.

Bu baxımdan maddi mədəniyyət abidələri müstəsna əhəmiyyətə malikdir. Arxeoloji qazıntılar nəticəsində hər bir yaşayış məskəninin yerləşdiyi ərazidən aşkar edilmiş əmək alətləri, məişət əşyaları, bəzəklər, qəbir abidələri, silahlar, yaşayış evlərinin qalıqları bir çox tarixi sirlərin daşıyıcılarıdır. Həmin daşıyıcıların elmi şəkildə, diqqətlə araşdırılması tədqiq olunan müəyyən bir ərazinin, əhalinin qədim tarixi haqqında konkret fikir irəli sürməyə imkan verir.

Abşeron yarımadasında yerləşən Bakı şəhəri və onun ətrafındakı kəndlər Azərbaycanın qədim, zəngin tarixə malik olan bölgələrindəndir. Belə qədim yaşayış məntəqələrindən biri də həmin yarımadanın şimal-şərq hissəsində yerləşən Maştağadır.

Hər hansı bir yaşayış məskəninin meydana gəlməsi, təşəkkülü və inkişaf etməsi müəyyən tarixi səbəblərlə və şəraitlə bağlıdır. Yəni, hər bir yaşayış məskəni müəyyən tarixi, ictimai-iqtisadi təkamül prosesinin məhsuludur. Eyni zamanda əsrlər boyu təşəkkül tapan hər bir yaşayış məskəni özünün məhəlli xüsusiyyətlərində qapanıb qalmamış, ətraf yaşayış məskənləri ilə qarşılıqlı əlaqədə inkişaf etmiş, nəticədə həmin məskənlər oxşar tarixə malik olmuşlar. Məhz buna görə də hər bir yaşayış məskəninin tarixi öyrənilərkən onun ətraf məskənlərlə qarşılıqlı şəkildə araşdırılması

vacibdir. Buna görə də tədqiqat zamanı Maştağa yaşayış məntəqəsinin tarixi ona qonşu olan yaşayış məntəqələrinin (xüsusilə Nardaran, Bilgəh) tarixi ilə qarşılıqlı əlaqədə, bütövlükdə isə Abşeron yarımadasının tarixi ilə vəhdət halında nəzərdən keçirilmişdir.

Son dövrün tarixi, arxeoloji, etnoqrafik, folklor araşdırmaları Abşeron yarımadasının qədim tarixinin minilliklərin dərinliklərinə gedib çıxan köklərini izləməyə imkan verir.

Azərbaycan Respublikasının ərazisində, Xəzər dənizinin qərb sahillərində, Böyük Qafqazın cənub-şərq qurtaracağında yerləşən Abşeron yarımadasında[1] insanların, əhalinin nə zamandan məskunlaşdığını dəqiq söyləmək çox çətindir. Hər halda yarımadadan əldə edilmiş bəzi arxeoloji materiallar bu ərazinin uzaq keçmişi haqqında müəyyən mülahizələr irəli sürməyə imkan verir.

Qeyd etmək lazımdır ki, bu və ya digər ərazidə qədim insanın və cəmiyyətin təşəkkülü və inkişafı təbii-coğrafi mühitlə sıx əlaqədə baş vermişdir. Yer kürəsinin digər bölgələrində olduğu kimi, Azərbaycanda, Abşeron yarımadasında da təbii-iqlim şəraiti sabit qalmamış, minilliklər, yüzilliklər boyu dəyişmişdir.

Azərbaycanın bir sıra bölgələrinə nisbətən Abşeronda hələlik paleolit dövrü (qədim daş dövrü) çox zəif öyrənilmişdir. Ona görə də paleolit mədəniyyətinin Abşeron yarımadasındakı səciyyəvi xüsusiyyətlərinin tədqiqinə yardım edə biləcək arxeoloji materiallar çox azdır. Lakin aparılmış mövcud cüzi arxeoloji tədqiqata əsasən Abşeron yarımadasının ibtidai icma dövrü ilə bağlı olan bəzi fikirlər söyləmək mümkündür. Belə ki, Abşeronun bir sıra yaşayış məntəqələrində (Keşlədə, Digahda, Xırdalanda, Binəqədidə) aparılmış arxeoloji qazıntılar zamanı qır qatından nəsli kəsilmiş heyvan sümükləri aşkar edilmişdir. Həmin tapıntılar paleolit izlərini xatırladır. Nəsli kəsilmiş heyvan sümükləri, habelə bitki qalıqları 30-40 min il bundan əvvəlki dövrə aiddir.[2]

---

[1] Kərəmov N. Abşerona və Böyük Qafqaza səyahət. Bakı, 1957.

[2] Богачев В.В. Бинагады – кладбище четвертичной фауны на Абшеронском полуострове. Баку, 1939.





Yuxarıda qeyd etdiyimiz yaşayış məntəqələrindən həmin dövrə aid olan, paleolit insanının alətlərinə bənzəyən bir sıra tapıntılar da aşkar edilmişdir. [1]

Belə tapıntılardan biri Xəzər dənizinin sahilindəki Zığ kəndində də aşkar edilmiş və Azərbaycanın qədim dövrünün öyrənilməsində böyük rolu olmuş rus tədqiqatçısı Y.A.Paxomov tərəfindən tədqiq edilmişdir.[2]

Digər tərəfdən, Qobustanın məşhur qayaüstü təsvirləri (mezolit dövrü-e.ə. XII-VIII əsrlər) və ondan sonrakı dövrə aid olan təsvirlər heç də təsadüfi səciyyə daşımır. Həmin təsvirlər insan əməyinin, onun dünyabaxışının, dini görüşlərinin, incəsənət sahəsindəki fəaliyyətinin məhsuludur. Bu fakt nəinki Qobustanda, habelə ona nisbətən yaxın olan digər ərazilərdə qədim insan həyatının varlığından xəbər verir.[3] C.K.Rüstəmovun və F.M.Muradovanın uzun illər ərzində Qobustanda apardıqları qazıntı işləri qədim insan qəbilələrinin Mezolit və Neolit dövrlərində uzun müddət bu bölgənin mağaralarında yaşadıqları ehtimalını təsdiq edir.[4] Lakin bütün bunlara baxmayaraq, Abşeron yarımadasında əhalinin hansı dövrdən etibarən məskunlaşdığına dair qəti fikir söyləmək çətindir. Bu sözlər Maştağa, Bilgəh, Nardaran yaşayış məntəqələrinə də aiddir.

XX əsrin 40-cı illərinə qədər bu ərazilərdə IX-X əsrlərdən öncə yaşayış olub-olmadığı məsələsi tarixçilər arasında gərgin mübahisələr obyektinə çevrilmişdi. Həmin dövrdə orta əsrləri araşdıran tarixçilərin əksəriyyəti mənbə kimi əsasən ərəbdilli və farsdilli əsərlərə istinad edirdilər. Orta çağ məsələlərinin öyrənilməsində istifadə olunan ərəbdilli və farsdilli tarixçilərin və coğrafiyaşünasların verdikləri məlumatlar isə IX-X əsrlərdən əvvəlki

---

[1] Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı, 1998, s.20

[2] Пахомов Е.А. Об осмотре находки кремневого ядра из Зыхского озера. Изв. Аз. ФАН СССР, 1938, №2, с.39-40

[3] Джафарзаде И.М. Гобустан. Баку, 1973.

[4] Рустамов Д.К., Мурадова Ф.М. Раскопки в Кобустане. Археологические открытя 1970 года, М., 1971, с.390-391.

dövrləri istənilən səviyyədə əhatə etmirdi. Sanki tarixçilər başqa mənbələrin də olduğunu unutmuşdular. Bakı şəhərinin və onun ətrafındakı yaşayış məskənlərinin daha qədim dövrlərdə salındığına dair bəzi tarixi mənbələrdə təsadüf olunan məlumatlara da adi bir "nağıl" kimi yanaşılır və onlara heç bir elmi əhəmiyyət verilmirdi. Məhz belə yanaşma tərzi üzündən Bakıda və Abşeronun ayrı-ayrı yaşayış məntəqələrində inşaat və təsərrüfat əhəmiyyətli işlər aparılarkən təsadüfən üzə çıxarılmış qəbirlərə, həmin qəbirlərdən tapılmış insan sümüklərinə, müxtəlif maddi mədəniyyət nümunələrinə lazımi diqqət yetirilməmişdir. Nəticədə Abşeron yarımadasında, habelə onun şimal-şərq qismində olan yaşayış məskənlərinin salınma tarixinin dəqiqləşdirilməsi məsələsi meydana çıxarkən həmin məskənlərin artıq yuxarıda göstərilən tarixdən qədim olmadığı qənaəti üstünlük qazanırdı.

XX əsrin 40-50-ci illərindən etibarən nisbətən genişləndirilmiş arxeoloji qazıntı işləri bu cür yanlış mülahizələrin, müddəaların tədricən aradan qalxmasına səbəb oldu. Həmin qazıntılar zamanı aşkara çıxarılmış qəbirlər, həmin qəbirlərdən əldə edilmiş maddi mədəniyyət nümunələri Abşeronun şimal-şərqində qədim yaşayış məskənlərinin olduğuna dair yeni fikirlər irəli sürməyə imkan verdi. Hal-hazırda Abşeron yarımadasında, xüsusilə onun şimal-şərq hissəsində yerləşən yaşayış məntəqələrinin, o cümlədən Maştağanın, Bilgəhin və Nardaranın yerləşdiyi ərazinin qədim mədəniyyət ocaqları olduğu heç bir şübhə doğurmur.

Bu, bir daha sübut edir ki, həmin yaşayış yerləri şəhər tipli yaşayış məntəqələrinə çevrilənə kimi böyük bir təkamül yolu keçmişlər.

Beləliklə, son tədqiqatlar, xüsusilə arxeoloji qazıntılar Abşeronun şimal-şərq hissəsində salınmış Maştağa, Bilgəh, Nardaran kimi yaşayış məskənlərinin uzaq keçmişinə nəzər salmağa imkan verir.

Məlumdur ki, Abşeron yarımadasında Qobustandan başlayaraq Xəzər dənizi sahilləri boyunca şimala doğru qayaüstü təsvirlər





müşahidə olunur. Yaşayış üçün çox əlverişli olmuş bu bölgələrdə də qədim insan məskənləri olmuşdur. Qayaüstü təsvirlər Abşeron yarımadasındakı bir çox yaşayış məntəqələrində (Mərdəkanda, Şüvəlanda, Qalada, Bilgəhdə) də aşkar edılmişdir. Həmin təsvirlərdə qədim insanların təsərrüfat həyatı və ovçuluq peşəsinin xüsusiyyətləri öz əksini tapmışdır. Abşeron ərazisində bu təsvirlər daş dövründən tunc dövrünə keçid mərhələsində (e.ə. IV-II minilliklərdə) yaradılmışdır.[1]

Bilavasitə Abşeron yarımadasının şimal-şərq hissəsində bu günə kimi aşkar edilmiş, qədim dövrə aid olan abidələrdən ən qiymətliləri Ümidqaya abidəsi və kurqanlardır.

Ümidqaya abidəsi Abşeron yarımadasının şimal-şərqində, Bilgəh və Nardaran qəsəbələri arasında yerləşir. Burada olan Ümidqayanın zirvəsində göy cisimləri təsvir edilmişdir. Qaya üzərində oyulmuş bu "rəsədxanada" günəş və müxtəlif ulduzlardan yaranan bir çox bürclər (Böyük Ayı bürcü, İlan bürcü və s.) təsvir edilmişdir. Həmin rəsmlər öz zənginliyinə görə bir çox məşhur bürc təsvirlərindən üstündür.[2]

Ümidqaya təsvirləri tunc dövrünə (e.ə. III minilliyə) aid edilir.[3]

Bu qayaüstü təsvirlər, tunc dövrünə aid olunan digər təsvirlərlə (onlar Mərdəkan, Şüvəlan, Buzovna məntəqələrindən və başqa yerlərdən aşkar edilmişdir) birlikdə bölgənin, eləcə də Maştağa, Bilgəh və Nardaran yaşayış məskənlərinin qədim tarixini öyrənmək baxımından çox qiymətlidir. Qaya və daş üzərində müxtəlif üsullarla işlənmiş həmin təsvirlərdə ov səhnələrinin, təsərrüfat həyatının, adət və ənənələrin bir çox ünsürləri əks etdirilmişdir. Bu abidə nəinki nəzərdən keçirdiyimiz bölgənin, bütövlükdə Azərbaycanın tunc dövrü tarixinin öyrənilməsi üçün əhəmiyyətlidir. 1963-cü ildə Abşeron yarımadasının şərq hissəsində – Mərdəkan və

[1] Асланов Г. Об археологических памятниках Апшерона. МКА. Т. IX. Баку, 1980, с.69-80

[2] Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı, 1998, s.22

[3] Abşeronun qədim rəsədxanası. «Qobustan» jurnalı, 1973, №3.

Şüvəlan qəsəbələri ərazisində aparılmış arxeoloji qazıntılar zamanı bir sıra qədim abidələr aşkar olundu və bölgənin tarixi ilə bağlı yeni materiallar əldə edildi. Buradan aşkar olunmuş bəzi maddi mədəniyyət nümunələri e.ə. III-I minilliklərə aid edilən Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti nümunələrinə bənzəyir.[1] Bölgədən aşkar edilmiş, e.ə. II–I minilliklərə aid olan gil qabların oxşarlarına Dağıstanda və dağlıq Çeçenistanda aşkar edilmiş Qayakənd-Xoroçay mədəniyyətinə aid olan abidələr arasında təsadüf etmək olar.[2]

Aparılmış tədqiqat işlərinin nəticələri göslərir ki, vaxtilə bu bölgədə yaşamış tayfalar maldarlıqla, əkinçiliklə və təsərrüfatın digər sahələri ilə məşğul olmuş, ətraf ərazilərdə yaşamış digər tayfalarla geniş iqtisadi və mədəni əlaqələr saxlamışlar.

Məlumdur ki, Bakı şəhərinin ətrafında hal-hazırda dənizin altında qalmış qədim tikililər mövcuddur. Dəniz suyu altında qalmış bu cür yaşayış məskənlərinin qalıqlarına Abşeronun şimal-şərq hissəsində də təsadüf olunur. Abbasqulu ağa Bakıxanov yazmışdır: "Bakı qəzasında Bilgəh, Zirə, Bibiheybət və s. kəndlərdə və bəzi adalarda daşlar üzərində dənizə doğru gedən araba izləri görünür".[3]

Dənizə doğru gedən ikitəkərli araba izləri Bilgəh və Nardaran qəsəbələri yaxınlığındakı Ümidqayada hal-hazırda qalmaqdadır ki, bu da Abşeron bölgəsi ərazisinin bir qisminin dəniz sularına qərq olduğunu təsdiq edir.[4]

1941-ci ildən etibarən İ.M.Cəfərzadənin rəhbərliyi altında aparılmış arxeoloji qazıntı işləri zamanı qədim dövrlərə aid olan bir neçə qəbir abidəsi aşkar edilmişdir. Arxeoloji qazıntılar zamanı belə qəbirlərdən biri də Maştağa ərazisində tapılmışdır. 1946-cı ildə Azərbaycan SSR EA-nın (Azərbaycan Milli EA-nın) A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi, etnoqraf İ.Ə.Məcidova Abşeron etnoqrariyası ilə bağlı olan tədqiqatları zamanı bu bölgədə qədim, təndir şəkilli qəbir tiplərinin mövcud olduğuna dair kifayət qədər maraqlı materiallar əldə etmişdi. İ.Ə.Məcidovanın Maştağanın 75 yaşlı sakini Məmmədhəsən Ağakişi oğlu Həsənovdan aldığı məlumata görə, Maştağada təndir tipli, qədim qəbirlər mövcud olmuşdur. M.A.Həsənov bildirmişdi ki, kənd ərazisində aparılmış çöl işləri zamanı çalalar qazılarkən təndir formalı qəbir aşkar edilmiş, həmin qəbirlərdən insan sümükləri və mərhumun yanında qoyulmuş bir neçə qırmızı rəngli saxsı qab aşkar olunmuşdur.[1]

Abşeronun digər kəndlərində də aparılmış arxeoloji qazıntılar zamanı bu cür maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Həmin arxeoloji nümunələr digər, oxşar nümunələrlə müqayisə olunaraq b.e.ə. VIII əsrə aid edilmiş və nəzərdən keçirdiyimiz bölgənin qədim tarixə malik olduğuna dair mülahizələrin daha da möhkəmləndirilməsinə şərait yaratmışdır.

Qeyd etmək lazımdır ki, Şamaxı rayonunun Xınıslı yaşayış yerində C.Xəlilov tərəfindən aparılmış arxeoloji qazıntı işləri zamanı yuxarıda təsvirini verdiyimiz qəbri xatırladan quyu tipli qəbirlər aşkar olunmuş və tədqiq edilmişdir.

Abşeronun, eləcə də onun şimal-şərq hissəsinin qədim tarixə malik olduğunu sübut edən abidələrdən biri də aşkar olunmuş kurqanlardır. Ümumiyyətlə, ucalıq, toxunulmazlıq, "müqəddəslik" rəmzi olan kurqanlar Azərbaycanın nisbətən az öyrənilmiş dəfn abidələrindəndir. Bu baxımdan Xocalı kurqanları istisnalıq təşkil edir. XX əsrin 60-cı illərində aşkar edilmiş kurqan tipli qəbir abidələri tarixçilərimizə daha zəngin materiallar vermiş və Abşeronun şimal-şərq hissəsində də tunc dövründən başlayaraq ardıcıl yaşayış olduğuna heç bir şübhə yeri qoymamışdır. 1966-cı ildə Q.Aslanov tərəfindən Abşeron yarımadasının müxtəlif yerlərində (o cümlədən şimal-şərqində) ilk dəfə olaraq kurqan tipli qəbir abidə-

[1] Асланов Г.М. Археологические раскопки на Апшероне. МКА. T.VI. Баку, 1965, с.67-69

[2] Маркович В.И. Дагестан и Горная Чечня в древности: каякентско – хорочоевская культура. М., 1969

[3] Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951, s.31

[4] Aşurbəyli S. Bakı şəhərinin tarixi, s. 32

[1] Меджидова И.А. Историко-этнографический очерк Апшерона. – Azərbaycan MEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun elmi arxivi. inv: 3632

ləri aşkar edilmişdir. Həmin kurqanlar qədim dövrlərdən son zamanlara qədər müxtəlif səciyyəli təsərrüfat işləri ilə əlaqədar olaraq dağıntılara məruz qalmışdır. Təəssüf ki, bu kurqanlar hal-hazırda da bu cür dağıntılara məruz qalmaqdadır.

1966-1969-cu illər ərzində həmin bölgədə Q.Aslanov tərəfindən 15 kurqan aşkar edilmişdir. Aşkar olunmuş bu kurqanların bir çoxu əsasən boş olmuşdur[1].

Lakin buna baxmayaraq, tədqiqatlar zamanı əldə edilmiş materiallar kurqanların tarixi haqqında müəyyən ilkin fikirlər söyləməyə imkan vermişdir.

Abşeron kurqanlarından ən böyüyü "Qoşa Təpə" adlanır. Bu kurqan Bilgəh-Nardaran ərazisində yerləşir. Üzümlüklərlə əhatə olunmuş həmin kurqan (təpə) Xəzər sahilində yerləşir. Burada daş tikiliinin qalıqları, çoxsaylı saxsı qablar və s. aşkar edilmişdir. Bütün bu materiallar da bölgənin uzaq keçmişi haqqında təsəvvürlərimizi əhəmiyyətli dərəcədə genişləndirir.

Abşeron kurqanları xüsusi memarlıq üslubunda tikilmişdir. Bu kurqanlarda dəfn olunmuş cənazələr təpənin orta hissəsində, sərdabə və ya daş qutu içərisində yerləşdirilirdi.[2] Dəfn mərasimində ölünü qırmızı boya ilə boyayır, ətrafına isə xeyli oxra (qırmızı rəngli maddə) səpirdilər. Güman etmək olar ki, bu, ölüləri çürüməkdən qorumaq məqsədilə edilirdi. Ölünün yanına müxtəlif qablar, alətlər, tunc silahlar, bəzək əşyaları və s. qoyulurdu. Kurqanın üzərində (onun üzəri günbəz şəklində olmuşdur) düzülmüş daşların səthində müxtəlif təsvirlər (heyvan, insan və s.) həkk edilmişdir. Kurqanın bir tərəfində 3 və ya 4 hamarlanmış daş lövhədən ibarət olan nəzirgah düzəldilmişdir. Nəzirgahın ətrafında ay və günəş rəmzləri aşkar edilmişdir. Q. Aslanovun apardığı arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Abşeron kurqanları

---

[1] Асланов Г. Курганы Апшерона. Доклады АН. Аз.ССР, 1974, Т XXX. №1, с.76
[2] Алиев И.Н. Апшерон в эпоху бронзы и раннего железа. Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Баку, 1993, с.6-9





tunc dövründən dəmir dövrünə qədər geniş bir zamanı əhatə edir.[1]

Abşeron kurqanlarından əldə olunmuş materiallarla Qobustandan aşkar edilmiş müvafiq materiallar arasında müəyyən oxşarlıqlar vardır.[2]

Həmin abidələrin oxşarlarına Azərbaycana yaxın olan ölkələrdə, o cümlədən Çeçeninstanda, İnquşetiyada, Dağıstanda və Qazaxıstanda da təsadüf edilmişdir.[3]

Qeyd elmək lazımdır ki, bəhs olunan dövrdə Xocalı-Gədəbəy mədəniyyəti Xəzərin qərb sahilindəki mədəni mühitə də öz təsirini göstərmişdir.[4]

Abşeron yarımadasının, xüsusilə onun şimal və şimal-şərq hissələrində yerləşən yaşayış məskənlərinin qədim və orta əsrlər tarixinə dair bilgilərimiz XX əsrin 90-cı illərində "Bilgəh arxeoloji ekspedisiyası" tərəfindən aparılmış arxeoloji qazıntı işləri zamanı aşkar olunmuş materiallar hesabına daha da zənginləşmişdir. Eyni zamanda bu bölgədə varlığını indiyədək qoruyub saxlamış, İslam dövrünə aid olan memarlıq abidələri və son dövrdə tapılmış numizmatik materiallar da diqqəti cəlb edir. Həmin tarixi dəyərlər bölgənin keçmişini, xüsusilə onun orta əsrlər dövrünü öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir.

Bilgəhdə aşkar edilmiş maddi mədəniyyət nümunələri, habelə qorunub qalmış memarlıq abidələri əsasən tariximizin İslam dövrü ilə bağlıdır. Bu isə təsadüfi deyildir. Məlumdur ki, VII əsrdə

---

[1] Асланов Г. Курганы Апшерона, с.78-79
[2] Мурадова Ф.М. Изучение памятников эпохи бронзы в Гобустане: Бах: Асланов Г. Курганы Апшерона, с.78
[3] Круглов А.П. Северо-Восточный Кавказ в II-I тысячелетиях до н.э. МЦА, №69, 1958, с.60; Гаджиев М.О. О погребальном обряде племен горного Дагестана в бронзовом веке. Ученые записки Института ИОЯ Дагестанского филиала АН СССР. Махачкала, 1964, Т.XIII, с.240-246, Маргулан А.Х. и другие. Древняя культура Центрального Казахстана. Алма-Ата, 1966, с.170-171
[4] Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960, с.24-25

Ərəbistan yarımadasında meydana gəlmiş İslam dini tez bir zamanda böyük bir əraziyə yayılmışdır. VII əsrin ortalarından başlayaraq islamın geniş yayıldığı bölgələrdən biri də Azərbaycandır. Artıq VII-VIII əsrlərdən etibarən İslam dini Azərbaycanın siyasi, iqtisadi, mədəni həyatında böyük rol oynamağa başlamışdır.[1]

Orta əsrlərdə Bakı şəhərinin yüksəlişi, xüsusilə XII əsrdə – Şamaxıda baş vermiş zəlzələdən (1192-ci ildə) sonra Şirvanşahlar (861-1538) dövlətinin paytaxtının Şirvanşah I Axsitan tərəfindən Bakıya köçürülməsi şəhərlə birlikdə şəhərətrafı yaşayış məntəqələrinin, o cümlədən Bilgəh, Maştağa, Nardaran kəndlərinin də əhəmiyyətinin artmasına səbəb oldu. XII-XIII əsrlərdən etibarən Abşeronda müdafiə səciyyəli qalaların tikilməsi məhz bununla izah edilə bilər. Görünür, Şirvanşahlar dövlətində Bakı şəhərinin oynadığı siyasi-inzibati rolun artması yalnız yeni paytaxtın müdafiə təyinatlı tikililərinin deyil, həm də bütün Abşeron yarımadasında mükəmməl müdafiə sisteminin yaradılmasını zəruri etmişdir. Şirvanşahlar dövlətinin dəniz sərhədlərinin şimal-şərq istiqamətindən qorunması işində Bilgəhdə, Nardaranda və Maştağada inşa olunmuş qalalar və digər istehkamlar da mühüm rol oynamışdır. Göstərilən yaşayış məntəqələri digər kəndlərlə bərabər məhz bu dövrdə xüsusilə inkişaf etmiş, onların Şirvanşahlar dövlətinin tarixində rolu daha da artmağa başlamışdı. Nardaran, Bilgəh qalalarının varlığı, Maştağa ərazisində aşkar edilmiş pul dəfinələri və nəhayət, "Bilgəh arxeoloji ekspedisiyasının" son tədqiqatları bu müddəalarımızı əsaslandırmağa imkan verir.

1952-ci ildə Maştağa kəndinin şimali-qərb hissəsində yerləşən "Ləiç bağları" adlanan ərazidən dəfinə aşkar edilmişdir. O zaman buradan gümüş sikkələrlə dolu olan küp üzə çıxarılmışdır. Görünür, bu küpdəki sikkələrin bir qismi müxtəlif şəxslər tərəfindən mənimsənilmişdir. Dəfinədən yalnız 21 bütöv və 1 ədəd fraqment halında gümüş sikkə tapılmışdır. Həmin sikkələr Azərbaycan

[1] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə Bakı 1990; Vəlixanlı N. Azərbaycan və ərəb xilafəti. Bakı 1993 s.





Dövlət Tarix Muzeyinə gətirilmişdir. Bu sikkələr görkəmli alim Y.A.Paxomov tərəfindən təmizlənmiş və tədqiq olunmuşdur. Y.A.Paxomov tədqiqatlar nəticəsində bu sikkələrin Cəlairi hökmdarı Sultan Əhmədin dövrünə (1382-1410) aid qoşa dirhəmlər olduğunu müəyyən etmişdir.

Həmin sikkələrin üzərindəki yazılardan məlum olur ki, onlar Bakıda, Çuştəspidə, Şabranda və Şamaxıda zərb olunmuşdur. Sikkələrin qalınlığı 0,5-0,6 millimetrdir. Həmin sikkələrdən 10 ədədi hicri qəməri tarixilə 785-ci ildə (miladi 1383-1384-cü illərdə) kəsilmişdir. Onların bir üzündə fars dilində "Əlahəzrət Sultan, Dinin hamisi Cəlaləddin», digər üzündə isə "Lə iləhə iləllah Məhəmmədən Rəsul Allah» kəlmələri həkk olunmuşdur.

İlk 10 sikkə Bakı şəhərində zərb olunmuşdur. Onların diametri 12,5-16 mm, orta çəkisi 1, 02 qramdır. 11-ci sikkənin çəkisi nisbətən azdır və 0,98 qrama bərabərdir, 12-16-cı sikkələr Şabranda, 17-20-ci sikkələr isə Şamaxıda zərb olunmuşdur. 21-ci sikkənin yazılarını oxumaq mümkün olmamışdır.[1]

Bu tapıntılar dövrün həm siyasi-inzibati, həm də iqtisadi tarixini, xüsusilə sənətkarlığını öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Belə ki, biz bir tərəfdən Şirvanşahların bu dövrdə Sultan Əhməd Cəlairidən qismən asılı olduğunu söyləyə bilərik. Digər tərəfdən isə burada tapılmış, sikkələrin yığılması üçün nəzərdə tutulmuş, dibçək şəkilli qabın timsalında dulus məmulatı, dulusçuluğun inkişafı, saxsı məmulatının hazırlanma texnologiyası haqqında müəyyən fikirlər söyləmək imkanı qazanırıq.

Bu qabın ümumi hündürlüyü 78 mm, orta hissəsinin diametri 58-62 mm, qalınlığı 4,5-5 mm-dir. Xüsusi olaraq pul qoyulması üçün nəzərdə tutulmuş bu qabın üzərindəki kəsiyin diametrini müəyyən etmək mümkün olmamışdır.[2] Bu tapıntı orta əsrlərdə sikkələri saxlamaq üçün xüsusi, dibçək şəkilli qabların da hazırlan-

[1] Пахомов Е.А. Маштагинский клад 1952 года – Док.АК. Наук Аз.ССР. Том IX, №2, 1953, с.105-106

[2] Пахомов Е.А. Маштагинский клад 1952 года с.106

- 31084 -

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

dığını söyləməyə imkan verir.

1989-cu ildə Maştağa Cümə məscidinin ətrafında tikinti işləri aparılarkən üzə çıxarılmış dəfinə daha qədim dövrə aiddir. Həmin sikkələr də Şirvanşahlara məxsusdur.

Özül qazılarkən üzə çıxarılmış küpün içərisində ümumi çəkisi 40 kq olan mis sikkələr aşkar olunmuşdur. Numizmatik tədqiqatlar nəticəsində bu sikkələr XII-XIII əsrlərə aid edilmişdir. Həmin sikkələr Şirvanşah I Fərruxzadın (1202-1203), I Gərşəsbin (1204-1225) və III Fəriburzun (1225-1255) hakimiyyəti illərinə aiddir.[1]

Bu dəfinənin tapılması sübut edir ki, hal-hazırda mövcud olan Cümə məscidinin özülü hələ XII əsrdə tikilmiş məscidin üzərində qurulmuşdur. Güman etmək olar ki, bu sikkələr məscidin xəzinəsində olmuş və bu günə kimi gəlib çatmışdır.

Onu da qeyd etmək lazımdır ki, Şirvanşahlar dövlətinin XIII-XIV əsrlərə aid olan hərbi dayaq məntəqələrindən birinin Abşeron yarımadasının şimal-şərq hissəsində (Köhnə Bilgəhlə Yeni Bilgəh arasında) yerləşdiyinə – dair fikirlər də artıq elmi ədəbiyyatda öz təsdiqini tapmışdır.[2]

Bilgəh, Nardaran, Maştağa yaşayış məntəqələrinin Şirvanşahlar dövlətinin siyasi həyatında mühüm rol oynadığını sübut edən faktlardan biri də Xacə Hacı Həmzə ibn Qutluq Mahmud Şəhabəddinin Nardaranda məscid tikdirməsidir (bu məscid 1363-1364-cü illərə aiddir). Məscidin daş kitabəsində adı çəkilmiş Xacə Hacı Həmzə Şirvanşahlar dövlətində baş sədr (sədr-əzəm) vəzifəsində çalışmışdır. O, ruhanilərə başçılıq etmiş, vəqf mülklərinə, həmin mülklərdən vergilərin toplanmasına nəzarət etmiş, mədrəsələrə başçılıq etmişdir. Məhkəmə işlərinin nizamlanması da onun ixtiyarında olmuşdur. Baş sədr (sədr – əzəm) dövlətdə 3-cü böyük vəzifə hesab olunurdu. Bu fakt nəzərdən keçirdiyimiz bölgənin ölkənin ictimai-siyasi həyatında mühüm rol oynadığına dair mülahizələr irəli sürməyə imkan verir.

---

[1] Сейфеддини М. Монеты Ширваншахов. Газета, Тарих», 1990, №6

[2] Фатуллаев Ш. Апшерон. Баку, 1991, с.6





Maştağa, Bilgəh və Nardaran kəndlərinin Şirvanşahlar dövlətinin süqutundan (1538) XVIII əsrin ortalarına (yəni, xanlıqlar dövrünə) qədərki tarixi də zəif öyrənilmişdir. Onu qeyd etmək lazımdır ki, həmin dövrdə Şirvanla birlikdə Abşeron yarımadası da Səfəvilər dövlətinin (1501-1736) tərkibinə daxil olmuşdur. Şübhəsizdir ki, XVI-XVII əsrlərdə dəfələrlə Səfəvi-Osmanlı müharibələrində döyüş meydanına çevrilmiş Şirvanın ağır vəziyyətə düşməsi Abşeron kəndlərinin həyatına da mənfi təsir göstərmişdir. Qeyd etmək lazımdır ki, XVII əsrin əvvəllərində Osmanlı qoşunları Səfəvi qoşunları tərəfindən Şirvandan sıxışdırılarkən Səfəvi hökmdarı Şah I Abbasın (1587-1629) guya Maştağada olduğuna dair xalq arasında bəzi rəvayətlər də yaranmışdır.

1667-1669-cu illərdə başçısı Stepan Razin olmaqla Don kazak soyğunçu-quldur dəstələri qənimət əldə etmək üçün Xəzər dənizinə çıxmış, Azərbaycana və Çilana hücum etmişdilər. Onlar bu hücumlar zamanı, 1669-cu ilin aprelində Maştağa kəndini də qarət etmiş, çoxlu əsir və qənimətlər ələ keçirmişdilər. Stepan Razinin quldur dəstələrinin qəddarlığı haqqında kifayət qədər arxiv materiallarının olmasına baxmayaraq, Sovet tarixşünaslığında Stepan Razinin guya «kəndli üsyanının başçısı olması» anlamında-təhrif olunmuş şəkildə «əsaslandırılmış», onun müsbət obrazının yaradılmasına, adının əbədiləşdirilməsinə və hətta quldurluq əməllərinə haqq verərək xüsusi don geyindirilməsinə canfəşanlıq götərmişlər. Bununla da Sovet «tarixçiləri» sübut etməyə çalışırdılar ki, güclü knyaz qoşunlarına qarşı uğurla döyüşmək üçün bu "üsyançı" soyğunçu dəstələrin cənuba hücumları əslində «tədarük görmələri» zərurindən doğmuşdu.

XVIII əsrin ilk onilliklərində Səfəvilər dövləti ağır iqtisadi, siyasi böhran keçirdiyi bir dövrdə Abşeronda da vəziyyət son dərəcədə dözülməz olmuşdur. Həmin dövrə aid olan memarlıq abidələrinin indiyədək qalmaması da dövrün dağıntılarla, hərbi-siyasi çəkişmələrlə zəngin olmasının nəticəsidir.

Bakı şəhərinin və onun ətrafındakı kəndlərin sonrakı taleyi

Nadir şah Əfşarın (1736-1747) bütün Azərbaycanı birləşdirmək, böyük dövlət qurmaq amalı, onun osmanlılara və ruslara qarşı mübarizəsi ilə sıx bağlıdır. Həmin dövrdən Bakı Rusiya tərəfindən işğal olunana qədər Bakı ətrafındakı kəndlərdə, xüsusilə Maştağada faciəli hadisələr baş vermişdir. Şübhəsizdir ki, bu hadisələrin səbəbləri Maştağanın XVIII əsrdə Bakı xanlığında tutduğu müstəsna mövqeyi ilə izah oluna bilər.

## 2. «MAŞTAĞA» TOPONİMİNƏ DAİR MÜLAHİZƏLƏR

Abşeron yarımadasının ən böyük və ən qədim yaşayış məskənlərindən biri olan Maştağa kəndinin adı (toponimi), və bu adın yaranması haqqında müxtəlif elmi fikirlər mövcuddur. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, hal-hazırda "Abşeron" toponiminin də mənasına dair yekdil fikir yoxdur. Hal-hazırda bu sözün "şor su" mənası verməsi haqqında fərziyyə əhali arasında daha geniş yayılmışdır.[1] "Abşeron" toponiminin "əfşar" tayfaları ilə bağlı olduğu və nəhayət, onun daha qədim tarixə malik olub bilavasitə "Avesta" ilə bağlı olduğu haqqında da fikirlər mövcuddur.[2]

«Maştağa» yer adının (toponiminin) mənşəyini aydınlaşdırmaq üçün bu bölgənin qədim əhalisinin etnik tərkibini, dilini müəyyənləşdirmək çox vacibdir. Mənbələr göstərir ki, qədim dövrlərdən başlayaraq Abşeron yarımadası da daxil olmaqla Xəzər dənizinin qərb sahillərində skiflər (massagetlər) yaşamışlar. Bu tayfa siyasi, dövlət qurumu halında yaşayırdı. Massagetlərin dəfn abidələri onların Zərdüştiliyə mənsub olduqlarını göstərir.[3]

Bütövlükdə Abşeron yarımadasında mövcud olan toponimikanın tədqiqi göstərmişdir ki, onun kəndlərinin adları, əsasən, çox uzaq keçmişdə burada yaşamış, bir çox yaşayış məskənlərinin adlarında iz qoymuş tayfa və xalqların adları, dilləri ilə bağlıdır. Hə-

[1] Əliyev S. Qədimdən qədim Azərbaycanım. Bakı, 1995, s.33
[2] Fərzəli Əjdər. Dədə Qorqud yurdu. Bakı, 1989, s.21-29
[3] Aşurbəyli S.B. Bakı şəhərinin tarixi, s.37





min kənd adlarının bir çoxu bu günədək qalmaqdadır.

A.Bakıxanov "Gülüstani-İrəm" əsərində Dağıstanın və şimal-şərqi Azərbaycanın V-XI əsrlər tarixindən bəhs edən "Dərbəndnamə" (müəllifi məlum deyildir) adlı mənbəyə əsaslanaraq yazırdı ki, Bakı qəzasındakı Məşqətə kəndinin adı massagetlərlə bağlıdır.[1]

A.Bakıxanovun fikrincə, "Məşqətə" etnotoponimində "S" səsi zaman keçdikcə "Ş" səsinə çevrilmiş və kəndin adı indiki şəklə düşmüşdür. S.B.Aşurbəyli və Q.Ə.Qeybullayev[2] də bu mülahizəni təsdiqləmişlər.

Ümumiyyətlə, massagetlər Orta (Mərkəzi )Asiyada və Xəzərin ətrafında yaşamış müxtəlif tayfa qruplarının ümumi adıdır. Onları bəzən skiflərlə eyniləşdirirlər. Qədim yunan tarixçisi Herodotun (e.ə. V əsr) məlumatına görə, massagetlər köçəri həyat tərzi keçirmişlər. [3]

Digər yunan müəllifi – Strabon (e.ə. I əsr – b.e. I əsrin əvvəli) Şərqdə, Xəzər dənizi sahillərində məskunlaşmış massagetlərin günəşə sitayiş etdiklərini bildirir.[4]

Görkəmli şərqşünas İ.M.Dyakonov eramızın əvvəllərində massagetlərin Samur çayından Abşeron yarımadasının şimalına qədər olan ərazidə yaşadıqlarını və köçəri tayfaların axını zamanı skiflərin ardınca buraya gəldiklərini qeyd edir.[5]

Qeyd etmək lazımdır ki, hələ eramızın əvvəllərində Qafqaz Albaniyasının şimal-şərq qismində massagetlərin siyasi birliyi mey-

[1] Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951, s.31; Бартольд В.В. К вопросу о происхождении «Дербенднаме». Соч., т. VIII, М., 1973
[2] Ашурбейли С.В. История города Баку (Период средновековья). Баку, 1992, с.37; Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т.1. Баку, 1991, с.173-178
[3] Геродот. История. В девяти книгах. Перевод и примечания Г.А. Стратановского. Л., 1972, кн.IX, II.
[4] Страбон. География (перевод и предисловие Г.А. Стратановского). Л., 1964, с.185, 483.
[5] Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV века до н.э. М.–Л., 1956.

dana gəlmiş və onlar eramızın I əsrindən V əsrinədək Albaniyadakı Arşakilər sülaləsinin hökmdarları ilə dəfələrlə mübarizə aparmışlar. Görünür, eramızın IV əsrində Albaniyaya gəlmiş türkdilli, köçəri hun tayfaları massagetləri öz əvvəlki yerlərindən sıxışdırmış və massagetlərin bir qismi Abşeron yarımadasının şimal-şərq hissəsinə gələrək burada məskunlaşmışdır.

Ümumiyyətlə, massagetlərin mənşəyi barədə iki fikir mövcuddur. Birinci fikrin tərəfdarları massagetlərin türkdilli, ikinci baxışın tərəfdarları isə irandilli tayfalar olduğunu qeyd edirlər. Massagetlərin türkdilli tayfalar olduğunu XIX əsrin sonlarında – XX əsrin I yarısında yaşamış, A.Bakıxanovdan sonra Azərbaycan tarixini elmi cəhətdən araşdırmağa təşəbbüs göstərmiş Rəşid bəy İsmayılovdan başlayaraq bir sıra tarixçilərimiz qeyd etmişlər. Rəşid bəy İsmayılov ilk dəfə 1923-cü ildə nəşr etdirdiyi "Azərbaycan tarixi" əsərində belə yazmışdır: "Herodotun qovlünə binaən "Quşan", «Quti» və «Tusun» türklərinin əcdadı massaget türkləri imiş. Bəzi muvərrixlər "Massagetləri" "Massaçı", "Get", "Çet" və "Alan" dəxi yazırlar."[1] O, massagetlər haqqında mülahizələrini davam etdirərək yazmışdır: "Bunlar indiki Qırğızıstanda məskən edərək, buradan Azərbaycana basqınlar etmişlər. Yunan müvərrixlərinin qövlünə binaən Rum imperatoru Teveri massaget tayfasının "Alan" qəbiləsindən bir kaç min nəfəri Kür kənarında məskən etdirmişdi."[2]

Rəşid bəy İsmayılov A.Bakıxanovun fikirlərinə də nəzər yetirir: "A.Bakıxanov "Gülüstani-İrəm" kitabında Bakı civarında olan Maştağa köyünün əhalisinin massaget tayfasından olduqlarını müdəlləl edərək deyir ki, Kür nehrinin kənarında sakin olmuş massagetlər moğollar buraya basqınlıq edən zaman Bakı civarına köçüb, Maştağa köyünü bina elmişlər."[3]

Rəşid bəy İsmayılovdan sonra Azərbaycan tarixçisi Cahangir Zeynal oğlu da 1924-cü ildə İslanbulda nəşr etdirdiyi "Müxtəsər

---

[1] İsmayılov Rəşid bəy. Azərbaycan tarixi. Bakı, 1993, s.19

[2] Yenə orada.

[3] Yenə orada.





Azərbaycan tarixi" kitabında massagetlərin türkdilli tayfa olduqlarını yazır: "Məsagitlər (massagetlər) ağ hun türkləri deməkdir, zira vaxtilə hunlar gəlib Midiyada və Xəzər dənzinin sahillərində yerləşdikdən sonra masagit, abtilit, alan, xəzər, hərqan, türkman kimi növbənöv adlar almışlar".[1]

Mahmud İsmayılov, Kamal Əliyev, Mirəli Seyidov da massagetlərin türkdilli tayfalar olduğunu göstərmişlər.[2]

Bununla belə, massagetlər haqqında A.Bakıxanovun antik (qədim) müəlliflərə və "Dərbəndnamə»yə istinad edərək verdiyi məlumatları, tarixçi-alim İ.H.Əliyevin tədqiqat əsərlərini, Maştağa kəndinin əhalisinin bir qisminin müəyyən dövrdə tat dilində danışdığını və burada həmin dildə çoxsaylı yer adlarının olduğunu da nəzərdən qaçırmaq olmaz. [3]

Tat dilində ən çox Maştağaınn "Seyidlər", "Xunxar", qismən isə "Keçənlər" məhəlləsində yaşayan əhali danışırdı. Bundan başqa, Maştağada və onun ətrafındakı bir çox yer adları da tat dilindədir. Belə yer adları arasında "Şurov" (Şor su), "Ərus Guş Şor" (gəlın batan şor), "Zirdih"(kəndaltı), "Kürdih" (kəndüstü), "Muşolan" (siçan olan), "Sənglik" (Daşlıq), "Xakalan" (torpaq alan), «Çüləgər», (çöldüz), "Nəhra"(naxır yolu) və başqaları diqqəti cəlb edir.

VIII-IX əsrlərdən başlayaraq massagetlər Azərbaycan xalqının təşəkkülü prosesində iştirak etmiş türk tayfaları və Azərbaycanda yaşayan digər tayfalar içərisində tədricən qaynayıb-qarışmışlar. X əsrdən etibarən tarixi mənbələrdə massagetlər haqqında heç bir məlumatın verilməməsi onların digər əhali kütlələri arasında tamamilə assimilyasiyaya uğradığını göstərir.[4]

---

[1] Cahangir Zeynaloğlu. Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992, s.11

[2] İsmayılov M.Ə. Sənin ulu baban. Bakı, 1989, s.169-179; Azərbaycan tarixi. Bakı, 1992, s.13-17.; Алиев К.Г. Этюды о населении древнего Азербайджана. V. кн. К проблеме этногенеза азербайджанского народа. Баку, 1984; Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989, s.34-41

[3] Алиев И.Г. Сармато-аланы на пути в Иран. В кн.: История Иранского государства и культуры. М., 1971

[4] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, с. 176-178

1946-cı ildə görkəmli arxeoloq İ.Cəfərzadə və etnoqraf İ.A.Məcidova Maştağa sakini, 75 yaşlı Məmmədhəsən Ağakişi oğlu Həsənovun kənd ətrafında təsərrüfat işləri zamanı tapdığı təndir şəkilli qəbirlərin yerində arxeoloji tədqiqat işləri aparmışlar. Təndir şəkilli bu qəbirlərin diametri böyük idi. Qəbirlərin içərisində insan sümükləri, skeletin yanında isə bir neçə qırmızı rəngli saxsı küp aşkar edilmişdir. Buna bənzər abidələr, buradan aşkar olmuş maddi mədəniyyət nümunələrinin oxşarları "Gürgan" adlanan yaşayış yerindən, Buzovnadan, Biləcəridən aşkar edilmiş abidələrdə də vardır.[1]

Beləliklə, Maştağada təndir şəkilli qəbirlərin, həmin qəbirlərdən qırmızı rəngli saxsı təsərrüfat küplərinin aşkar edilməsi sübut edir ki, bu dəfn adətlərinin daşıyıcıları albanlar deyil, skiflər, saklar, massaget tayfaları və bəzi digər əhali kütlələri olmuşlar.

Belə qəbir abidələrinə nə islam, nə də xristian dəfn adətlərində təsadüf olunmamışdır. Buna görə də həmin qəbirləri, buradan tapılmış mədəniyyət nümunələrini daha qədim dövrə aid etmək olar.

"Maştağa" yer adının yaranması haqqında xalq arasında müxtəlif rəvayətlər vardır. Rəvayətlərdən biri də "Maştağa" sözünün "Məşədi Ağa" adlı bir şəxsin adı ilə bağlanmasıdır. Həmin rəvayətə görə, bu ərazidə ilk məskən salmış şəxs Məşədi Ağa olmuşdur, ona görə də kənd bu şəxsin şərəfinə belə adlanır.

Başqa bir rəvayətə görə, ərazisində heç bir göl, çay olmayan, əkinçiliyə nisbətən az yararlı olan torpaqlarda Maştağa kəndinin əhalisi çox böyük çətinliklə heyvandarlığı inkişaf etdirmişdir. Buna görə də buradakı əhalini "əzab-əziyyət, çəkən, məşəqqət çəkən» adlandırmışlar və beləliklə, «Məşqqəttun» (ərəbcə) sözü yaranmışdır. «Məşqətun» digər mənasına görə: ərəbçə “məşq edilən yer” anlamına uyğundur.

Belə bir fikir də mövcuddur ki, yerli əhali əkin sahələrini,

[1] Джафарзаде И.М. Археологические разведки на Апшероне. Известия АН Азерб.ССР, №6, 1948





heyvan sürülərini başqa tayfaların hücumlarından qorumaq üçün tez-tez müharibə aparmalı olurdu. Müttəfiq tayfalar cəmləşib düşmən hücumunu dəf etmək üçün son məşqi bu kənddə keçirirmişlər. Ona görə də onlar bu məntəqəni «son məşq yeri» («məşqətə») adlandırmışlar.[1] Təbii ki, bu rəvayətlər əhali arasında xalq yaşantısı olduğu üçün bu monoqrafiyada xatırlanmasını məqsədə uyğun hesab etdik. Xalq deyimlərini diqqətə çatdırdiq.

Qeyd etmək lazımdır ki, Maştağanın adına XV əsrə aid olan daş kitabədə «Məşqədəh», XVI əsrdən XIX əsrin ortalarına qədər olan yazılı abidələrdə isə «Məşqətə» şəklində rast gəlmək olar.[2]

Ərəb mənbələrində "Massaget" etnotoponimi "maskat" kimi də qeyd edilir. Ona görə də "Maştağa" toponiminin məhz "maskat" etnonimindən törədiyini, yəni tədricən Maşqadah-Məşqətə – Maştağa kimi təkamül yolu keçdiyini güman etmək olar.

Maştağanın mərkəzindəki "Cümə məscidinin" yerləşdiyi sahədə Şirvanşah I İbrahimin hakimiyyəti dövründə, 1414-1415-ci illərdə tikilmiş, lakin 1841-ci ilin dekabrında baş vermiş güclü zəlzələ nəticəsində tamamilə dağılmış, "Böyük Ərğutay" adlanan dini mərkəz fəaliyyət göstərmişdir. Zəlzələ nəticəsində məscid dağıldıqdan sonra onun daş kitabəsi iki yerə bölünmüş və sonralar "Şirvanşahlar saray kompleksi" qoruq – muzeyinə gətirilmişdir. Kitabənin 2-ci və 3-cü sətirlərində məscidin alim Birə Ərğulay ibn Adəm ibn Hacı Xəlil əl-Məşqədəhliyə məxsus olduğu göstərilir. Göründüyü kimi, kitabədə "Maştağa" adı "Məşqədəh" şəklində yazılmışdır.[3]

XVIII əsrin ortalarında tikilmiş "Xunxar" məhəlləsi Qədim cümə məscidinin üzərindəki daş kitabənin ikinci sətrində məscidin Məşqətənin "Xunxar" məhəlləsi sakinləri tərəfindən hicri tarixilə

[1] Axundov N. Maştağanın keçmişindən. «Vəhdət» qəzeti, 5 mart 1993-cü il.

[2] Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Баку, 1991, с.98; 105.

[3] Babayev Ə.H. Maştağa «Gümə məscidi». «İslam dünyası» qəzeti, 4 sentyabr 1993-cü il.

1229-cu ildə (1813-1814-cü illərdə) təmir edildiyi göstərilir. Burada isə Maştağanın adı "Məşqətə" şəklində yazılmışdır.

Maştağada yaşamış, adlarına Abşeronun müxtəlif abidələrində təsadüf olunan memar-ustalar özlərini bir çox hallarda "Məşqətəli" kimi təqdim etmişlər. "Xunxar" məscidini tikmiş Novruz Məşqətəli və Məşədi Məhəmməd Məşqətli, 1839-1840-cı illərdə Balaxanıda su anbarı tikmiş Xalıq Məşqətəli, 1874-1875-cı illərdə Maştağada "Hacı Kərbəlayi Hüseyn" məhəllə məscidini tikmiş Ağamalı Məşqətəli həmin memar – ustalardan olmuşlar. Göründüyü kimi, bu ustaların hər birində kəndin adı "Məşqətə" şəklində göstərilir.

Maştağada olmuş səyyahlar da öz gündəliklərində kəndin adını əsasən "Məşqətə" şəklində qeyd etmişlər. I Pyotrun (1672-1725) Xəzər sahillərinə yürüşü zamanı (1722-1723) işğal edilmiş vilayətlərdə olmuş alman həkimi İ.Y.Lerx 1733-cü ildən 1735-ci ilə qədər Dərbəndi, Şabranı, Abşeron yarımadasını, Salyanı və s. əraziləri gəzmiş, burada rusların yerli əhaliyə zülm etməsi barədə qeydlər etmişdir.[1] İ.Y.Lerx 1733-cü ildə Abşeron yarımadasına gələrkən Bakı sultanı Dərgahqulu xanın Maştağada, əhali arasında "Ağa meydanı" deyilən məkanda yerləşən ikimərtəbəli sarayında qonaq olmuş, burada gördüklərini öz gündəliyində belə təsvir etmişdir: "1733-cü ilin iyun ayının 27-də Bakı ətrafında ən yaxşı qəsəbə hesab edilən Məşqətəyə gəldik. Orada ucaboylu, yaraşıqlı və cəsur döyüşçü olan Dərgah sultan yaşayırdı. Onun evi böyük və möhtəşəm idi. Daxildən və xaricdən müxləlif bəzək nümunələri ilə bəzədilmiş bu binanın həyətində iki daş çarhovuz var idi. O, bizə şərqsayağı qonaqlıq verdi və süfrəyə 50-yə yaxın müxtəlif xörək düzdürdü."[2]

Beləliklə, nəzərdən keçirdiyimiz yazılı mənbələrdən belə nə-

[1] Лерх И. Извлечения из дневника путешествия доктора Иоана Якова Лерха в Персию. Первое путешествие (перевод М.М.Абезгуза). Azərbaycan MEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun elmi arxivi, inv. 486, s.12; 16;17.

[2] Lerx İ. Göstərilən əsəri, s.16-17





ticəyə gəlmək olar ki, Maştağanın adı XIV-XV əsrə qədər tərtib olunmuş tarixi mənbələrdə "Məşqədəh", XVI–XIX əsrlərdə "Məşqətə" şəklində təqdim edilmişdir.

Maştağanın müasir şəkildəki adına ilk dəfə olaraq XIX əsrin ortalarından etibarən rus rəsmi sənədlərində və görkəmli rus səyyahı, şərqşünas İ.N.Berezinin "Zaqafqaziyaya və Dağıstana səyahət" adlı kitabında təsadüf olunur. Maştağada zəlzələ baş verdikdən bir qədər sonra buraya gəlmiş İ.N.Berezin burada gördüklərini belə təsvir etmişdir: "Maştağa sözün əsl mənasında dəhşətli görünürdü. Bu kənd hələ 80 il bundan öncə (1761-ci ildə) zəlzələ nəticəsində dağılmış və ondan sonra evlər yenidən bərpa edilib tikilmişdir. 1841-ci ilin dekabrında baş vermiş zəlzələ nəticəsində isə 3500 əhalisi olan bu kənddə insan tələfatı demək olar ki, olmasa da (zəlzələ gündüz baş verdiyindən əhali evdən çıxmağa imkan tapmışdı) çoxlu miqdarda dağıntılar baş verdi».[1]

1855-ci ildə Tiflisdə nəşr olunmuş 1856-cı il üçün Qafqaz təqvimində" də Maştağanın adı müasir dövrdə işlənilən şəkildə işlənmişdir.[2]

Maraqlıdır ki, rus müəllifi P.Q.Butkov "Qafqazın yeni tarixinə dair" adlı əsərində Maştağanın adını "Mustaqa" kimi göstərərək yazmışdır: «1732-ci ildə Dərgahqulu xan Bakıdan 40 verst aralıda olan Mustaqaya gəldi».[3]

Qeyd edək ki, rusdilli mənbələrdə XIX əsrin ortalarından başlayaraq kəndin adı «Maştağa» kimi işlənsə də, əhali arasında və yazılı abidələrdə biz bu şəklə XIX əsrin sonunda və XX əsrin əvvəllərində təsadüf edirik.

Şübhəsizdir ki, gələcək tədqiqatlar Maştağanın tarixi, onun abidələri, habelə "Maştağa" toponimi haqqında daha bitkin fikirlər söyləməyə imkan verəcəkdir.

[1] Березин И.Н. Путешествие по Дагестану и Закавказью. СПб., 1849, с.61

[2] Кавказский календарь на 1856 г. Тифлис, 1855, с.497

[3] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803. СПб., ч.1., 1869, с.138

"Maştağa" toponimindən danişarkən həmin yaşayış məskəninin ərazisində yaşayan əhalinin məişət üslubu tərzində-ümumxalq danışıq dilində işlədilən yer adlarına da diqqət yetirmək daha məntiqlidir. Bu baxımdan, hal-hazırda Maştağada yerli sakinlərin deyimində bu günədək qorunub saxlanılan və həmin ifadə şəklində tanınan Maştağa toponimlərindən bəhs edərkən ilk növbədə rəsmi mənbələrdədə eynilə qeyd edilən məhəllə adlarını nəzərdən keçirək.

Aşağıda göstərilən bölgüdə aydın olur ki, Maştağa da 3 böyük məhəllə, hər məhəllədə də 2 mikro məhəllə vardır:

1. Xunxar məhəlləsi
   - a) Dərə məhəllə
   - b) Tavaylıq məhəlləsi
2. Keçənlər məhəlləsi
   - a) Dərəqılınc
   - b) Ağa meydanı (Xərmən üstü)
3. Seyidlər məhəlləsi
   - a) Rəhimkəndi
   - b) Kohuc (kuhəc) məhəlləsi

Bundan başqa qəsəbənin inzibatı ərazisində Maştağa toponomikasına aid olan məhəllə daxili və onun ətraf sahələrinin adlarının etimologiyasında həmin yerin tarixini özündə əkş etdirən xususi tədqiqat materialları vardır. Ele bu məqsədlə də monoqrafiyada böyük etimoloji izahata ehtiyacı olan və hal-hazırda öz adları ilə tanınan Maştağa toponimlərini diqqətə çatdırmağı və yerində xatırlamağı daha münasib bildik. Maştağa ərazisində toponomik adlardan Çülləgəh, Zirdi, Kürdi, Qərab Nəsir, Parça-qərab, Dəhnə-qərab, Dərəməlləyi, Qaranəcəf, Muşalan, Alaman, Asiyak, Səngəçal, Guraney, Külahdüzu, Kürkət (Kürkənd), Ağ Binə, Ləhəc (Löküc, ürgəc), Əl-həlbayi, Tavaylıq, Xakalan, Şiravlar (Şürablar), Tirəsbun, Qanlıdahar (qannıdahar), Xakaşum, Xilələn (yolu) və şair kimi nümunələri göstərmək olar. Sadaladığımız bu yer adlarının etimoloji izahını türk və fars (tat) dili əsasında asanlıqla açıqlamaq da mümkündür. Bu kimi yer adları bəzən də kəndin qədim tarixi məkan olmasına əsas verir. Əgər təkcə "qılınc" sözünün ilk dəfə Orxan-Yenisey abidələrində təsadüf olunmasını nəzərə alsaq, Maştağada isə bu məkan-yer adının- "Dərəqılınc" ifadəsinin mənşəyi barəsində düşünməyə də dəyər.





Maştağadakı məhəllələrdən yalnız birinin, yəni "Xunxar" məhəlləsinin adı fars, tat mənşəlidir. Bu söz fars, tat dilllərində "qaniçən", "qantökən" mənalarını verir. Belə güman etmək olar ki, bu toponim həmin məhəllədən xeyli igid, qoçaq insanların çıxması, eləcə də həmin məhəllədə qan intiqamı adətinin daha güclü olması ilə bağlıdır. Güman etmək olar ki, məhəllənin fars, tat dilində adlandırılması orada tat dilində danışan əhalinin daha çox olması ilə bağlıdır.

Çox güman etmək olar ki, "Keçənlər" məhəlləsinin adı əvvəllər "Köçənlər" olmuşdur və bu, məhəllədə yaşayanların daha çox köçüb gələnlərdən, gəlmələrdən ibarət olması ilə bağlıdır.

Adından da göründüyü kimi, «Seyidlər» məhəlləsi burada ilk məskən salanların əsasən seyid nəslindən olması ilə bağlıdır. Hal-hazırda da burada yaşayan əhali daha çox dindarlığı ilə fərqlənir. XIX əsrin əvvəllərində Xızıdan bu məhəlləyə "Kuhəc" adlanan əhali qrupu köçüb gəlmiş və yerləşmişdir. Bununla bağlı olaraq bu məhəllədə yaşayan əhaliyə hal-hazırda "kuhuclar" deyilir.

Maştağa ilə əlaqədər araşdırmalarımız zamanı yerli yaşlı sakinlər vurğulayırlar ki, vaxtilə Ləiş bağlarının keçməklə son dayanacağı Maştağa olmaqla Şabran yolu olmuşdur. Keçmiş Əzizbəyov rayonunun (indiki Xəzər rayonu-Ə.B) İcra hakimiyyətində işləmiş rayonun tanınmış iqtisadçılarından biri Abbasqulu Tahirov söhbət

zamanı söyləyib ki, 1974-1984-cü illər arasında Məhəmmədli südçülük-tərəvəzçilik sovxozunda baş iqtisadçı işləyirdim. Sovxoz rəhbərliyinin tapşırığı ilə idarəyə məxsus ərazinin şimal-qərb sahəsində traktor ilə yer şumlatdırırdım. Tez-tez şum alətinin dişlərinin sıradan çıxması haqqında traktorçu mənə məlumat verirdi. Səbəb isə kotanın dişlərini təqribən 30-40 sm -lik dərinliyində olan iri daşlara dəyməsi idi. Daş döşənmiş təbəqə müəyyən xətt boyunca uzanıb gedirdi. Maraqlı olduğu üçün daş döşənmiş sahəyə çox diqqətlə baxdım. Yolun enliliyi iki araba yan-yana keçə bilən qədərdir. Maştağa və Məhəmmədi kəndinin yaşlı sakinləri ilə aparılan söhbətlərdən məlum oldu ki, bu yol vaxtilə çəkilən araba yoludur. Onlar həmin yolun "uzunluğunu" eşitdiklərinə əsasən Maştağanın Fatmayi kəndinə qədər aparıb çıxara bildilər.

Beləliklə, bizdə belə qənaət yarandı ki, artıq xatirələrdə yaşayan Məhəmmədi - Fatmayi, Ləiş bağlarından keçib son dayanacağı Maştağa olan bu iki arabalıq daş yol məhz məşhur Maştağa - Şabran yoludur.

Digər bir karvan yolu Maştağa Bakı yaxınlığından keçərək Qobustan çölü vasitəsilə Şamaxıya gedən yol idi.

Şabran və Şamaxıdan Maştağa bazarına başlıca olaraq taxıl, arpa, buğda, çəltik, meyvə, qurudulmuş meyvə, ipək və s. daşınırdı.

Maştağa toponimikasından bəhs edərkən qədim yolları da xatırlatmağa dəyər. Maştağadakı yollar əsasən aşağıdakılardan ibarətdir:

1. «Qədim Suraxanı yolu» – Maştağadan Suraxanıya gedən yola deyilir;

2. «Ramana yolu» – Maştağadan Subtropik sovxoza doğru gedən yola deyərdilər; Subtropik sovxoza doğru gedən yoldan daha üç yol ayrılırdı:

3. I-ci yola «Şirəxakı yolu» –«şirə torpağı götürmək üçün – gedilən yol» deyərdilər;

4. Ortadakı, 2-ci yol Binə kəndinə gedən yoldur;

5. 3-cü yol «Naxrə (Naxr) yolu» adlanırdı ki, da mal-qaranın





otarılmağa aparıldığı yoldur;

6. Maştağada "Dərəqılınc" deyilən əraziyə gedən yol «Dərəqılınc yolu» adlanırdı;

7. "Parça qərəb" yolu Buzovnaya istiqamətlənən yoldan ayrılır və cənuba yönəlirdi;

8. "Qərəb Nəsir" yolu Tavaylıqdan bağlara yönələn yola deyilirdi ki, burada da yaşayan əhali əsasən maldarlıqla məşğul olurdu;

9. "Şurov" yolu (Şor su –Ə.B.) Maştağa kəndindəki Pirşəhid qəbiristanlığının cənubunda olmuşdur;

10. Bilgəh istiqamətinə aparan yola «Bilgəh yolu» deyərdilər;

11. Maştaganın şimalına – Nardarana istiqamətlənmiş yola «Nardaran yolu» deyilirdi;

12. İndiki İnternat məktəbinin yanından keçərək Maştağadan Məhəmmədliyə yönəlmiş yola "Məhəmmədli yolu" deyərdilər;

13. Əsasən Bakı şəhərinə yönələn yola isə "Zabrat yolu" deyirdilər.

## 4. MAŞTAĞA XANLIQLARIN HAKİMİYYƏTİ VƏ ÇAR RUSİYASININ İŞĞALI DÖVRÜNDƏ (XVIII-XIX ƏSRLƏR)

Səfəvilər dövlətinin hökmdarı Şah Sultan Hüseynin hakimiyyətinin (1694-1722) zəiflədiyi bir dövrdə – XVIII əsrin əvvəllərində dövlətin ərazisi osmanlılar, ruslar və əfqanlar tərəfindən ələ keçirildi. 1722-ci ilin yayında Rusiya imperatoru I Pyotr Xəzər dənizinin qərb və cənub sahillərinə yiyələnmək məqsədilə hərbi yürüşə başladı.

Artıq 1723-cü ilin 21 iyulunda rus hərbçiləri general Matyuşkin başda olmaqla Bakı şəhərini ələ keçirdilər. Bakı qalası ələ keçirildikdən sonra ruslar burada komendantlıq üsuli-idarəsini yaratdılar. Bakı şəhərinin ilk rus komendantı knyaz Baryatinski təyin edildi.[1]

[1] Бутков П.Г. Материалы для новой истории Кавказа съ 1722 по 1803 года. часть первая, СПб., 1869, с.47.

Lakin Səfəvilər dövlətinin zəiflədiyi bir şəraitdə tarix səhnəsinə çıxmış Nadirqulu xan Əfşar əfqanları və osmanlıları məğlub etdi, 1735-ci ildə rusları Gəncə müqaviləsini bağlamağa məcbur etdi. Beləliklə, rusların Azərbaycanı ələ keçirmək üçün etdikləri ilk cəhd ugursuz oldu və onlar ələ keçirdikləri bütün Xəzərsahili əraziləri, o cümlədən Abşeron yarımadasını tərk etdilər.

Rusların Abşeron yarımadasında 12 illik ağalığı dövründə (1723-1735) Bakı şəhərində və Maştağada baş vermiş hadisələr daha çox Dərgahqulu xanın adı və fəaliyyəti ilə bağlıdır.

Bakı şəhəri ruslar tərəfindən ələ keçirilərkən Dərgahqulu xan oradakı 700 nəfərlik Səfəvi hərbi hissəsinin başçısı idi. Bu zaman şəhər rus komendantı knyaz Baryatinskinin tabeçiliyinə keçdi, lakin Dərgahqulu xan öz vəzifəsində saxlanıldı. Dərgahqulu xan rus komendantının böyük etimadını qazana bilmişdi. Hətta ona rus ordusunun polkovniki rütbəsi verilmişdi. Bu zaman Bakıda yerli idarə üsulu da qalmaqda idi və şəhər rusların icazəsi ilə Məmmədhüseyn xan tərəfindən idarə edilirdi.

Lakin tezliklə Məmmədhüseyn xan ruslara düşmən münasibət bəsləyən Davud bəyin (Hacı Davudun) «adamı» kimi vəzifədən kənarlaşdırılıb Rusiyaya sürgün edildi və onun yerinə Dərgahqulu xan təyin olundu. Dərgahqulu xanın iqamətgahı Maştağada idi.

A.Bakıxanov yazmışdır ki, Heybət bəyin oğlu Dərgahqulu bəy əslən Tabasarandandır. Sonralar bu nəsil Bakıya köçmüş, mülk sahibinə çevrilmiş və qızılbaş (Səfəvi) ordusunda yüzbaşı kimi fəaliyyət göstərmişdir. Bu nəslin möhkəmləndirilmiş imarət və qalalarının Ramana kəndində «indi də qalması»na dair XIX əsrdə burada olmuş P.Q.Butkov da məlumat vermişdir.[1]

A.Bakıxanov bu barədə belə yazmışdır: "Xalq mahnılarından birində deyilir ki, Əmircan, Bülbülə və Ramana xan kəndləridir.[2]

Maştağa kəndini özünə iqamətgah seçmiş Dərgahqulu xan tezliklə ruslardan üz döndərdi və Nadirqulu xan Əfşara xidmət et-

[1] Бутков П.Г. Материалы, с.48-49
[2] Бакыханов А. Гюлистани- Ирам. Баку, 1991, с.132





məyə başladı. P.Q.Butkov Dərgahqulu xanın Nadirqulu xanın sərkərdələrindən biri kimi «1732-ci ildə Bakının 40 verstliyində yerləşən Mustaqa, yaxud Maştağa kəndinə gəldiyini və 1735-ci ildən sonra onun haqqında daha heç nə eşitmədiyini» qeyd etmişdir.[1] Bununla belə, İ.Lerxin Dərgahqulu bəylə bağlı olan aşağıdakı məlumatlarını da nəzərdən qaçırmaq olmaz. O, Abşeronun naibi Səlim xanın və maştağalı Dərgahqulu bəyin təşkil etdikləri ovda iştirak etdiyini geniş təsvir edir. İ.Lerxin qeydlərində deyilir: "Biz daimi odlar yerindən (Suraxanı nəzərdə tutulur -Ə.B.) çıxdıq, xeyli otlaqları olan Qala kəndindən keçdik və böyük bir kənd olan Sinsenliyə (Zirə kəndi nəzərdə tutulur – Ə.B.) tərəf yolumuza davam edərək yarımadanın ensizləşdiyi və vəhşi keçi ovlamaq üçün hazırlanmış şikar yerinə gəlib çıxdıq. Şikar üçün bütün kəndlərdən əllərində silah, ox və dəyənək olan bir neçə yüz kəndli yanlarında itlərlə buraya toplaşmışdılar. Onlar dənizin bu sahilindən o biri sahilinə qədər bir cərgədə düzülməli idilər. Biz də belə etdik. Bu cərgədən kənara çıxmadan qarşımıza çıxan vəhşi keçiləri yarımadanın ensiz yerinə qova-qova irəliləyirdik. Sultan Dərgahqulu bəy də bir neçə yüz kəndli ilə bizə qoşuldu. Zavallı heyvanlar bizim yaxınlaşdığımızı gördükdə qışqırığımıza, dəyənək zərbələrinə baxmayaraq, sürü ilə insanların üzərindən atılıb keçirdilər. Lap sıxışdırılmış bəziləri isə dörddə bir verst enində olan körfəzi üzüb keçdilər, 7 verst uzunluğunda olan Müqəddəs (indiki Pirallahı – Ə.B.) adaya (müasir Pirallahı adasına – Ə.B.) çıxdılar». Bu məlumat göstərir ki, rəsmi dövlət xidmətindən çıxmasına baxmayaraq, Dərgahqulu bəy Maştağadakı malikanəsində rahat yaşayırmış.[2]

Bəzi tarixi faktlara görə, Dərgahqulu xan 1738-ci ildə Car ərazisində üsyanın yatırılması zamanı yaralanmış və bir qədər sonra (1739-cu ildə) vəfat etmişdir. S.B.Aşurbəyli bu faktı inkar etmişdir.[3] Dərgahqulu xanın Maştağada yaşadığını alman səyyahı, hə-

[1] Бутков П.Г. Материалы, с.138
[2] Qılman İlkin. Bakı və bakılılar. Bakı, 1998, s.44.
[3] Ашурбейли С.Б. Очерки истории средневекового Баку. Баку, 1964, с.260

kim İ.Lerx də təsdiq edir, onunla bağlı olan ov səhnəsinin təsvirini də verir.[1]

1747-ci ilin iyununda Nadir şah Əfşar (1736-1747) sui-qəsd nəticəsində öldürüldü. Onun ölümündən sonra yaratdığı dövlət süqut etdi. Azərbaycanda yeni, müstəqil dövlətlər – xanlıqlar yaranmağa başladı. Belə dövlətlərdən biri də Bakı xanlığı idi. Belə ki, Nadir şahın öldürülməsi xəbəri Bakıya çatan kimi Dərgahqulu xanın oğlu Mirzə Məhəmməd xan (1747-1768) yerli əyanlar arasındakı nüfuzuna arxalanaraq Bakıda hakimiyyəti ələ aldı və özünü xan elan etdi. O, Nadir şahın Bakıdakı nümayəndəsi Səlim xanı şəhərdən qovdu. Mirzə Məhəmməd xan öldükdən sonra hakimiyyətə gəlmiş oğlu Məlik Məhəmməd xan (1768-1784) Nəcəfə ziyarətə gedərkən yolda vəfat etdi. Əslində I Mirzə Məhəmməd xan öldükdən sonra (onun varisləri dövründə) Bakı xanlığı qubalı Fətəli xandan (1756-1789) vassal asılılığına düşdü. O, öz bacısı Xədicə Bikəni Məlik Məhəmməd xana ərə vermiş və Bakı xanlığını özündən asılı vəziyyətə salmışdı. Lakin Fətəli xan vəfat etdikdən sonra Quba xanlığı zəifləməyə başladı və Bakı xanlığı öz müstəqilliyini bərpa etdi. 1791-ci ildə Bakı və Quba xanlarının saraylarında baş vermiş çəkişmələrin sonunda II Mirzə Məhəmməd xanın əmisi Məhəmmədqulu xan Bakıda hakimiyyəti ələ aldı və II Mirzə Məhəmməd xanı əsir kimi Qubaya göndərdi. 1792-ci ildə Məhəmmədqulu xanın ölümündən sonra yenidən xanlıq taxtına əyləşmiş II Mirzə Məhəmməd xan elə həmin ildə Bakıdan qovuldu və yenidən Qubaya getməli oldu. Məhəmmədqulu xanın qardaşı oğlu Hüseynqulu xan Bakıda hakimiyyətə gəldi. O, Bakı xanlığı ruslar tərəfindən işğal olunana qədər II Mirzə Məhəmməd xanla daim mübarizə aparmaqla «xan»titulunu özündə saxlaya bildi. Xüsusilə qeyd etmək lazımdır ki, Bakı xanlığındakı çəkişmələr zamanı həm Məhəmmədqulu xan, həm də Mirzə Məhəmməd xan dövlətdə hakimiyyəti bölüşdürməyə məcbur olurdular.[2]

[1] Лерх И. Указ. соч., с.44

[2] Тагиев Ф.А. История города Баку в первой половине XIX века (1806-1859 гг.). Баку, 1999, с.47





Bu zaman II Mirzə Məhəmməd xanın iqamətgahı Maştağada yerləşirdi. II Mirzə Məhəmməd xan isə burada özünə yeni qala tikdirmişdi ki, onun haqqında da ayrıca bəhs olunacaqdır.

1806-cı ildə Bakı şəhəri yenidən ruslar tərəfindən işğal edildi və II Mirzə Məhəmməd xan ailəsi ilə Arazın sağ sahilinə keçərək cənuba getdi. Beləliklə, Bakıda, Azərbaycanda rus ağalığı dövrü başlandı.

Bakı xanlığının tərkibinə 40 kənd daxil idi. Həmin kəndlər içərisində ən böyükləri Maştağa, Nardaran və Bilgəh hesab olunurdular.[1]

Bununla yanaşı XIX əsrdə Bakı ətrafındakı kəndlərin sayı haqqında müxtəlif məlumatlar vardır. Sara Aşurbəyli "Bakı şəhərinin tarixi" kitabında Bakı Xanlığında 39 kəndin olduğunu göstərir:

| | | | |
|---|---|---|---|
| Maştağa | Kürkənt | Digah | Gürkən |
| Nardaran | Zirə | Fatmayı | Qobu |
| Bilgəh | Qala | Goradil | XocaHəsən |
| Buzovna | Hövsan | Pirşağa | Biləcəri |
| Şağan | Ramana | Kürdəxana | Suraxana |
| Mərdəkan | Zabrat | Ziğ | Balaxana |
| Türkan | Məhəmmədi | Hökməli | Əmircan |
| Bülbülə | Saray | Sabunçu | Corat |
| Binəqədi | Xırdalan | Masazır | Keşlə |
| Novxana | Əhmədli | Pirəkəşkül köçü | |

Əhalisinin və həyətlərin sayına görə Bakı xanlığının kəndləri arasında Maştağa xüsusilə fərqlənirdi. S.Aşurbəyli K.Spasski – Avtonomovun verdiyi məlumata istinad edərək 1851-ci ildə Maştağa

[1] Маршал Фон Биберштейн. Описание провинций, расположенных на левом берегучих Каспийского моря, между реками Терек и Кура. Перевод с французского С.Б. Ашурбейли. Azərbaycan MEA-nın Tarix İnstitutunun elmi arxivi. Инв, 466. с.16

əhalisinin 3 min nəfərdən ibarət olduğunu göstərirdi[1] Lakin 1796-cı ilə aid olan arxiv sənədlərində Maştağada 350 evin olduğu bildirilir. 1810-cu ilin məlumatına görə, burada 362 ev var idi: 15 yaşdan yuxarı kişi əhalinin sayı 815 nəfər göstərilmişdir.[2]

1813-cü ilin məlumatına görə, Maştağada 582 ev üzrə ailə yaşayırdı.[3] 1832-ci ilin kameral təsvirinə görə, Abşeron yarımadasının 40 kəndində 4812 ev qeydə alınmışdır.[4]

Həmin dövrdə də Abşeron yarımadasında ən böyük kənd Maştağa idi və burada 700 ev var idi. Təxminən 1842-ci ildə Abşeronda olmuş İ.Berezin Maştağanın əhalisi haqqında məlumat vermişdir. Onun verdiyi məlumata əsasən, 1842-ci ildə Maştağada təxminən 3600 nəfər yaşayırdı. Onlardan 1719 nəfəri kişi, 1801 nəfəri isə qadın idi.[5]

XIX əsrin 30-cu illərində Bakı qəzasının 40 kəndindən 24-də 100-dən yuxarı ailə qeydə alınmışdır. Buraya ilk növbədə Maştağa, Bilgəh, Nardaran kimi kəndlər daxil idi. Həmin dövrdə Maştağada 1000 ev var idi.[6]

XIX əsrin 70-90-cı illərində Abşeronun bəzi kəndlərinin əhalisinin sayına dair müəyyən qeydlər də mövcuddur. Məsələn, N.Zeydlisin qeydlərinə görə, 1873-cü ildə Bilgəhdə 211 həyət, 1038 sakin vardı. 1891-ci ildə Maştağada 5 min nəfər yaşayırdı.[7] 1897-ci, 1903-cü, 1913-cü illərə aid olan ümumi siyahıya almalarda Maştağa əhalisinin sayı haqqında da məlumat verilir.[8] İstər XVII-XIX əsrlərdə Abşeronda olmuş səyahların məlumatlarında, istərsə də XIX əsrə aid olan kameral təsvirlərdə, siyahıya almalarda

[1] Aşurbəyli S.B. Bakı şəhərinin tarixi, s.280-281
[2] Искендерова М. Бакинское ханство. Баку, 1999, с.20
[3] Qılman İlkin. Bakı və bakılılar. Bakı, 1998, c.221
[4] Обозрение Российских владений за Кавказом. СПб., 1837, с.36
[5] Березин И. Путешествие по Востоку..., с.69
[6] K.Spasskiy – Avtonomov. Göstərilən əsəri, s. 495-510
[7] Баку и его окрестности. Тифлис, 1891, с.91-96
[8] Баку в цифрах. Баку,1967, с.7; Kərimov Ə. Bakı demoqrafiya güzgüsündə. «Bakı», qəzeti, 1987-ci il, 31 mart





Maştağa əhalisinin ictimai tərkibi haqqında da müəyyən məlumatlar verilir. Həmin məlumatlar arasında 1832-ci ilə aid olan kameral təsvir daha böyük maraq kəsb edir. Burada Maştağanın dövlət xəzinəsinə məxsus olduğu, onun kəndxuda Zeynal Mövsüm oğlu tərəfindən idarə edildiyi, əhalinin sayı, məşğuliyyəti, əhalinin ödədiyi vergilər haqqında məlumatlar verilir.[1]

Kameral təsvirin materillarına əsasən, Maştağa əhalisi 2 böyük kateqoriyaya bölünürdü:

I) Vergidən azad olunanlar;

II) Vergi ödəyənlər.

Vergidən azad olunanlar sırasına aşağıdakılar daxil idi:

1) Kəndxuda;

2) Din xadimləri;

3) Nökərlər və xüsusi olaraq "yoxsullar" kateqoriyasına aid edilənlər;

4) Vergini ödəmək iqtidarında olmayan günəmuzd işçilər.

Vergi ödəyənlər sırasına aid idilər:

1) Əkinçilər;

2) Heyvandarlar;

3) Sənətkar-ustalar;

4) Tacirlər;

5) Sahibkarlar (muzdlu əməkdən istifadə edənlər);

6) Arabaçılar.

Əhalinin eyni kateqoriyasına aid olan kişilərdən alınan vergilərin miqdarı da fərqli olmuşdur. Məsələn, əkinçilərdən 1 manatdan 4 manata kimi fərqli şəkildə vergi alınırdı. Lakin elə əkinçilər vardı ki, onlardan hətta 5,5 manat məbləğində vergi alınırdı.

Başmaqçılar və papaqçılar da çox vergi ödəyənlər sırasına daxil idilər. Maraqlıdır ki, tacirlər onlara nisbətən az vergi ödəyirdilər.

[1] Gürcü-İmeretiya Dövlət palatası tərəfindən 1832-ci ildə tərtib edilmiş "Bakı şəhəri əhalisinin kameral" təsviri. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi. F.25., siyahı 25-2

Kameral təsvirdən məlum olur ki, kənddə müəyyən şəxslər heç bir işlə məşğul olmur, yoxsul vəziyyətində yaşayırdılar. Belə şəxslər xüsusi siyahıya daxil edilərək vergilərdən azad olunmuşdular. Onlar yalnız kəndin nisbətən varlı əhalisinin himayəsi hesabına öz ehtiyaclarını ödəyə bilirdilər.

Maştağada və Bakı ətrafındakı digər kəndlərdə olduğu kimi, elə imkanlı şəxslər olmuşlar ki, onlar ən çətin məqamlarda imkansız və ehtiyacı olan insanların qayğısına qalmışlar. Belə insanlardan biri də XX əsrin əvvəllərində öz gəmiləri ilə məşhur olmuş İmamverdi Vəliyev idi. Müəllim Nəcəfqulu Vəliyev öz yaxın qohumu haqqında məlumat verərək bildirmişdir ki, Bakıda gəmilərin yan aldığı tərsanələrdən biri – 7-ci tərsanə «İmamverdi körpüsü» adlanırmış. İmamverdinin 7 gəmisi var idi. O, Hacı Zeynalabdin Tağıyevlə (1838-1924) möhkəm dost imiş. İndiki Azərbaycan Milli Tarix Muzeyi, yəni Hacı Zeynalabdin Tağıyevin evi ilə üzbəüz olan böyük bina İmamverdi Vəliyevin mülkü olmuşdur. Dostlar hər iki binadakı üzbəüz eyvanlarda oturub söhbət edərmişlər.

İmamverdi Vəliyevə məxsus olan gəmilərlə Həştərxana və İrana yük, sərnişin daşınarmış. O, sonralar ixtiyarında qalmış son gəmini Salyandan olmuş arvadının şərəfinə Salyan istiqamətinə göndərmişdi. Həmin gəminin gəlişi münasibətilə Salyanda təşkil olunmuş ziyafətdə İmamverdi Vəliyev zəhərlə öldürülmüşdür. Onun son gəmisi qara bayraqla Bakıya qayıtmış, sahibinin meyitini gətirmişdir.

İmamverdi Vəliyev Maştağada, Keçənlər qəbiristanlığında torpağa tapşırılmışdır.[1]

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.35





## 4. ƏHALİNİN TƏSƏRRÜFAT HƏYATI

Aparılmış arxeoloji tədqiqat işləri Abşeronun şimal şərqində qədim yaşayış məskənləri olması və bir sıra yaşayış məskənlərinin tarixi barədə yeni fikirlər söyləməyə imkan verir.

Artıq bu gün Abşeronda onun şimal-şərq hissəsində yerləşən kəndlərin, o cümlədən Maştağa, Bilgəh və Nardaran kəndlərinin yerləşdiyi ərazinin qədim yaşayış məskənləri olması heç bir şübhə doğurmur.

Beləliklə, son tədqiqatlar Abşeronun şimal-şərq hissəsində salınan Maştağa, Bilgəh, Nardaran kimi yaşayış yerlərinin uzaq keçmişinə nəzər salmağa imkan verir. Məlum olduğu kimi, qaya təsvirləri Qobustandan başlayaraq Xəzər dənizi sahilləri boyunca şimala doğru Abşeron yarımadasında müşahidə edilir. Qədim insanların yaşayış məskənləri bu bölgələrdə də olmuşdur. Ümumiyyətlə, qaya təsvirləri Abşeron yarımadasındakı bir çox məntəqələrdə Mərdəkanda, Şüvalanda, Qalada, Şağanda eləcə də Bilgəhdə və başqa ərazilərdə də aşkar edilmişdir. Bu təsvirlərdə qədim insanın maldarlıq, ovçuluq və digər təsərrüfat sahələrindən bəhs edilir. Bu abidələr Abşeron ərazisində daş dövründən tunc dövrünə keçid mərhələsinə təsadüf edir.[1]

Bilavasitə Abşeron yarımadasının şimal-şərq hissəsində bugünə kimi aşkar edilmiş qədim dövrə aid abidələrdən hələlik ən qiymətlisi Ümidqaya abidəsidir. Bu abidə Bilgəh və Nardaran qəsəbələri arasmda yerləşir. Burada Ümidqayanın zirvəsndə göy cisimləri təsvir edilmişdir. Qaya üzərindəki bu "rəsədxana" günəş ve müxtəlif bürcləri (Böyük ay bürcü, İlan bürcü və s.) təsvir edən rəsmlərin zənginliyinə görə digər məşhur bürc təsvirlərini ötüb keçir.

Ümidqaya təsvirləri Tunc dövrünə (e.ə. III minillik) aid edilir.[2]

Bu təsvirlər Tunc dövrünə aid edilən digər təsvirlərlə birlikdə

[1] Асланов Г. Об археологических памятниках Апшерона МКА, т. IX, Баку, 1980, с. 69-80.

[2] Abşeronun qədim rəsədxanası. Qobustan jurnalı. 1973, №3.

(onlar Mərdəkan, Şüvəlan, Buzovna və başqa yerlərdən aşkar edilmişdir) bölgənin və eləcədə Maştağada, Bilgəhdə, Nardaranda vaxtilə olmuş qədim yaşayış məskənlərinin tarixini öyrənmək baxımından olduqca qiymətlidir.[1] Qaya və daş üzərində müxtəlif oyma və cızma üsullar ilə işlənmiş bu təsvirlərdə ov səhnələrinin, təsərrüfat sahələrinin adət və ənənələrinin əks etdirilməsi nəinki haqqında bəhs olunan bölgənin, bütövlükdə Azərbaycanın Tünc dövrü tarixini öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir.[2]

Abşeron tarixi mədəni irsinin tədqiq edilməsi üçün arxeoloq Q.M.Aslanovun tədqiq etdiyi Bilgəhin Qoşa Kurqan qəbirlərinin öyrənilməsi Azərbaycan arxeologiyası üçün az əhəmiyyət kəsb etmir. E.ə. II minilliyə aid olan bu qəbrin tədqiqat zamanı içindəki sərdəbadan gil qablar, balıqqulaqlarından düzəldilmiş muncuqlar və digər əşyalar tapılmışdır. Bu Kurqan qəbirlərində dairəvi deşik olan daşlar da qoyulmuşdur. Belə daş qəbrin qapısını təmsil edirmiş. O dövrün dini əqidəsinə görə guya ölünün ruhu bu deşikdən çıxaraq qəbiləni, ailəsini ziyarət edir, sonra təkrar bu yolla öz axirət evinə qayıdırmış.[3]

Q.M.Aslanovun apardığı arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Abşeron kurqanları Tunc dövründən başlayaraq dəmir dövrünə qədər geniş bir dövrü əhatə edir.[4]

Abşeron kurqanlarından əldə edilmiş materiallar arasında müəyyən oxşarlıqlar vardır.

Bilgəh XIV-XV əsrlərdə Xəzər dənizinin böyük ticarət əhəmiyyətli limanlarından biri olmuşdur. İngilis səyyahı Xristofor Berrou 1579-1581-ci illərdə ingilis tacirlərinin Qafqazın Xəzərsahili vilayətlərinə ekspedisiyasında iştirak etmişdir. Bakı, Şamaxı, Dərbənddə olmuş X.Berrou İngiltərəyə göndərdiyi məktublarında yerli əhalinin təsərrüfat, həyat və məişəti və həmçinin mətbəx mədəniyyəti haq-

[1] Aşurbəyli Sara. Bakı şəhərinin tarixi. Bakı, 1998, s.22
[2] Abşeronun qədim rəsədxanası. Qobustan jurnalı, 1973, №3.
[3] Nəsir Rzayev. Qayalar danışır. Bakı, 1985, s.75
[4] Асланов Г. Курумы Апшерона Доклады АН. Аз.ССР, 1974, т.XXX, №1, с.78-79





qında Abşeronun Bilgəh kəndi və burada qonaqsevərliklə qarşılanmaları haqqında geniş məlumat vermişdir. Qeyd edək ki, X.Berrou Bilgəh adını Bildi kəndi kimi öz məlumatlarında qeyd etmişdir.[1]

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Bilgəh kompleks arxeoloji ekspedisiyası tərəfindən 1995-ci ilin sentyabrından 1996-cı ilin sentyabrına kimi Bilgəhdə 28 saylı Birləşmiş şəhər xəstəxanasının həyətində arxeoloji tədqiqat işləri aparılmışdır[2] (şəkil 1-2). Ekspedisiyanın kompleks işi zamanı apardığı arxeoloji tədqiqatlar çox uğurlu olmuş və yeni və zəngin abidələr aşkar edilmişdir. Bilgəh kompleks arxeoloji ekspedisiyası əldə edilən arxeoloji materialları son dərəcə elmi zəmində təhlil etmişdir.

Bilgəh kompleks arxeoloji ekspedisiyası öz tədqiqat işlərini üç istiqamətdə aparmışdır.

1. Arxeoloji qazıntı nəticəsində aşkar edilən şərti olaraq "Dini bina" adlandırdığımız tikililərin tədqiqi.
2. Hamam kompleksinin öyrənilməsi.
3. Qəbir abidələrinin tədqiqi. (nekropol)

Arxeoloji ekspedisiyanın apardığı qazıntılar zamanı şərti olaraq "Dini bina adlandırdığımız tikililər aşkar edilmişdir. Qazıntı sahəsində 120 $m^2$ sahədə şərq üslubunda olan 6 otaq və bir neçə yardımçı otaqlar aşkar edilmişdir. Onların arasında iki böyük zal xüsusilə böyük əhəmiyyət kəsb edir. Həmin zalların hər birində iki sütun və iki ocaq yeri aşkar edilmişdir. Ocaqlardan birində yanmış çıraqlar və çoxlu miqdarda məişətdə işlənən yanmış şirli və şirsiz saxsı qab nümunələri aşkar edilmişdir.

Qalan digər otaqların hamısından IX-XIII əsrə aid məişət və təsərrüfat əhəmiyyətli şirsiz və şirli saxsı qab nümunələri aşkar

[1] Əhmədov B. 1579-1581-ci illər ekspedisiyası və İngiltərə-Apzərbaycan ticarət əlaqələrinin kəsilməsi səbəbləri, ADU-nun elmi əsərləri. (Tarix və Fəlsəfə serriyası) 1967, №3.
[2] Ekspedisiyanın işində R.B.Göyüşov (rəis), Ə.H.Babayev (rəis müavini), S.M.Allahverdiyev (memar), E.Vəliyev (elmi əməkdaş) iştirak etmişlər.

edilmişdir. Yardımçı otaqlardan birində yaşayış yeri sakinlərini su ilə təchiz edən daşdan yonulmuş su xətti, digər otaqdan isə çarhovuz aşkar edilmişdir (şəkil 5-6).

Aparılan arxeoloji tədqiqatlar nəticəsində burada iki mədəni təbəqənin olduğu müəyyən edilmişdir.

Biriunci mədəni təbəqə XIII-XV əsrin əvvəllərinə, ikinci mədəni təbəqə isə VIII-XII əsrlərə aid edilir. Həmin binada aşkar edilmiş ocaqların qalıqları və divarlardakı rəngli kaşılar onun dini təyinatlı tikili olmasını söyləməyi əsas verir.

Hamam kompleksi tikintisində aparılan tədqiqatlar zamanı 8 otaq müəyyən edilmişdir. Burada təmizləmə işləri aparılarkən küllü miqdarda məişətdə işlənən saxsı qab nümunələri aşkar edilmişdir. Ümumiyyətlə, hamam tikintisi kompleksi tədqiqatçılar tərəfindən XVI-XVII əsrlərə aid edilir.

Hamam kompleksindən bir qədər aralı tədqiqat sahəsindən qəbirlər aşkar edilmişdir. Qəbirlər müsəlman qəbri olub XVII-XIX əsrlərə aid edilir.

"Dini bina"da və onun ətrafında arxeoloji tədqiqat işləri nəticəsində məişətdə və təsərrüfatda işlənən şirli və şirsiz saxsı qab nümunələri aşkar edilmişdir. Maddi mədəniyyət nümunələri içərisində əsasən metal, şüşə, dulus və daşişləmə sənət nümunələri üstünlük təşkil edir.

## Metalişləmə

Orta əsrlərdə Maştağa Bılgəh yaşayış məntəqələrində yaşayan əhalinin əsas sənət sahələrindən biri də metalişləmə və dəmirçilik olmuşdur.

Metalın kəşfi, ondan məişət, təsərrüfat və hərbi əhəmiyyət kəsb edən əşya nümunələrinin hazırlanması bəşər tarixinin ən böyük nailiyyətlərindən biri hesab olunur.[1]

[1] Aləm Nuriyev, Əlibaba Babayev. Bərdə şəhərinin tarixi arxeoloji oçerki (antik və orta əsrlərdə), Bakı, 2001, s.96-97





Azərbaycanda metalın tətbiqi e.əvvəl IV-III minilliklərə aid edilir.[1] Mütəxəssislərin fikrincə Qafqazda mövcud olmuş beş metallurgiya hövzəsinin ikisi Azərbaycanda olmuşdur.

Alban tarixçisi Musa Kalankaytuklu Albaniyadakı yerli sərvətlərdən danışarkən buradakı zəngin qızıl, gümüş, dəmir, mis və digər metal mədənləri haqqında özünün "Alban tarixi" əsərində geniş məlumat verir.[2] Şübhəsiz Abşeronun ayrı-ayrı yaşayış məntəqələrinin və o cümlədən Bilgəhin sənətkarları bu zəngin sərvətlərdən bəhrələnmiş, gözəl metal sənət nümunələri yaratmışlar.

Məlum olduğu kimi, metalişləmə sənətindən danışarkən onu üç əsas sənət sahəsinə bölürlər: dəmirçilik, zərgərlik, misgərlik.

Bilgəhdən XIII-XIV əsrlərə aid təsərrüfat aləti olan dəmir bel, dairəvi qadağ və mismar formalı qadağlar aşkar edilmişdir (Tablo VIII, şəkil 3,4,5,6). Səthində güclü korroziya getmiş dəmirdən hazırlanmış təsərrüfat beli malik olduğu formaya görə ona truba formalı ağac sap (ağac dəstə - Ə.B) taxıldığını ehtimal etmək olar. Belin ağac sapına keçirilən hissəsində qadağların tapılması diqqəti daha çox cəlb edir. Ağac sapın bel borusuna keçirildiyi hissə dairəvi qadağla bərkidilmişdir.

Dairəvi qadağ belin ön və arxa hissələrini möhkəm saxlamaqdan ötrü idi. (Tablo VIII, şəkil 5). Dairəvi qadağın diametri 7,5-sm olmuşdur.

Mismar formalı qadağlar ciddi karroziyaya məruz qalmışdır. Mismar formalı qadağların ağac sapı metala belə bərkitmək üçün istifadə edildiyi güman olunur. Mismar formalı birinci qadağın uzunluğu 6 sm, ikinci qadağın uzunluğu 5 sm. olmuşdur.

Arxeoloji qazıntı nəticəsində aşkar edilən belin salamat qalan hissəsinin uzunluğu 30 sm-dir. Ən enli hissədən belin eni isə 14 sm-dir. Belin ağac sapa keçirildiyi hissənin uzunluğu 10 sm-dir. Eni isə 9 sm-dir.

Bilgəhdən aşkar edilən dəmir bel və müxtəlif formalı bərkidi-

[1] İbrahimov F. Azərbaycan orta əsr şəhərlərində metalişləmə sənəti Bakı, 1988, s.6.
[2] Kalankaytuklu Musa. Albaniya tarixi. Bakı, 1993, s.17.

ci dəmir qadağlar XII-XIX əsrlərdə burada dəmirçiliyin inkişafı və əhalinin təsərrüfat həyatı haqqında müəyyən məlumat əldə etməyə imkan verir. (geniş surətdə məşğul olduğunu göstərir)[1].

**Şüşə məmulatı**

Maddi-mədəniyyət qalıqlarından biri olan şüşə məmulatının öy-rənilməsinin mühüm tarixi əhəmiyyəti vardır. Xüsusi tərkibə və şəffaflığa malik olan, habelə yüksək hərarət nəticəsində (900-1000C) əriyən şüşənin yaranması dünya mədəniyyətinin inkişafında irəliyə doğru yeni bir addım idi. Təbii vulkanik şüşələr (dəvə gözü) hələ ən qədim zamanlardan insanlara məlum idi. Şüşə istehsalının bilavasitə meydana gəlməsi e.ə. IV-III minilliklərdən məlumdur. Nil çayı vadisində əlverişli təbii şərait və təbii sodanın olması məhz bu ərazidə ilk şüşə istehsalmm yaranmasma səbəb olmuşdur.[2] Hələ 1891-1892-ci illərdə Mirsirdə böyük qazmtı işləri aparan KPetri hesab edir ki, ən qədim şüşə istehsah mərkəzi Messapotomiyanm şimal hissəsində və ya ola bilsin daha şimalda - Qafqazda Misirdən də qabaq mövcud olmuşdur.[3]

Buna görə de Qafqaz şüşə istehsalının ən qədim mərkəzlərindən biri hesab olunur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda şüşə istehsah üçün lap qədim zamanlardan hər cür təbii imkanlar olmuşdur. Hətta, bəzi tədqiqatlara görə Misir, Suriya, Finikiya və s. ölkələrə rəngli şüşə istehsalına lazım olan xammal Azərbaycandan ixrac edilmişdir.[4]

Bilgəhdən aşkar edilmiş şüşə məmulatmm əksəriyyəti şəfaf, yaşımtıl və qəhvəyi rəngdə olub əsasən üfürmə və qismən də qəlibdə basma üsulu ilə hazırlanmışdır. Ümumiyyətlə, şüşənin rəngli

[1] 1996-cı il Bilgəh kompleks arxeoloji ekspedisiyanın İnventar kitabı, İnventar, № 46, 47, 48.
[2] A.B.Nuriyev. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi. Bakı, 1981, s.4
[3] F.L.Osmanov. Qəbələnin şüşə məmulatı, AMM V cild, Bakı, 1964, s.149.
[4] A.B.Nuriyev. Qədim Şamaxıda şüşə istehsalına dair AMM, VI cild, Bakı, 1965, s. 114





hazırlamaq üçün onun xam materialına müxtəlif kimyəvi maddələr qatılır. Belə ki, tutqun yaşıl və göy rəngli şüşələr hazırlanarkən onun gilində dəmir oksidin qatışığından istifadə edilir. Şəffaf olmaqdan ötrü isə şüşə gilinin tərkibindəki dəmir oksidinin miqdarı azaldılır və az miqdarda marqans oksidi əlavə edilir. Göy şüşə hazırlamaq üçün kobaltdən istifadə olunur. Bu texnoloji proses şüşə əridilənə qədər aparılır. Əridildikdən sonra isə şüşə qab kimi formalaşdırılır. Bu məqsədlə maye halında olan şüşə kütləsi metal və ya gildən ucluğu olan qarğı boruya götürülür, sonra isə dərhal borunun içərisinə hava üfurülür. Bu zaman boru əl ilə fırlandırılır ki, qabın hər tərəfi bərabər formalaşsın.

Qəlibdə tökmə üsulu sadəcə olaraq qəlibə maye xammal tökməklə hazırlanır. Bu üsula ilk dəfə e.ə. XVI-XIV əsrlərdə Misirdə rast gəlinmiş və sonralar tədricən Suriya, Finikiya və digər ölkələrə yayılmışdır.

Üfürmə üsulu isə son dövrlərdə aparılan tədqiqatların yekunları na görə e.ə. VI-V əsrlərdə meydana gəlmişdir.[1]

Bilgəhdən aşkar edilmiş şüşə məmulatını məişət, mətbəx qabları və inşaatda işlənən nümunələrə bölmək olar ki, onlar aşağıdakılardan ibarətdir.

**Gülabdan formalı qabın gövdəsinin bir hissəsi.**

Məişət qabları silsiləsinə daxil olan gülabdan formalı qabın gövdəsinin bir hissəsi qazıntı sahəsinin IV kvadratında 1 metr dərinlikdən aşkar edilmişdir. Yastı oturacağa malik açıq bənövşəyi rəngdə olan bu nümunə qəlibdə tökmə üsulu ilə hazırlanmışdır. Gövdəsinin üstü konilur formalı bəzəklə naxışlanmışdır. Gülabdan formalı bu qabın oturacağının diametri 4,5 sm olub dairəvi formada zövqlə hazırlanmışdır. Qabın gövdəsinin səthində zəif irrizasiya getmişdir. Abşeron üçün sırf səciyyəvi olan bu nümunə VIII-XI əsrlərə aiddir. Hazırda gülabdan tipli qabların ən qədim formaları müxtəlif dini məra-

[1] A.B.Nuriyev. Qafqaz Albaniyasının şüşə məmulatı və istehlakı tarixi. Bakı, 1981, s.87-88.

simlərdə əhali tərəfindən istifadə edilir.[1] (Tablo IX, şəkil 2).

**Piyalə tipli qabın bir hissəsi.**

Səthini irrizasiyası təbəqəsi örtmüş yaşımtıl rəngdə olan piyalə nümunəsi qəlibdə tökmə üsulu ilə hazırlanmışdır. Tədricən soyuma prosesinden sonra qabın səthi üsta tərəfindən hamarlanmış və ona heç bir bəzək vurulmamışdır. Saya piyalə nümunələri tipinə daxil olan belə piyalə nümunələrinə Mingəçevir, Şamaxı, Torpaqqala, Bərdə, Bakı və digər orta əsr şəhərlərində aparılan arxeoloji qazıntılar zamanı təsadüf edilmişdir[2] (Tablo IX, şəkil 3).

**Qəhvəyi rəngli, yastı oturacaqlı şüşə qədəh.**

Dairəvi oturacağa malik olan qəhvəyi rəngli bu qədəh qəlibdə üfurülmə üsulu ilə hazırlanmışdır. Şüşə qədəh tədrici soyuma prosesindən sonra səthi oyma naxışlarla bəzədilmişdir. Alman dairəvi oymalar gilas dənələrini və onun budaqlarını xatırladır. Bütün qab üzərində bu cür bəzəklər bir neçə yerdə təkrarlanmışdır və bu iş usta tərəfindən xüsusi zövqlə görülmüşdür. Bu bəzəklər qabı bütövlükdə qurşayır. Nümunənin oturacağının diametri 5 sm-dir.[3]

Məlumdur ki, lap qədim zamanlardan Azərbaycan sakinlərinin məşğuliyyətində (üzümçülük, bağçılıq və s.) şirəverən giləmeyvə bitkilərinin yetişdirilməsi xüsusi yer tutmuşdur.[4] Çox güman ki, bu qədəhlərdən süfrələrdə şərab içilməsi və digər mayelərin qəbul edilməsi məqsədilə istifadə edilmişdir.[5] (Tablo IX, şəkil 1).

**Daxili və xarici səthini güclü irrizasiya təbəqəsi örtmüş pəncərə şüşəsinin qırığı.**

Ən nadir tapıntılardan olan bu nümunə öz böyük elmi əhəmiyyətinə görə Azərbaycanda ilk pəncərə şüşəsi tapıntısıdır. O, açıq yaşımtıl rəngə malik olub, hər iki tərəfi hamardır.[6]

Bilgəhdən aşkar edilən şüşə məlumatı öz analogiyasının Şamaxı, Qəbələ, Bərdə və Bakının və digər orta əsr şəhərlərinin şüşə məmulatı içərisində tapır. Analoji və mədəni təbəqələrinin elmi müqayisəsinə əsasən arxeoloji materialları VIII-IX əsrlərə aid etmək olar.

[1] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının İnventar kitabı. İnv. № 40.
[2] Yenə orada. № 42.
[3] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının İnventar kitabı. İnv.№ 41.
[4] T.A.Bünyadov. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı, 1964, s.109-141.
[5] A.B.Nuriyev. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi. Bakı, 1981. s.3
[6] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspediyasının inventar kitabı. İnv. № 43.





Beləliklə, Bilgəhdən aşkar edilən şüşə məlumatı tapıntıları onların bu ərazidə əhalinin məişətində geniş istifadə olunduğunu göstərir. Şübhəsiz ki, gələcək tədqiqatlar bu sahənin hərtərəfli və dəqiq surətdə öyrənilməsi üçün geniş imkan yaradacaqdır.

## Dulusçuluq

Dulusçuluq Azərbaycan sənətkarlıq istehsalının ən qədim sahələrindən olub bu günə qədər öz əhəmiyyətini saxlamaqdadır. Mütəxəssislər sənətin bu sahəsinin meydana çıxmasını neolit dövrünə aid edirlər.[1]

Dulusçuluq eneolit dövründə tətbiq edilən bir sıra texniki nailiyyətlər nəticəsində müstəqil sənət sahəsinə çevrilmişdir. Bu dövrdə gildən hazırlanmış qabları bişirmək üçün kürələrin meydana gəlməsi, dulus çarxının kəşf edilməsi dulusçuluq sənətinin sonrakı inkişafına ciddi təsir göstərən mühüm nailiyyət hesab edilirlər.[2] Aşağı tərəfdən ayaqla hərəkətə gətirilən çarxın meydana gəlməsi, müxtəlif dulusçuluq mərkəzlərində şirsiz qablar istehsalının başlanılması, dulus kürələrinin kütləvi şəkildə tətbiq edilməsi, yüksək keyfiyyətli saxsı məmulatlarının istehsalı üçün daha əlverişli şərait yaradırdı.

İlk orta əsrlərin sonlarından başlayaraq Azərbaycanda dulusçuluq istehsalı daha yüksək səviyyəyə çatmışdı. Monqol işğallarına qədər davam etmiş bu yüksəliş dövründə dulusçuluqda güclü kəmiyyət və keyfiyyət dəyişikliyi baş vermişdi. Bu dövrdə saxsı qabların yayılması Azərbaycanın demək olar ki, bütün şəhər və vila-

[1] Ağamalıyeva S.M. Dulusçuluq. Azərbaycan etnoqrafiyası. Bakı, 1998, s.337.
[2] Azərbaycan tarixi (Z.M.Bünyadovun və H.B.Yusifovun redaktəsi ilə) Bakı, 1994, s.30

yətlərini əhatə edirdi.[1]

Abşeronun bir çox yaşayış məntəqələrində o cümlədən Bilgəhdə aparılan arxeoloji qazıntılar nəticəsində şirsiz və şirli saxsı qablarının aşkar edilməsi dulusçuluq sənətinin yüksək səviyyədə inkişaf etdiyini göstərir.

Qeyd etmək lazımdır ki, IX-XIII əsrlərdə dulusçuluq yüksək, inkişaf etmiş bir sənət sahəsi kimi tamamilə formalaşmış, istehsal olunan qablar istər hazırlanma texnikasına, istərsə də zəngin bəzək elementlərinə görə həm əvvəlki, həm də sonrakı dövrlərlə müqayisədə çox yüksək səviyyəyə qalxmışdı.[2]

Bilgəhdən aşkar edilən dulus məmulatı formaya və daşıdığı məqsədə görə əsasən məişət və təsərrüfatda işlənən qablardan ibarət olmuşdur. Bu qabları texniki xüsusiyyətlərinə uyğun olaraq şirsiz və şirli saxsı məmulatına bölmək olar.

Təsnifata uyğun olaraq əwəlcə şirsiz məişət və təsərrüfat qablarını nəzərdən keçirmək lazımdır. Bilgəhdə IX-XIII əsrlərə aid şirsiz saxsı məmulatmı öz növbəsində ayrı-ayrı xüsusiyyətlərinə onun hazırlandığı gilin tərkibinə, biçiminə, əldə və yaxud dulus dəzgahında hazırlanmasına görə qruplaşdırmaq olar. Şirsiz məişət və təsərrüfat qabları bölünərkən onun hansı sahədə və hansı məqsədlə işlənilməsi əsas görürülmüş və xranoloji ardıcıllığa riayət edilməsinə səy göstərmişdir.

Bilgəhdən aşkar edilən şirsiz məişət və təsərrüfat qablarını aşağıdakı qruplara bölmək olar. İri və orta həcmli təsərrüfat küpləri, qazanlar, su qabları, bərnilər, bardaqlar, dopular, çıraqlar, eləcə də müxtəlif təsnifatlı qablara məxsus qulplar.

### Küplər

IX-XIII əsrlər Bilgəhdə əhalinin təsərrüfat həyatında geniş işlədilən qablardan biri də orta həcmli küplərdir. Bu dövrün küpləri

[1] Camal Mustafayev. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 2002, s.166.
[2] Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979, s.57





əvvəlki dövrün küplərindən öz mükəmməlliyi ilə fərqlənir. Eyni zamanda bu küplər bir-birindən öz hündürlüklərinə, divarlarının qalınlığına, ağız və oturacaqlarının, eləcə də gövdəsinin diametrinə görə bir-birindən fərqlənirlər.

Orta həcmli təsərrüfat küpünün ağız hissəsi arxeoloji qazıntı nəticəsində aşkar edilmişdir. Gilinin tərkibi qırmızı olan bu qabın tərkibində irili-xırdah qum qatışığı vardır. Bu nümunənin gili bişmə prosesi vaxtı kəsikdə qaramtıl rəngdə qalmışdır. Qabın ağzının kənarı xaricə tərəf qatlanmış və bortik əmələ gətirmişdir (Tablo III, şəkil 7). Aşkar edilən orta həcmli təsərrüfat kupu IX-XI əsrlərə aid edilir.[1]

Təsvirini verdiyimiz ikinci iri həcmli təsərrüfat kupunun ağız hissəsinin gili açıq bozumtul olub, rəng alana kimi bişirilmişdir. Ağız hissəsi bort əmələ gətirənə qədər qabın həcminə müvafıq xaricə tərəf qatlanmışdır. Nümunənin daxili səthində his izləri aydın görünür. Əldə kobud formada hazırlanmış bu nümunənin gilinin tərkibində irili-xırdalı qum qatışığı vardır. Müqayisəli analoji təhlillər əsasında nümunə VIII-IX əsrlərə aid edilir[2] (Tablo I, şəkil 1).

Gili qırmızımtıl rəng olana kimi bişirilmiş digər orta həcmli təsərrüfat qabının bir hissəsində arxeoloji qazıntı nəticəsində aşkar edilmişdir. Saya formalı bu qabın səthinə azca şüyrə çəkilmişdir. Səthində seyrək anqob izləri vardır. Gilinin tərkibində irili-xırdalı qum qatışığı olan bu nümunəni XI-XIII əsrlərə aid edilmişdir.[3] (Tablo V, şəkil 6).

Bilgəhdə şərti olaraq "Dini bina" adlandırdığımız arxeoloji qazıntı sahəsində 2,5 m. dərinlikdə aşkar edilən bu küplərin analoji nümunələrinə Örənqalada, Gəncədə, Bakıda, Mingəçevirdə, eləcə də Gürcüstanda və Orta Asiya şəhərlərində rast gəlinir. İri və orta həcmli bu küplər, şübhəsiz ki, yenə əvvəlki dövrdə olduğu kimi, müxtəlif ərzaq və təsərrüfat məhsullarını saxlamaq üçün istifa-

[1] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının İnventar kitabı. İnventar. №28.
[2] Yenə orada, № 84.
[3] Yenə orada, № 76.

də edilmişdir. Aşkar edilən küplərin hissələrindən aydın olur ki, onların bəziləri qulplu, bəziləri qulpsuz olmuşdur. Adətən nisbətən qalın divarlı küplərin kəsik də lentvari qulpları olmuşdur.[1]

IX-XIII əsrə aid olan küplər üçün səciyyəvi cəhətlərdən biri, onların üzərində həndəsi cizgilərlə bəzəklər vurulmasıdır. Həmin küplərdən birinin üzərinə şaquli cızma xətlərlə bəzək vurulmuşdur.

Küplərin üzərinə naxış vurulması göstərir ki, o xalq arasında çox qiymətləndirilmiş, ola bilsin bəzən də bəzək üçün də istifadə edilərək, bədii məna kəsb etmişdir.

## Qazanlar

Bilgəhdən şərti olaraq "Dini bina" adlandığımız qazıntı sahəsində IX-XIII əsrlərə aid xörək bişirmək üçün əhalinin məişət həyatında istifadə olunan qazanlar aşkar edilmişdir. İndiyə qədər tədqiq olunmuş digər Azərbaycan şəhərlərindən Gəncədən, Örənqaladan,[2] Qəbələdən, Bakıdan eləcə də Cənubi Qafqazın və Orta Asiyanın ayrı-ayrı orta əsr abidələrindən bu cür qablar tapılmışdır. Ümumiyyətlə, Azərbaycanın müvafiq dövrə aid əksər məişət qablarında müəyyən oxşarlıqlar vardır ki, bu da orta əsr şəhərlərinin birinin digəri ilə iqtisadi əlaqələrini, ümumiyyətlə ölkənin daxili iqtisadi-ticarət əlaqələrinin olduğunu göstərir.

IX-XIII əsrə aid bölgədən əldə edilən qazanlar əsasən orta və qismən də iri həcmli olmuşdur. Qeyd edildiyi kimi bu qazanlar bir-birinə bənzəyir. Belə ki, onların xeyli hissəsi yarımdairəvi şəkildə olub, ağız tərəfi bir qədər sivri şəkildə xaricə qatlanmış səthi isə qismən şüyrələnmişdir.

---

[1] Aləm Nuriyev., Əlibaba Babayev Bərdə şəhərinin tarixi-arxeoloji oçerki (antik və orta əsrlərdə). Bakı 2001, s.57-58; Джафарзаде И.М. Историко археологической очерки старой Гянджи, Баку, 1949, с.38.; Əhmədov Q.M. Azərbaycan şirsiz saxsı məlumatı. Bakı, 1959, s. 66-67.

[2] Левиатов В.Н. Керамика старой Гянджи. Баку, 1949. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri Bakı, 1979, Babayev İ.A. Əhmədov Q.M. Qəbələ. Bakı, 1981; Ахмедод Р.Дж. Керамика города Баку, IX-XVII вв. Баку, 1992.





Diqqətlə araşdırıldıqda onların gilinin tərkibində, rəngində, formalarında, bəzəklərindəki fərqləri və hansı şəraitdə istifadə edildiyini müəyyən etmək mümkündür. Bu eyni zamanda onların bir-birindən xronoloji ardıcılıqqla fərqləndiyini də söyləməyə imkan verir. Məsələn, müqayisəli təhlil zamanı məlum olur ki, əvvəlki dövrlərə nisbətən şəhər dulusçuları xammalın keyfıyyətinə diqqəti artırmaqla bərabər, dulus çarxınm təkmilləşdirilmesinə də nəzər yetirmiş, bu da öz nöbəsində, hazırlanan məmulatın keyfiyyətinə də öz təsirini göstərmişdi. Bütün deyilənlərə uyğun olaraq IX-X və XI-XIII əsr qazanları arasında da müəyyən fərqləri görmək olar.

Gili qırmızımtıl rəng olana kimi bişirilmiş qazan tipli bir neçə qabın ağız hissələri aşkar edilmişdir. Nümunələrin ağzının kənarı xaricə tərəf qatlanmış bortik əmələ gətirmiş xarici səthinə qırmızı rəngli seyrək boya çəkilmişdir. Qabın bişmə prosesində tam bişmədiyindən kəsikdə qab lövhəsi qara rəngdədir. Nümunələrin daxili və xarici səthində seyrək hiss təbəqəsi vardır. Dulus çarxında hazırlanmış bu nümunənin xarici səthi orta səviyyəü şüyrələnmiş və gilinin tərkibində irili xırdalı qum qatışığı vardır[1] (Tablo III, şəkil 4,5).

Bütün göstərilən qazan nümunələri əsasən orta həcmli qazanlar sırasına aiddir. Onların oxşarlarına Beyləqan və Bakının müvafiq IX-X əsrlərə aid edilən qazanları içərisində rast gəlinir.[2]

Bilgəhdən XI-XIII əsrlərə aid qazıntı sahəsinin 2,5 m. dərinliyindən aşkar edilən gili qəhvəyimtil rəng olana kimi bişirilmiş qazan tipli mətbəx qabının bir neçə nümunəsi aşkar edilmişdir.

Tədqiq edilən bu nümunələrin qulp hissəsinin səthində hiss təbəsinin izi qalmışdır. Qulp kəsikdə lentvari olub qabın ağız dairəsi istiqamətində bərkidilmişdir. Qulpun qurtaracaq hissəsində bədiyyat naminə qırçınlar əmələ gətirmişdir. Bu qırçınlar əsasən qabın ocağın üstündən qaldırmağa kömək edir. Bişməsi çox da yaxşı

---

[1] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının İnventar kitabı. İnventar. №25, 32, 35, 37.

[2] Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979, s.28,57; Ахмедов Р.Дж. Керамика города, Баку, IX-XIII, Баку, 1992, ъ.36-38.

olmayan bu nümunənin gilinin tərkibində irili-xırdalı qum qatışığı vardır. Qulpun diametri 2,5 sm-dir.

Tədqiq edilən digər nümunə gili qəhvəyimtil rəng olana kimi bişirilmiş qazan tipli qabın ağzının kənarından bir hissədir. Qulp ağzının diametri istiqamətində yapışdırılmışdır. Qulpun qurtaracağı kəsmə xətlər vasitəsilə usta tərəfindən qırçınlanmışdır. Qulpun diametri 3 sm-dir. (Tablo III, şəkil 4,6).

Qeyd etmək lazımdır ki, saxsı qazanların paslanması və korreziyaya uğramaması bu qazanlara, o dövrdə mətbəxdə istifadə olunan mis və tunc qazanlara (metaldan olan qazanlarda qida məhsulu uzun müddət qaldıqda zəhərlənmə verə bilir - Ə.B) nisbətən üstünlük qazandırırdı.[1] Ona görə də IX-XIII əsrlərdə Azərbaycanın bütün orta əsr şəhərlərində olduğu kimi, Abşeronda o cümlədən Bilgəhdə saxsıdan hazırlanmış qazanlar üstünlük təşkil etmişdi;

## Su qabları

Bilgəhdən aşkar edilən IX-XIII əsrlərə aid dulus məmulatı içərisində su qabları da vardır. Onlar bu dövrə aid gil məmulatının mühüm tərkib hissəsidir. Əldə edilən su qablarının gili əsasən sarımtıl rəng olana kimi bişirilmişdir. Bu su qablarının gövdə ilə boğazın birləşdiyi hissədə qoşa xətlə bəzənmişdir. Cızma üsulu ilə naqş edilmiş xətlər qabın həmin hissəsini bütövlükdə qurşayır. Bilgəhdən arxeoloji qazıntı nəticəsində aşkar edilmiş bir neçə su qabının təsvirini verək.

1. Gili sarımtıl rəng olana kimi bişirmiş su qabının lülək hissəsi aşkar edilmişdir. Tərkibində irili-xırdalı qum qatışığı olan bu nümunənin salamat qalan hissəsi 5 sm-dir. Daxili hissəsinin diametri 1,2 sm-dir. Bişməsi yaxşı olan bu qabın xarici səthi usta tərəfindən hamar şüyrələnmişdir (Tablo III, şəkil 7).

2. Gili qırmızı rəng olana kimi bişirilmiş nazik divarlı su qabının bir hissəsi arxeoloji qazıntı nəticəsində aşkar edilmişdir. Lülək

[1] Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı Bakı, s. 65.





ətrafı hissə cızma xətlərlə konsentrik formada haşiyələnmişdir. Qabın lüləsinin diametri 1 sm, salamat qalan hissəsi 7 sm-dir. Bişməsi yaxşı olan bu nümunənin gilinin tərkibində qum qatışığı vardır (Tablo V, şəkil 5).

3. Gili sarımtıl rəng olana kimi bişirilmiş su qabının ağız hissəsi aşkar edilmişdir. Nümunənin ağız hissəsinə köbə çəkilmiş, ortadan kiçik diametrli deşik açılmışdır. Deşiyin diametri 1 sm-dir. Gilinin tərkibində qum qatışığı olan bu qabın mühafizəsi yaxşıdır.

1995-ci ildə aşkar edilmiş bu su qablarının dəqiq simmetriyası, keyfiyyətli gili, yaxşı bişməsi və dulus dəzgahında yaxşı hazırlanması həmin dövrdə Bilgəh əhalisinin məişətinin təsərrüfat həyatının zənginliyindən xəbər verir.[1]

Haqqında bəhs olunan qabların və Bilgəh qazıntıları zamanı tapılmış digər nümunələrin ən yaxın oxşarlarına Bərdə, Beyləqan, Gəncə, Şamaxı, Bakı, Şabran şəhəri, Gülüstan qalasının arxeoloji materialları içərisində rast gəlindiyindən onlar IX-XIII əsrlərə aid edilir.[2]

## Bardaqlar

Bilgəhdən aşkar edilən şirsiz saxsı nümunələri içərisində bardaqları da qeyd etmək lazımdır. Məlum olduğu kimi tək qulplu təchiz olunmuş bardaqlar kiçik, orta və nisbətən iri həcmli olur. Bardaqlar əsasən məişətdə və təsərrüfatda işlənmişdir. XI-XIII əsrə aid olan bardaqların əksəriyyəti qırmızı rəng alana kimi bişirilmiş, divarları qalındır.

Şərti olaraq "Dini bina" adlandırdığımız qazıntı sahəsində kiçik bardaq tipli qabın qulp hissəsi aşkar edilmişdir. Gili qırmızımtıl rəng alana kimi bişirilmiş bu nümunənin gilinin tərkibində irili-xır-

[1] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının İnventar kitabı. İnventar № 52, 55, 57.

[2] Aləm Nuriyev. Əlibaba Babayev. Bərdə şəhərinin tarixi-arxeoloji oçerki. Bakı, 2001, s.60.

dalı qum qatışığı vardır. Bişməsi yaxşı olan ölçüsü 2 sm olan bu nümunənin qulpu kəsikdə lentvari olub 2,5 m dərinlikdən aşkar edilmişdir.

Digər bardaq tipli nümunənin gili sarımtıl rəng olana kimi bişirilmişdir. Kəsikdə qulpu lentvari olub, diametri 1x3,5 sm-dir. Bişməsi yaxşı olan bu nümunənin gilinin tərkibində möhkəmlik naminə irili-xırdalı qum qatışığı vardır (Tablo V, şəkil 6).

Gili qırmızımtıl rəng olana kimi bişirilmiş digər nümunə iri həcmli bardaq tipli qabın vertikal istiqamətdə yapışdırılmış qulp hissəsidir. Qulpun kəsikdə lenti 4sm, ən geniş hissədən ümumi diametri 7x3 sm-dir. Bişməsi yaxşı olan bu nümunənin gilinin tərkibində irili xırdalı qum qatışığı vardır (Tablo III, şəkil 7).

Bilgəhdən aşkar edilən bardaq tipli bu nümunələrin[1] oxşarlarına Bakıda (İçərişəhərdə), Bərdədə, Beyləqanda rast gəlinir və müvafiq olaraq IX-XIII əsrlərə aid edilir.[2]

### Xeyrələr

IX-XIII əsrlərə aid digər şirsiz saxsı məmulatı əhalinin məişətində və təsərrüfat həyatında işlənən xeyrələrdir. Qazıntılar zamanı bir neçə xeyrə nümunələri də aşkar edilmişdir. Onlar azlıq təşkil edir.

Gili bozumtul olan xeyrə tipli qabin oturacaq hissəsi şərti olaraq "Dini bina" adlandırdığımız qazmtı sahəsindən 2,5 m dərinlikdə aşkar edilmişdir. Qabın xarici səthi şüyrələndikdən sonra səthinə qaramtıl rəngli boya çəkilmişdir. Dulus çarxında hazırlanan bu nümunənin gilinin tərkibində möhkəmlik naminə irili-xırdalı qum qatışığı vardır. Qabın daxili səthində formalaşma zamanı ustanın əl izləri tam aydınlığı ilə qalmışdır. Bişməsi yaxşı olan bu nümunənin oturacaq hissəsinin uzunluğu 11 sm-dir. Nümunənin oxşarlarına

[1] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının inventar kitabı, İnv. M., 66,73

[2] Aləm Nuriyev. Əlibaba Babayev. Bərdə şəhərinin tarixi arxeoloji oçerki. Bakı, 2001, s.58





Bakı, Bərdə, Beyləqan və Azərbaycanın digər orta əsr şəhərlərində rast gəlinir və IX-XIII əsrlərə aid edilir[1] (Tablo 3, Şəkil 2).

### Çıraqlar

Əhalinin məişət həyatında geniş şəkildə istifadə edilən gil məmulatının bir qrupunu da çıraqlar təşkil edir. Bilgəhdən şərti olaraq "Dini bina" adlandırdığımız qazmtı sahəsindən aşkar edilən gildən düzəldilmiş çıraqlardan evlərin işıqlandırılmasında istifadə olunmuşdur.

Gil çıraqlar lüləli, lüləsiz, kasavari ellips və şar formalı olur. Ümumiyyətlə, çıraqların yuxarı hissəsində soğanağa bənzər boğaz düzəldilir və oturacaqları adətən düz olur. Onun gövdəsində bir tərəfdən deşik açıb, ora getdikcə daralan lülə yapışdırılırdı. Bu lüləyə isə fitil taxılırdı. Fitilin yandırılan hissəsini bayıra çıxarmaq üçün lüləyin qurtaracağında üstünden deşik açılırdı. Çıraqların qulpu lüləyin əks tərəfmdə düzəldilirdi. Gili qaramtıl rəng olana kimi bişirilmiş çıraq yastı oturacağa malikdir. Yarımşar gövdəyə malik bu nümunənin ümumi hündürlüyü 6 sm-dir. Yağ tökülən hissədə lülənin diametri 3 sm, ağzının diametri 3, 5 sm olan bu nümunənin ağzının kənarı xaricə tərəf qatlanmışdır[2] (Tablo IV, şəkil 1, 2, 3). Qazıntı sahəsindən əlavə olaraq daha 4 ədəd çıraq nümunələri aşkar edilmişdir. IX-XIII əsrlərə aid olan bu nümunələrə Azərbaycanın orta əsr yaşayış məntəqələrində tez-tez təsadüf edilir.[3]

### Şirli saxsı məmulatı

Azərbaycanda şirli qablar istehsalına əsasən IX əsrdən sonra başlanılmışdır. R.C.Əhmədov Bakı şəhərinin arxeoloji materialları-

[1] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının invental kitabı. İnv, №27.

[2] Yenə orada, №49.

[3] Геюшев Р.Б. Глиянные светилники из Кабалы, Доклады Ан Аз ССР. 1961 т.XVII; Новрузлу А.И. Средневековая керамика Азербайджана IX-XVII вв. с.19-20

na əsasən fizika-kimyəvi analizi nəticələrinə görə, şirli qablar istehsalının VIII əsrin sonu - IX əsrin əvvəllərində başladığını qeyd edir.[1]

Qeyd etmək lazımdır ki, Abşeronda VIII əsrin sonlarından başlayan şirli qablar istehsalı IX əsrdə artıq təkamül mərhələsinə keçmişdi. IX-XI əsrlərdə əsasən kiçik həcmli mətbəx və süfrə qabları şirlənirdi. Bir qədər sonra şirli qabların istehsalı kütləvi hal almışdı. Belə ki, xırda və orta biçimli əksər qablar hətta küplər, qazanlar belə bəzən şirlənirdi. Bununla belə bütün IX-XIII əsrlərdə şirli qablar istehsalında əsas diqqət mətbəx və süfrə qablarına verilmişdir. Ən çox şirlənən qablar bunlar idi: boşqablar, kasalar, nəlbəkilər, duz qabları, dolçalar, kuzələr, xeyrələr və s.

Əksər hallarda şirin altından anqob çəkilirdi. Məlum olduğu kimi anqob müxtəlif tərkibli və müxtəlif üsulla hazırlanmış gil məhlulu olub əsasən dörd məqsəd üçün işlədilirdi; Gil qabların məsamələrini örtmək və qabın səthini hamarlamaq; Gil qabların rəngini qismən dəyişdirmək; Gil qablara şir çəkmək üçün onları aştarlamaq; qablardan sonra onun üstü bir və ya bir neçə rənglə (sarı, tünd, qəhvəyi, yaşıl, ağ və s.) bəzədilmişdi.

Ümumiyyətlə qabların bədii şəkildə bəzədilməsinə gəlincə tədqiqatçılar bədii şirli saxsı qabları bəzək texnikası xüsusiyyətlərinə görə 2 növə bölürlər: anqoblandıqdan sonra şəffaf şirlə örtülmüş qablar; şəffaf şiraltında səthi anqobla örtülüb üstdən boyalarla naxışlanmış qablar.[2]

Azərbaycanın orta əsr şəhərlərindən aşkar edilmiş şirli qab nümunələri bədii cəhətdən çox yaxın olub, texniki xüsusiyyətlərinə görə fərqlənir. Bədii cəhətdən onların yaxınlığı müxtəlif şəhərlərdən tapılan gil qabların həmdövr istehsal edilməsini göstərir. Texniki cəhətdən müxtəliflik isə onların tapıldığı yerdə, başqa sözlə ayrı-ayrı şəhərlərdə istehsal olunduğunu sübut edir. İndi isə ayrı-ayrılıqda şirli dulus məlumatlarının təsvirini veririk.

---

[1] Axmedov R.Dj. Keramika Baku IX-XVIII vv. Baku, 1992, s.57

[2] Наджафова Н.Н. Шелковников Б.А. Художественная керамика Азербайджана IX в. Изв. Ан.ССР. 1958, №4, s.104-105.





## Kasalar

Bilgəhdən əldə edilmiş kasaların eləcə də boşqab və digər mətbəx qablarının diqqətlə tədqiq edilməsi şirləmə üsulunu tətbiqi ardıcıllığını izləməyə imkan verir. Həmin qablarda rənglər, cizgilər, təsvirlər sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru inkişaf pillələrini nümayiş etdirir.

İlk vaxtlar ustalar şirləmə texnikasını yaxşı mənimsəyə bilməsələr də, IX əsrin ortalarından etibarən mükəmməl şirli qablar istehsal etməyə başlamışlar. Əgər, əvvəllər qabın üzərini kobud surətdə qəhvəyi, ya da sarı rəngli damcılarla örtürdülərsə, nisbətən sonrakı dövrlərdə (IX-XI əsrlərdə) onun üzəri bütünlüklə həm qəhvəyi, həm sarı və yaşıl şirlə örtülürdü. Bir sıra hallarda ustalar onun üzərini şəffaf şirlə də örtürdülər.

Tərkibi əsasən qalay və qurğuşundan (silisium oksidindən) ibarət olan şəffaf şirli qablara parıltı verməklə, ondan əvvəl qaba çə-kilmiş maddəni çirklənməkdən və tez xarab olmaqdan mühafizə edir.

Bilgəhdən əldə edilmiş kasa nümunələrinin üzəri bir neçə rənglə işlənmişdir. Onların içərisində monoxrom şirlə örtülmüş qablara demək olar ki, tez-tez rast gəlinir.

Gili qırmızımtıl rəng alana kimi bişirilmiş kasa tipli qabın bir hissəsinin daxili və xarici səthinə bir tonlu mis oksidindən alınan yaşıl rəngli şir çəkilmişdir. Bişməsi yaxşı olan bu nümunənin gilinin tərkibində möhkəmlik naminə irili-xırdalı qum qatışığı vardır (Tablo VI, şəkil 1).

Digər aşkar edilən kasa tipli qabın gili bozumtul, qalın divarlı olub daxili səthinə qalın təbəqəli tünd yaşıl rəngli şir çəkilmişdir. Oturacağı dabanlı (kablok) bişməsi yaxşı olan bu nümunənin tərkibində möhkəmlik naminə irili-xırdalı qum qatışığı vardır (Tablo VII, şəkil 5).

Bilgəhdən şərti olaraq "Dini Bina" adlandırdığımız qazıntı sa-

həsindən 2,5m dərinlikdən aşkar edilən kasa tipli şirli qablar Qəbələnin, Beyləqanın, Cülfanın və Azərbaycanın digər orta əsr şəhərlərində öz oxşarlarını tapır və IX-XIII əsrlərə aid edilir.

**Boşqablar**

Bilgəhdən IX-XIII əsrlərə aid edilən şirli dulus məmulatı içərisində boşqablar ən çox rast gəlinən məişət və mətbəx qablarıdır. Əhalinin süfrəsində mühüm yer tutan daim göz qabağında olan boşqablar, şübhəsiz dulus ustaları tərəfindən təkmilləşdirilməsinə daha çox diqqət yetirilən qablardan biri olmuş, onun üzərinə müxtəlif rənglerlə bəzək vurulmuşdur (onların əldə edilmiş Bilgəhin IX-XIIəsrlərə aid edilən şirli boşqab nümunələrindən gili bozumtul rəng alana kimi bişirilmiş boşqab tipli qabın ağız hissəsi aşkar edilmişdi). Daxili və xarici səthi yaşıl rəngli şirlə doldurulmuş bu nümunələrdən birinin ağız hissəsi qabırğavari formada basma üsulu ilə koniulurlarla doldurulmuşdur. Bişməsi yaxşı olan bu nümunənin gilinin tərkibində irili-xardalı qum qatışığı vardır.

Bilgəhdən şərti olaraq "Dini bina" adlandırılan qazıntı sahəsinin 2,5 m. dərinliyindən aşkar edilən gili qırmızımtıl rəng alana kimi bişirilmiş boşqab tipli qabın bir hissəsinin daxili səthinə ağ, yaşıl və sarı rəngdə bəzək əlavə edilmişdir. Gövdə ilə bortun birləşdiyi hissəyə qazıma usulu ilə qoşa paralel xətlər əlavə edilmişdir. Xətlər qabın daxili səthini bütövlükdə qurşayır ki, bu da nümunənin bədii keyfiyyətini artırır. Bişməsi yaxşı olan bu nümunənin tərkibində irili-xırdalı qum qatışığı vardır. Boşqablar IX-XIII əsrlərə aid edilir və Azərbaycanm orta əsr şəhərlərində aşkar edilən nümunələrdə yaxın öz oxşarlarını tapır.

**Xeyrələr**

Bilgəhdə aşkar edilmiş şirli dulus məmulatı içərisində təsərrüfat və məişət əhəmiyyətli xeyrələr xüsusi yer tutur. Qazıntı





sahəsində rast gəlinən xeyrələr onun yerli sakinlər tərəfindən geniş gəkildə istifadə edildiyini göstərir. Aşağıda aşkar edilən xeyrələrdən bir neçəsinin təsvirini vermək məqsədəuyğun olardı.

1. Gili qırmızımtıl rəng olana kimi bişirilmiş xeyrə tipli digər nümunənin səthinə sarı, yaşıl və ağ rəngli şir vasitəsilə rəsmlər həkk edilmişdir. Üzərinə cızma üsulu ilə mərkəzi hissəsinə qara rəngli nəbatı bəzəklər də əlavə edilmişdir. Rəsmlər bütövlükdə qabı zövqlə doldurmuş və müəyyən kompozisiya yaratmışdır. Bişməsi yaxşı olan bu nümunənin gilinin tərkibində irili-xırdalı qum qatışığı vardı[1] (Tablo VII, şəkil 10).

2. Gili qırmızımtıl rəng olana kimi bişirilmiş digər xeyrə tipli qabın daxili səthinə tünd qəhvəyi rəngli şirlə zolağ çəkilmişdir. Qabın daxili səthinə nəbati naxışlar vurulmuşdur[2] (Tablo VI, şəkil 11).

Gili qırmızımtıl rəng olana kimi bişirilmiş xeyrə tipli qabın oturacaq hissəsi qazıntı sahəsinin 2,5 m. dərinliyindən aşkar edilmişdir. Daxili səthinə anqob üstündən sarı rəngli şir çəkilmişdir. Qabın mərkəzi hissəsinə iki xətdən ibarət konsentrik xətt bəzək çəkilmişdir ki, bu da qaba xüsusi yaraşıq verir. Nümunənin oturacaq hissəsi dabanlı olub, xarici səthinə şüyrə çəkilmiş və daha sonra pardaxlanmışdır. Bişməsi yaxşı olan bu nümunənin tərkibində irili-xırdalı qum qatışığı yardır. Ağzının diametri 33 sm, oturacağının diametri isə 11 sm-dir[3] (Tablo VI, Şəkil 9).

Bilgəhdə aşkar edilən xeyrə nümunələri Azərbaycanın orta əsr şəhərlərindən aşkar edilən analoji nümunələrlə müqayisə edilərək müvafiq surətdə IX-XIII əsrlərə aid edilir.

Şərti olaraq "Dini bina" adlandırdığımız qazmtı sahəsindən üzərinə şir çəkilmiş bir ədəd masqura və bir ədəd cam aşkar edilmişdir. Aşağıda onların ayrı-ayrılıqda təsvirini verək.

Gili qırmızımtıl zərif divara malik masqura tipli bu qabın oturacaq hissəsi arxeoloji qazıntı nəticəsində aşkar edilmişdir. Daxili

[1] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının inventar kitabı, İnv. №106.
[2] Yenə orada, №110.
[3] Yenə orada, №127.

səthi yaşıl və qəhvəri rəngli şirlə doldurulmuşdur. Bişməsi yaxşı olan bu nümunənin tərkibində narın qum qatışığı vardır[1] (Tablo VI, şəkil 2).

Gili qımızımtıl rəng alana kimi bişirilmiş cam tipli qabın yarı hissəsi aşkar edilmişdir. Nümunənin daxili səthinə sarı rəngli şir çəkilmiş, gövdə ilə oturacağın birləşən hissəsinə isə qara rəngli şirdən istifadə edilərək iki qoşa paralel xətt çəkilmişdir. Bu xətlər demək olar qabın daxili hissəsini bütövlükdə qurşayır və ona xüsusi yaraşıq verir. Nümunənin yuxarı sektoru həndəsi kvadratlarla doldurulmuşdur. Kvadratlara doldurularkən qara rəngli şirlərdən istifadə edilmişdir[2] (Tablo VI, şəkil 10).

Qeyd etdiyimiz rənglərdən istifadə edən orta əsr rəssamlan onun daxili və qismən də xarici səthinə müxtəlif rəsmlər zövqlə həkk etmişdir. Onlar əsasən nəbati və həndəsi rəsmlərdən ibarətdir. Əldə edilən qab nümunələrinin hamısı dulus çarxında hazırlanmışdır. Dulusçu onların gilini qırmızı, sarı bozumtul rəng alana kimi bişirmişdir. Qab nümunələrinin gilinin tərkibinə irili-xırdalı qum qatışığı da əlavə edilmişdir ki, bu da qabın davamlılığını artırır. Müxtəlif ölçülü qablar yaxşı simmetriyaya malik olmuşdur.

## Kaşılar

IX-XIII əsrlərdə Bilgəhdə məişət və təsərrüfatda işlədilən saxsı məmulatı ilə yanaşı, müxtəlif formalı xarici səthi göy, firuzəyi rəngli şirlə örtülmüş çox zəngin bədii kaşılar da istehsal edilmişdir. Bu növ məmulat əsas etibarı ilə memarlıq sahəsində istifadə edilmiş, bir çox tikililərdə, dəbdəbəli imarətlərdə, hamamlarda, məscidlərdə və s. yerlərdə işlədümişdir.

Azərbaycanda kobalt filizinin külli miqdarda olması, bu dövrlərdə ondan tünd göyrəngli şir üçün səmərəli istifadə olunması nəticəsində kaşıların istehsalı genişlənirdi. Onu da qeyd etmək lazımdır ki,

[1] Yenə orada, №118.

[2] 1996-cı il. Bilgəh kompleks arxeoloji ekspedisiyasının inventar kitabı. İnv. №126.





kaşıların hazırlanması ustadan xüsusi məharət tələb edən bir neçə əməliyyatdan ibarət bir proses idi.[1] Bunlar gil məhlulunun hazırlanması, formalaşdırılması qurudulması, bişirilməsi, şirin hazırlanması, nümunənin şirlə örtülməsi və s. işlərin görülməsini tələb edirdi. Bu kaşıları yaradan sənətkar divar tərtibatı sahəsində olduqca təcrübəli incə zövqə malik olmalı idi. Bilgəhdən aşkar edilən firuzəyi, yaşıl və göy rəngli səthə malik olan kaşı nümunələrinin alt hissəsində onu divarla bağlayan kirəc də qalmışdır. Kirəcin kaşıların altı üçün istifadə edilməsi olduqca tam aydınlığı ilə görünür. Həmin kaşılarm ölçüləri 9x4 sm və 10x4 sm nisbətindədir. Bu da daş düzümündə kaşıların bədii düzümünə müsbət təsir edir.

## Daş kürəbəndlər və axurbaşı

Bilgəhdən şərti olaraq "Dini bina" adlandırdığımız qazıntı sahəsndə yerli suvanma sal daşdan hazırlanmış ortasından gəclər açılmış kürəbəndlər aşkar edilmişdir. Daş kürəbəndlərdən kənardakı qaynamaların yaşayış məntəqəsinə çəkilməsi zamanı geniş istifadə edilmiş və yaşayış məntəqəsi su ilə təchiz edilmişdir. Əşyanın biri digərinə yapışdırılmasında yapışqanlı gəc məhluldan istifadə edilmişdir ki, bunu da bir daha aşkar edilən kürəbəndlərdəki gəc məhlulunun qalıqları sübut edir. Aşkar edilən daş kürəbəndlərin ölçüləri 60 sm, 70 sm. və 80 sm. uzunluğunda olmuşdur. Əşyanın ortasından açılmış kəclərin dərinliyi 8 sm. və 9 sm. olmuşdur. Oxşar nümunələr Şamaxı rayonu Bağırlı kəndi ərazisində olan Cümüşlü yaşayış yerindən 1960-1970-ci illərdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş və tədqiq olunmuşdur (şəkil 4).

Qazıntı sahesində aşkar edilən daşdan hazırlanan digər nümunə əsasən yük və qoşqu heyvanlarını bağlamaq üçün istifadə edilən iri həcmli axurbaşı adlanan sal daş nümunəsidir. Belə nümunələr karvansaralarda və həyət evlərində mal-qaranı saxlamaq üçün tikilən xüsusi tövlələrdə heyvanı iplə bu daşlara bağlayırdılar. Daşın ortasın-

[1] Məmmədzadə K.M. Azərbaycanın inşaat sənəti. Bakı, 1978, s. 192-194.

da ipi bağlamaq üçün xüsusi dairəvi deşik açılırdı. Aşkar edilən daşın uzunluğu 35 sm, eni isə 25 sm-dir. Nümunənin ortasından açılan deşiyin diametri 50 sm-dir (şəkil 3). Daş kürəbəndlər və axurbaşı daşın paralelləri Azərbaycanın digər orta əsr yaşayış yerlərindən o cümlədən hal-hazırda Şamaxı payonının qədim tarixə malik Göylər, Bağırlı və Sulud kəndlərində aşkar edilən oxşar nümunələrlə analoji müqayisə edilərək XI-XIII əsrlərə aid edilir.

## Qabları bişirmək üçün istifadə edilən ocaq

Qabları bişirmək üçün istifadə edilən ocaq şərti olaraq "Dini bina" adlandırdığımız qazıntı sahəsindən təxminən 100 metr aralı aşkar edilmişdir. Ocağın ətrafına saman qatılmış palçıq vasitəsilə tirə çəkilmişdir. Ocaq uzun müddət yandığından tirə də uzun müddət bişmiş və bərkiyərək qırmızı rəng almışdır. Qabları əsasən tirənin üstünə düzərək bişirirdilər. Ocağın hərarəti həm tirəni, həm də tirə üstündə qalan qabları bişirirdi. Ocağın içərisində qalın kül qatının olmasına əsasən ondan uzun müddət istifadə edildiyini göstərir. Ocağın diametri 1 sm, yan divarlarının hündürlüyü isə 60 sm, divarüstü bortun eni isə 16 sm. olmuşdur. Ocaqdan və yanında aşkar edilən yanmış saxsı məmulatlar Azərbaycanın digər orta əsr yaşayış yerlərindən aşkar edilən analoji nümunələrlə müqayisə edilərək XI-XIII əsrlərə aid edilir (şəkil 8).

Arxeoloji materiallar əsasında Bilgəhin orta əsrlərə aid maddi mədəniyyət nümunələrinin tədqiqi və onun Azərbaycanın digər orta əsr yaşayış yerlərinin arxeoloji materialları digər orta müəyyən nəticələr çıxarmağa imkan verir. Orta əsrlərdə Azərbaycan əhalisinin, o cümlədən Abşeronda yaşayan əhalinin istehsal sahələrindən biri sənətkarlıq olmuşdur. Arxeoloji materialların tədqiqi göstərir ki, orta əsrlərdə Bilgəh əhalisinin məşğul olduğu əsas sənətkarlıq sahələri əhalinin məişət və təsərrüfat həyatında mühüm rol oynamış dulusçuluq, şüşə istehsalı, metalişləmə, daşişləmə idi. Dulus məmulatı istehsalının başlıca hissəsini məişətdə və təsərrüfatda geniş şəkildə işlənən müxtəlif formalı və biçimli qablar təşkil edir.





Tədqiq edilmiş arxeoloji materiallar göstərir ki, bəzi hallarda müxtəlif sənət sahələrində geriləmə olmasına baxmayaraq, orta əsrlərdə sənətkarlıq məhsulları əhalinin məişət və təsərrüfat həyatında mühüm yer tutmuşdur. Arxeoloji materiallar içərisində metal, şüşə, daş məmulatlarının olması bu dövrdə həmin məmulatlardan əhalinin məişət və təsərrüfat həyatında genış istifadə edildiyini sübuta yertirir.

Yazılı mənbələrdə Abşeron kəndlərinin erkən orta əsrlərdəki iqtisadi və təsərrüfat həyatına dair məlumatlar çox azdır. Məlumdur ki, Abşeron yarımadasının iqtisadi tarixinə dair ən qədim məlumatlar neft və duz hasilatı, emalı və nəqli ilə bağlıdır. Hələ ərəblər Azərbaycana gəldiyi zaman Abşeron artıq öz nefti ilə məşhurlaşmışdı. Lakin bu faktlar əsasən Bakı şəhərinin özü ilə bağlıdır. Tarixçilərin neft və duz hasilatı, emalı və nəqli ilə bağlı olaraq verdikləri məlumatların Bakı ətrafındakı kəndlərə nə dərəcədə aid olduğunu (ən azı erkən orta əsrlərdə) söyləmək çətindir.

Maştağa əhalisinin təsərrüfat həyatında bostançılıq, tərəvəzçilik, üzümçülük, gülçülük kimi sahələr mühüm yer tutur. Əsrlər boyunca burada yeməli kök, zəfəran əkilib-becərilir. XIX əsrədək Maştağadan zəfəran hətta ixrac olunurdu.[1]

Orta əsrlərdə Maştağa, Bilgəh, Nardaran kəndlərində də sənətkarlığın və ticarətin inkişaf etdiyi şübhəsizdir. Ərazidən aşkar edilmiş müxtəlif sənət nümunələrinin qalıqları və sikkələr bunu sübut edir. Məlumdur ki, Bakıda kəsilmiş mis sikkələrin üzərində balıq, şir, dəvə, quş və s. rəsmləri çəkilmişdir. Balıq təsvirləri Şirvanşahlar sarayının ərazisində tapılmış yaşıl şirli boşqab üzərində, habelə Qobustan qayalarında da vardır. Maraqlıdır ki, balıq təsvirinə Maştağada və Abşeronun başqa kəndlərində hal-hazırda evlərin fasadında təsadüf olunur. Bunun səbəbini bilməyən Abşeron əhalisi onu qədim ənənələrlə izah edir.

[1] Обозрение Российских владений за Кавказом. ч.IV, СПб. 1838, с.17

XVII-XVIII əsrlərdə Bakıda və onun ətrafında olmuş səyyahlar neft və duz hasilatından bəhs edərkən tez-tez Maştağanın da adını çəkirlər. Lakin bu dövrə aid olan geniş məlumatlar əsasən Maştağanın kənd təsərrüfatı ilə bağlıdır.

XVII-XVIII əsrlərdə Bakı limanının tranzit ticarətdə rolunun artması şəhər ətrafındakı kəndlərin iqtisadi inkişafına təkan verdi. Bu zaman bir çox Abşeron kəndlərinin əhalisi yük daşımaq üçün çoxlu dəvə saxlayırdı.[1]

Abşeronun ən iri yaşayış məskəni olan Maştağa kəndində də böyük bazar var idi. Burada hər cümə günü böyük həftə bazarı təşkil edilirdi. Bu həftə bazarına, Bakıdan demək olar ki, həmişə tacirlər gəlirdilər. Tiflislə, İrəvanla, Cənubi Qafqazın digər mərkəzləri ilə də ticarət əlaqələri saxlanılardı.[2] Xanlıqlar dövrünə aid olan mənbələrdə Maştağa, Nardaran, Mərdəkan, Buzovna, Pirşağa, Novxanı kəndlərində çoxlu zəfəran sahələri, qovun-qarpız bostanları, üzüm bağları olduğu göstərilir. Bu məhsulların digər Abşeron kəndlərində də əkilib-becərildiyi mənbələrdə öz əksini tapmışdır.

Xanlıqlar və Rusiya işğalı dövründə Abşeronda, o cümlədən Maştağada başlıca təsərrüfat sahəsi əkinçilik idi. Əsas əkin sahələri kəndin ətrafında yerləşirdi.

Qeyd etmək lazımdır ki, XIX əsrin 30-cu illərində Maştağa və Nardaran kəndləri arasındakı əkin sahələri ilə bağlı olan mübahisələr haqqında bəzi tarixi məlumatlar da vardır. Bu zaman canlı şahid qismində dindirilmiş 127 yaşlı Hümbət Nəzərəli oğlu və 124 yaşlı Allahverdi Zeynal oğlu adlı Maştağa sakinləri bildirmişlər ki, mübahisəli ərazi hələ I Pyotrun və Nadir şah Əfşarın dövründə maştağalı Həmdan bəyə, sonralar isə onun ailəsinə, xüsusilə Gülməhəmməd bəyə (çox güman ki, onun oğlu idi) məxsus olmuşdur.[3] Etnoqrafik materiallar göstərir ki, Abşeronda əsasən payızlıq

[1] Qerber. İ.Q. Göstərilən əsəri, s.293-294; Ş.Aşurbəyli, s.226

[2] Aşurbəyli S. Bakı şəhərinin tarixi, s.226

[3] Пахомов Е.А. О сословно-поземельном вопросе в Азербайджане, с.20





buğda əkilirdi.[1] Məsələn, K.F.Spasski-Avtomonov XIX əsrin 40-cı illərində Maştağa sahəsində xeyli miqdarda payızlıq buğda yetişdirildiyinə dair məlumat verir.[2]

Abşeronun digər kəndləri ilə yanaşı Bilgəhdə və Maştağada kök də əkilir və öz yüksək keyfiyyəti ilə fərqlənirdi. Hal-hazırda da Maştağada, Bilgəhdə, Nardaranda və digər Abşeron kəndlərində əhali xırçılıqla və tərəvəzçiliklə məşğul olur. XVIII-XIX əsrlərdə Abşeronda zəfəran əkinləri də geniş yayılmışdı. Lakin XIX əsrin ortalarından başlayaraq zəfəran əkinlərinin sahəsi azalmağa başlamışdır. 1885-1886-cı illərdə Bilgəh, Nardaran, Maştağa da daxil olmaqla zəfəran tarlalarının ümumi sahəsi 250 desyatin olmuşdur. Abşeron kəndləri arasında Maştağa zəfəran istehsalı üzrə daha qabaqcıl yer tuturdu.[3] Xüsusilə qeyd etmək lazımdır ki, Abşeron zəfəranı öz keyfiyyətinə görə bəzi Avropa ölkələrində istehsal edilən zəfərandan üstün idi. Zəfəran istehsalının tədricən azalması Abşeronda neft sənayesinin sürətli inkişafı ilə bağlı idi. Belə ki, əvvəllər zəfəran sahələri olan yerlərdə neft mədənləri salınırdı. Münbit torpaq sahələri həm azalır, həm də çirklənərək yararsız hala düşürdü.

Abşeron yarımadasında zəfəran istehsalı XX əsrin 20-30-cu illərində daha da azalmışdır. Daha sonralar Bilgəhdə bu təsərrüfat sahəsinin dirçəlməsinə cəhd göstərilmiş, xüsusi zəfəran sovxozu yaradılmış, lakin zəfəran istehsalı sahəsində nəzərəçarpacaq nailiyyət əldə edilməmişdir. Hal-hazırda zəfəran istehsalı sahəsində vəziyyət çox bərbaddır. Abşeronda, onun Bilgəh, Maştağa və Nardaran kəndlərində ipəkçilik də inkişaf edirdi. Vaxtilə Abşeronda ipəkçiliyin inkişaf etdiyini "Bilgəh" toponimi də təsdiq edir. Belə ki, xalq arasında geniş yayılmış məlumata görə, "Bilgəh" toponimi "Piləgah" sözü lə bağlıdır ki, bu sözün mənası isə "ipək olan yer"

[1] Səlimov-Şağani T.Q. Abşeronlular. Bakı, 1993, s.32

[2] Кавказский календарь. Тифлис, 1852, с.503

[3] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958, с.220

deməkdir.[1]

Abşeronda, o cümlədən Maştağada becərilən texniki bitkilərdən biri də pambıq olmuşdur.[2]

Maştağada və Bilgəhdə bağçılığın və üzümçülüyün inkişaf etdiyini orta əsr mənbələri də təsdiq edir.[3] Ərazidə bağçılığın inkişafı haqqında XVII-XVIII əsr müəllifləri (Ö.Çələbi, E.Kempfer, İ.Lerx və b.) də məlumat vermişlər. Şüvəlanda, Bilgəhdə, Maştağada bağçılıq və üzümçülük daha çox inkişaf etmişdi.[4]

Abşeron əhalisinin təsərrüfat həyatında əncir bağlarının böyük rolu olmuşdur. Bu baxımdan Maştağa, Nardaran, Bilgəh, Mərdəkan xüsusilə qeyd olunmalıdır. Abşeron kəndlərinin həyatında əncir bağları müasir dövrdə də mühüm rol oynamaqdadır. Belə ki, Bakı-Maştağa, Bakı-Mərdəkan yolları boyunca vaxtilə əkilmiş əncir ağacları hələ də qalmaqdadır.

Vaxtilə Maştağada zeytun bağları da əhalinin qayğı obyektlərindən olmuşdur.

Ötən əsrlərdə Abşeron kəndləri əhalisinin təsərrüfat həyatında maldarlığın mühüm, əvəzsiz rolu olmuşdur. Həmin kəndlərdə əhali xırda və iribuynuzlu heyvanlarla yanaşı dəvə bəsləyir, habelə ovçuluqla məşğul olurdu. Vaxtilə Abşeron kəndlərində atçılıq sənəti yüksək səviyyədə olmuşdur. Tanınmış rus səyyahı İ.Berezin XIX əsrin 40-cı illərində bu barədə maraqlı məlumat vermişdir. O, qeyd etmişdir ki, Maştağadan Buzovnaya gedərkən onları yerli bir süvari müşaiyət edirdi. Həmin süvari yol boyu süvarilik qabiliyyəti ilə insanı heyran edirdi. O, bəzən atın üzərində elə sürətli və gözlənilməz hərəkətlər edirdi ki, onu gözlə izləmək mümkün olmurdu.[5]

---

[1] Məcidova İ. "Bilgəh" - Azərbaycan MEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi. İnv. 3632, siyahı 9,11, s.2

[2] К.Ф.Спасский-Автономов. Описание Бакинского уезда Шемахинской губернии. Кавказский календарь, Тифлис, 1852, с. 503

[3] Musəvi T. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı, 1967, s.32, 81

[4] Баку и его окрестности. Тифлис, 1891, с.9

[5] И.Березин. Поездка на Апшеронский полуостров. Из путевого журнала, 1847, с.3-16





Abşeron yarımadasının təbiəti dəvəçilik üçün çox əlverişlidir. İ.Q.Gerber XVIII əsrin 20-ci illərində yazırdı ki, yarımada əhalisi çoxlu miqdarda dəvəyə malikdir. XIX əsrin əvvəllərinə qədər yarımadanın bir çox kəndlərində, o cümlədən Qalada, Güzdəkdə, Coratda, Maştağada, Sarayda, Zabratda, Novxanıda, Qobuda dəvə saxlanılmışdır. Məsələn, XIX əsrin 80-ci illərinə dair bir məlumatda göstərilir ki, Coratda 300, Qobuda 200, Maştağada və Sarayda hərəsində 100 baş dəvə vardı. Burada həm ikihörgüclü, həm də birhörgüclü dəvələr yetişdirilir, bəslənilirdi.[1]

Abşeron əhalisinin təsərrüfat həyatında balıqçılıq, şor göllərdən duz toplanması da müəyyən yer tutmuşdur.

Maştağa əhalisi əsrlər boyunca bir sıra sənət sahələri ilə məşğul olmuşdur və hal-hazırda da həmin sənət ənənələrini yaşatmaqdadır. Orta əsrlərdə inşa edilmiş və yüksək bədii sənət nümunələri olan memarlıq abidələri timsalında bunu izləmək mümkündür. Mahir ustaların, bənnaların, daşyonanların, xəttatların yaratdıqları, üzərində müxtəlif ornamentlər və yazılar olan məscidlər, minarələr, pirlər, qəbirüstü abidələr buna sübut ola bilər.

Maştağada mahir daşyonma ustaları var idi. Hörgü daşlarının çıxarıldığı, kəsildiyi daş karxanalarından biri Maştağada idi (Xilələn karxanası). "Kaspi" qəzetinin 1899-cu ildə çıxmış 29-cu nömrəsində Maştağada 500 nəfər daşyonanın olduğuna dair məlumat verilir.[2]

XIX əsrin II yarısında - XX əsrin əvvəllərində Maştağa sərraclıq sənətinin mərkəzlərindən biri idi. Vaxtilə burada müxtəlif sənət sahələri ilə yanaşı gön-dəri məmulatı və kəndir istehsalı da inkişaf etmişdi. Burada məişətdə geniş istifadə olunan müxtəlif növ kəndir hazırlayırdılar. Kəndirlər texniki bitki olan kənafdan hazırlanırdı.[3]

---

[1] Azərbaycan etnoqrafiyası. 3 cilddə, I c., Bakı, 1988, s.271

[2] Səlimov-Şağani T.Q. Abşeronlular, s.95

[3] Асланов Г.М., Атакишиев М.И., Умаев А.А. Производство веревок на Апшероне (XIX – начало XX вв.)- Доклады Академии Наук Азербайджанской ССР. Том XXII., №12, с.72

Ümumiyyətlə, XX əsrin əvvəllərinə qədər Maştağa kəndinin girəcəyində bir meydan var idi ki, ona da əhali arasında «Naxır bulağı» deyərdilər. Həmin bulağın ətrafında və kəndin küçələrində saysız-hesabsız baqqal, əllaf, qəssab, çayçı, kababçı, boyaqçı, ərəbənd, dərzi, papaqçı, başmaqçı, dəmirçi dükanları var idi. Maştağa kəndi təqribən bir şəhər görkəmi almışdı. [1]

## 5. MAŞTAĞA ZƏLZƏLƏLƏRİ

Zəlzələ müxtəlif səbəblər, yeraltı təkanlar, Yer səthinin tərpənməsi nəticəsində baş verir. Hələ keçmiş SSRİ dövründə tərtib edilmiş seysmik xəritəyə əsasən Azərbaycan Respublikasının ərazisi bütövlükdə 7 ballıq zəlzələ bölgəsi hesab edilirdi. Azərbaycan Respublikasının ayrı-ayrı bölgələri (Şamaxı, Şəki, Zaqatala rayonları, Abşeron yarımadasının böyük hissəsi, Naxçıvan MR ərazisi) 8 ballıq zəlzələ sahələri sayılır.

Abşeron yarımadası coğrafi baxımdan Azərbaycan Respublikasının mühüm bölgələrindən biri olduğuna, böyük təsərrüfat əhəmiyyətinə malik olduğuna görə ərazinin seysmik vəziyyətinin araşdırılmasına böyük ehtiyac vardır. Bu gerçəkliklə bağlı olaraq müxtəlif təyinatlı obyektlərin tikinti zamanı antiseysmik normalara əməl olunması zərurəti meydana çıxır.

Abşeron yarımadasının, xüsusilə Bakı şəhərinin seysmik fəallıq xəritəsi ilk dəfə professor V.O.Tşoxer tərəfindən hələ XX əsrin əvvəllərində tərtib edilmişdir.[2] Bundan başqa, bütövlükdə Azərbaycanla və Qafqazla bağlı olan seysmik tədqiqat işləri U.Muşketov, A.Orlov, A.İ.Mixaylevski, E.İ.Byus, L.A.Vaidanis, İ.M.Qubkin, İ.N.Bolşakov, A.P.Pavlov, E.A.Rozova, İ.V.Malinovski və başqaları tərəfindən də aparılmışdır.

Müasir Şimali Azərbaycan ərazisində güclü, dağıdıcı zəlzələ-

[1] Hüseynqulu Sarabski. Köhnə Bakı. Bakı, 1982, s.237.

[2] Тмохер В.О. Сейсмическое районирование городов и нормы антисейсмического строительства. Труды Сейсмологического института, № 63, 1938





lər haqqında ilk və dəqiq məlumatlar eramızın V əsrinə aiddir. Hələ 427-ci ildə Gəncə şəhərindən təqribən 25 km cənub-şərqdə güclü, dağıdıcı zəlzələ olmuşdu. 1139-cu ildə mərkəzi Gəncə şəhərindən 50 km. cənubda olan zəlzələ şəhərə daha çox zərər vurmuşdu.[1]

Abşeron yarımadasında seysmik fəallığın baş verməsi ilə bağlı tarixi məlumatlar azdır. Biz burada ayrı-ayrı müəlliflərin Abşeronda baş vermiş zəlzələlər haqqındakı fikirlərini xronoloji ardıcıllıqla təqdim edirik.

1841-ci ilin dekabrında baş vermiş zəlzələ U.Muşketovun və A.Orlovun tərtib etdikləri kataloqda 1842-ci ilə aid edilmiş və dağıdıcı zəlzələ kimi qeydə alınmışdır. Həmin zəlzələnin episentri (mərkəzi) Maştağa kəndində olmuşdur.[2]

E.İ.Byus Abşeron yarımadasının, xüsusilə Maştağa kəndinin dövri olaraq təkrarlanan zəlzələ bölgəsi olduğunu göstərir və bu bölgəni 7 ballıq sahəyə aid edirdi. O, ərazidə irili-xırdalı zəlzələlərin dövriliyinin 100 il ərzində 11-20 gün olduğunu qeyd edirdi.

Araşdırmalara əsasən, Abşeron yarımadasında baş verən və ya hiss olunan zəlzələləri 3 qrupa bölmək olar.

Birinci qrupa başqa ərazilərdə, xüsusilə Şamaxıda baş verən, Abşeron yarımadasında da hiss olunan zəlzələlər daxildir. Məlumdur ki, Şamaxı ərazisindəki seysmik enerji nəinki Azərbaycanda, bütövlükdə Qafqazda ən yüksək səviyyədədir. Orada baş verən çox güclü zəlzələlər Abşeron yarımadasında 4-5 bal gücündə hiss olunur. 1867-ci, 1872-ci, 1902-ci illərdə Şamaxıda baş vermiş zəlzələlər Abşeronda xüsusilə hiss olunmuşdur. 1861-ci ildə Gəncədə baş vermiş zəlzələ də Abşeron yarımadasında az-çox hiss olunmuşdur.

Çox güclü palçıq vulkanlarının püskürməsi nəticəsində baş

[1] Стихийные бедствия и экстремальные явления на Ближнем и Среднем Востоке в VII-XVII вв. Баку, 1990, с.77-78

[2] Малиновский И.В. Сейсмичность Апшеронского полуострова - Известия Академии Наук Азербайджанской ССР, №5, 1948, с.41

verən zəlzələlər ikinci qrupa daxildir. 1830-cu ildə Biləcəri yaxınlığında - Boz təpədə baş verən güclü vulkan püskürməsi bu baxımdan qeyd oluna bilər.

Nəhayət, bilavasitə Abşeron yarımadası hüdudlarında baş verən zəlzələlər üçüncü qrupa aiddir. Həmin zəlzələlərin 3 ocağı məlumdur.

Birinci ocaq Maştağa kəndinin ərazisinə uyğun gəlir. Bu ocaq özünü bir neçə dəfə büruzə vermişdir. Həmin zəlzələdən bəhs edən İ.V.Malinovski A.Orlovun və U.Muşketovun kataloquna istinad edərək göstərirdi ki, 1842-ci ilin yanvar ayının əvvəllərində baş vermiş zəlzələ nəticəsində Maştağa kəndindəki 700 evin hamısı dağılmış, Maştağa ilə Suraxanı arasında torpaq üzərində uzunluğu 2 km. olan çatlar əmələ gəlmişdi.[1] İ.V.Malinovski dağıntılara əsasən həmin zəlzələnin 8 bal gücündə olduğunu ehtimal edirdi. Bu zəlzələnin ardınca 10 gün ərzində avtoşoklar (tədricən zəifləyən zəlzələlər) qeydə alınmışdı.

Abşeronda ən güclü hesab olunan həmin zəlzələ haqqında rus səyyahı İ.N.Berezin "Zaqafqaziyaya və Dağıstana səyahət" adlı kitabında məlumat vermişdir. İ.N.Berezin yazmışdır: "Abşeron yarımadasında səyahət etmək tənbəl səyyahlar üçün çox rahatdır. Çünki burada hər 10 verstdən bir dincəlmək mümkündür. Belə ki, burada kəndlər bir-birinə çox yaxın məsafədə yerləşir. Lakin Maştağada məni dayanmağa məcbur edən tənbəllik deyil, yaxın günlərdə baş vermiş zəlzələ nəticəsində dağılmış bu kəndi seyr etmək istəyi idi. Zəlzələdən sonrakı Maştağa həqiqətən dəhşətli mənzərə idi: evlərin damları və divarları dağılmış, bir sıra yerlərdə hətta yer aralanmışdı. Boşalmış yollarda təsadüf etdiyim insanların üzlərindəki ifadə buraya gəlmiş şəxslərdə istər-istəməz kədər doğururdu. Bu zavallı kənd təxminən 80 il bundan öncə də zəlzələ nəticəsində dağılmışdı. Buna baxmayaraq, zəlzələdən sonra kənd yenidən bərpa olunmuş, əhalisi artmışdı. Belə bir şəraitdə 1841-ci ilin dekabr ayının sonlarında baş vermiş bu yeni zəlzələ əhalinin

---
[1] И.В.Малиновский. Сейсмичность Апшеронского полуострова. с.44





başının üzərini kəsdirmişdi. Təxminən günorta saat 1-də, zəlzələdən öncə eşidilən çox güclü yeraltı uğultu sanki əhalini baş verəcək zəlzələdən xəbərdar etmiş və onlara evlərindən bayıra çıxmaq üçün vaxt vermişdi. Zəlzələ gündüz baş verdiyindən əhali evdən bayıra çıxmağa imkan tapmışdı. Ağır dağıntılara baxmayaraq, heç kim ölməmişdi. Yeraltı təkan və titrəyişlər çox geniş ərazidə hiss olunmuşdur. Belə hadisələr bu ölkədə heç də nadir hal deyildir".[1]

Zəlzələ nəticəsində Maştağanın mərkəzində yerləşən Cümə məscidinin yaxınlığındakı qala divarları da dağılmışdı. Qala divarının qalıqları XX əsrin I rübünə kimi qalmış, 1926-cı ildə İ.P.Şeblıkin və Y.B.Paxomov tərəfindən tədqiq edilmişdir.

A.Bakıxanov "Gülüstani-İrəm" əsərində Maştağadakı qala haqqında məlumat vermişdir.[2] A.Bakixanov qalanın I Mirzə Məhəmməd xan tərəfindən inşa etdirildiyini bildirsə də, İ.P.Şeblıkin və Y.B.Paxomov burada qala tikilməzdən xeyli əvvəl müdafiə divarlarının olduğunu qeyd etmişlər. Zəlzələ nəticəsində qala divarları, Xan sarayı, Cümə məscidi, Xunxar məhəlləsinin məscidi böyük dağıntılara məruz qalmışdı. Xunxar məhəlləsinin məscidi 1875-ci ildə, Cümə məscidi isə yalnız XIX əsrin sonlarında bərpa edilmişdir.

Maraqlıdır ki, İ.N.Berezin Rusiya imperatoru I Nikolayın (1825-1855) Maştağa əhalisinə göndərdiyi yardım haqqında da ətraflı məlumat vermişdir. O, yazmışdır: "Maştağada baş vermiş bu zəlzələlərdən sonra Əlahəzrət imperator Maştağa əhalisinə yardım məqsədilə 2 min gümüş rubl (manat) pul ayırmışdı. İmperatorun göndərdiyi yardımı paylamaq üçün şəxsən Bakı qəzasının rəisi və digər məmurlar Maştağaya gəlmişdilər. Mən də onlarla birlikdə idim. Bizim Maştağaya gəlişimiz kəndi canlandırdı. Əhali hökmdarın səxavətindən xəbərdar idi və qəza rəisinin gələcəyini bilirdi. Onlar bizi təntənə ilə qarşıladılar. Cənab K.İ.Buçen kəndə çatan kimi tərtib olunmuş siyahı üzrə əhaliyə yardım payladı".[3]

---
[1] Березин И. Путешествие по Дагестану и Закавказью. Казань, 1850, с. 61-62
[2] Bakıxanov A. "Qölistani-İram", Baku, 1991, s.180
[3] Berezin İ.N. Göstərilən əsəri, s.62

Abşeron yarımadasındakı 2-ci zəlzələ ocağı Suraxanıda, 3-cü zəlzələ ocağı isə Bakı şəhərindədir.

Tədqiqatlar bütövlükdə Abşeron zəlzələlərinin 7-8 bal gücündə olduğunu göstərir. Bu araşdırma Abşeron yarımadasının şimal hissəsində 8, sahil məntəqələrində 7, qalan ərazilərində isə 6 bala çatan zəlzələlərin mümkünlüyünü ehtimal etməyə imkan verir.



## II FƏSİL

## MAŞTAĞANIN TARİXİ–MEMARLIQ ABİDƏLƏRİ

### 1. DİNİ TƏYİNATLI ABİDƏLƏR

Abşeron yarımadasında ən böyük kəndlərdən biri olan Maştağa tarixi-memarlıq abidələri ilə zəngindir. Bu ərazidə orta əsrlərdən XX əsrə qədər böyük bir dövrü əhatə edən çoxsaylı tarixi-memarlıq abidələri qalmaqdadır.

Maştağanı Abşeronun ən mühüm memarlıq mərkəzlərindən biri adlandırmaq olar. Buradakı çoxsaylı məscidlər, hamam kompleksləri, müdafiə təyinatlı tikililər, ovdanlar, ictimai və mülki binalar bunu söyləməyə imkan verir. Təsadüfi deyildir ki, sənətşünas, memarlıq tariximizin görkəmli araşdırıcısı, memar Ş.S.Fətullayev tarixən burada inşa edilmiş ictimai binaların zənginliyinə görə Maştağanın Bakı şəhərindən sonra Abşeronda ikinci yeri tutduğunu, çoxsaylı məscidlərin, hamam və ovdanların belə sıx yerləşməsinin Abşeron üçün müstəsna hal olduğunu xüsusi qeyd etmişdir[1]. 1920-ci ildə Azərbaycanda hakimiyyəti ələ keçirmiş Sovet höküməti Maştağada da mövgeyini möhkəmləndirəndən sonra rayon mərkəzi olaraq 1961-ci ilədək, qəsəbə ərazisi kimi isə Dövlət Müstəqilliyimizi qurana qədər və bundan sonra hal-hazırda da dövlət idarə və müəssisələri, təhsil və səhiyyə ocaqları bir zaman repressiyaya məruz qalmış günahsız insanlardan müsadirə olunmuş evlərində - qədim tarixi-memarlıq abidələrində yerləşdirilmişdir. Yalnız Azərbaycanda Dövlət Müstəqilliyimizi bərpa edəndən sonra artıq sıradan çıxmış həmin evlər-qədim tarixi-memarlıq abidələri yeni sosial və inzibat binalar tikilməklə tədricən azad olunmaqdadır.

Maştağanın ən mühüm memarlıq abidələrinin şərhinə keçməzdən öncə onu da qeyd etmək lazımdır ki, həmin tikililər yalnız

[1] Фатуллаев Ш. Абшерон. Баку, 1991, с. 18.

memarlıq abidələri deyildir. Bu tikililər kəndin, bölgənin ictimai – iqtisadi həyatı, sənət sahələri, ticarət əlaqələri, hətta dövrün siyasi mühiti haqqında müəyyən məlumatlar əldə etməyə də imkan verir. Bu baxımdan həmin tikililərin üzərindəki daş kitabələr müstəsna əhəmiyyətə malikdir. İndi isə Maştağanın tarixi-memarlıq abidələrinin şərhinə keçmək məqamıdır.

1. Dini təyinatlı abidələr (qədim cümə və məhəllə, məscidləri, ziyarətgahlar, mədrəsələr). Maştağada dini abidələr sırasından məscidlərin sayı təyinatları üzrə böyük və kiçik tutumlu baxımından müxtəlif mənbələrə və ağsaqqal söhbətlərə görə 30-34 sayla göstərilir. Hətta vaxtilə 30-cu illərin əvvəllərindən Maştağa Rayon mətbuat organı kimi tanınan "Abşeron kolxozçusu" (7 noyabr, 1939-cu il, №68) qazetində Maştağada 36 mescid və 4 pir olmuşdur. Onlardan yalnız 12-si bu günə qədər gəlib çatmışdır. Odur ki, bu dini abidələr haqqında əlimizdə olan məlumatı diqqətlə çatdırmağı məqsədə uyğun hesab etdik.

Məşqətə (Birə Ərqutay) **Cümə məscidi**. Maştağanın tarixi – memarlıq abidələri icərisində dini təyinatlı abidələr üstünlük təşkil edir. Bu sırada məscidləri xüsusilə qeyd etmək lazımdır. Maştağada bu günə qədər öz varlığını qoruyub saxlamış məscidlər içərisində Cümə məscidi xüsusi yer tutur. Maştağa Cümə Məscudi qəsəbənin mərkəzində, indiki Seyid İbad ağa küçəsində yerləşir (şəkil 41).

1989-cu ilin yayında Maştağa Cümə məscidinin ərazisində mədrəsənin tikintisi ilə əlaqədar olaraq özül qazılarkən 3 metr dərinlikdə böyük bir küpün içərisində ümumi çəkisi 40 kq olan mis sikkələr aşkar edilmişdir. Həmin sikkələri tədqiq etmiş tarix elmləri doktoru, numizmat Məhəmməd Seyfəddini onları XII-XIII əsrin I yarısına aid etmiş və Şirvanşahlar I Fərruxzad ibn Mənuçöhr (1202-1203), Gərşəsb ibn I Fərruxzad (1204-1225), III Fəribürz (1255-1266) tərəfindən zərb edildiyini bildirmişdir.[1]

Maştağa Cümə Məscidinin yeni binasının özülü hələ XII əsrdə tikilmiş məscidin təməli üzərində qurulmuşdur. Güman etmək

[1] Сейфеддини М. Монеты Ширваншахов. Газета, "Тарих", 1990, №6.





olar ki, tapılmış bu dəfinə hələ XII əsrdə – əski məscid tikilən zaman onun özülünə qoyulmuş və bu günə qədər gəlib çatmışdır. Sikkələrin aşkar edildiyi yerdən bir qədər aralıda həmin dərinlikdən (3 m.) bir quyu da tapılmışdır. Bu tapıntıdan belə bir nəticəyə gəlmək olar ki, XII əsrdə məscid tikilən zaman yaxınlıqda məscidin suya olan ehtiyacını təmin etmək üçün quyu da qazılmışdır. Hal-hazırda həmin quyu mədrəsənin tikildiyi sahənin altında qalmışdır. Bu quyunun eyni zamanda ərzaq ehtiyatı üçün nəzərdə tutulduğunu da güman etmək olar.

Tarixi mənbələrdən məlumdur ki, böyük Səlcuq sultanları (1038-1157) məscidlərin tikintisinə böyük maraq göstərmiş, özlərinə hər hansı bir yerdə saray tikdirərkən həmin sarayların yanında bir came məscidi də tikdirmişlər. Həmin dövrdə yaşamış Əbdülcəlil Qəzvini yazmışdır:

«Müsəlmançılıqda came, mədrəsə, xanəgah tikilməsi, hər dürlü xeyir və yaxşılıqların görülməsi, pisliklərin atılması Səlcuqların uğurlu qılıncları sayəsində mümkün olmuşdur»[1].

Sonralar, Şirvanşah I İbrahimin hakimiyyəti dövründə (1382-1417) yenidən tikilmiş və «Böyük Ərgutay» adlanan bu dini mərkəzdəki daş kitabə məscidin portalı (portal- memarlıq istilahıdır, qapının üstündəki yazıya deyilir – Ə.B.) üzərindədir. Zəlzələ nəticəsində məscid dağıldıqdan sonra daş kitabə iki yerə bölünmüş və sonralar «Şirvanşahlar sarayı kompleksi» muzey-qoruğuna gətirilmişdir. 1935-ci ildə həmin daş kitabənin şəkli Y.Paxomov tərəfindən çəkilmiş və bir qədər sonra Ə.Ələsgərzadə kitabənin mətnini oxuyaraq 1947-ci ildə dərc etdirmişdir[2].

Kitabənin əvvəlində bir neçə söz pozulduğuna görə həmin sözləri oxumaq mümkün olmamışdır. Ona görə də həmin sözlər Şirvanşahlar dövrünün oxşar daş kitabələrinə əsaslanmaqla bərpa edil-

[1] Ə.H.Babayev. Maştağa Cümə məscidi, "İslam dünyası" qəzeti, 4 sentyabr 1993-cü il.

[2] Ələsgərzadə Ə. Şirvanşah İbrahim Dərbəndi dövrünə aid iki kitabə. Azərbaycan Milli EA-nın A.Bakıxanov adına Tarix İnstitutunun əsərləri. c.1., Bakı, 1947.

miş və oxunmuşdur. Daş kitabənin mətni aşağıdakılardan ibarətdir.

1. Məscidlər Allaha məxsusdur. Allahdan başqasına ibadət etməyin.
2. Ya Məhəmməd. Bu mübarək məscid.
3. Birə Ərğutay ibn Adəm ibn Hacı əl-Məşqədəhlinindir.
4. Sultan İbrahimin hökmranlığı günlərində, səkkiz yüz onyeddinci ildə (817-1414/15).

Kitabədə birinci sətirdəki sözlər Quranın 72-ci surəsinin 18-ci ayəsindən götürülmüşdür.

İkinci və üçüncü sətirlərdə bu kitabənin alim Birə Ərğutay ibn Adəm ibn Hacı Xəlil əl-Məşqədəhliyə məxsus olduğu göstərilir. «Birə» sözü burada «böyük» deməkdir. Kitabənin dördüncü sətrində məscidin Şirvanşah İbrahimin hakimiyyəti dövründə, hicri 817-ci ildə (miladi 1414/15-ci ildə) inşa olunduğu göstərilmişdir.

Kitabənin üçüncü sətrində Maştağa qəsəbəsinin adı «Mərşqədəh» şəklində təqdim edilmişdir. Bəzi mənbələrdə bu kəndin adı «Məşqətə» şəklində də verilir. A.Bakıxanov «Gülüstani-İrəm» əsərində qeyd etmişdir ki, Bakıdakı «Məşqətə» kəndinin qədim əhalisinin mənşəyi massagetlərlə bağlıdır. Bu toponimdə «S» hərfi tədricən «Ş» hərfi ilə əvəzlənmişdir.

Güman etmək olar ki, Maştağa kəndi XIII əsrdən sonra «Məşqədəh» adlanmağa başlanmış və XIV-XIX əsrlərə aid olan epiqrafik abidələrdə «Məşqətə» şəklində təqdim edilmişdir. Kəndin adı yalnız XIX əsrin ortalarından etibarən «Maştağa» şəklində təqdim olunur[1].

Qeyd edək ki, kənddə baş vermiş güclü zəlzələ nəticəsində çoxlu miqdarda yaşayış evləri və tarixi abidələr dağılmışdır.

Kəndin yaşlı sakini Seyid Rəsulun söylədiyinə görə, məscidin ətrafındakı qaladan məscidin həyətindəki müasir minarənin yanına, torpaq altında olan quyuya yeraltı yol olmuşdur. Həyətlərdəki belə quyular sistemi müdafiə tikililəri üçün zəruri olan ərzaq ehtiyatı saxlanmasının Abşeron şəraitində düşünülmüş həllidir. Xalq

[1] Кавказский календарь на 1856 г. Тифлис, 1856, с. 497.





rəvayətlərinə görə, belə quyular həm də qalanı gizli yolla xarici aləmlə əlaqələndirirdi. Hal-hazırda məscidin qarşısında, sütunların yanında olan quyu da məscidi su ilə təchiz etmək üçün qazılmışdır.

Zəlzələ nəticəsində dağılmış «Böyük Ərğutay» məscidinin qalıqları XIX əsrin sonlarına qədər mövcud idi. Həmin dövrdə dağılmış məscid kəndin imkanlı şəxslərinin yardımı ilə, Axund Mirəbdülqəni ağa tərəfindən bərpa etdirilərək genişləndirilmişdir.

İ.Əzimbəyov 1925-ci ildə çap olunmuş «Nardaran kəndi və onun qədim abidələri» adlı məqaləsində Maştağadakı bu məsciddən bəhs edərkən onun 10x10 arşın ölçüdə sahəyə malik olduğunu, yastı dam örtüyü, çox da böyük olmayan günbəzi və üzərində Quran ayəsi olan hündür, yeni minarəsi olduğunu göstərmişdir.[1] 36 m hündürlüyü olan həmin minarə Haçıağa Nağının böyük səyi nəticəsində, Usta Hacıqulu tərəfindən ucaldılmışdır.

XX əsrin 20-30-cu illərində məscidlər, pirlər dağıldıqca Azərbaycan xalqının mənəvi dünyasına ağır yaralar vurulmuşdur.

Bu minarə və günbəzlər də repressiya dövrünün qurbanları olmuş və 1937-ci ildə tamamilə dağıdılmışlar.

1941-1945-ci illərdə məscidin içərisindəki sütunların arası tikilmiş, burada tikiş sexi açılmışdı. 1945-ci ildə məsciddə bərpa işləri aparılmış və məscid əvvəlki görkəminə qaytarılmışdı. Məscidin indiki günbəzi 1946-cı ildə Kərbəlayi Seyyid Qasımın bilavasitə rəhbərliyi altında, Əlisoltan Kərbəlayi Heybətqulu oğlu və usta Ağaqulu tərəfindən tikilmişdir. Məscidə aid olan son daş kitabələr XX əsrin 40-50-ci illərində onun yenidən qurulması ilə bağlı olaraq saxlanılmışdır. Bu kitabələrdə 1951-1956-cı illər (hicri ilə 1370-1376-cı illər) göstərilmişdir. Maştağa əhalisinin və məscidin rəisi Hacı Əsədin səyləri nəticəsində isə 1989-1990-cı illərdə burada Abşeronun ən hündür (46 m) minarəsi ucaldılmışdır. XIX əsrin sonlarından XX əsrin ayrı-ayrı dövrlərinə qədər bir sıra görkəmli din xadimləri, o cümlədən Axund Mirəbdülqəni ağa, Axund Seyid Məhəmməd ağa, Axund Mirzə Əbdülkərim, Axund Mirəbdülxalıq, Axund Hacı Əzim, Axund Hacı

[1] Азимбеков И. Селение Нардаран и его древности. – ИААК. 1925, выпуск 1.

Əsəd məsciddə axundluq etmişlər. Hal-hazırda məsciddə Axund Hacı Məhəmməd dini qayda və qanunlar barədə moizələr edir.

**Hacı Aslan məhəllə məscidi.** Tarix etibarilə Maştağanın ikinci qədim məscidi «Hacı Aslan» məscididir. «Hacı Aslan» məscidi hal-hazırda Balaəmi Dadaşovun adını daşıyan küçədə yerləşir. Məscidin qapısı üzərindəki 30-12 sm ölcülü daş kitabədən onun hicri qəməri tarixilə 1129-cu ildə (miladi tarixilə 1716-ci ildə) inşa edildiyi məlum olur.[1] Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, indiyədək «Hacı Aslan» məscidilə bağlı olaraq ətraflı bir tədqiqat işi aparılmamışdır (şəkil 50).

**Həsənbəy məhəllə Məscidi.** Maştağada Qumüstü Həsənbəy Məscidi də mövcuddur. Bu məscidin inşası tarixi XVIII əsrə aid edilir, dövlət tərəfindən qorunur. Burada dindarlar yığışıb ibadət edirlər. Onlar namaz qılır, xüsusilə hər ilin Məhərrəm ayında təziyə tuturlar. Həsənbəy Məscidi "Çıldağ"ın yaxınlığında yerləşir (şəkil 46).

**Xunxar məhəllə Qədim Cümə məscidi.** Maştağanın qədim abidələrindən biri də «Xunxar» məhəllə Qədim Cümə məscididir. «Xunxar» hələ orta əsrlərdən Maştağada təşəkkül tapmış məhəllələrdən birinin adıdır. Qəsəbənin qocaman sakinlərinin söylədiklərinə görə, burada yaşamış qoçuların mərdliyinə, müxtəlif səbəblərdən çoxlu qan tokülməsinə uyğun olaraq məhəllə «Xunxar» adlandırılmışdır. "Xunxar" isə fars dilində "qaniçən", "qan tökən" mənalarını verir. Başqa bir rəvayətə görə, Maştağa kəndində cəzaya məhkum olunmuş insanları «Xunxar» məhəlləsi ərazisində müxtəlif üsullarla qətlə yetirirdilər. Qəsəbənin C.Cabbarlı küçəsindəki həyətlərdən birində məişət səciyyəli qazıntılar zamanı tapılmış insan sümüyü qalıqları bu pəvayətin tarixi həqiqət olduğunu ehtimal etməyə imkan verir. Belə fikir də mövcuddur ki, Hunhar (hunlar, hunnar) qədim türk tayfalarıdır. Qan içmək anlamı çox güman ki, döyüşkən türk əsgərləri həmişə at belində olduqları üçün monqollar kimi atın boynundakı damarı çərtməklə susuzduq-

[1] Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Баку, 1991, с.90.





larını dəf etmək üçün "qan içdiklərinə"də bir işarə ola bilər. Bu daha məntiqlidir. Odur ki, farsdilli tatlar (şahsevənlər) onlara "xunxor" demişlər (şəkil 43,44).

Orta əsrlərdə Maştağada "Xunxar" məhəlləsindən başqa digər məhəllələr də olmuşdur. Həmin məhəllələrin hər birinin ayrıca məscidi var idi. Onu da qeyd etməliyik ki, məhəllə məscidləri ilə yanaşı bütün kəndin baş məscidi olan « Maştağa Cümə məscidi» də orta əsrlərdən bu günədək fəaliyyət göstərməkdədir.

Ehtimal etmək olar ki, orta əsrlərdə Maştağada yaşamış əhalinin bir hissəsi fars dilinin əsrlər boyu təşəkkül tapmış, yerli şivəsi olan tat dilində danışdığına və «Xunxar» məhəlləsində həmin dildə danışanlar üstünlük təşkil etdiyinə görə məhəllənin adı da fars (tat) dilindədir.

Maştağa kəndinin mərkəzindəki "Xunxar" məhəllə məscidi düzbucaqlı quruluşa malikdir. Məscidin günbəz örtüyü zalın ortasında olan səkkiz sütun üzərində qurulmuşdur. Məscidin fasadı (ön hissəsi) dairəvi şəkildə olan dörd sütun üzərindədir. Məscidin Şərq divarının daxili hissəsində, «Taxça» adlanan yerdə – divarın səthində müxtəlif şəklə malik olan, irili-xırdalı həndəsi fiqurlar həkk edilmişdir. Bu iş usta-memar tərəfindən zövqlə görülmüşdür. Bütövlükdə şəbəkə şəklində tamamlanmış həmin daş lövhə nadir memarlıq ünsürlərindən biridir. Məscidin portalı üzərində iki daş kitabə vardır. Yerli əhəngdaşından hazırlanmış lövhələrdən birinin üzərində (0,7 sm x 0,3 sm) ərəb dilində, nəstəliq xətti ilə iki sətirdən ibarət olan kitabənin tərcüməsi aşağıdakı kimidir.

1. Allaha itaət əmri olaraq bu məscidin tikintisinə əmr edildi. Allahın məscidini yalnız o kəs canlandıra bilər ki, son günədək Allaha inansın.

2. Müqəddəs məscidin tikintisi və xırda təmiri Məşqətədə hicri tarixilə 1229-cu ildə (miladi 1813/14) «Xunxar» məhəlləsinin sakinləri tərəfindən həyata keçirilmişdir[1].

Digər kitabə də əhəngdaşından hazırlanmış lövhə üzərində

[1] Неймат М.С.Корпус эпиграфических памятников. Баку, 1991, с. 98

(0, 42 m x 0, 30 m) yerləşdirilmişdir və yuxarıdakı kitabədə olduğu kimi ərəb dilində, nəstəliq xətti ilə yazılmışdır. Bu kitabənin tərcüməsi aşağıdakı kimidir:

1. Novruz Məşqətəli.
2. Məşədiqulu bin Seyid Rza.

Kitabə divarın xaricində, pəncərə aralığında yerləşdirilmişdir. Üzərində kitabə olan daş lövhədə 2 ustanın (Novruz Məşqətəlinin və Məşədiqulu Seyid Rza oğlunun) adları həkk edilmişdir. Kitabədə məscidin "Xunxar" məhəlləsinin sakinləri tərəfindən, hicri tarixilə 1229-cu ildə (miladi 1813-14) təmir edildiyi göstərilir. Bu məsciddə tədqiqatlar Ə.Ələsgərzadə və M.Nemət tərəfindən aparılmışdır. Həmin tədqiqatçılar kitabənin xüsusiyyətlərinə görə məscidin göstərilən ildə deyil, həmin tarixdən xeyli əvvəl inşa edildiyini qeyd etmişlər. Son zamanlar məscidin daxilində və onun ətrafında aparılmış təmir-tikinti işləri nəticəsində məscidə məxsus olan, onu su ilə təchiz etmək üçün qazılmış iki su quyusu və məişətdə, təsərrüfatda işlədilən xeyli miqdarda saxsı qab nümunələri (şirli və şirsiz) aşkar edilmişdir. Quyunun içərisindən məscidə məxsus olan 2 yazılı daş kitabə və məscidin günbəzinə aid olan, fallos şəklində yonulmuş daşın üzərində «ələm» aşkar edilmişdir. Kitabədə «Kəlimeyi-şəhadətdən» hissələr həkk edilmişdir. Kitabələrdən birininin üzərində «Əliyyən Vəliyullah», digərində isə «lə ilahə illəllah Muhəmmədən Rəsulallah» sözləri yazılmışdır. Daş kitabələrdən altısı hal-hazırda quyunun içərisindədir. Sovet hakimiyyəti dövründə, xüsusilə ötən əsrin 20-30-cu illərində məscidlər, pirlər dağıldıqca xalqın mənəvi sərvətlərinə ağır zərbələr endirilmişdir. Güman etmək olar ki, «Xunxar» məscidinin kitabələri də repressiya dövründə sökülərək quyuya atılmış, sonra isə izin itirilməsi üçün quyu ağzınadək torpaqla doldurulmuşdur.

Maraqlıdır ki, Maştağada Cümə məscidində olduğu kimi, «Xunxar» məscidinin həyətində aşkar edilmiş su quyusunun içərisində də yeraltı yol olmuşdur. Aşkar edilmiş arxeoloji materiallar «Xunxar» məscidinin hələ XVII əsrin ortalarında Abşeron üçün səciyyəvi olmuş Maştağa qəsr kompleksinin tərkib hissəsi olduğunu söyləmə-





yə əsas verir. Belə ki, qəsr kompleksinə «Xinxar» məscidi ilə yanaşı, Maştağa Cümə məscidi, hal-hazırda əhali arasında «Ağa meydanı» adlandırılan ərazi, burada yerləşən Xan sarayı və məscidi də daxil olmuş, bütün bu tikililər qala divarları ilə əhatə olunmuşdur.[1]

Qeyd edək ki, Maştağa kəndində baş vermiş güclü zəlzələlər nəticəsində çoxlu miqdarda yaşayış evləri və tarixi-memarlıq abidələri dağılmışdır.

İ.N.Berezinin məlumatlarından belə nəticəyə gəlmək olar ki, 1761-ci il zəlzələsindən sonra «Xunxar» məhəllə məscidi də dağıntıya məruz qalmış və sonralar (1813-1814-cü illərdə) əsaslı surətdə təmir edilmişdir. 1841-ci ilin dekabrının sonlarında baş vermiş daha dəhşətli zəlzələ isə «Xunxar» məscidini yenidən dağıtmışdır. Nəhayət, bu məscid üçüncü dəfə 1875-ci ildə əsaslı şəkildə təmir olunmuş, bərpa edilmişdir. «Xunxar» məhəllə məscidi üçüncü dəfə təmir edildikdən sonra onun baş fasadı üzərində daş lövhədə (0, 70 m x 0,30 m) ərəb dilində, səliqəsiz nəsx ünsürlü nəstəliq xətti ilə yazılmış kitabə saxlanılmışdır. Kitabənin tərcüməsi aşağıdakı kimidir.

1. Allaha məxsus olan bu məscidin təmiri.
2. 1292-ci ilin şəban ayında (1875- ci ilin 2 sentyabrında – 1 oktyabrında).

Yenə orada, başqa bir kitabədə ərəb dilində yazılmışdır:

1. Hər şeyə qadir olan Allahın bu məscidi təmir edilmişdir.
2. 1292-ci ilin ramazan ayında (1875-ci il, 1-30 oktyabr)[2].

«Xunxar» məhəllə məscidinə əhali arasında bəzən "Axund Şeyx Hüseyn məscidi" də deyilir. Axund Şeyx Hüseyn Kəblə Əbdülhəmid oğlu 1895-ci ildə (16 yaşından) Kərbəlada və Nəcəfdə, ali dini təhsil ocaqlarında 25 il ərzində təhsil almış, «Şeyx» rütbəsinə

---

[1] Babayev Ə.H. Bakı xanlığının Maştağadakı iqamətgahı. Abbasqulu ağa Bakıxanov – 200 (1794-1846). Respublika konfransının tezisləri. Bakı, 1994, s.16; Лерх И.Я. Извлечения из дневника путешествия доктора Иоанна Якова Лерха в Персию. Первое путешествие. Перевод с французского М.М. Абезгуза – Azərbaycan Milli EA-nın A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi. iş. 486, s. 26

[2] Неймат. М.С. Корпус эпиграфических памятников Азербайджана. Баку, 1991, с. 206

layiq görülmüşdür. 1922-ci ildə dərin təfəkkür və elm sahibi olan Axund Şeyx Hüseyn doğma kəndi Maştağaya qayıtmış, Axund Məhəmməd Nəbidən (M.Şəfainin babası olubdur) sonra «Xunxar» məhəllə Qədim Cümə məscidində axundluq etmişdir. Onun axundluğu dövründə, 1929-cu ildə məsciddə xırda təmir işləri aparılmışdır. Lakin bundan sonra (XX əsrin 30-cu illərində) repressiyalar zamanı bu məscid də bağlanmış, Axund Şeyx Hüseyn təqib olunmuş, bir neçə dəfə həbs edilmiş, sonra isə azad olunmuşdur.

Qeyd etmək lazımdır ki, «Xunxar» məhəllə Qədim Cümə məscidinin Şərq memarlıq üslubunda tikilmiş hündür minarəsi və günbəzi olmuşdur. Həmin minarə və günbəz repressiya dövrünün qurbanı olmuş, XX əsrin 30-cu illərində tamamilə dağıdılmışdır. XX əsrin 40-cı illərində məscidin fasad (ön) hissəsi və onu saxlayan dörd sütun memar-usta Kəblə Heybətqulu oğlu və usta Ağaqulu tərəfindən tikilmişdir.

Azərbaycan Respublikası yenidən müstəqillik əldə etdikdən sonra, ötən əsrin 90-cı illərində Maştağa qəsəbə sakini, xeyirxah insan Hacı Zakirin böyük zəhməti və səyi nəticəsində «Xunxar» məhəllə məscidində əsaslı bərpa işləri aparılmışdır. Hacı Zakirin təklif etdiyi memarlıq planı əsasında məscidin minarəsi, böyük və kiçik günbəzləri yenidən tikilmişdir. Hal-hazırda məscidin minarəsinin hündürlüyü 23 metr, diametri 3 m 5 sm-dir. Böyük günbəzin diametri isə 2 m 70 sm-dir.

**Hacı Kərbəlayi Hüseyn məhəllə məscidi.** Hacı Kərbəlayi Hüseyn məscidi Maştağa qəsəbəsinin «Dərə» məhəlləsində, Məmmədyarov küçəsində yerləşir. Məscidin inşa olunma tarixi haqqında onun üzərindəki 2 daş kitabədən müəyyən məlumat əldə etmək mümkün olmuşdur.

Məscidin giriş qapısı üzərində saxlanılmış iki sətirlik kitabə ərəb dilində, nəsx xətti ilə yazılmışdır. Kitabənin ölçüləri 1,0 x 0, 49 m-dir və aşağıdakı kimi oxunmuşdur:

1. Mərhəmətli və rəhimli Allahın adı ilə. Məscidlərə inanan kəs sudakı balıq kimidir.





2. Kərbəlayi Səfərin oğlanları Hacı Kərbəlayi Hüseyn və İsgəndər və Hacıverdinin oğlu Kərbəlayi Lütfəli 1291 (1874/75).

Məscidə girişin sağ tərəfində saxlanan digər kitabənin məzmunu aşağıdakı kimidir:

1. Ustad Murtuzaqulu və ustad Ağaməli Məşqətəli. Onların hər ikisi katibdir. (Qeyd: M.Nemət məscidin Rüstəm Kürdəxanılı tərəfindən tikildiyini göstərir[1].

Hacı Kərbəlayi Hüseyn Maştağada yaşamış Hacı Qəni, Hacı Xalıq, Hacı Qədir, Hacı Ağadadaş qardaşlarının atası olmuşdur. Bu məscid də Sovet hakimiyyəti illərində repressiyaya məruz qalmış, uzun illər ərzində orada ibadət qadağan edilmiş və məscidin binasından yem satılan dükan kimi istifadə olunmuşdur. Respublikamız siyasi müstəqilliyini bərpa etdikdən sonra həmin məscid məhəllə ağsaqqalları, dindarları tərəfindən bərpa edilmişdir və hal-hazırda fəaliyyət göstərir (şəkil 49).

**Gövharə məhəllə məscidi.** XIX əsrdə tikilmiş Maştağa məscidlərindən biri də «Gövharə», yaxud «Gövhərbikə» məscididir. «Gövharə» az tədqiq olunmuş məscidlərimizdəndir. Məscidin girişində 1,05 x 0, 35 m ölçüyə malik olan daş kitabə saxlanılmışdır. Həmin kitabə məscid haqqında müəyyən məlumat əldə etməyə imkan verir. Kitabə aşağıdakı kimi oxunmuşdur:

**1.** Rəhimli və mərhəmətli Allahın adı ilə.

**2.** Quran, IX Surə, 18-ci ayə.

Bu məscidin əsası Rza bəyin oğlu cənab Hacı Məhəmməd tərəfindən qoyulmuşdur. 1131-ci il (1893/94-cü il).

Kitabədən məscidin kim tərəfindən tikdirildiyi məlum olur, lakin məscidin memarı haqqında heç bir məlumat verilmir[2].

187 saylı orta ümumtəhsil məktəbinin yaxınlığında yerləşən bu müqəddəs ocaqda vaxtilə Axund Mirzə Hüseyn moizə edərdi. Sovet dövründə istifadəsiz qalmış həmin məsciddə hal-hazırda bərpa- təmir işləri gedir (şəkil 43).

---

[1] Неймат М.С. Корпус, 105, 147.

[2] Неймат М.С. Корпус..., с.110

**Hacı Əziz məhəllə məscidi.** Maştağadakı məscidlərdən biri də hal-hazırda "Bakı fəhləsi" adlanan küçədə yerləşir. Məscidin mehrabı üzərində kitabə saxlanılmışdır. Həmin kitabənin oxunmasından sonra belə məlum olur ki, məscid hicri qəməri tarixilə 1329-cu ildə (miladi 1911-ci ildə) inşa edilmişdir. Məscidin inşası işinə Hacı Əziz Axund Məhəmməd oğlu tərəfindən yardım edilmişdir. Usta Yar Məhəmməd isə məscid binasını tikmişdir[1]. Bu məscid xalq arasında daha çox "Hacı Əziz məscidi" kimi tanınır. Sovet repressiyası illərində dağıntılara məruz qalmış "Hacı Əziz məscidi" hal-hazırda bərpa edilmişdir. Onu da qeyd edək ki, Hacı Əziz Axund Məhəmməd Nəbinin oğlu, şair Məmmədəli Şəfainin əmisidir.

**Qəbiristanlıqda məscid. Hicri** 1319-cu (1901-ci) ildə Hacı Novruzqulunun göstərişi ilə Məşədi Məhəmməd miladi tərəfindən tikilmişdir[2].

**Qəbiristanlıqda tikili.** Hicri 1313-cü (miladi 1895-ci) ildə Hacı Mikayılın göstərişi ilə Məhəmməd Rəhim tərəfindən tikilmişdir.[3]

**"Keçənlər" məhəllə Qədim Cümə Məscidi**. Bu məscid Maştağanın "Ağa meydanı" adlanan yerində yerləşir. Təxminən XVIII əsrin sonlarında inşa edilmiş bu məsciddə əvvəllər Axund Mirzə Əbdülkərim ağa moizə etmişdir. Sonralar 1927-ci ildən başlayaraq başqa dövlət məqsədlərinə istifadə olunmuş, 1990-ci ildən istismar buxovundan azad olunmuşdur. Axund Hacı Məhəmməd Məşədi Baba oğlu bu məsciddə moizə elemiş və hal-hazırda Axund Hacı Cəlil Kərbəlayi Xəlil oğlu bu işi davam etdirir (şəkil 48).

**Hacı Aydəmir məscidi** Axund Şeyx Hüseyn adına küçədə, Pirşehid qəbiristanlığına çatmamış, Maştağadan Bilgəhə gedən yolun sol tərəfində yerləşir. Hacı Aydəmir 1993-cü ildə vəfat etmiş maştağalı Əhəd Əliməhəmməd oğlunun ana babasıdır. Əhəd Əliməhəmməd oğlu şəxsi vəsaiti hesabına sökülmüş vəziyyətdə olan, xaraba qalmış məscidi bərpa etdirmişdir.

---

[1] Неймат М.С.Корпус ..., с.117

[2] Неймат М.С.Корпус ..., с.112

[3] Неймат М.С.Корпус ..., с.111





**Maştağa Binə Məscidi.** Maştağadan Binəyə gedən yolun üstündəki məscid "Binə məscidi" adı ilə məşhurdur. O, "Kürkəndi bağları" ərazisindədir. Yaşlı sakinlərin söylədiklərinə görə, "kürkəndli" adlanan əhali kütləsi Abşerona təxminən 300-330 il bundan öncə hal-hazırda müasir İsmayıllı rayonunun ərazisi daxilində olan Qarayazı kəndindən gəlmişdir. Kürkəndli nəsli övladlarından Molla nəslini, Əlzaman nəslini, Qasım nəslini, Heybət övladını, Daşdəmir övladını, Ağ oğlan Haşimi və Soltan övladlarını qeyd etmək olar. Heyvandarlıqla məşğul olan bu gəlmə əhali kütləsi Maştağa ətrafında, onun bağlar hissəsində məskən salmışdı. Həmin əhalinin bir qismi maştağalıların zəfəran bağçalarında da işləyirdi.[1]

Yeri gəlmişkən qeyd edək ki, Abşeronun daha çox zəfəran becərilən 13 kəndi (Maştağa, Nardaran, Bilgəh, Buzovna, Şağan, Mərdəkan, Türkan, Hövsan, Əhmədli, Biləcəri, Zabrat, Kürdəxanı, Goradil) içərisində Maştağa həmişə önəmli yer tutmuşdur. Maştağa kəndi sakinlərinin müəyyən hissəsinin uzun illər boyu yalnız zəfərançılıqla məşğul olması digər kəndlərə nisbətən burada zəfəran əkilmiş sahələrin çoxluğu, bu sahədə ənənələrin zənginliyi və s. amillərlə bağlı idi.

Maştağanın zəfəranı yalnız daxili bazara çıxarılmır, Azərbaycanın qonşu ölkələrlə ümumi əmtəə mübadiləsində də müəyyən rol oynayırdı. Ümumiyyətlə, XIX əsrdə Abşeron zəfəranı Azərbaycanın Şəki, Şirvan, Talış, Quba bölgələri ilə yanaşı Rusiyaya, Gürcüstana, İrana və s. qonşu ölkələrə də ixrac edilirdi.

Güman edildiyinə görə, gəlmə əhali (Kürkəndlilər) Maştağa ətrafında 15-20 il yaşamışdır. Onların məskən saldıqları yerə "binə" deyirlərmiş. Yeri gəlmişkən, indiyədək yaşlı nəslin yaddaşında həmin yer məhz «Maştağa binəsi» kimi adlandırılmaqda, qalmaqdadır. Kürkəndlilər bu müddət ərzində ibadət üçün özlərinə məscid də tikmişdilər. "Kürkəndli məscidi" adlanan bu məscidin qalıqları 30-40 il bundan əvvələdək Maştağa bağları ərazisində qalmaqda idi.

Deyilənlərə görə, maştağalılarla bu əhali kütləsi arasında ya-

---

[1] T.Səlimov – Şağani. Binə, Bakı, 2001, s. 23-26

ranmış narazılıqdan sonra kürkəndlilər öz binələrindən köçüb getmişlər. Bu hadisə kürkəndlilər üçün sanki bir "üzüqaralıq" oldu. Köçdən sonrakı bu "üzüqaralıq" ilk vaxtlar maştağalılar tərəfindən həmin köç yerinin məcazi mənada "Qara binə", yaxud "Maştağa binəsi" adlanmasına səbəb olmuşdur. Sonralar isə həmin ünvan ətraf yaşayış məntəqələrinin əhalisi, habelə artıq el içində yayıldığından Kürkəndlilərin özləri arasında da işlədilməyə başlanmışdır. Beləliklə, "Qara binə", "Maştağa binəsi" mikrotoponimləri bu cür yaranmış, vətəndaşlıq statusu qazanmışdır və bu günədək yaşamaqdadır.

Güman etmək olar ki, kürkəndlilər Maştağa ərazisindən getdikdən və indiki Binə qəsəbəsi ərazisində məskunlaşdıqdan sonra "Binə" toponimi vətəndaşlıq statusu qazanmışdır.

Bu köçdən sonra "Qara binə", "Maştağa binəsi" mikrotoponimləri yaranmış, sonra isə "Binə" və onunla bağlı olan digər mikrotoponim variantları (Ağ Binə, Binə Kürkənd, Kürkənd və Binə) təşəkkül tapmışdır[1].

**Ağakişi məhəllə məscidi vaxtilə** Maştağa mədəniyyət evinin arxasında olmuşdur. XX əsrin 30-cu illərində dağıdılmış məscid ərazisində hal-hazırda vətəndaşlara məxsus olan həyətlər mövcuddur.

**"Seyidlər" məhəllə Qədim Cümə məscidi.** Bu məscid Seyid İbad ağa küçəsində, 20 saylı Texniki Peşə məktəbinin həyətində yerləşir. Təxminən 150 yaşlı dini-memarlıq abidəsi olan bu məscid vaxtilə ticarət məhsullarının saxlandığı anbara çevrilmişdi. Qeyd etmək lazımdır ki, hal-hazırda da məscid binasından peşə məktəbinin həyətində öz təyinatı üzrə istifadə edilmir. Halbuki vaxtilə əhalinin vəsaiti hesabına tikilmiş bu məsciddə ibadət və digər dini mərasimlər yerinə yetirilirdi.[2]

**Hacı Mikayıl məhəllə məscidi.** Bu məscid indiki Soltan Əliyev küçəsində, «Qırmızı eyvan» adı ilə məşhur olan evin yanında idi. Bu məscidi Axund Seyid Yusifin oğul nəvəsi həkim Əlinin babası tikdirmişdir. Məscid XX əsrin 30-cu illərində dağıdılmışdır.

---

[1] T.Səlimov – Şağani. Binə. Bakı, 2001, s.25.

[2] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.87.





**Hacı Qasım məhəllə məscidi.** Bu məscid müasir poçt binasının yanında, Xanlar küçəsində yerləşirdi. Hacı Qasım Baloğlan Xanın atası idi. Baloğlan xan 1920-ci ilin avqust ayında məhkəməsiz güllələnmiş 12 nəfərdən biri olmuşdur. Bu məscid XX əsrin 30-cu illərində dağıdılmışdır.

**Hacı Soltanalı məhəllə məscidi.** Bu məscid Maştağanın Ləhəc bağlarında yerləşir. El arasında olan bəzi məlumatlara görə, insanlar Maştağanın bağ məscidlərinə təkyəyə (təkyə – dərvişlərin dini ayin icra etdikləri yer – Ə.B.) gələr, ehsan verərdilər. Əhali məhərrəm ayında burada təziyə saxlayırdı. Burada hər gün azan verilərdi ki, bağlarda yaşayanlar namaz vaxtından xəbərdar olsunlar.[1]

**Hacı Teymur məhəllə məscidi** Maştağa – Bilgəh şosse yolunun kənarındadır. Məscidin girişində ərəb dilində, nəsx xətti ilə kitabə saxlanılmışdır. Həmin kitabənin tərcüməsi belədir:

**Hacı Teymurun vəqfi.** Belə məlum olur ki, məscid 1317-ci hicri (miladi 1900-cü ildə Hacı Teymur tərəfindən tikdirilmişdir. Hacı Teymur köhnə qəbiristanlıqdakı dini təyinatlı tikilini də təmir etdirmişdir. Hacı Teymurun evləri də hal-hazırda Məhəmmədbağır qəbiristanlığının kənarında yerləşir. Maraqlıdır ki, qəbristanlığın ərazisi qala divarlarının ətrafından başlanır.

**Hacı Seyid Əkbər məhəllə məscidi.** Bu məscid Dövlət Müstəqilliyi dövründə yenidən berpa olundu və 10 il müddətində inşa edilərək dindarların istifadəsinə verildi. Bu məscidin berpasında Hacı Seyid Əkbər Hacı Muxtar oğlunun xidmətləri çox böyük olmuşdur.

**Kərbəlayı Məhəmməd məhəllə məscidi.** Bu məscid XIX əsrin sonuna yaxın bir dövrdə tikilibdir. Həci Aslanov küçəsinin başlanqıçında Maştağa Mədəniyyət Mərkəzinin arxasında yerləşib. Bu məscid keçən əsrin 30-cu illərində sökülmüşdür.

Azərbaycanın memarlıq abidələri içərisində türbələr mühüm yer tutur. Türbələr üzərində çox zaman istər paleoqrafik, istərsə də məzmun cəhətdən maraqlı kitabələrə təsadüf etmək olur. Türbələrin üzərindəki kitabələrin öyrənilməsi sənətşünasların və incəsənət

---

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.91

tarixi ilə məşğul olan mütəxəssislərin başlıca vəzifələrindən biridir.

## "Ağal-bəbə" piri kompleksi və Maştağanın müqəddəs şəxsləri

Azərbaycan xalqı əsrlər boyu müqəddəs şəxsləri, övliyaları, nəfsi pak, bütöv seyidləri minlərlə insanların arasından seçmiş, adlarını uca tutmuş və müqəddəsləşdirmişdir. Sağlıqlarında həmin şəxslərə böyük ehtiram göstərilmiş, onlar dünyalarını dəyişdikdən sonra məzarları, yaşadıqları evləri müqəddəs ziyarətgahlara çevrilmişdir.

Naxçıvanda məşhur «Əshabi Kəf», Gəncədə «İmamzadə İbrahim», Siyəzəndə «Xıdır Zində», Nardaranda «Rəhimə xanım», Bakıda - Bayıl qəsəbəsi yaxınlığında «Hökümə xanım», Buzovnada «Əli ayağı», Şüvəlanda «Mirmöhsüm ağa», Maştağada «Aqil baba», «Seyid İbad ağa» ziyarətgahları çağdaş dövrdə də insanların böyük ümidlə tapındığı, nəzir dediyi, Allah-təaladan öz ürəklərinin istəklərini dilədiyi müqəddəs pirlər – ocaqlardır.

Maştağa qəsəbəsinin qərbindəki qəbiristanlıqda yerli əhali tərəfindən «Ağal-bəbə» adlandırılan ziyarət yeri – Pir yerləşir. Burada XVI əsrin sonlarında - XVII əsrin I yarısında yaşamış böyük alim, geniş dünyagörüşünə malik olmuş, «hər bir hadisədən öncədən xəbərdar olmaq qabiliyyəti» ilə tanınmış Seyid Kamil Seyid Mir Raid oğlu dəfn edilmişdir. Məzar üzərində ucaldılmış türbə daxildən və xaricdən düzbucaqlı şəkildədir, onun sahəsi 25 $m^2$-dir. Türbənin əsas (şərq) fasadının portalı (piştağı) vardır. Türbənin üstü günbəzlə örtülmüşdür, içərisində isə sement və gac məhlulu ilə suvanmuş, böyük sənduqəsi olan qəbir vardır. Abidənin şimal, şərq və qərb divarlarında taxça (0,75-0,56 m) yerləşir. Ərəb əlifbası ilə, süls xəttilə yazılmış, iki sətirlik kitabə portaldan türbəyə açılan qapı yerinin üstündə yerləşdirilmişdir. Kitabənin üzərində bu sözlər həkk olunmuşdur: «Bu yeni məqbərə ariflərin (alimlərin – Ə.B.) başçısı Seyid Kamil Seyid Mir Raid oğlunundur. Allah rəhmətinə getmişdir. Seyid Pənah ibn Seyid Şahmar ibn Seyid Murad tərəfindən rəbi-əs-sani ayında, 1131-ci ildə tikilmişdir». 1131-ci hicri ilinin rəbi-əs-sani ayı 1719-cu miladi ilinin 21 fevralı – 22 martına uyğun gəlir.[1]





Kitabənin birinci sətrində «ariflərin başçısı» («Qutb al-arifin») adlandırılan Seyid Kamilin əsl adı «Seyid Hüseyn» olmuşdur. Rəvayətə görə, Seyid Hüseynə «Seyid Kamil» adını onunla görüş zamanı göstərdiyi möcüzələri öz gözlərilə görmüş, alimin ağlına və zəkasına heyran qalmış Səfəvi hökmdarı Şah I Abbas (1587-1629) vermişdir.

Azərbaycanın görkəmli islamşünası Əhmədağa Əhmədov «İslamın əsasları» kitabında Seyid Kamil haqqında bu məlumatı vermişdir: «Belə xariqüladə işlər edə bilən şəxslərə «kəşf və kəramət sahibi» deyirlər. Belə şəxslər çox olub, hal-hazırda da var, lakin onlar ya cəmiyyətdən kənarda yaşayır, ya da cəmiyyət içində olduğu halda özünün Allah-təalaya müqərrəbliyini və kəramət sahibi olduğunu gizli saxlayır. Bakının Maştağa kəndində məqbərəsi «Ağal-bəbə» adı ilə məşhur olan zat bu cür kəşf və kəramət sahibi olub. Adı Seyid Kamil imiş. Lakin ona «Ağa Əli Baba» deyirlərmiş. Sonradan bunu təhrif ediblər, «Ağal-bəbə» olub. Bu cənab təxminən 400 il bundan qabaq yaşayıb, ondan xariqüladə işlər nəql edirlər...»[2] .

«Ağal-bəbə» adının yaranması barədə başqa bir fikir Seyid Kamilin əhali arasında «Aqil baba» (hər şeydən xəbərdar olan müdrik insan – Ə.B.) adlandırılması ilə bağlıdır. Belə ehtimal olunur ki, «Aqil baba» adı zaman keçdikcə şəklini dəyişmiş və əhali arasında «Ağal-bəbə» kimi tələffüz edilmişdir (şəkil 19, 20, 21, 22).

«Ağal-bəbə» türbəsinin qapısının üzərindəki kitabənin ikinci sətrində türbənin Seyid Pənah ibn Seyid Şahmar ibn Seyid Murad tərəfindən tikildiyi göstərilir. Araşdırmalardan məlum olur ki, Seyid Murad Seyid Kamilin qardaşı olmuşdur. Deməli, «Ağal-bəbə» türbəsi Seyid Kamilin qardaşı nəvəsi Seyid Pənah tərəfindən inşa edilmişdir.

---

[1] M.S.Nemətova. Azərbaycanın XVII-XVIII əsr epiqrafik abidələri. Bakı, 1963, s. 154; М.С.Неймат. Корпус эпиграфических памятников Азербайджана. Баку, 1991, с.90

[2] Əhmədağa Əhmədov. İslamın əsasları. Bakı, 1992, s. 85

Seyid Kamilin yaşadığı dövrdən təqribən 400 il keçmişdir, lakin onun Səfəvi hökmdarı Şah I Abbasla görüşməsi barədə əhali arasında hal-hazırda da müxtəlif rəvayətlər (tarixi mənbələrdə öz əksini tapmasa da – Ə.B.) söylənilməkdədir.

Seyid Kamilin nəslindən olan, Maştağa kəndinin qocaman sakini, güclü yaddaşa malik olan Seyid Rəsul bu barədə geniş məlumatlar vermişdir: «1011-ci hicri ilində (1602-ci miladi ilində) Abşerondan gəlmiş varlı mülk sahibləri Məkkəni və Mədinəni ziyarət etdikdən sonra Seyid Hüseynin atası onları öz evində bir neçə gün qonaq saxladı. Qonaqlar burada bir neçə gün qaldıqdan sonra Seyid Hüseyn və qardaşları Seyid Murad, Seyid Mirzə Abşerona gedib gəzmək üçün atasından icazə istədilər. Seyid Hüseynin atası Seyid Mir Raid oğlanlarına Abşerondan gəlmiş ağalar ilə getməyə icazə verdi».

Qardaşlar Abşerona gələrək bu yerləri qarış-qarış gəzdilər. Maştağa kəndi qonaqların çox xoşuna gəldi. Seyid Mir Raidin oğlanları bir müddət burada qonaq qaldıqdan sonra 1012-ci hicri ilində (1603-cü miladi ilində) Mədinəyə qayıtdılar. Burada atasının vəfat etdiyini görmüş qardaşlar bir müddət qaldıqdan sonra ailəliklə yenidən Maştağaya qayıtdılar və burada Cümə məscidinin yaxınlığından «Çildağ» adlanan ocağa qədər böyük bir sahədə yer alıb özləri üçün evlər tikdilər. Seyid Hüseyn əkin üçün qardaşları ilə birlikdə Nardarana gedən yolun üzərində hal-hazırda «səkkiz quyu» adlanan yerdə böyük bir torpaq sahəsi aldı. Qardaşlar burada becərdikləri əkin sahələrini suvarmaq üçün səkkiz su quyusu qazdırdılar. Deyilənlərə görə, Səfəvi Şahı I Abbas 1607-ci ildə Bakı şəhərini döyüşsüz tutduqdan sonra[1] Maştağada yaşayan böyük alim Seyid Hüseyn haqqında məlumat almış, tanınmamaq üçün üzünü örtərək və əyninə ərəb libası geyərək Maştağaya gəlmişdi.

[1] Sara Aşurbəyli. Bakı şəhərinin tarixi. Bakı, 1998, s.179-180; Azərbaycan tarixi. III cild. Bakı, 1999, s. 258; А.А.Рахмани. «Тарих – и алам арай-и Аббаси» как источник по истории Азербайджана. Баку 1960, с.94-95; А.А.Рахмани. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 гг.). Баку, 1981, с.63-75; Qılman İlkin. Bakı və bakılılar. Bakı, 1998, s.28





Şah I Abbasın gəlişini öncədən duymuş Seyid Hüseyn öz qızı Məryəm xanıma bildirmişdi: "Mən Nardarana əkin sahələrini suvarmağa gedirəm. Mənim yanıma qonaq gəlsə, əhvalını soruşarsan, yorğun olsa, qalıb dincələr. Əgər mənim yanıma gəlmək istəsə, bir nəfəri ona qoşarsan ki, onu yanıma gətirsin".

Şah I Abbas Seyid Hüseynin Cümə məscidinin yaxınlığında yerləşən evinə gəlmiş və qapını döymüşdü. Qapını açan Məryəm xanım Şah I Abbası görcək dillənmişdi: - «Ya qibleyi-aləm, xoş gəlmisən». Şah I Abbas tanımadan qızın ona ad verməsinin möcüzə olduğunu başa düşdü və cavab verdi: «Ağanın yanına gəlmişəm, evdədirmi?»

Məryəm xanım cavab verdi:

«Ağa əkin sahələrini suvarmağa gedib, onu görmək istəyirsiniz, yoxsa qalıb dincələcəksiniz?».

Qızın sözləri Şah I Abbası təəccübləndirdi və o, ağanın yanına getmək istədiyini bildirdi. Məryəm xanım bir nəfəri Şah I Abbasla birlikdə gəlmiş şəxslərə qoşdu ki, onları Seyid Hüseynin yanına aparsın.

Hökmdar Nardarana - hal-hazırda «səkkiz quyu» adlanan yerə, Seyid Hüseynin əkin sahələrinə gəlib çıxdı. Bu zaman Seyid Hüseyn əkin sahələrində olan alaq otlarını çıxarırdı. O, Şah I Abbası görən kimi ayağa qalxdı və dedi: «Ya qibleyi-aləm, xoş gəlmisən. Gedib evdə olmadığımı gördün. Məni görmək üçünmü gəldin?».

Şah I Abbas Seyid Hüseynə müraciətlə dedi: - «Ağa, səndə bu möcüzə varsa, daha niyə əziyyət çəkirsən? Otlara de ki, qırağa çıxsınlar». Seyid Hüseyn cavab verdi: "Ya qibleyi-aləm, belə möcüzələrin bizdən uzaq olmadığını bilmirsənmi?". Sonra o, əllərini yuxarı qaldırıb dedi: - «Ya Pərvərdigar, şah sənin verdiyin ruzilərlə məni imtahana çəkir». Bu sözlərdən sonra güclü yel əsdi və alaq otları topa halında kənara çıxmağa başladı.

Bundan sonra Seyid Hüseyn alaq otlarına yenidən müraciət etdi: «Otlar, Allahın izni ilə qayıdın». Otlar öz yerlərinə qayıdaraq yenidən göyərdilər. Seyid Hüseyn Şah I Abbasa bildirdi: «Qibleyi-

aləm, Mən halal zəhmətimlə çörək qazanıram və buna görə də çox əziyyət çəkirəm». Şah I Abbas Seyid Hüseynin göstərdiyi möcüzədən və verdiyi cavabdan heyrətə gəldi.

Sonra Seyid Hüseyn Şah I Abbasa dedi: «Gedək quyunun üstünə, namaz vaxtıdır, mən dəstəmaz alıb namaz qılacağam».

Şah I Abbas maraqla soruşdu: "Bəs sən dəstəmazını necə alacaqsan? Axı su quyunun dibindədir. İpin və qabın yoxdur, onu necə çəkəcəksən?"

Seyid Hüseyn bu zaman əlini quyunun üstünə uzatdı. Su quyunun ağzına qədər qalxdı və o, dəstəmaz aldı, namaz qılmağa başladı.

Namaz başa çatdıqdan sonra Şah I Abbas Seyid Hüseynə dedi: «Sən Allahın sözünə baxırsan, Allah da sənin istəklərini yerinə yetirir. Ona görə də Seyid Kamilsən».

Rəvayətə görə, Seyid Hüseyn məhz bu görüşdən sonra əhali arasında «Seyid Kamil» adlanmağa başladı.

Bundan sonra Seyid Kamil və Şah I Abbas at ilə Nardarandan Maştağaya yollandılar. Seyid Kamil yolda atı saxlayıb böyük bir bostanın içində işləyən bostançıya dedi: «Qonağım var, mənə bir qarpız sat».

Bostançı cavab verdi: «Ay ağa, sənə satılacaq qarpızım yoxdur».

Seyid Kamil və Şah yollarına davam etdilər, lakin bir qədər getdikdən sonra bostançı onların ardınca qışqırdı: «Ay ağa, tağlar, qarpızlar sənin ardınca gəlir». Seyid Kamil cavab verdi: «Tağlar deyir ki, qarpız var, amma sən deyirsən ki, yoxdur».

Bostançı bildirdi ki, «ağa, mən bostanı becərənəm, gərək sahibimdən icazə alam, sonra onu sənə verəm. Ağa, sən get, mən icazə alım, qarpızı sənə özüm gətirərəm».

Bostançı bostan sahibinə tağların və qarpızların ağanın ardınca süründüyünü bildirdi. Bu hadisədən agah olan bostan sahibi qarpızları arabaya özü yüklədi və Maştağaya-Seyid Kamilin evinə gətirdi.





Deyilənlərə görə, sonralar Şah I Abbas Bilgəhdən Nardarana dönən yerdən Maştağanın girəcəyinə qədər böyük bir sahəni Seyid Kamilə və onun qardaşlarına bağışladı.

Seyid Kamilin qızı Məryəm xanım da atası kimi kəşfi-kəramət sahibi olmuşdur. Belə rəvayət olunur ki, Məryəm xanım ərə getmiş, övladı dünyaya gələn məqamda rəhmətə getmişdir. O, can üstündə ikən atasına ağlayaraq demişdi: «Ata, mən dünyadan məhrum (yəni övladsız - Ə.B.) getdim».

Seyid Hüseyn isə cavabında qızına demişdi: «Mən sənin üçün sumə tikdirərəm, övladların, nəvələrin, nəticələrin hər yerdən sənin ziyarətinə gələrlər. Övlad arzusunda olanlar, kamına çatmaq üçün Sumənin səkkiz qapısından – həşdərdən varid olarlar». «Həşdər» sözündə «həşt» – «səkkiz», «dər» - «qapı» deməkdir. Əhali arasında bu yerə «Şəhid daşı» da deyirlər (şəkil 23, 24, 25).

## Seyid İbad ağa türbəsi

Seyid İbad ağa türbəsi "Ağal-bəbə" pir kompleksinə daxil olan 2-ci tikilidir.

Məqbərəsi illər boyu ziayrətgaha çevrilmiş Seyid İbad ağa Aqil babanın – Seyid Kamilin nəslindəndir. Seyid İbad Seyid Hadı oğlu Mövsümov 1900-cü ildə Bakının Maştağa kəndində anadan olmuşdur. O, atasını və anasını, qardaşlarını tez itirmiş, ömrünün sonuna kimi yeganə bacısı Xədicə xanımla birgə yaşamışdır. Seyid İbad ağanın qardaşları II Dünya müharibəsi cəbhələrindən geri qayıtmamışlar.

Seyid İbad ağa çox qəribə, qeyri-adi, övliyalara, müqəddəslərə məxsus olan bir həyat tərzi keçirmişdir. Bu dünyanın maddi nemətlərində onun heç zaman gözü olmamış və o, Allah-təalanın buyurduğu tərzdə yaşamışdır. Seyid İbad ağanın yaşadığı ev, uyuduğu türbə daim xalqın inam, ümid yeri olmuşdur. Onun adını ananlar, bu adı uca tutanlar, ona nəzir deyənlər daim niyyətlərinə yetmişlər.

Seyid İbad ağanın müasirləri, onu yaxından tanıyanlar nəql edirlər ki, Seyid İbad ağa ucaboy, ağbəniz, bir qədər dolu bədənli şəxs olmuşdur. O, bacısı Xədicə xanımla kiçik, qaranlıq otaqlarda yaşamış, bacı və qardaş həyatlarının sonuna qədər bir-birinə həyan olmuş və heç biri ailə qurmamışdır.

Seyid İbad ağa ilə Xədicə xanımın otaqları arasında bir otaq da olmuşdur. Onlar bu otaqdan yardımçı vasitə kimi istifadə etmişlər. Həmin otaq sonralar Seyid İbad ağanın anbarına çevrilmişdir. O, həm ona verilən nəzirləri, həm də ərzaq və sənaye malları dükanlarından aldığı bütün şeyləri məhz bu otağa yığır, sonra isə ehtiyacı olanlara paylayırdı.[1]

Seyid İbad ağa cavan yaşlarından Maştağada olan ovdanlardan əhaliyə su daşımaqla özünü və bacısını dolandırmışdır.

Seyid İbad ağa ilk növbədə su daşımaq iqtidarında olmayan ailələrə su gətirər, əksər hallarda bu xidmətinə, yardımına görə pul almazdı. Maştağa sakinləri hələ ötən əsrin 20-ci illərində Seyid İbad Ağanın qeyri-adi böyük insan, müqəddəs və nəcib seyid olduğunu görmüşlər.

Seyid İbad ağa çox səxavətli şəxs olmuşdur. Gətirilən nəzirlərin hesabına bəlkə də başqa bir şəxs özü və qohumları üçün böyük mülk tikdirər, bu mülkdə özü üçün hər cür şərait yaradar və ehtiyacın nə olduğunu bilməzdi. Lakin Seyid İbad ağa ədalət, səxavət yolunu tutmuş, ömrünün sonuna qədər dar, qaranlıq otaqlarda yaşamış, ona gətirilən bütün nəzirləri yenidən insanlara qaytararaq onların qəlbini şadlandırmışdır.

Kəndin ziyalı ağsaqqallarından biri, 1917-ci ildə anadan olmuş, Respublikanın əməkdar həkimi, uzun illər Maştağada yerləşən 7 saylı birləşmiş xəstəxananın baş həkimi vəzifəsində çalışmış, Seyid İbad ağanın müalicəsi ilə məşğul olmuş Kazım Haşım oğlu Kazımov onu belə xatırlayır: «Seyid İbad ağa bütün xəstəxana işçilərinin, o cümlədən xəstələrin çox səbirsizliklə gözlədiyi şəxslərdən idi. O, uzun illər boyu xəstələrə müxtəlif meyvələr alıb gətirər və

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.210





hamıya paylayardı. Özü də bu meyvələr o zaman alınıb xəstələrə verilərdi ki, bazarda qiymətlər çox baha olardu. O, meyvədən başqa ərzaq malları da alıb xəstəxanaya gətirər, yeşikləri qapının ağzına qoyardı. Gəzə bilən xəstələr özləri gəlib paylarını aparar, çarpayıda müvəqqəti yatmağa məcbur olmuş ağır xəstələrə isə ağa özü pay verər, onların həm də xoş sözlə könüllərini şad edərdi. Mənə verilən məlumata görə, ağa dolanışığı ağır olan xəstələrin yastığı altına pul da qoyardu»[1].

Seyid İbad ağa Maştağada olan ruhi xəstəxanaya daha çox yardım göstərirdi. Burada elə xəstələr var idi ki, qohumları onların yanına çox az gələr, bəzi hallarda isə xəstələrin bir qisminin yanına heç kim gəlməzdi. Seyid İbad ağa həmin xəstələrin ümidlə gözlədiyi müqəddəs insan idi.

Seyid İbad ağa yalnız Maştağadakı xəstəxanalara, internatlara deyil, Bakının bir çox xəstəxanalarına da meyvə payı aparırdı. Məsələn, o, Bakıdakı Uroloji xəstəxanaya dəfələrlə bu cür yardım etmişdi. Öncə bu xəstəxanada onu tanımırdılar. Sonralar Seyid İbad ağa gələn kimi onu içəri buraxar, gətirdiklərini «seyid malıdır» deyə «təbərrük» kimi alıb aparardılar.

Seyid İbad ağa heç zaman özü barədə düşünməyən müqəddəs bir şəxs idi. Hətta xəstə olanda da onun bütün fikri, diqqəti həmişə baş çəkdiyi, müxtəlif meyvələr apardığı, payladığı xəstələrin, uşaq bağçasındakı uşaqların, internat məktəbində təhsil və tərbiyə alan, valideyn qayğısından tamam və yaxud qismən məhrum olan şagirdlərin yanında idi.

Seyid İbad ağa 1972-ci ildə vəfat etmişdir. Seyid İbad ağanın son mənzilə yola salınması adi dəfn deyildi. Deyilənə görə, axund Mirzə Əbdülkərim ağa, axund Mirəbdülxalıq ağa da vaxtilə belə dəfn edilmişdilər. Seyid İbad ağanı son mənzilə yola salmağa gələnlərin sayı-hesabı yox idi. Deyilənə görə, dəfn mərasiminin iştirakçıları qəbiristanlıqdan qayıtdıqda camaatın çox hissəsi hələ də Maştağa Cümə məscidi ətrafında idi. Seyid İbad ağa ulu babasının yanında,

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.213

«Aqil-baba» qəbiristalığında dəfn edilmişdir (şəkil 29, 30, 32).

### Axund Mir Həbib ağa türbəsi

Ağal-bəbə pir kompleksinə daxil olan 3-cü türbə Axund Mir Həbib ağa Seyid Mustafa oğluna məxsusdur. Deyilənə görə, o, İslam dininin tarixini, əsaslarını çox mükəmməl bilmişdir. Axund Mir Həbib Seyid Mustafa oğlu 1829-cu ildə Maştağada anadan olmuşdur. Dövrünün tanınmış din xadimi olmuş bu şəxs öncə Qum şəhərində, sonra isə Kərbəlada, Nəcəfü-Əşrəfdə 25 il ərzində ali dini təhsil almışdır. Axund Mir Həbib ağa təhsilini bitirdikdən sonra Maştağada Seyidlər məhəllə Qədim Cümə məscidində axund olmuşdur. Kəndin bir çox din xadimləri, o cümlədən Axund Mirzə Əbdülkərim ağa və Axund Mir Ələkbər ağa ibtidai təhsillərini Axund Mirzə Həbib ağadan almış, sonralar isə ali dini təhsillərini davam etdirmişlər.

Görkəmli din xadimi Axund Mir Həbib ağa ərəb və fars dillərini mükəmməl bilir, klassik ədəbiyyatı çox sevirdi.

Axund Mir Həbib ağa «Quran»ın «Ər-rəhman» surəsinə on dörd məsumun adını əlavə etmişdir. O, həmin surəni ərəb dilində ixtisarla nəzmə çəkmişdir. Deyilənlərə görə, dərviş Mirhəmid Mirabdulla oğlu nəzmə çəkilmiş bu surəni hüzr məclislərində məharətlə oxuyarmış[1].

Axund Mir Həbib ağa Seyid Mustafa oğlu 1926-cı ildə vəfat etmişdir. O, sağlığında öz doğmalarına vəsiyyət etmişdi ki, onu el qaydası ilə dəfn etsinlər və məzarı üzərində türbə tikməsinlər. Lakin sonralar kənd sakinləri Axund Mir Həbib ağaya böyük ehtiram əlaməti olaraq onun qəbri üzərində türbə ucaltmış, həmin yeri ziyarətgaha çevirmişlər.

Təqribən dörd əsrə yaxındır ki, «Ağal-bəbə» piri insanların ziyarətgahıdır. Bu ocağa niyyət tutub gələnlər arzularına və muradlarına çatır, nicat diləyən xəstələr şəfa, sağlamlıq və mənəvi təmizlik tapırlar.

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.262





Son illər ərzində qəsəbənin xeyirxah insanlarının yardımı sayəsində «Ağal-bəbə» piri kompleksində təmir-tikinti işləri aparılmış, pirin ətrafı abadlaşdırılmışdır (şəkil 26, 27, 28).

### Çıldağ ocağı

Hələ qədim zamanlardan Azərbaycan torpaqlarında insanlar oda sitayiş etmiş, oda tapınmışlar. Təsadüfi deyildir ki, bu ulu torpağa qədim çağlardan müxtəlif adlar verilsə də o, məhz «Odlar yurdu» və "Azərbaycan" adları ilə tanınır. Odlar yurdu «Azərbaycan» sözünün açmasıdır, onun tarixi-coğrafi məzmununu əhatə edir. Məlumdur ki, Azərbaycan torpağı başdan-başa təbii, yanar, yeraltı qazların, odun, alovun məskənidir. Bəli, Azərbaycanı ən qədim zamanlardan yer altından çıxan təbii odlarla tanımışlar[1].

Əcdadlarımız oddan həm də şəfa tapmışlar. Oda inamla bağlı olan şəfa ünvanlarımızdan biri də Maştağa qəsəbəsindəki «Çıldağ» ocağıdır.

«Çıldağ» təxminən 500 il bundan öncə yaranmışdır. «Çıldağ» sözünün mənası « dağlamaq», «odla müalicə» deməkdir. Yarandığı zamandan etibarən bu ocağın sahibləri, o cümlədən yaxın keçmişdə onu mühafizə etmiş və artıq haqq dünyasına qovuşmuş Qənbər kişi, Əlibala kişi, Fatmanisə nənə, Ceyran xanım, Fatma xanım, hal-hazırda insanların xidmətində olan Ağarəhim kişi, Zəhra xanım həmişə minlərlə soydaşımız üçün ümidgah olmuşlar. Həkimlər «Çıldağ»ı tibb elminə yardımçı, bəzi hallarda isə təbabətin alternativi, əvəzləyicisi hesab edirlər. Xəstəliklərin əksəriyyətinin (yuxusuzluğun, zəifliyin, qan təzyiqinin, mədə, ürək, ayaq və kürək ağrılarının, dil tutulmasının və s.) qorxudan, əsəb sistemi pozğunluğundan törədiyi təbabətdən az-çox xəbəri olanlara bəllidir. Bu ocağa isə bir və ya bir neçə dəfə gəlməklə, çıldağ olunmaqla insan 40 gün ərzində əvvəlki vəziyyətinə qayıdır, şəfa tapır.

[1] Əjdər Fərzəli. Dədə Qorqud yurdu. Bakı, 1989, s.5

Burada müalicə prosesi acqarına aparılır. Közərdilmiş əski parçası insan bədəninin 7 yerinə, dırnaqlara, boyun fəqərəsinin ətrafına, kiçik hissəyə, mədə üstünə, dirsəklərə və biləklərə, dizlərə və topuqlara (hər iki tərəfdən) toxundurulur. Közərdilmiş əski parçası əzalara toxundurulduqca sinirlər oyanır və insanın əvvəlki (sağlam) vəziyyətinə qayıtması üçün şərait yaranır. «Çıldağ» olunan xəstənin mədəsinin üstü bəzən möhkəm bağlanır.

Uşaqlar, qocalar, əlacsız, ümidsiz xəstələr zaman-zaman bu ocağa pənah gətirmişlər. Nənələrin, babaların xeyirxah şəfaverici əməlini ocağın müasir sahibləri ləyaqətlə davam etdirirlər.

### Kökburma piri

Maştağa qəsəbəsinin şimal tərəfindəki bağlarda yerləşən və yerli əhali tərəfindən «Kökburma piri» adlanan tikili xüsusi maraq kəsb edir. Bu bina yonulmuş əhəngdaşından tikilmişdir. Onun daxili və xarici plan quruluşu düzbucaqlıdır. Tikilinin ön tərəfi Şərqə doğrudur. Bu türbənin inşa olunması tarixi göstərilməmişdir. Lakin türbənin içərisində qalmış bir neçə başdaşı hissələrinə görə onun tarixinə dair müəyyən fikir söyləmək mümkündür. Həmin başdaşı hissələrindən birində Quranın 256-cı ayəsindən bir parça oxunur. Oradakı ikinci başdaşı üzərindən aşağıdakı fraqmenti oxumaq mümkündür: «Bu qəbir rəhmətlik, bağışlanmış...» 1055-ci il" Göründüyü kimi, bu fraqmentdə mərhumun adı qalmamışdır.

Üçüncü başdaşı hissəsi üzərindən bu sözləri oxumaq mümkün olmuşdur: «Bu qəbir Əli --- oğlu rəhmətlik pir--- dir.»

Baş daşı oyulub töküldüyü üçün kitabələr xarab olmuş, yazılar pozulmuşdur. Ehtimal etmək olar ki, xalq arasında həmin yerin və binanın bu gün də "pir" adlandırılması başdaşının həsr edildiyi şəxslə bağlıdır. Qeyd olunan fraqmentlərdən birində hicri qəməri 1055-ci il (miladı 1645/46-cı il) tarixi vardır ki, bu tarixə əsasən türbənin XVII əsrin birinci yarısında tikildiyini söyləmək olar[1].

[1] Nemətova M.E. Azərbaycanın epiqrafik abidələri, s.92





## 2. MÜDAFİƏ TƏYİNATLI TİKİLİLƏR

Abşeron yarımadasının orta əsrlərə aid olan tarixi-memarlıq abidələri içərisində müdafiə təyinatlı tikililər də mühüm yer tutur. Bu tikililərə müdafiə qalaları və möhkəmləndirilmiş saray tipli iqamətgahları misal göstərmək olar.

Abşeronda tikilmiş qalalar (Mərdəkan, Nardaran, Ramana, Bilgəh və s.) vahid müdafiə sisteminin tərkib hissələri olmuş, sığınacaq və gözətçi məntəqələri rolunu oynamışlar. Maştağa ərazisində də müdafiə təyinatlı tikililər olmuşdur.

Abşeron yarımadasındakı müdafiə qalaları əsasən XIII-XIV əsrlərin yadigarlarıdır. Həmin qalalar yarımadanı şimal-şərq, şimal, qismən isə cənub tərəfdən dövrələyərək müdafiə xəttinin ön hissəsini təşkil etmişlər[1]. Bu qalalar yerli hakimlərin bir-birindən qorunması üçün etibarlı sığınacaq rolunu da oynamışlar. Abşeron qalalarının şimal-şərq sahil boyu tikilməsi təhlükənin daha çox həmin istiqamətdən gözlənilməsi ilə bağlı idi. Əgər düşmən sahil boyu yerləşən qalalardan birini ələ keçirsə idi, o zaman yarımadanın içərilərində- Maştağa, Zabrat, Qala, Ramana kəndlərindəki müdafiə tikililərində ciddi müqavimətə rast gəlirdi.

Deyilənlərə görə, yaxınlaşan hücum təhlükəsi gecələr tonqalın işığı, gündüzlər isə tüstü vasitəsilə bildirilirdi. Düşmən basqını haqqında xəbər qaladan-qalaya ötürülür və beləliklə, bütün Abşeron ayağa qalxırdı. Əgər tüstü işarəsi yarımadanın şimal sahillərindən başlanırdısa, sonra həmin işarə Nardaran, Maştağa, Ramana qalalarından Keşləyə və nəhayət, vahid müdafiə sisteminin son məntəqəsinə – Bakıya çatırdı. Əgər Abşeron yarımadasının xəritəsini diqqətlə nəzərdən keçirsək, onda sahil boyu müdafiə tikililərinin yarımadanın içərilərində olan məntəqələrlə əlaqəsinin ardıcıllığını görə bilərik.

[1] Горчакова Н.Г., Мель Р.К., Шеблыкин И.П. Крепостные сооружения Апшерона, с.68.

Araşdırıcıların hesablamalarına görə, bütövlükdə Abşeron yarımadasında 30-dan artıq belə müdafiə tikilisi olmuşdur. Bu tikililərdən bəziləri dövrümüzə qədər gəlib çatmış, bəziləri isə müəyyən səbəblər üzündən dağılmış, sıradan çıxmışdır. Aşkar edilmiş arxeoloji abidələr Abşeron üçün səciyyəvi olan Maştağa qəsr kompleksinin olduğunu söyləməyə əsas verir. Belə ki, həmin qəsr kompleksinə «Xunxar» məscidi, «Cümə» məscidi ilə yanaşı, əhali arasında hal-hazırda «Ağa meydanı» adlanan ərazi və burada yerləşən xan sarayı daxil olmuşdur. Bu qəsr kompleksi qala divarları ilə tam əhatələnmişdi. Lakin bu qala divarlarının son qalıqları 1841-ci ilin dekabrında baş vermiş güclü zəlzələ nəticəsində dağılmışdır. Qala divarlarının bəzi fraqmentləri təqribən XX əsrin I rübünə qədər qalmış və burada tədqiqat aparmış İ.P.Şeblıkin və Y.V.Paxomov tərəfindən 1926-cı ildə şəkilləri çəkilmişdir. A.Bakıxanov «Gülüstani – İrəm» əsərində II Mirzə Məhəmməd xanın özü üçün Maştağada yeni qala tikdirdiyi barədə məlumat vermişdir. Lakin İ.P.Şeblıkin və Y.V.Paxomov Maştağada həmin qalanın tikilməsindən xeyli öncə müdafiə divarlarının olduğu barədə məlumat vermişlər. Belə ki, onlar tədqiqat zamanı tikilinin hansı hissəsinə aid olduğu müəyyən edilməyən, üzərində yazılar olan daş parçaları aşkar etmişdilər. Daş parçaları üzərindəki yazılarda Y.V.Paxomov «Bina--- Məhəmməd İbrahim Əli oğluna .... Səkkizinci ildə və ....» kimi sözlərini oxumağa müvəffəq olmuş, lakin tam, yetkin bir fikir əldə edə bilməmişdi[1].

Maştağa ilə bağlı olan tarixi sənədlərdən, Y.V.Paxomovun və İ.P.Şeblıkinin apardıqları tədqiqatlardan bir daha aydın olur ki, burada hələ XVII əsrdə Abşeron üçün səciyyəvi olan qəsr kompleksi vardı. Qəsr kompleksinə daxil olmuş qalanın, bağın, imarət və ovdanlar fraqmentləri hal-hazırda burada qalmaqdadır[2]. 1723-1735-ci illərdə ruslar tərəfindən işğal edilmiş ərazilərdə olmuş alman hə-

[1] Пахомов Е.В. Старинные сооружения Апшерона – Труды Института Истории им. А. Бакиханова. т.1, Баку, 1947, с.68

[2] Бакиханов А. Гюлистани – Ирам. Баку, 1991, с.133.





kimi İ.Y.Lerx 1733-cü ildə Maştağada, Dərgahqulu xanın evində qonaq olmuş və gördüklərini qələmə almışdır. O, yazmışdır: «1733-cü ilin 27 iyununda Bakı ətrafında ən yaxşı qəsəbə olan Məşqətəyə gəldik. Orada hündürböy, yaraşıqlı və cəsur döyüşçü olan Dərgah sultan yaşayırdı. Onun evi böyük və yaraşıqlı idi. Daxildən və xaricdən müxtəlif naxışlarla bəzədilmiş bu binanın həyətində iki daş çarhovuz var idi. O, bizə şərqsayağı qonaqlıq verdi və süfrəyə 50-yə qədər müxtəlif yeməklər düzdürdü. Ətrafda çoxlu miqdarda böyük binalar var idi"[1].

Maştağa ərazisində Dərgahqulu xanın tikdirdiyi ikinci bağ evi Maştağa- Nardaran yolunun sol tərəfində, əhali arasında «Xan bağı» adı ilə məşhur olan sahədə yerləşirdi. İkimərtəbəli, böyük imarət olmuş bu binanın fraqmentləri son zamanlara qədər qalırdı, sonra isə onun yerləşdiyi sahədə 3 saylı ruhi xəstəxananın binaları inşa edilmişdir. A.Bakıxanovun atası II Mirzə Məhəmməd xan da bir müddət bu iqamətgahda yaşamışdır. II Mirzə Məhəmməd xan hələ 1784-1791-ci illərdə Bakıda xanlıq etmişdir. Lakin o, hakimiyyət uğrunda mibarizədə məğlub olaraq Qubaya getməli oldu. XIX əsrin sonunda II Mirzə Məhəmməd xan Bakı xanlığının ərazisini Hüseynqulu xanla bölüşdürdü, Maştağanı özünə iqamətgah seçdi. Müdafiə məqsədilə yeni bir qala tikdirmiş II Mirzə Məhəmməd xan tezliklə yenidən Qubaya getməli oldu. İ.P.Şeblıkinin və Y.V.Paxomovun Maştağa qalasında apardığı tədqiqatlardan məlum olur ki, II Mirzə Məhəmməd xanın tikdirdiyi qalanın künclərində dairəvi qüllələr olmuşdur (1301-ci ildə tikilmiş Nardaran qalasında olduğu kimi).

Maştağa kəndinin qocaman sakinlərindən biri olan Seyid Rəsulun söylədiklərinə görə, qaladan ətraf yerlərə yeraltı yollar olmuşdur. İstər qalanın, istərsə də xan sarayının dağılması burada tez-tez baş vermiş zəlzələlərlə əlaqədar olmuşdur.

Son illərdə aparılmış qazıntı işləri zamanı qala divarlarının qalıqları aşkar edilmişdir. Ümidvarıq ki, gələcəkdə Maştağada, o cümlədən bəhs edilən bölgədə planauyğun, ardıcıl, arxeoloji təd-

[1] Лерх. И. Выписка из путешествия, с.26

qiqat işləri aparılacaq və bu zəmində qəsəbənin tarixi, qədim abidələri daha ətraflı surətdə araşdırılacaqdır.

## 3. OVDANLAR VƏ HAMAMLAR

Məlumdur ki, Abşeron yarımadasının iqlimi nisbətən quraqdır. Başqa sözlə, Abşeron ilk baxışda "susuz bir ərazi" təsəvvürü bağışlayır. Lakin ərazi ilə daha yaxından tanışlıq burada keçmişdə, habelə müasir dövrdə əkinçiliyin, bağçılığın müəyyən inkişaf səviyyəsinə malik olduğunu söyləməyə əsas verir. Vaxtilə bu yarımadada olmuş müxtəlif səyyahlar buradakı yaşıllıqdan, bostanlardan və bağlardan maraqla bəhs etmişlər.

Əbdürrəşid Bakuvinin məlumatına görə, Bakının ətraf yerlərində əncir, üzüm və nar becərilirdi[1]. Bakıda və onun ətrafında meyvə və tərəvəz bitkilərinin, texniki bitkilərin becərildiyinə dair orta əsr müəlliflərinin verdikləri məlumatları arxeoloji qazıntıların nəticələri də sübut edir. Abşeron yarımadasında pambığın becərildiyinə dair məlumatlar da vardır[2].

Bu məqamda belə bir sual meydana çıxır: Əhali özünün, habelə bu əkin sahələrinin suya olan tələbatını o zaman necə ödəmişdir? Sualın cavabı çox sadədir: Çoxsaylı quyular və ovdanlar vasitəsilə! Bəli, Abşeron kəndlərinin su təchizatında quyuların və ovdanların müstəsna rolu olmuşdur. Ovdanlara Abşeron yarımadasında və Qobustanda daha çox təsadüf olunur[3].

Ovdanların tədqiqi Abşeronun orta əsr maddi mədəniyyətinin inkişafı problemlərini, eləcə də bütövlükdə su təchizatı sistemini və memarlıq xüsusiyyətlərini öyrənməyə imkan verir.

Abşeron yarımadasının quru subtropik iqlim şəraitində ov-

[1] Əbdül-Rəşid Bakuvi. Göstərilən əsəri, s. 55

[2] Ашурбейли С. Очерк истории средневекового города Баку. Баку, 1964, глава V.

[3] Алиев Ф. Мосты, каравансараи и овданы на службе торговли во второй половине XVII в. Доклады АН Аз. ССР, XIII, №3, 1957, с. 352





danların çoxluğu və səciyyəvi xüsusiyyətləri diqqəti cəlb edir. Bu ovdanlar haqqında V.İ.Toçilov, S.A. Dadaşov, M.A.Hüseynov, S.Bronevski, İ.P.Şeblıkin və b. bəhs etmişlər[1]. E.Ə.Qasımovun «Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı» adlı monoqrafiyasında Azərbaycan şəhərlərinin məişəti, təsərrüfat həyatı və sənətkarlıq sahələrinin inkişafında həlledici rol oynamış su təchizatı sistemlərinin rolu hərtərəfli, elmi surətdə araşdırılır.[2]

Bu məqamda isə Abşeronun qədim yaşayış məskənlərindən biri olan Maştağanın su təchizatı texnikasından yadigar qalmış vaxtilə ehsanat-məqsədi ilə 40-dək qazılmış, su quyularının və 30-a qədər isə inşa edilərək savab əməl sahibləri tərəfindən əhalinin istifadəsinə verilmiş ovdanların bəzi memarlıq xüsusiyyətləri haqqında ümumi məlumat verək. "Ovdan" əslində «avdan»dır və fars dilində "su saxlanan yer" mənasını daşıyır. O, bir sıra Şərq ölkələrində, o cümlədən Azərbaycanda yağış, süxur (qrunt), kəhriz sularının toplanması üçün nəzərdə tutulan su təchizatı qurğusudur. Abşeron yarımadasında, o cümlədən Maştağa kəndində geniş yayılmış ovdanların 2 tipi vardır:

1) Yeraltı ovdanlar. Bu tip ovdanlar yeraltı sulara çıxış əldə etmək üçün nəzərdə tutulur.

2) Yerüstü ovdanlar. Bu cür ovdanlar atmosfer sularının toplanması və saxlanması üçün nəzərdə tutulur.

Ovdanların üstü adətən baştağ şəklində, yaraşıqlı halda düzəldilirdi. Ovdanların dərinliyi yeraltı su mənbəyinin yerləşdiyi dərinlikdən asılıdır. Su mənbəyinə çıxış əldə etmək üçün iki şəkildə quyu qazılır: 1) Dairəvi; 2) Kvadratşəkilli.

Suyu əldə etmək üçün isə həm insan qüvvəsindən (su az lazım olduqda), həm də heyvanların gücündən (əkin, tikinti üçün

[1] В.И.Точилов. Об овданах Абшерона; Дадашев С.А., Усейнов М.А. Архитектура Азербайжана. М., 1948; Броневский С. Новые географические и исторические известия о Кавказе. М., 1823, с. 400; Шеблыкин И.П.Памятники азербайджанского зодчества эпохи Низами. Изд.Аз. ФАН, 1943.

[2] E.Ə.Qasımov. Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı (IX-XV əsrlər). Bakı, 2002.

çox lazım olduqda) istifadə olunur.

Ovdanlardan əldə edilən su da bir-birindən fərqlənir. Ovdanların bir qismində su azca duzlu olur və həmin sudan müxtəlif məqsədlər üçün istifadə olunur. Ovdanların bir qismindən isə içmək üçün yararlı olan «Şirin-su» əldə edilir.

Abşeron ovdanlarının özünəməxsus memarlıq xüsusiyyətləri vardır. Hal-hazırda Abşeronun başqa yerlərində olduğu kimi, onun şimal-şərq hissəsində – Maştağa, Bilgəh, Nardaran ərazisində, şosse yollarının kənarlarında, üzümlüklərdə, hətta bəzi həyətlərdə bu ovdanlara təsadüf olunur. Hətta bəzi yerlərdə qrup şəklində ovdanlar sanki özünə özünəməxsus «ovdanlar qəsəbəsini» təşkil edir.

**Məşədi Əmiraslan ovdanı.** Maştağada bu günə qədər qalmış ovdanlardan biri də Maştağadan Bilgəh bağlarına gedən yolda yerləşir. Ona el arasında "Əmiraslan ovdanı" deyilir. Hal-hazırda tamamilə baxımsız halda olan bağ həyətinə düşmüş həmin ovdan tam salamat vəziyyətdədir, istifadə üçün yararlıdır. Lakin bu ovdanın tamamilə baxımsız bir həyətdə olması, nəzərdən kənarda qalması, unudulması təhlükəsi mövcuddur. Yan tərəfdə olan pilləkanla ovdanın dibinə enmək mümkündür. Abidənin üstü tağ şəklində hörülmüşdür. Müasir dövrdə su təchizatının guya "yaxşı olduğunu" fərz edərək, belə bir abidənin yararsız hala salınması yolverilməzdir.

Ovdanın qapısı üzərində ərəb dilində tərtib olunmuş üç kiçik kitabə saxlanılmışdır və onların hər biri 2 sətirdən ibarətdir. Birinci kitabə aşağıdakı kimi oxunur:

Allah, Məhəmməd, Əli
Fatimə, Həsən, Hüseyn
İkinci kitabə belə oxunur:
Hacı Qulu tərəfindən tikilmişdir.
Tikilmə tarixi 1311(1893)





Üçüncü kitabənin oxunuşu belədir: Hacı Rüstəm və Məşədi Əmir Aslan vəqfi[1].

Sonuncu oxunuşa əsasən, Maştağadakı bu ovdan "Hacı Rüstəm və Məşədi Əmiraslan ovdanı" adlandırmaq daha düzgün olardı. Diqqəti cəlb edən Maştağa ovdanlarından biri də Maştağadan Nardarana gedən yolun üstündə yerləşir. Həmin ovdan hicri tarixlə 1278-ci ildə (miladi tarixilə 1827-ci ildə) tikilmişdir.

Maştağada bilavasitə yaşayış evlərinin yanında olan ovdanlara da rast gəlmək mümkündür. Belə ovdanlardan biri müasir dəmir yolunun kənarında, "Keçənlər" məhəlləsində yerləşən «İslam ovdanı» - dır. Maştağada bunlardan başqa digər ovdanlar da olmuşdur (şəkil 56).

«Əmuleyi» ovdanı Maştağanın "Rəhim kəndi" adlanan sahəsində, Nardaran yolunun kənarında yerləşir;

«İlyas» ovdanı Maştağadan Suraxanıya gedən yolun kənarında, keçmiş «sallaqxana» adlanan yerdədir;

«Hacı Abbasqulu» ovdanı hal-hazırda Şəfainin adına olan küçənin başlanğıcında, əhali arasında «Dərə Qılınc» adlanan əraziyə gedən yolun kənarındadır;

«Kəblə Heybətqulu» ovdanı «Dərə Qılınc»a gedən yolun üstündədir, bu övdan təqribən ötən əsrin 60-cı illərinə qədər mövcud olmuşdur;

«Molla Şərif» ovdanı Maştağadan Bilgəhə gedən yolun üstündə "Guraney" deyilən ərazidə yerləşir. Hal-hazırda şəxsi bağ massivində istifadədir "Sehirli xalat" Azərbaycan filmində də nümayiş olunubdur.

«Naxır bulağı» adlanan yerdə, indiki Mədəniyyət və istirahət parkının içində müasir musiqi məktəbinin yanında da vaxtilə "Kərbəlayı-İsmayıl" övdan olmuşdur. Bu ovdandan başqa "Naxır bulağı" üstündə bir neçə digər övdan da Qoçu Əzizin atası Hacı Mürsəl və Ağa tərəfindən ehsan edilmişdir. Bu ovdanlar həmin şəxslərin adı ilə də əhali arasında adlandırılmışdır. Heyvanların su içməsi

[1] Немат М.С. Корпус.., с.109

üçün olan xüsusi axurlara bu ovdanlardan su gətirərdilər. Onlardan birini Kərbəlayi Soltan qazdırmışdı. Təxminən ötən yüzilliyin 30-cu illərinə qədər istifadə olunan bu ovdanlar sonralar torpaqla doldurulmuşdur. Həmin yerə əhali arasında hal-hazırda da bu ərazi «Naxır bulağı» kimi deyim tərzində özünü yaşadır. Mərhum Hacı Quluməhəmməd Kərbəlayi Mömin oğlunun xatirələrində "Naxır bulağı"nda 17 quyunun olduğu barədə məlumat verilir.

H.Sarabski «Köhnə Bakı» kitabında bu barədə belə yazmışdır: «Maştağanın qəribə mənzərəsi vardı, kəndin girəcəyində bir meydan vardı. Ona "Naxır bulağı" deyərdilər. Bu bulağın dövrəsi və kəndin küçələri başdan-başa dükanlar idi».[1] Maştağada ikinci belə sahə "Keçənlər" məhəlləsi ilə "Seyidlər" məhəlləsi arasında "Qoyun bulağı" adlanan ərazi olubdur.

Maştağa ovdanlarından biri də "Gövhərbikə" ovdanı (eyni adlı mescidlə üzbəüz) «Tavaylıq» adlanan yerə gedən yolun üstündə yerləşir, lakin bu ovdan həyətə salınıbdır.

Ovdanlardan biri də müasir əmanət kassası ilə yaxınlığında yerləşir. Hal-hazırda küçə suları həmin ovdana axıdılır.

Maştağada "Hacı Nağı", "Hacı Məhəmməd", "Hacı Qəni", "Şirməmməd", "Qasım", "Balağa", "Dəryaxan", "Pəhlivan Ağaverdi", "Xan", "Manafovlar", "Pirəli", "Baloğlan", "Qədiməli", "Ağanağı", "Abid" və digər xeyirxah insanların əməllərini adları ilə yaşadan bir çox ovdanlar da olmuşdur. Şirin suyun olduğu hər yerdə 5-6 ovdan və ya su quyusu qazılıb istifadəyə verilirdi.

Maştağada ovdanların və quyuların bolluğu göstərir ki, kənddə kankanlar da çox olmuşdur. Deyilənlərə görə, vaxtilə Maştağada 4 qardaş uzun müddət ərzində quyu qazmaqla, kankanlıq peşəsi ilə dolanarmış. Bu xidmətin nəticəsidir ki, sənəti, peşəni yaşadan və həyatını bəzəndə qazıntı zamanı təhlükə qarşısında qoyan kankanların böyük və gərgin xususi təmkin və səbir tələb edən zəhməti sayəsində kəndin sexavət sahibləri tərəfindən ehsanat məqsədilə onlarla su quyuları qazdırılmış təmənnasız olaraq insanların itifadəsinə

[1] H.Sarabski. Köhnə Bakı. Bakı, 1982.





verilmişdir. Bu quyular da ovdanlar kimi həmin xeyirxah niyyətli səxavətlilərin adları ilə xalq arasında tanılmaqdadır. Odur ki, Maştağada bu günədək istifadə edilən bu quyular onu insanlara hədiyyə edənlərin adı ilə və nəsillərə çatdırılır. Məsələn, Əbdüləzim, Kələntər, Gənbulaq, Ağaverdi, Seyit Tahir, Mir Yusif, Manafovlar, Kərbəlayı Süəyb, Kərbəlayı Səttar, Hacı Şıxı, Məqsədi İmaməli, Hacı Yəhya, Baloğlan, Abbas, Hacıdayı, Qarağac, Əbdulrıza, İslaməli quyuları və digərləri hal-hazırda da Maştağada adları ilə tanıdırlar.

## Hamamlar

Xalq memarlığının ən geniş yayılmış abidələri hamamlardır. Onlar müxtəlif dövrlərdə inşa edilmiş, bəziləri bu günə qədər qorunub qalmışdır.

Bütövlükdə Abşeron yarımadasında XIV-XIX əsrlərə aid olan xeyli miqdarda hamam tikililəri vardır. Həmin hamamların plan quruluşunu hərtərəfli öyrənmiş İ.P.Şeblıkin onları 2 tipə bölmüşdür.[1] XIV əsrdə Nardaranda, eləcə də Kürdəxanıda tikilmiş hamamlar birinci tipə aiddir.

Balaxanı və Maştağa hamamları ikinci tipə aid olunur. Bu hamamlar da XIV əsrdə inşa edilmişdir. Nardaran və Kürdəxanı hamamlarından fərqli olaraq həmin hamamlar 8 guşəli otaqlarla təchiz olunmuşdur. Məhz bu cəhəti sayəsində Maştağa və Balaxanı hamamlarında tikililərin sayı daha çoxdur. Lakin işıqlandırma və qızdırma baxımından hamamların hər iki tipi eynidir.

Hamamın giriş qapısından sonra xüsusi soyunub-geyinmə otaqı düzəldilmişdir. Buradan isə böyük zala çıxış vardır. Müxtəlif təyinatlı otaqların qapısı isə həmin böyük zala açılır. Böyük zalın ortasında xüsusi hovuz da olmuşdur[2]. Haqqında bəhs olunan hamamlar inkişaf etmiş hamam tiplərindən hesab oluna bilər. Aparıl-

[1] И.Р.Шеблыкин. Памятники азербайджанского зодчества эпохи Низами. Баку, 1943, с.31

[2] Алиев М., Г.Баня «Гаджи хамам», с 57

mış tədqiqata əsasən hamam binasının otaqlarını bütövlükdə 3 əsas qrupa bölmək olar: 1) giriş hissə; 2) soyunub-geyinmə otağı; 3) yuyunma otaqları. Beləliklə, hamama gələnlər paltar soyunub-geyinmə otaqlarından böyük zala və yaxud xüsusi otaqlara keçirdilər. Hamam binalarının fasadı (ön hissəsi) sadə və təqribən bəzəksiz olmuşdur. Hamamlara əsas giriş tağ şəklində olurdu. Maştağa kəndi ərazisində orta əsrlərdən etibarən inşa edilmiş digər hamamlar da vardır. Bu günə qədər bizə gəlib çatmış məlumatlar əsasən XIX-XX əsrin əvvəllərində tikilmiş hamamlara aiddir. Belə hamamlardan biri də Kərbəlayi Hacı Əli tərəfindən h. qəməri tarixilə 1324-cü ildə (1906-cı ildə) tikdirilmişdir. Bu hamamın usta Cəmil tərəfindən inşa edildiyi məlumdur.

XVIII əsrdə burada olmuş alman səyyahı İ.Lerx də Maştağa hamamları haqqında məlumat vermişdir. O, burada kişilər və qadınlar üçün nəzərdə tutulmuş, gözəl memarlıq üslubunda tikilmiş, tağları olan iki daş hamamdan bəhs etmiş, onların çox təmiz olduğunu, neftlə quzdırıldığını qeyd etmişdir.

1) «Şamxal» hamamı Maştağadan Bilgəhə gedən yolun üstündə yerləşir. Hal-hazırda istifadə olunmur;
2) 1938-ci ildə tikilmiş «Təzə hamamdan» XX əsrin 70-ci illərinə qədər istifadə olunmuşdur. Hal-hazırda isrifadə olunmur;
3) «Məhəmməd» hamamı Şəhər yolu üstündə yerləşir, bu hamamdan təxminən ötən əsrin 50-ci illərinə qədər istifadə olunmuşdur və hal-hazırda mövcud olan «Məhəmməd» hamamının həyətyanı səhəsinin tərkibindədir;
4) Hal-hazırda yeni poçtun yerləşdiyi ərazidə vaxtilə fəaliyyət göstərmiş «Mirəli» hamamı keçən əsrin 30-cu illərinin sonlarına kimi mövcud olmuş, sonra isə dağıdılmışdır; (Məmmədağa doktorun həyətində)
5) Maştağada, «Dərəqılınc adlanan ərazidə mövcud olmuş «Mirheydər» hamamı hal-hazırda həyətyanı sahələrin tərkibinədir;
6) Müasir Mədəniyyət evinin yanında ötən əsrin 50-ci illərinin sonlarına qədər mövcud olmuş «Səfərəli» hamamı sonralar dağıdılmış, yerləşdiyi sahədə İ.Stalinin və V.Leninin heykəlləri qoyulmuşdu. Hal-hazırda həmin ərazidə çayxana yerləşir;
7) Maştağanın «Çüləgər» adlanan sahəsində vaxtılə fəaliyyət göstərmiş «Mirzəhüseyn» hamamı təqribən ötən əsrin 30-cu illərinin sonlarına qədər qalırdı. Mirzə Hüseyn məşhur "Mirzəhüseyn" segahının müəllifi və ifaçısı idi və bu hamam da ona məxsus olmuşdur. Hal- hazırda yarımsökülmüş vəziyyətdədir;
8) «Maştağa binəsi» adlanan ərazidə yerləşən «Məmmədrza» hamamından XX əsrin 40-cı illərinə qədər istifadə olunmuşdur. Sonralar hamam bir müddət dükan kimi fəaliyyət göstərmişdir. Hal-hazırda həyətyanı sahələrin tərkibindədir;
9) Vaxtilə müasir Univermağın yerində mövcud olmuş «Güllük» (bəzən də "Bəşir" adı ilə tanınır) hamamından XX əsrin 20-ci illərinin sonuna qədər istifadə edilmişdir. Hal-hazırda əhali arasında bu yerə «Çirkab üstü» deyirlər;
10) «Hacıbaba» hamamı H.Zərdabi küçəsində yerləşmişdir. XX əsrin 30-cu illərinə qədər istifadə olunmuşdur. Hamamın qalıqları ötən əsrin 60-cı illərinə qədər mövcud olmuşdur;
11) «Qara Qasım» hamamı «Dərəqılınc» adlanan ərazidə, «Mirheydər» hamamının tərkibindədir;
12) «Əjdər» hamamı müasir polis idarəsinin yaxınlığında yerləşir. XX əsrin 70-ci illərinə qədər istifadə olunan «Əjdər» hamamı hal-hazırda həyətyanı sahələrin tərkibindədir;
13) «Baloğlan» hamamı;
14) «Kərbəlayi Məmmədrəsul» hamamı "Tavaylıq"da yerləşir;
15) «Əli» hamamı da "Tavaylıq"da yerləşir.
16) «Paşa» hamamı;
17) «Kərbəlayi Mir Salam» hamamı;
18) «Hacı Rza» hamamı;
19) «Nəcəfəli» hamamı;
20) «Qum» hamamı;

21) «Manaf» hamamı;
22) «Hacı Mömin» hamamı.

**Qum hamamı və Şamxal hamamı haqqında**

Maştağanın qədim memarlıq abidələrindən biri də kəndin «Seyidlər» məhəlləsində yerləşən «Qum hamamı»dır. Bu abidənin öz adı kimi qəribə tarixcəsi vardır. Deyilənlərə görə, həmin hamamı XVII əsrdə Səfəvilərlə mübarizədə Şirvanı və Abşeronu ələ keçirmiş Osmanlılar tikdirmişdilər. Vaxtilə kəndin əsasən bu sahəsində Osmanlı türklərinə məxsus olan məzarlar vardı. Sonralar güclü küləklər nəticəsində Maştağanın şimal hissəsində əmələ gəlmiş böyük qum təpələri (barxanlar) həmin sahələri, o cümlədən bu qəbiristanlığın bir hissəsini əhatə etmişdi. Yaranmış həmin qum təpələri burada osmanlılara məxsus olan hamamın üstünü də tamamilə örtmüşdü. Sonralar tədricən yeni yaşayış sahələrinin təşəkkülü, tikililərin çoxalması Bağlar sahəsindən bu hamamın da üzə çıxmasına səbəb olmuşdur. O zamandan etibarən qum altından çıxdığına görə həmin yerə «Qum hamamı» deyilir. Bir müddət istifadə olunmış bu hamam yenidən unudulmuşdu. "Qum hamamı"na sonralar «Nəcəf hamamı» da deyirdilər (şəkil 53).

Üç əsas hissədən ibarət olan hamamda soyunub-geyinmə yeri, çimmək və dincəlmək üçün nəzərdə tutulmuş yerlər mövcuddur. İlin 4 fəslinə uyğun olaraq həmin yerlər 4 güşəlidir. İranın Rəşt vilayətində də bu cür hamam vardır.[1]

"Şamxal hamamı"nı XIX əsrdə yaşamış "Şamxal bəy" adlı bir maştağalı tikdirmişdir. Şamxal bəyin öz evi Bakıda, "5 mərtəbə"nin yanında, karvansarası isə "Şeytanbazar"ın yanında olmuşdur. Deyilənlərə görə, "Şamxal hamamı"nın sütunlarını Pəhləvan Baxşəli öz çiyinlərində daşımış, yerinə qoymuşdur. Hamam ümumilikdə 5 hissədən ibarətdir. Giriş, soyunub-geyinmə yeri, dincəlmək üçün yer, çimmək üçün yer, xəzinə otağı, buxar otağı, massaj yeri, kisəçilərin yeri (şəkil 54).

[1] Vəli Həbiboğlu. Maştağa, Bakı, 2004, s.96





## 4. MAŞTAĞAƏSİLLİ OLAN MEMAR–USTALAR

Maştağanın adlarını çəkdiyimiz memarlıq abidələrini kəndin sakinləri, eləcə də kənar yerlərdən dəvət edilmiş memar–ustalar inşa etmişlər. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi istisnalarla həmin memar–ustaların adları dövrümüzə qədər gəlib çatmamışdır. Buna görə də, biz həmin memar–ustalar haqqında ətraflı bəhs etmək imkanına malik deyilik. Bununla belə bəzi memar–ustaların adları məlumdur və biz də yalnız onların adlarını qeyd etməklə kifayətlənməli olacağıq.

**Novruz Məşqətəli.** XIX əsrdə yaşamış bu memar-usta maştağalıdır. Məlumdur ki, "Maştağa" mənbələrdə və bir sıra əsərlərdə "Məşqətə" şəklində də xatırlanırdı. Bu barədə artıq bəhs edilmişdir. Novruz Məşqətəli Maştağanın ən məşhur məscidlərindən biri olan «Xunxar» məhəllə məscidini bərpa etmişdir.

**Məşədi Məhəmməd Məşqətəli.** Məşədi Məhəmməd Məşqətəli XIX əsrdə yaşamış və dövrünün tanınmış ustalarından biri olmuşdur. O, həm Maştağada, həm də digər Abşeron kəndlərində bir sıra abidələrin tikilməsində və bərpasında yaxından iştirak etmişdir. Məşədi Məhəmməd Məşqətəlinin inşa etdiyi abidələrdən biri də Saray kəndindəki məsciddir.

**Əmir Məşqətəli.** Adı bəzi kitabələrdən bizə məlum olan memar- ustalardan biri də Əmir Məşqətəlidir. XIX əsrin II yarısında - XX əsrin əvvəllərində yaşamış bu ustanın adına bir neçə kitabədə rast gəlinir.

**Ağamalı Məşqətəli.** XIX əsrdə yaşamış, memar-usta kimi məşhurlaşmış maştağalı sənətkarlardan biri də Ağamalı Məşqətəlidir. O, həm abidələrin tikintisində və bərpasında iştirak etmiş, həm də onların üzərindəki kitabələri tərtib etmişdir. Ağamalı Məşqətəli 1874-1875-ci illərdə Maştağadakı «Hacı Kərbəlayi Hüseyn» məscidini tikmişdir.

**Xaliq Məşqətəli.** 1839-1840-cı illərdə Balaxanıda su anbarı tikintisinə rəhbərlik etmişdir.

Adları burada çəkilmiş şəxslərlə yanaşı Maştağada bu və ya digər tikinti işləri aparmış bəzi sənətkarların adları da bizə məlumdur. Lakin onların əslən maştağalı olub-olmaması haqqında əlimizdə dəqiq məlumat yoxdur. Belə ustad sənətkarlara aşağıdakı şəxslər aiddir:

**Məhəmməd Seyid, Mirzə Şəfi oğlu, Cənnət, Mir Tağı Qulu, Məhəmməd Salim, Hacı Qulu, Məşədi Məhəmməd, Kərbəlayi Hacı Əli, Cəlil, Yar Məhəmməd.**

Şübhəsizdir ki, gələcək araşdırmalar prosesində həmin ustad sənətkarlar haqqında daha mükəmməl məlumatlar toplamağa və oxucuları onların fəaliyyəti ilə tanış etməyə çalışacağıq.



# III FƏSİL

# MAŞTAĞA XX ƏSRDƏ VƏ XXI ƏSRİN ƏVƏLLƏRİNDƏ

## 1. MAŞTAĞA XX ƏSRDƏ

1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı Rusiya imperiyasının tərkibində olan Şimali Azərbaycanın sonrakı inkişaf tarixinə də güclü təsir göstərdi. Ölkədə ictimai-siyasi şərait əsaslı surətdə dəyişdi. Şimali Azərbaycanda da milli-azadlıq hərəkatı gücləndi. Bakıda yeni yaradılmış müsəlman təşkilat və cəmiyyətləri fəallaşdılar. Bu zaman ölkədə ən böyük nüfuza malik olan siyasi təşkilat "Müsavat" partiyası idi.

1917-ci il də Rusiyada baş vermiş Oktyabr çevrilişindən sonra imperiya tərkibində olmuş bir çox xalqların milli müstəqilliyə olan ümidləri daha da artdı. Çünki V.İ.Lenin başda olmaqla Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər həmin xalqlar bol vədlər verərək onların böyük bir hissəsini öz tərəfinə çəkə bildilər. Bolşeviklər hələ XX əsrin əvvəllərindən Bakıda da, xüsusilə fəhlələr arasında geniş təbliğat aparmışdılar. Bu illərdə bolşevik ideyalarına inananlar arasında əsasən ermənilərdən və ruslardan ibarət olan Bakı Sovetinə qoşulan, əslən Maştağa kəndindən olan M.Məmmədyarov da var idi.

Lakin tezliklə bolşeviklərin əsl siması aşkara çıxdı. Bolşevik ideyaları Şimali Azərbaycanda öz populyarlığını itirdi və ölkə əhalisi artıq "Musavat" partiyasının ardınca gedirdi.[1] Belə bir şəraitdə bolşevik-daşnaklar M.Ə.Rəsulzadənin (1884-1955) başçılıq etdiyi "Musavat" partiyasının ictimai dayaqlarını zəiflətmək üçün Bakıda cəmləşmiş erməni və rus əsgərlərindən istifadə edərək silahsız müsəlman əhaliyə qarşı soyqırımı törətdilər. 1918-ci ilin mart-aprel aylarında yalnız Bakı şəhərində minlərlə silahsız müsəlman on-

[1] Azərbaycan tarıxi, 7 cilddə, V c., Bakı, 2001, s.273

lar tərəfindən qətlə vetirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin (1923-2003) «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il fərmanında göstərilir ki, «Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yatirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir».[1] Bu zaman bütün xalq düşmən qarşısında əliyalın qalmasına baxmayaraq, mübarizə aparmaq üçün ayağa qalxmışdı. Həmin dövrdə Bakı şəhər ətrafındakı yaşayış məntəqələri o cümlədən Maştağa, Bilgəh, Nardaran kəndləri düşmənə nəinki layiqli müqavimət göstərmiş, həmçinin Bakının mərkəzində yaşayan müsəlman əhalinin erməni hücumlarından qurtulmasında, müstəsna rol oynamışlar. Azğın ermənilərə layiqli cavab verilməsində bir çox maştağalılar fərqlənmiş, xalq arasında böyük ad-san qazanmışlar.

Hələ XIX əsrin sonlarına, doğru Bakı şəhərinə köçüb yaşayan maştağalılar ermənilərlə döyüşlərdə bir əox qəhrəmanlıq nümunələri göstərmişlər. Məsələn, Maştağadan köçüb Bakıda məskunlaşmış Məlikrza Gülməmməd oğlunun övladı Mirzə Rzayev, Ağaverdi Manafov və başqa maştağalılar keçmiş M.Basin – (indiki M.Füzuli) küçəsində və onun ətrafındakı küçələrdə ermənilərin qarşısından bir addım belə geri çəkilməmişlər. Deyilənə görə, bu döyüşlərdə Ağaverdi Manafovun gözünə güllə dəymiş və o, aldığı bu yaradan həlak olmuşdur. Həmin şəxslər uzun müddət ərzində «Beşmərtəbə» yaxınlığında qərarlaşaraq erməniləri şəhərin içərisinə buraxmamışlar.

Əslən maştağalı olan Qoçu Nəcəfqulu Bakı şəhərində, indiki Hüsü Hacıyev küçəsinin yuxarı tərəfində yerləşən Kömürçü meydanı ətrafında erməniləri böyük mərdliklə qarşılamış, özünə yaxın olan şəxsləri və bir çox azərbaycanlını silahlandırmış, nəticədə ermənilər böyük itki vermişlər.

---

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.36





Məlumdur ki, Rusiya hökuməti Şimali Azərbaycanın müsəlman əhalisinə "etibar etmirdi" və ali müsəlman zümrəsi istisna olunmaqla ölkənin qalan əhalisini hərbi xidmətə aparmırdı. 1887-ci ildə isə hərbi xidmət əvəzinə Şimali Azərbaycanın müsəlman əhalisi üzərinə "hərbi vergi" qoyuldu. Bu hal sonralar ölkənin müsəlman əhalisi üçün ağır nəticələrə gətirib çıxardı. Həmin məsələ ilə bağlı 1993-cü ildə Maştağa qəsəbəsinin 86 yaşlı sakini Məşədi Qurbanın dedikləri çox ibrətamizdir. Məşədi Qurbandan soruşmüşlar:

– Məşədi, deyilənlərə görə, çar Nikolay vaxtında azərbaycanlıları əsgər aparmırdılar. Bu haqda nə bilirsiniz?

– Doğrudur, aparmırdılar. Əvəzində hər il vergi müfəttişliyinə 1 manat 20 qəpik töycü verirdilər. Bu bədbəxt hadisə 1918-ci ildə erməni-müsəlman davasında bizə çox baha başa gəldi. Döyüş silahımız olmadığı üçün ermənilər Bakıda çoxlu müsəlman qırdılar.

Mərhum Məşədi Qurban Məmmədzadə bildirmişidi ki, ermənilər Bakıya, o cümlədən Maştağaya hücum edərkən ilk növbədə qoçularla qarşılaşmışlar. Xalqı mübarizəyə məhz qoçular qaldırmışlar. Əgər həmin dövrdə Bakı qoçuları olmasaydı, bəlkə də şəhərdə daha çox müsəlman qırılardı.

Həmin dövrdə Maştağada da bir neçə qoçu var idi. Müəyyən bir məhəllənin öz qoçusu digər məhəllədən olan həmkarının işinə qarışmazdı. Məsələn, Qoçu Məşədi Cəbrayıl Xunxar məhəlləsində düzgünlüyü, səxavəti ilə böyük hörmət qazanmışdı.

Keçənlər məhəlləsində Əziz Əbdüləzim oğlu qoçuluq edirdi. O, at vurğunu idi. Əziz Əbdüləzim oğlu da öz dəstəsi ilə fəaliyyət göstərirdi.

Seyidlər məhəlləsində isə Seyid Hadı övladları qoçuluq edirdilər. Hacı Mir Abutalıb, Hacı Mirpaşa və başqaları bu sahədə ən tanınmış şəxslər olmuşlar.

Ermənilərə qarşı döyüşlərdə Qoçu Mürsəlin dəstəsi xüsusilə fərqlənmişdir. O, bir çox cavanı öz ətrafına toplamış və bu mübarizəni lazımi səviyyədə təşkil etmişdir.[1]

---

[1] Vəli Həbiboğlu, Maştağa, Bakı, 2003, s.37

Azğın ermənilərə qarşı mübarizədə Qoçu Əzizin böyük xidmətləri olmuşdur. 1992-ci ildə 84 yaşlı Baba Dadaş oğlu Rzayevin Qoçu Əziz barədə söylədiyi xatirələri filologiya elmləri namizədi, şair Nazim Rizvan qələmə almışdır: «1918-ci ilin mart ayı idi. Şəhərdə azərbaycanlıların qırğını başlanmışdı. Qan su yerinə axırdı. Qiyamət o həddə çatmışdı ki, Novruz bayramı da yaddan çıxmışdı. Hərə öz başının hayında idi.

O vaxt mən on yaşında idim. Atam əkin-biçinlə məşğul olsa da, atıb-vurmaqda da səriştəli idi. Kəndin ağır günlərindən birində xəbər gəldi ki, Qoçu Əziz onu yanına çağırır. Atam məni də götürüb getdi.

Əzizin evinə girəndə gördük Maştağanın bütün qoçuları, silah gəzdirən kişiləri bura yığışmışdılar. Hamı oturandan sonra Əziz camaata üz tutub dedi: «Əvvəla, sözümə qulaq asıb gəldiyinizə görə çox sağ olun. Çünki mən buradakıların bəziləri ilə qan düşməniyəm. Bir-birimizin qohum-qardaşını öldürmüşük. Amma bu gün ayrı vaxta bənzəməz, bu gün düşmənçilik bizə yaraşmaz. Bu gün torpaq əldən gedir, Vətən əldən gedir, namus əldən gedir! Torpağımızı düşməndən qoruyaq. Öldük heç, şəhid olarıq, qaldıq, Vətəni xilas edək, yenə ağa durub, ağacan durub. Nə deyirsiniz?»

Daim bir-birini parçalamağa hazır olan, qoçu Əzizin kölgəsini qılınclayan qoçular bir ağızdan onun səsinə səs verdilər. Əhd elədilər ki, ölənədək bir yerdə vuruşsunlar. Ölsələr də, qalsalar da birlikdə olsunlar.

1918-ci ildə baş vermiş erməni-müsəlman toqquşmalarında, xüsusilə Maştağa yaxınlığında ermənilərə qarşı döyüşlərdə böyük rol oynamış Məşədi Adil Əbdülrəhim oğlu 1868-ci ildə Kürdəxanı kəndində anadan olmuşdur. Məşədi Adil xalq arasında haqq-ədalət tərəfdarı kimi tanınmış, dəfələrlə çar hakmimiyyət orqanları tərəfindən təqib olunmuş, bir neçə dəfə həbs edilmiş, jandarmların əlindən dəfələrlə qaçıb xilas olmuşdur. Buna görə də xalq arasında onu «Qaçaq Adil» deyə çağırırdılar. Osmanlı ordusunun komandanı Nuru paşa Məşədi Adilin bu qəhrəmanlığını yüksək qiymətləndirmiş ona «Adil Paşa» deyə müraciət etmişdi. Nuru paşa öz göy atını və papağını Məşədi Adilə bağışlamışdı.





Həmin dövrdə ermənilərə qarşı döyüşmüş şəxslərdən Əziz Əbdüləzim oğlunun, Məşədi Cəbrayıl Əbdülhəsən oğlunun, Məşədi Hüseynbala Hacı Məhəmmədəli oğlunun, Molla Cəfərqulunun, Əliməhəmməd Kərbalayı Heybətqulu oğlunun, Balaəhməd və Xanəhməd Hacı İmanqulu oğlanlarının, Seyid Aslan Mirməhəmməd oğlunun, Seyid Rza və Seyid Şamil Hacı Mirbala oğlanlarının, Kərbəlayı Atamoğlan Mahmud oğlunun, Mürsəl Mahmud oğlunun, Ağadadaş Hüseynqulu oğlunun, Qulamhüseyn Bəhlul oğlunun, Əlihəsən, Məmmədhəsən, Balaəhməd, Xanəhməd Şıxməhəmməd oğlanlarının, Kərbəlayi Mirdamədin və yüzlərlə başqalarının əziz xatirəsi yaddaşlarda qorunur, onların qəhrəmanlığı daim yad edilir, yeni nəsillərə ötürülür.

«Maştağa qarnizon»unun yaranmasında böyük rolu olmuş Məşədi Əbdülqasım Məşədi Məhəmmədhüseyn oğlu sovet dövründə xeyli müddət repressiyaya məruz qalmış, dəfələrlə həbs edilmişdir. O, 1943-cü ildə yenidən həbs edilmiş, ağır işgəncələrdən sonra dünyasını dəyişmişdir.

Maştağalılar azğın ermənilərə qarşı döyüşlərdə bu döyüşlərdə xeyli itki vermiş, lakin düşmən qarşısından heç kim geri çəkilməmişdir.

Ermənilərin Bakıda, Qubada, Şamaxıda, Azərbaycanın başqa bölgə və kəndlərində törətdikləri dəhşətli cinayətlərin, faciələrin qarşısı məhz Maştağa ətrafında alınmışdır. Azərbaycan xalqının azğın erməni təcavüzkarlara qarşı mütəşəkkil mübarizəsi öz bəhrəsini vermişdir.[1]

Əhalinin böyük əksəriyyəti ağsaqqalların məsləhəti ilə uşaq və qadınların bir hissəsini Maştağada – Dərəqılınc bağlarında gizlətmişlər. Hətta ermənilərin əlindən Bakıdan Maştağaya pənah gətirmiş bir çox şəxslər öz qohumları ilə birlikdə Dərəqılınc bağlarında gizlənərək döyüşlərin nəticəsini gözləmişlər.

---

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.45

Başqa bir məlumatda isə bildirilir ki, həmin dövrdə kəndin qadınlarını və qızlarını Nardaranda, «İsmixan» adlı qayanın üstündə gizlətmişdilər. Əgər ermənilər Maştağanı ələ keçirsəydilər, bütün qadınlar və qızlar ismətlərini qorumaq üçün dənizə atılmalı idilər.

Bu dövrdə Ləhic bağları tərəfdə də qadınlar, qızlar sahildə qurulmuş çadırlarda saxlanmışlar. Onlar da ermənilərin məğlub olacaqlarını səbirsizliklə gözləyirdilər, əks-halda hamı özünü Xəzərin qurbanı edəcəkdi.

Beləliklə, deyilənlərə əsasında, qəti fikrə gəlmək olar ki, Maştağada uşaqdan böyüyə qədər hamı ermənilərə qarşı bu mübarizəyə qoşulmuşdu. Kənddə və onun ətrafında gizlədilmiş gəlin və qızlardan ibarət dəstələrə onların özləri tərəfindən seçilmiş başçı qadınlar rəhbərlik etmişlər. Çox təəssüf ki, həmin başçı qadınların adları dövrümüzə gəlib çatmamışdır.

O zaman Osmanlı türklərinin komandiri Tofiq paşa səngərləri gəzmiş, maştağalıların fədakarlıqla və məharətlə müdafiə olunduqlarını görmüş, heyranlıqla demişdi: «Yahu, şu millət kahraman, şu toprak mukaddasdır».

İndiki dəmir yolunun sol hissəsini, Dərəqılınc bağları sahəsini, Daş karxanasını, Zabrat hava limanını, Ramana örüşünü Kərbəlayi Məlki Əziz oğlunun dəstəsi qoruyurdu.

Pəhləvan Ağaverdi və Kərbəlayi Məlki igid şəxslər olmuşlar. Onlar mərd, qorxmaz cavanları öz ətrafına toplayıb düşmənə qarşı cəsarətlə döyüşmüşlər. Dəmir yolunun sağ tərəfini, Balağ bağlarını (Zabrata yönəlmiş dəmir yolunun sağ hissəsini) Kərbəlayi Atamoğlan, Qulamhüseyn usta Bəhlul oğlu, Hacı Əziz, Dostəli Hacı Yarəli oğlu, Kərbəlayi Fərəmərz Əbülhəsən oğlu, Əliməhəmməd, Heybətqulu oğlu Məşədi Cəbrayıl Əbülhəsən oğlu, Balaəhməd Şüxməhəmməd oğlu (Qara İsmayıl, Məşədi Xəlilin atası) mərdliklə müdafiə etmişlər.

Bilgəhli Əlibəndəyə məxsus olmuş balıq vətəgəsi həmin ziddiyyətli illərdə Bakı kəndlərinə balığı və balıq məhsullarını, müxtəlif ərzaq məhsullarını təmənnasız göndərərdi. O, balıq vətəgəsində





çalışanların azlığına baxmayaraq, korluq çəkməsinə imkan vermirdi. Əlibəndənin türkmənlərlə ticarət əlaqələri olmuşdur. O, türkmənlərin dənizlə gətirdikləri silahı və patronu alır, kəndlərə paylayırdı. «Kərbəlayi Məlki» adlı kənd sakini Maştağa cəbhəsi üçün lazım olan döyüş sursatını da Əlibəndədən alıb gətirirdi.

Bəhs olunan dövrdə ermənilər I Zabrata qədər gəlmişdilər. Novxanı, Corat, Fatmayı, Goradil kəndləri və ətrafdakı yaşayış məntəqələri artıq mühasirədə qalmışdı. Məşədi Qurbanın söylədiklərindən: «Osmanlı türkləri gəldikdən sonra ermənilər qaçmağa başladılar. Eşitdiyimə görə, türklər onların buxarla işləyən gəmisini batırmışdılar. Mən Mürsəl paşanı görmüşəm. O, kəndə gəlmişdi. Ermənilər bağlarda Allahqulunu, Əliqiyas Əlimuxtar oğlunu öldürdülər. Goradildə həmin erməniləri öldürdülər və bir avtomobili qənimət kimi ələ keçirdilər». Məşhədi Qurban həmin dövrün hadisələri ilə bağlı aşağıdakıları da söylədi: "Bizim kəndin günbatan hissəsini, "Mirasxan" deyilən sahəni pəhləvan Ağaverdinin dəstəsi müdafiə edirdi. İndiki dəmir yolunun sol hissəsini, "Dərəqılıncı bağları" sahəsini, daş karxanasını, Zabrat yolunu, Ramana örüşünü Kəblə Məlik Əziz oğlunun dəstəsi qoruyurdu. Pəhləvan Ağaverdi və Kəblə Məlik igid şəxslər olmuşlar. Onlar özləri kimi igidləri ətraflarına toplayıb kəndi müdafiə etmişlər. Həmin igidlərin arasında Kəblə Atamoğlan, Qulamhüseyn usta Bəhlul oğlu, Balaəhməd Şüxməhəmməd oğlu (xanəndə Əlibabanın atası), İsmayıl Ağacəfər oğlu (Qara İsmayıl, Məşədi Xəlilin atası) və başqaları da var idi».

1918-ci ildə ermənilər Bakıda qırğın törətməyə başlayan zaman Bakı ətrafındakı bütün kəndlərin sakinləri kimi, Maştağa əhalisi də şəhərdə təşkil olunmuş barrikadalarda döyüşməyə getmişdi. Deyilənlərə görə, türklər Bakıya daxil olanda hətta türk paşası camaata müraciət edərək soruşmuşdu: "Sizin aranızda ən nəcib seyid kimdir? Seyidə güllə batmaz". Camaat isə bu suala cavab olaraq şairliklə də məşğul olan Kərbəlayı Mircəlal Mirhadi oğlunu göstərmişdi. Paşa bayrağı həmin şəxsə həvalə etmişdir. Hücum məqamında bayraq bağlı aparılmalı idi. Mircəlal isə bayrağı açıq

aparmışdı. Türk paşası bunun səbəbini soruşarkən o, demişdi: "Həzrət Əli hücum vaxtı bayrağı açıq aparmışdır, çünki o, bilirdi ki, qalib gələcək. İndi mən də bilirəm ki, biz qalib gələcəyik, ona görə də bayrağı açıq aparıram".

Məlumdur ki, türklər Bakıya daxil olana qədər şəhərdə S.Şaumyan hakimiyyəti devrilmiş, əvəzində isə ermənipərəst "Sentrokaspi diktaturası" adlanan hökumət yaradılmışdı. "Sentrokaspi diktaturası" isə ingilis generalı Denstervili Bakıya dəvət etmişdi.[1] Lakin Bakıya gəlmiş ingilislər şəhəri əldə saxlamaq iqtidarında deyildilər. Artıq 1918-ci ilin avqust ayının sonunda ingilislərin məğlub olduqlarını, ermənilərin cəbhədən qaçdıqlarını, Azərbaycan və türk qoşunlarının Bakının kənarına çatdıqlarını, şəhəri mühasirəyə aldıqlarını hamı bilirdi. Həmin günlərdə Bakıya hücuma rəhbərlik etmiş Mürsəl paşanı öz gözləri ilə gördüklərini son zamanlara qədər Maştağanın yaşlı sakinlərinin dilindən eşitmək mümkün idi. O zaman vəziyyəti müəyyənləşdirmək üçün Bağdaddan Bakıya gəlmiş ingilis generalı Lyu Bakını azad etmək istəyən türk qoşunlarına qarşı əks-hücum planı hazırlamağa başlamışdı. Deyilənlərə görə, ingilis generalı xəritədə bir yeri göstərib soruşmuşdu: "Bu məntəqə kimin əlindədir? Qərargahdakı zabitlərdən biri göstərilən nöqtəyə baxıb cavab vermişdi: "Cənab general, Maştağadır türklərin əlindədir"". Bu cavabı eşidən general Luy qaş-qabağını tökərək "Müharibə uduzulub" demişdi.[2]

AXC hökumətinin hakimiyyəti dövründə (1918-1920-ci illərdə) bir çox maştağalı milli ordunun tərkibində ermənilərə qarşı döyüşmüş düşmənlərin Qarabağdakı qiyamının yatırılmasında iştirak etmişdi.

«Müsavat» partiyasının Maştağa kəndindəki rəhbəri Kərbəlayi Salman olmuşdur. O, «Müsavat»ın irəli sürdüyü azadlıq, müstəqillik, bərabərlik ideyaları ətrafında xeyli təəsübkeş və vətənpərvər oğullar toplaya bilmişdi.

---

[1] Azərbaycan tarixi. 7 cilddə. V c., Bakı, 2001, s.331

[2] M.Süleymanov. Hacı Zeynəlabdin Tağıyev. Bakı, 1996, s.68





Yeri gəlmişkən qeyd etməliyik ki, «Müsavat» partiyasının üç yaradıcısından biri Abbas bəy Kazımzadə olmuşdur. O, Maştağada və Bakıda mülkləri olan tacir Məhəmməd İbrahim oğlu 7 saylı xəstəxananın Baş həkimi işləmiş Kazım Kazımzadə ilə gohumluğu olan əsli-köklü Maştağalıdır. Sonralar vətəndən didərgin düşəcək bu üç nəfərin «Müsavat»ın yaradılması barədə Məhəmməd Əli Rəsulzadənin (M.Ə.Rəsulzadənin əmisi oğlu və qaynı Məhəmməd Nuru oğlunun xalasının əri – Ə.B.) xatirəsini oxucularımızın nəzərinə çatdırırıq: «...1911-ci ilin bir son bahar günü idi. Arkadaşların gizli toplantı və odasında Abbas bəy ilə oturmuşduq. Arkadaşlarımızdan rəhmətlik Tağı Nağıoğlu bəy içəriyə girdi və bizə – «gürcülərin, rusların siyasi partiyaları var, bizim nədən olmasın, biz də bir partiya quraq» dedi. Bir neçə gün yapdığımız müzakirə və müşavirədən sonra «Müsavat» partiyasını qurmağa qərar verdik. Zatən o tarixlərdə İstanbulda olan Məhəmməd Əmin bəy də bizə yazdığı məktublarda siyasi bir partiyanın qurulmasının vacib olduğunu yazır, bu işdə hazırlıqlar içində olmamızı söyləyirdi. Böyləcə «Müsavat» partiyası qurulduqdan sonra partiyaya qəbul ediləcək arkadaşları təsbit etməyə başladıq...».[1]

Şimali Azərbaycanda Demokratik Respublika yarandıqdan sonra Maştağa kəndində müsavatçıların sayı xeyli artdı. Həmin dövrdə Azərbaycan Demokratik Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə Maştağadan olan müsavatçılar da fəal iştirak etmişlər. Sonralar həmin şəxslər bu partiyanın üzvü olduqlarına görə həbs edilərək güllələnmiş, yaxud uzaq ellərə sürgünə göndərilmişdilər. 1910-cü ildə anadan olmuş, Gülmirzə kişi xatırlayırdı ki, Azərbaycanda Sovet hökuməti qurulduqdan az sonra, yəni 1920-ci ilin may ayının əvvəlində Maştağada xeyli insan həbs olunaraq güllələnmişdi. O zaman Gülmirzə kişinin 10 yaşı var idi.

Hal-hazırda üzə çıxarılmış arxiv materiallarından, tarixi sənədlərdən, erməni-türk qarşıdurmasının şahidi olmuş yaşlı nəsil nümayəndələrinin xatirələrindən həmin dövrdə Maştağa əhalisinin ermə-

---

[1] Nəsiman Yaqublu. Məhəmməd Əmin Rəsulzadə. Bakı, «Gənclik», 1991,

nilərə qarşı barışmaz münasibətdə olduğu, bir daha aşkara çıxır. Çox təəssüf ki, AXC hökuməti devrildikdən sonra ermənilərə qarşı amansız döyüşlərdə iştirak etmiş, Azərbaycan türklərinə köməyə gəlmiş Anadolu türklərinin igidliyə görə xüsusi mükafatlandırdıqları maştağalı qoçu Nəcəfqulu kimi şəxslər bolşeviklər tərəfindən təqib, mühakimə və həbs edilmişlər. Nəcəfqulu bəy məhkəmədəki çıxışında bildirmişdi ki, onun məhkum olunmasının əsas səbəbi türkün düşməninə qarşı vuruşması, Anadolu türkləri tərəfindən mükafatlandırılmasıdır. Sonralar bir çox türk düşmənlərinə qarşı vuruşanlar kimi, Nəcəfqulu bəy də bolşeviklər tərəfindən güllələnmişdir.

1920-ci il aprelin 28-də Sovet Rusiyasının XI Ordusunun müdaxiləsi ilə AXC hakimiyyəti devrildi və Şimali Azərbaycanda Sovet hakimiyyəti quruldu. Bundan sonra bolşeviklər AXC ilə fəal əməkdaşlıq etmiş digər azərbaycanlılar kimi maştağalıları da təqib etməyə başlamışdı. XX əsrin 20-30-cu illərinin dəhşətli repressiya dövründə onlarla maştağalı təqiblərə məruz qalmış, sürgünə göndərilmiş, həbsxanalara salınmışdır. Lakin həmin dəhşətli dövrdə də xalqın inamını qırmaq mümkün olmamışdı.

Sovet hakimiyyətinin ilk dövründə Maştağadan olan xeyli din xadimi repressiyaya məruz qalmışdı. Tanınmış din xadimləri Axund Mir Ələkbər ağa, Axund Seyid Məhəmməd ağa Xaçmaza sürgün edilmişdilər. Bir qrup nüfuzlu din xadimi isə əsaslı «səbəb» olmadan, vəhşicəsinə kənddə güllələnmişdi. Kərbəlayi Mir Məhəmməd Mirəziz oğlu, Kərbəlayi Vahab Hacı Hacıqulu oğlu, Hacı Məhəmməd, Baloğlan Hacı Qasım oğlu, Əlibaba Baba oğlu, Ağakərim Molla Əziz oğlu, Ağaməli Nəcəfəli oğlu və Bəhmən Ağarza oğlu həmin günahsız qurbanlar sırasında olmuşdur.

Kənd ağsaqqalları həmin hadisə ilə bağlı öz valideynlərindən eşitdikləri bir əhvalatı dönə-dönə xatırlayırlar. Güllələnmiş din xadimləri arasında Kərbəlayi Məhəmməd bu yolu öz xoşu ilə seçmişdi. O, atasının tutulduğunu və onun sabah güllələnəcəyini bilərək bir gün əvvəl gecə ikən atasını buraxdırmış, özü onun yerinə ölümə getmiş, din xadimini güllələtdirmiş şəxs isə bu «yerdəyişmədən» xəbər tutmamışdı.





Kərbəlayı Məhəmməd qəsəbənin yaşlı sakinlərinin xatirində bu gün də qalmaqdadır. Onların söylədiklərinə görə, repressiya ilə bağlı aşağıdakı epizod daha faciəli idi. Belə ki, 1920-ci ilin avqust ayında, orucluq günlərində, keçmişdə "Naxır bulağı" adlanan yerdə, indiki Mədəniyyət evinin arxasında, 12 nəfər hörmətli, oruc tutan şəxs, məhkəmə qərarı olmadan «Kəblə «İsmayıl divarına söykədilərək güllələnmişdi. Hadisəni öz gözləri ilə görmüş yaşlı şəxslər söyləyirlər ki, 11 nəfərin üzünü divara söykəyib güllələdilər. Onlardan yalnız birinin üzünü divara çevirə bilmədilər. Həmin şəxs Hacı Mirbala idi. O, ölümdən qorxmayaraq, üzünü cəlladlara çevirib demişdi: "Mən düşmənə arxa çevirmərəm". Həmin şəxslər güllələndikdən sonra qəddar cəlladların qorxusundan heç kəs bir neçə gün ərzində meyidlərə yaxın gedə bilməmişdi. Yalnız Bürcəli adlı bir kişi meyidləri bir-bir kürəyinə alıb ailələrinə çatdırmışdır. 1910-cü ildə anadan olmuş Gülmirzə kişi xatırlayır ki, 1920-ci ilin may ayında Abşeron kəndlərində həbs edilmiş şəxslər Maştağada, indiki mədəniyyət evinin yanında güllələnir, sonra isə meyidlər maşına yığılaraq harasa aparılırdı.

Həmin hadisə ilə bağlı olaraq mətbuatda çıxış etmiş tarixçi Kamil Muxtarov qeyd edir ki, Seyidağa Axund Mir Hüseyn oğlunun fədakarlığı sayəsində həmin müsibət xəbərinin N.Nərimanova çatdırılması həbsə alınmış daha 80 nəfər günahsız şəxsi ölümün pəncəsindən xilas etmişdi.[1]

Maştağa camaatı 1920-ci, 1937-ci və 1941-1945-ci illərdə şəhid olmuş şəxslərin xəritəsini həmişə yad edir. Tanınmış qəzəlxan şair Ələkbər Şahid həmin şəhidlərin xatirəsinə aşağıdakı şeiri həsr etmişdir:

O zamanlar ki, bizim düşdükcə yadımıza,
Yığılır qüssəvü qəmlər dilü-naşadımıza.
Sevinib cümlə xəlayiq dedi şura gəldi,

[1] Şəhriyar» qəzeti, 19 noyabr 1993-cü il.

Bu gəliş oldu səbəb qalovü-fəryadımıza.
Əqli sərrast olan kəsləri məhv eylədilər,
Olmayan odlu divan tutdular əcdadımıza.
Bu bulaq üstə qırıblar neçə əhli-bəsəri.
Biz də əl çaldıq, «ura» söylədik cəlladımıza.
Olmalıydı belə bir dövr ki, Şahid oldu,
Çünki çəp gözlə nəzər salmışıq ustadımıza.

XX əsrin əvvəllərindən Sovet hakimiyyəti qurulana qədər Maştağada «inqilabi fəaliyyətlə» bir çox şəxslər məşğul olmuşlar. Bəzi məlumatlara görə, İ.V.Stalin (Cuqaşvili), M.C.Bağırov müəyyən vaxtlarda bu kənddə gizlənmişlər. Maştağa «inqilabçıların» fəaliyyətində mühüm rol oynamışdır. Deyilənə görə, Mircəfər Bağırov vaxtilə Qubada bir nəfəri öldürmüş, Maştağada öz qohumu Mir İbrahim ağanın yanına pənah gətirmiş, uzun müddət əhali arasına çıxmamışdır. Sonralar sovet hökuməti Mir İbrahim ağanın əmlakını əlindən almış, lakin Mircəfər Bağırov onun həbs olunmağına imkan verməmişdir.

Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakını işğal etmiş XI Ordunun xüsusi işlər şöbəsinin rəhbəri Pankratovun tapşırığına əsasən, Novxanı və Maştağa kəndləri təyyarədən bombalanmalı və yerlə yeksan olunmalı idi. Onun fikrincə, Məhəmməd Əmin Rəsulzadə kimi görkəmli bir şəxsi yetişdirmiş Novxanı kəndi məhv edilməli idi.[1]

Yeni rejimin rəsmi şəxslərinin fikrincə, Maştağa kəndi də 1918-ci ildə ermənilərə qarşı əzmkarlıqla döyüşdüyünə və ermənilərin Bakı kəndləri üzərinə hücumunun qarşısını aldığına, kəndə bir nəfər ermənini də buraxmadığına və bu qaniçən cəlladlara qarşı mütəşəkkil surətdə mübarizə apardığına görə təyyarələr və toplar vasitəsilə bombalanıb dağıdılmalı idi.

Həmin dövrdə Nəriman Nərimanov (1870-1925) bu planın qarşısını M.Məmmədyarovun vasitəsilə almışdır.

---

[1] Vəli Həbib oğlu. Maştağa. Bakı, 2003, s.62





Şübhəsizdir ki, XI Ordunun xüsusi şöbəsinin rəhbəri Pankratov bu addımı ətrafında olan ermənilərin təhriki ilə atmışdı.

Yeni dövlət aparatının müxtəlif təsisatlarına soxulmuş ermənilər aşkar vasitələrlə öz niyyətlərinə nail olmadılar. Lakin Azərbaycan əhalisinə «əks-inqilabçı», «müsavatçı» damğası vuraraq onun qabaqcıl nümayəndələrini həbs etdirir, azərbaycanlılara qarşı bəd əməllərini davam etdirirdilər. Bu əməllər nəticəsində Şimali Azərbaycanda, eləcə də Maştağada xeyli günahsız insan repressiyaya məruz qaldı.

Həmin reperessiya tədbirləri sonrakı illərdə də davam etdirilmiş, «Müsavat»ın Maştağadan olan üzvləri həbs edildilər və sürgünə göndərildilər.

Tanınmış şair, ziyalı, «Deyilən söz yadigarıdır» kitabının tərtibçisi Cəfər Rəmzi (İsmayılzadə) öz xatirələrində qeyd edir ki, o, həbsdə olarkən Maştağada həbs edilmiş xeyli müsavatçı onunla birlikdə ağır məhrumiyyətlərə, əzablara düçar olmuşdur. Qocaman şair Cəfər Rəmzi məhkəmə qərarı olmadan 21 il 2 ay ərzində siyasi məhbus kimi zindanlarda, həbs düşərgələrində, sürgünlərdə olmuşdur. O, həmin illər ərzində bir çox həbs düşərgələrində maştağalılarla birlikdə «cəza çəkmişdir». C.Rəmzi xatırlayırdı ki, Maştağadan olan Əli Abbas, Əliheydər, Məlikheydər, Əlisgəndər Cavad oğlu qardaşları, Əjdər Baba oğlu, Zəfər Mürsəl oğlu (vaxtilə klub müdiri olmuşdur), Molla Rza (kəndin Keçənlər məhəlləsindən olan şair) onunla bir məhbəsdə olmuşlar.

Cəfər Rəmzi Maştağadan olan digər şəxslər barədə də maraqlı məlumatlar vermişdir: 1935-1938-ci illərdə Bakının Qala-Maştağa rayonu üzrə NKVD-nin rəisi vəzifəsini əslən erməni olan Andrey Ziyalov İcra edirdi. O zaman bu rayonda siyasi böhtanlarla 500-dən çox şəxs həbs edilmişdi. Həbs olunmuş həmin şəxslərdən təqribən heç kəs qayıtmadı. Yalnız Maştağa kəndindən həbs olunaraq aparılanların sayı 300-dən çox olmuşdur.[1] Daxili işlər şöbəsinin əməkdaşları Axund Mir Ələkbər Mir Cəfər oğlunu namaz qıldı-

---

[1] Vəli Həbib oğlu. Maştağa. Bakı, 2003, s.63

ğı məqamda evdən aparmışdılar. Onlar Hacı Əli Mirəli oğlunu da namaz vaxtı həbs etmişdilər. Milis işçiləri kağızla qulağından tutub onu maşına mindirəndə demişdilər ki, «sən xalq düşmənisən, səni yalın əllə tutmaq olmaz». Yalnız 1937-1938-ci illərdə Maştağa kəndindən 270 nəfər repressiyaya məruz qalmışdır. Əhali bir daha onları görməmişdir.[1]

Sovet rejimi illərində Bakı ətrafındakı kəndlərdə, eləcə də Maştağada bir çox məscidlər dağıdıldı, onlardan anbar kimi istifadə edildi, bir sözlə, xalqın tarixi keçmişində, əxlaqında, mənəviyyatında böyük rol oynamış müqəddəs məbədgahlarımızdan müxtəlif məqsədlər üçün istifadə edilməyə başlandı. Məsələn, XX əsrin 30-cu illərində Seyid İbad ağa küçəsində yerləşən Cümə məscidinin minarəsinin və həyətindəki yardımçı binaların daşlarından hamam tikilmişdi. Lakin Maştağa əhalisi dini əqidəsinə zidd çıxmadı və həmin hamama getməkdən imtina etdi. Hamam xeyli müddət ərzində istifadəsiz, sahibsiz qaldı.

Repressiya illərində həbs edilmiş bir çox soydaşımız İ.V.Stalinin ölümündən (1953) və M.Bağırov hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra bəraət qazanmışdır Soydaşlarımızın bir qismi isə həmin günləri görmədən həbsxanalarda və sürgünlərdə məhv olmuşdur.

Sovet hakimiyyətinin ilk günlərindən başlayaraq, Şimali Azərbaycanın dinə bağlı olan müxtəlif yerlərində (o cümlədən Maştağada) siyasi rejimin dinə, qarşı amansızcasına mübarizə aparması, repressiya silahının, zorakılığın tətbiq olunması xalqın yeni hökumətə olan qəzəb və nifrətini xeyli artırdı. Buna görə də Maştağada Sovet rejiminin kütləvi təbliğat işləri də Bakının başqa kəndlərə nisbətən xeyli zəifləmişdi.

XX yüzilliyin 30-cu illərində Maştağada dərc olunan «Abşeron kolxozçusu» qəzetinin səhifələrində sovet təbliğatı ilə bağlı olan, kənd əhalisinin bu sahədə qeyri-fəal olduğunu sübut edən bir çox yazılara rast gəlmək mümkündür.

---

[1] «Şəhriyar» qəzeti, 19 noyabr 1993-cü il





Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra əvvəlcə Qala-Maştağa, sonra isə Maştağa rayonunun inzibati hüdudlarına Maştağa kəndi deyil, həmin kəndin ətrafında olan bir çox kəndlər daxil idi. 1936-cı ildə verilən məlumata görə, Maştağa rayonuna Hövsan, Türkan, Zirə, Buzovna, Nardaran, Bilgəh, Məhəmmədi, Kürdəxanı, Pirşağı, Fatmayı, Goradil, Novxanı, Saray, Corat kəndləri daxil olmuşdur. Bu kəndlərdə fəaliyyət göstərən bütün kolxozlar, digər dövlət müəssisələri, təşkilat və təsisatlar Maştağa rayon rəhbərliyi qarşısında hesabat verir, dövrün tələblərinə uyğun olaraq əhali arasında geniş təbliğat işi aparırdılar. 1936-cı ildə kolxozçuların Maştağa kəndinin «Məhəmmədyarlı», rayonun isə «Məhəmmədyarov» adı ilə adlandırılması haqqındakı «xahişi» hakim firqə (partiya) və hökumət orqanları qarşısında qoyuldu.[1] Beləliklə, bu «xahiş»ə və qərara görə əhalinin müəyyən qisminə, xüsusilə din xadimlərinə, tanınmış şəxslərə dəyişdirilərək «Məhəmmədyarlı» qoyulmalı idi. Kəndin və rayonun adının dəyişdirilməsi ilə bağlı olan müzakirələr müəyyən müddət ərzində davam etdirilmişdir. Maştağa kəndində fəaliyyət göstərən bütün təşkilatlar, müəssisələr, eləcə də rayonun digər kəndləri adın dəyişdirilməsini «günün ən aktual məsələsi» kimi öz yığıncaqlarında müzakirə etmişdilər. Məsələn, 1936-cı ilin may ayının 20-də Maştağadakı maşın-traktor stansiyasında (MTS-də) rayonun komsomol və partiya fəallarının geniş iclasında kəndin adının «Məmmədyarov» qoyulması təklifi bəyənilmiş və rayon mərkəzindəki bağda həmin şəxsin heykəlinin ucaldılması fikri irəli sürülmüşdü».[2]

Həmin illərdə Maştağa rayonuna daxil olan 16 Bakı kəndində fəaliyyət göstərən bütün kolxozların zəhmətkeşləri Maştağanın tarixi adının dəyişdirilməsi təklifini müzakirə etmiş və yaşayış məntəqəsinə «Məhəmmədyarov» adının verilməsi fikrini bəyənmişdilər.

Lakin bu məsələ həll olunmamış qaldı. Görünür, «yuxarı» təşkilatlar bizə məlum olmayan səbəblər üzündən Maştağa kəndi-

---

[1] «Abşeron kolxozçusu», 17 may 1936-cı il, №25.
[2] «Abşeron kolxozçusu», 27 may, 1936-cı il, №26.

nin və rayonunun adlarının dəyişdirilməsini zəruri hesab etməmişdilər. Beləliklə, bu qədim kənd öz tarixi adını bu günədək qoruyub saxlaya bilmişdilər.

Əslən Maştağadan olan bir çox qadınlar mədəniyyət klubların, kitabxanaların fəaliyyətində, savadsızlığın ləğv edilməsi üzrə kursların işində çox böyük rol oynamışlar. İmamir Məmmədova belə qadınlardan biri olmuşdur. İmamir xanım sonralar Maştağa kənd Sovetinin sədri vəzifəsində çalışmışdır.

Məlumdur ki, keçmiş SSRİ-də ilk elektrik dəmiryolu 1926-cı ildə Sabunçu qəsəbələri Suraxanı arasında fəaliyyətə başlamışdır. 1934-cü ildə həmin elektrik dəmiryolu xətti Maştağaya qədər, 1939-cü ildə isə Maştağadan Buzovnaya qədər uzadılmışdır. Qeyd etmək lazımdır ki, bu dəmiryol xətti Maştağanın sonrakı inkişafında böyük rol oynamışldır.

Ümumiyyətlə, XX əsrin 30-cu illərinin sonlarına doğru Maştağada bir neçə mühüm ictimai təyinatlı obyektin tikintisi başa çatdırılmışdır. 1935-ci ildə Maştağadakı dəmiryol vağzalı, 1936-cı ildə 187 saylı orta ümumtəhsil məktəbinin beşmərtəbəli binası, 1937-ci ildə Kənd Sovetinin binası (hal-hazırda Sabunçu rayonu icra hakimiyyətinin Maştağa qəsəbəsi üzrə nümayəndəliyi) istifadəyə verilmişdir.

Hazırda Maştağa qəsəbəsində fəaliyyət göstərən mədəniyyət evi və 187 saylı orta ümumtəhsil məktəbi məhz həmin dövrün böyük tikinti obyektlərindəndir. «Abşeron kolxozçusu» qəzeti bu barədə məlumat verilmişdir:

Artıq həmin ilin may ayında mətbuatda məlumat verilirdi ki, Maştağa kolxozuna məxsus olan mədəniyyət sarayı 1937-ci ilin aprel ayının 1-də açılmışdı və zəhmətkeşlər üçün 2-3 gündə bir dəfə teatr tamaşası göstərilirdi.[1] Maştağadakı mədəniyyət sarayı fəaliyyətə başladığı gündən Mir Cəfər Bağırovun adını daşımışdır. [2]

Maştağadakı 187 saylı orta ümumtəhsil məktəbi də müəy-

---

[1] «Abşeron kolxozçusu», 1 may 1937-ci il. №21.

[2] «Abşeron kolxozçusu», 13 fevral 1939-cu il. №8.





yən müddət ərzində Mir Cəfər Bağırovun adını daşımışdır. Maştağanın mədəniyyət evində, məktəblərində, istehsalat kollektivlərində, təşkilatlarda vaxtilə Səməd Vurğun, Rəsul Rza, Mikayıl Rəfili, Zeynal Xəlil, Salam Qədirzadə, Seyfəddin Dağlı, Əliağa Vahid və Azərbaycanın bir çox görkəmli şair və yazıçıları, elm xadimləri, tanınmış sənətkarları dəfələrlə çıxış etmiş, əhali tərəfindən rəğbətlə qarşılanmışdır.

1932-1949-cu illərdə Maştağanın ictimai, mədəni və siyasi həyatı «Abşeron kolxozçusu» qəzetində öz əksini tapmışdır. N.Ə.Əliyev, Z.Məmmədov, N.Hüseynquliyev, Rəcəbli, Ağaəli Qədirov, A.D.Məmmədov, Q.Süleymanzadə və başqaları müxtəlif vaxtlarda bu qəzetə redaktorluq etmişlər. Qəzetdə Vətən müharibəsi dövrü (1941-1945) və müharibədən sonrakı bərpa illəri də öz əksini tapmışdır. Cəbhədə döyüşən, qəhrəmanlıqlar göstərən maştağalılar haqqında bu qəzetdə maraqlı yazılar dərc edilmişdir. Məsələn, qəhrəman təyyarəçi Məzahir Abbasov haqqında məqalələr bu sırada diqqəti daha çox cəlb edir.[1]

Ötən əsrin 20-30-cu illərinin dəhşətli repressiyalarına tab gətirmiş, İkinci Dünya müharibəsi illərində onlarla igid oğlunu qurban vermiş Maştağa əhalisi özünəməxsus, fərqli həyat tərzini Sovet hakimiyyəti illərində də əsasən qoruyub saxlaya bilmişdir. Maştağa qəsəbəsində əhalinin təlim-tərbiyəsində mühüm rol oynayan məktəblər haqqında nisbətən ətraflı məlumat verməyə ehtiyac vardır. Hal-hazırda Maştağa qəsəbəsində fəaliyyət göstərən məktəblər aşağıdakılardır.

1. 255 saylı tam orta məktəb
2. C. Cabbarlı adına 187 saylı tam orta məktəb
3. Cavid Nurməmmədov adına 108 saylı tam orta məktəb
4. Kamal Məmmədov adına 209 saylı tam orta məktəb
5. 128 saylı tam orta məktəb
6. Ə.Vahid adına 293 saylı tam orta məktəb

---

[1] «Abşeron kolxozçusu», 27 iyul 1941-ci il, №32.

7. 22 saylı tam orta məktəb (Daş Karxanası)
8. 28 saylı tam orta məktəb ( Savalan yaşayış məntəqəsində)
9. 13 saylı Qızlar Peşə məktəbi

Bu gün Maştağa qəsəbəsində fəaliyyət göstərən ümumtəhsil ocaqlarından biri də 255 saylı orta məktəbdir. Bu məktəb Maştağanın həyatında müstəsna rol oynadığına və qəsəbədə sonralar açılmış digər məktəblər üçün baza rolu oynadığına görə onun haqqında daha ətraflı məlumat vermək lazımdır.

100 yaşını artıq arxada qoymuş 255 saylı orta məktəbin çox maraqlı və şərəfli tarixi vardır. Hələ Rusiya imperiyası dövründə yeni tipli məktəblər fəaliyyətə başlamazdan əvvəl Şimali Azərbaycanın başqa yerlərində olduğu kimi, Maştağada da uşaqlar ayrı-ayrı mədrəsələrdə, mollaxanalarda molla və axundlardan dərs alırdılar. Qeyd etmək lazımdır ki, Bakı şəhərində belə mədrəsələrin sayı 12-dən artıq deyildi. Bu mədrəsələrdə 142 nəfər uşaq təhsil alırdı. Yalnız Maştağa nahiyəsində isə 23 mədrəsə var idi ki, burada təhsil alan şagirdlərin sayı təqribən 200 nəfər olmuşdur. Mədrəsələrin xərcinin bir qismini məscidlər, digər qismini isə valideynlər ödəyirdi.[1]

Ruhani din xadimləri arasında görkəmli elm xadimləri, maarifçilər az olmamışdır. Onların bir çoxu din xadimləri olmaqla yanaşı, müxtəlif elm sahələrinin (tarix, təbiət, riyaziyyat, astronomiya, hüquq) mahir biliciləri, həmçinin şair kimi tanınmışlar. Abşeronun bir sıra kəndləri üçün də bu hal səciyyəvi olmuşdur. Belə şəxslərin sırasında Tutinin (Nardaran), Molla Səfiqulunun (Bilgəh), Nazimin (Maştağa), Faninin adlarını çəkmək olar. Yazıçı A.Şaiq xatirələrinin birində qeyd edir ki, Xorasanda təhsil alarkən onun ən sevimli və mahir müəllimlərindən biri də maştağalı Mirzə Əbdülkərim ağa olmuşdur. Mirzə Əbdülkərim ağa məntiq elmini ərəb dilində tədris edirdi.

Maştağanın qabaqcıl, maarifpərvər insanları sırasında Mirzağa və Əhməd Dövlət oğlu qardaşları xüsusi qeyd olunmalıdır. 255 saylı orta məktəbin fəaliyyətə başlaması bilavasitə onların adı ilə

[1] Qılman İlkin. Bakı və bakılılar. Bakı, 1998, s.178





bağlıdır. Belə ki, həmin qardaşlar 1892-ci ildə yeni tipli məktəb yaratmaq fikrinə düşmuş, yaşadıqları binanın 3 otağını bu məqsəd üçün ayırmışlar. Onların bu arzusu tezliklə gerçəkləşdi. Otaqlardan biri müəllimlər, ikisi isə şagirdlər üçün nəzərdə tutulmuşdu. Qardaşlardan birinin (Mirzəağa Dövlətoğlunun) həyat yoldaşı rus idi və məktəbdə rus dilini həmin qadın tədris edirdi. Bu iş qeyri-rəsmi şəkildə 1896-cı ilə kimi davam etmişdir. Bu məktəb yalnız 1896-cı ildə qeydiyyatdan keçirilərək rəsmləşdirildi. H.Əhmədovun 1985-ci ildə nəşr etdirdiyi "XIX əsr Azərbaycan məktəbi" kitabındakı məlumat da bunu təsdiq edir. H.Əhmədov Gürcüstan Dövlət arxivində saxlanılan sənədlərə əsaslanaraq göstərir ki, 1896-cı ildə Maştağa kəndində birsinifli rus-Azərbaycan məktəbi açılmışdı.[1] Sonradan bu təhsil ocağı "İmperator Nikolayın" şərəfinə onun adı ilə rəsmiləşdirilmişdir.

Həmin məktəbin rəsmi qeydiyyatdan keçməsi ilə bağlı olan sənədlər Azərbaycan Respublikası Dövlət Tarix Arxivində də saxlanılır. Bu sənədlər toplusu Maştağa kənd icmasının "Rus-tatar dilli birsinifli məktəb açmaq" haqqında 28 aprel 1896-cı il tarixli qərarından, Rusiya Təhsil Nazirliyinin Qafqaz Təhsil Dairəsinin 2 oktyabr 1896-cı il tarixli qərarından, Bakı Quberniya müdiriyyəti Yerli İdarə şöbəsinin 28 iyun 1896-cı il tarixli qərarından ibarətdir.[2] Sənədlərdən məlum olur ki, 1896-cı ilin aprel ayının 28-də Maştağa kəndlilərinin ümumi yığıncağında səsvermə hüququ olan 589 şəxs Maştağada birsinifli rus-tatar (Azərbaycan) məktəbinin açılması və həmin məktəbə imperator II Nikolayın adının verilməsi, məsələsi ilə bağlı olaraq müvafiq hökumət orqanlarına müraciət edilməsini qərara almışdı. Məktəbə II Nikolayın adının verilməsi xahişi təsadüfi deyildi. Məlumdur ki, II Nikolay 1894-cü ilin noyabr ayının 1 -də imperator elan edilmişdi, lakin onun rəsmi tacqoyma mərasimi 1896-cı ilin yazına təyin olunmuşdu. Buna görə də imperiya miqyasında böyük hazırlıq işləri görülürdü. 1899-cu ilin dekabr ayının 16-da isə məktəb kənd icmasının təklifi ilə dövlət himayəsinə

[1] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi, Bakı, 1985, s.172
[2] ARDTA, f.309. siyahı I, iş.781

alındı, II Nikolay adına 12 saylı tədris müəssisəsi kimi fəaliyyətini davam etdirməyə başladı (şəkil 57).

1920-ci ildən isə bu elm ocağı «Qala-Maştağa rayonundakı 15 saylı məktəb» adı ilə kəndin hörmətli ziyalılarından olmuş Hüseyn Kamalın rəhbərliyi ilə öz fəaliyyətini daha da genişləndirdi. H.Kamalın məktəbə rəhbərlik etdiyi illərdə (1920-1930) Heydər Hüseynov, Həsən Hüseynzadə kimi ziyalılar da bu məktəbdə fəaliyyət göstərmişlər. Nəhayət, 1973-cü ildə qəsəbədə daha 1 məktəb binası istifadəyə verildi və buna görə də keçmiş binadakı digər tədris müəssisəsi (128 saylı məktəb) yeni binaya köçürüldü. Köhnə məktəb isə «255 saylı məktəb» adı ilə həmin ildən qocaman maarif xadimi Məmməd Məmmədovun rəhbərliyi altında öz fəaliyyətini davam etdirdi (Ötən əsrin 80-cı illərinə qədər). 1980-ci ildə qəsəbədə fars dili təmayüllü məktəb açıldı və Məmməd Məmmədovu həmin məktəbə direktor təyin etdilər. O zamandan etibarən məktəb bir sıra bacarıqlı direktorların rəhbərliyi ilə öz fəaliyyətini davam etdirməkdədir.

Bakı şəhərinin Sabunçu rayonunun ən böyük qəsəbələrindən olan Maştağada əhalinin sayı 100 mindən artıqdır. Qəsəbə tibbi xidmətin təşkili tarixi çox maraqlıdır. Ötən əsrin 30-cu illərinə qədər əhaliyə tibbi xidmət sanitar-gigiyenik tələblərə cavab verməyən, "barak" tipli binalarda təşkil olunurdu.

1950-ci ildən başlayaraq Maştağadakı birləşmiş xəstəxananın baş həkimi Kazım Kazımovun səyi sayəsində xəstəxananın görkəmi tamamilə dəyişdi. 1960-cı ildə xəstəxananın ərazisində daha 2 yeni bina tikilib istifadəyə verildi. 1970-1975-ci illərdə xəstəxananın 112 kv.m. sahəsində 6 otaqdan ibarət olan mərkəzi sterilizasiya mərkəzi təşkil edildi. Hazırda xəstəxanada 5 müalicəvi şöbə fəaliyyət göstərir. Bundan başqa xəstəxananın ərazisində qəbul şöbəsi, klinik və biokimyəvi laboratoriyalar, rentgen və fizioterapiya şöbələri, elektrokardioqramma kabineti və aptek (əczaxana) təşkil olunub istifadəyə verilmişdir. 1970-ci ildə xəstəxananın poliklinika şöbəsi üçün 3 mərtəbəli, yeni tipli bina tikilmişdir. 1984-cü ildə isə 2 mərtəbəli





uşaq poliklinikası istifadəyə verilmişdir.[1]

XX əsrin 20-ci illərində Maştağa kitabxanası keçmiş avtomat telefon stansiyası binasının yaxınlığında yerləşir. Sonralar kitabxana Maştağa Cümə Məscidinin nəzdində olan yardımçı otaqların birində fəaliyyət göstərmişdir. Bundan sonra kitabxana indi əhali arasında "Əziz eyvanı" adlanan binaya köçmüşdür. Hal-hazırda Maştağada iki kitabxana fəaliyyət göstərir. Bunlardan biri (M.S.Ordubadi adına Mərkəzi kitabxana) hal-hazırda Maştağa musiqi məktəbinin yanındadır və böyüklər üçün nəzərdə tutulmuşdur. Digər kitabxana (A.Şaiq adına Uşaq kitabxanası) isə uşaqlara xidmət edir.

Ötən əsrin 80-ci illərin sonunda Sovet imperiyasının böhran keçirdiyi dövrdə Şimali Azərbaycanda yaranan milli-azadlıq hərəkatına digər Bakı kəndləri kimi, Maştağa da öz töhfəsini verdi. O zaman xalqın həmrəylik rəmzi olan "Azadlıq" meydanında Maştağa sakinləri də Azərbaycanın digər bölgələrinin övladları ilə çiyin-çiyinə durmuşdular və Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarından keçməyə hazır idilər.

Bu gün Azərbaycan xalqının qürür hissi keçirməyə, başını uca tutmağa tam mənəvi haqqı var, 1990-cı ilin qanlı 20 yanvar gecəsində, Qarabağ uğrunda gedən döyüşlərdə xalqımızın minlərlə igid övladı uca şəhidlik zirvəsinə yüksəlmişdir. Böyüməkdə olan nəslin təlim-tərbiyə aldığı bir çox məktəblərin, o cümlədən küçə və parklar şəhid bacı və qardaşlarımızın adını daşıyır. Bu yüksəkliyə ucalan insanlar ölmürlər, əksinə ölümləri ilə bir əbədilik qazanırlar. Xalq şairi Bəxtiyar Vahabzadə şəhidləri belə vəsf etmişdir.

Qatil gülləsinə qurban gedərkən,
Gözünü sabaha dikdi şəhidlər,
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən göylərinə çəkdi şəhidlər.

[1] Vəli Həbiboğlu. Yarım əsrdən çox xalqın xidmətində. Bakı, 1981, s.58-61.

## 2. MAŞTAĞA CÜMHURİYYƏT VƏ DÖVLƏT QURUCULUĞU DÖVRÜNDƏ

Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamış, tanınmış Maştağa ziyalılarından öncülü **Abbasqulu bəy Kazımzadədir**. Abbasqulu bəy Məhəmməd İbrahim oğlu Kazımzadə (1882-1947) 1903-cü ildə Məhəmməd Əmin Rəsulzadənin (1884-1955) rəhbərliyi altında gizli surətdə təşkil edilmiş «Müsəlman gənclik təşkilatının» ilk fəal üzvlərindən biri olmuşdur. A.Kazımzadə böyük demokrat Cəlil Məmmədquluzadənin (1869-1932) yaxın dostlarından biri olmuş və «Molla Nəsrəddin» jurnalının (1906-1932) Bakıda yayılmasında fəal iştirak etmişdir. O, hələ 1904-cü ildə çar hökuməti tərəfindən həbs olunmuşdur.

1911-ci ilin oktyabrında Bakıda gizli müsəlman – demokrat «Müsavat» («Bərabərlik») partiyasının əsası qoyuldu. Həmin tarixi məqamda İstanbulda olmuş M.Ə.Rəsulzadənin verdiyi göstəriş əsasında yenicə yaranmış bu partiyanın baniləri Abbasqulu Kazımzadə, Tağı Nağıyev və Məhəmməd Əli Rəsulzadə idilər. A.Kazımzadə 1911-ci ilin may ayının 15-də «pantürkist ideyalarını təbliğində» təqsirləndirilərək yenidən həbs olundu və həmin ilin iyul ayının 14-də azad edildi.

Azərbaycan qəzalarında «Müsavat» partiyasının gizli özəklərinin qurulmasında A.Kazımzadənin böyük rolu olmuşdur. 1917-ci ildə Rusiyada fevral burjua inqilabı baş verdi. Həmin ilin yəni mart ayında «Müsavat» partiyası açıq siyasi fəaliyyətə keçdi. Martın 27-də Milli Şuranın müvəqqəti İcraiyyə Komitəsi yaradıldı. A.Kazımzadə partiyanın İcraiyyə Komitəsinin üzvü seçildi.

1918-ci ilin may ayının 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. 1918-ci ilin dekabr ayının 7-də A.Kazımzadə gizli səsvermə yolu ilə Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə Bakı şəhərindən millət vəkili seçildi.[1]

Azərbaycan Respublikasının ərazisi 1920-ci ilin aprel ayının

[1] «Azərbaycan» qəzeti, 5 oktyabr 1919-ci il





27-də Sovet Rusiyasının tərəfindən işğal olundu. Bu tarixi məqamda A.Kazımzadə bir müddət M.Ə.Rəsulzadə ilə birlikdə gizli şəkildə Lahıcda yaşadı və həmin ilin avqust ayının 17-də həbs olundu. O, bir müddət həbsdə qaldıqdan sonra Moskvaya aparıldı və iki ilə yaxın müddət ərzində SSRİ Millətlər Komssarlığına tabe olan Kooperativ təşkilatında çalışdı. A.Kazımzadə 1922-ci ilin yayında M.Ə.Rəsulzadə ilə birlikdə Türkiyəyə getdi.

A.Kazımzadə Azərbaycan mühacirlərinin İstanbulda nəşr etdikləri «Yeni Qafqasiya», «Azəri türkü» və «Odlar yurdu» kimi mətbuat orqanlarında fəal iştirak etmişdir. O, İstanbulda Azərbaycan mətbuatını geniş oxucu kütləsi arasında yaymaq məqsədilə xüsusi dükan açmışdı.

Sonralar Almaniyada mühacir həyatı keçirmiş A.Kazımzadə 1932-ci ildə Berlində çıxan «İstiqlal» qəzetində və 1934-cü ildə nəşrinə başlanan «Qurtuluş» jurnalında Azərbaycan istiqlal hərəkatı ilə bağlı olan xeyli məqalələri çap etdirmişdir. A.Kazımzadənin ictimai fəaliyyəti 1939-cu ilədək davam etmiş və onun məqalələri «Abbas Eldəniz» imzası ilə çap olunmuşdur. II Dünya müharibəsi (1939-1945) başlandıqdan sonra Türkiyəyə qayıtmış A.Kazımzadə 1947-ci ilin iyul ayının 29-da Ankara şəhərində vəfat etmiş və şəhərin «Əsri» qəbristanlığında dəfn olunmuşdur.[1]

**Ağasəlim Hacı Məhəmməd oğlu Əlizadə** (1895-1961) biliyi, savadı ilə diqqəti cəlb edən gənclərdən biri olmuşdur. O, Tehranda təhsil almış, ərəb və fars dillərini mükəmməl bilirdi və şeirlər yazırdı. Umumiyətlə, Şərq poeziyasından xəbərdar bir ziyalı idi.

A.Əlizadə Müsavat partiyasının ən fəal üzvü olub. O, xüsusilə bu partiyanın yaradıcısı və lideri M.Ə.Rəsulzadənin yaxın dostu olmuşdur. Qardaşı Əsgər Əlizadə ilə Musavat ideyalarına sədaqət göstərmişlər. 1929-cu ildə o, həbs olunmuş və ömrünün 24 ilini Sibir sürgünündə keçirmişdir. İ.V.Stalinin (1879-1953) ölümündən sonra A.Əlizadə də bir çoxları kimi bəraət almış və vətənə qayıtmış

[1] Mövsüm Əliyev. Abbasqulu bəy Kazımzadə. «İncəsənət» qəzeti, 14 oktyabr 1993-cü il.

bir müddət ixtisasından fərqli işlə təmin olunsada, lakin 24 ildə aldığı fiziki və mənəvi zərbədən sonra çox yaşamadı.

XX əsrin 20-30-cu illərində «Müsavat» partiyasının fəal rəhbərlərindən biri də Məşədi Əbülqasım Şəkərov olmuşdur. O, 1883-cü ildə dindar ailədə doğulmuş mükəmməl dini təhsil almışdır. Məşədi Əbdülqasım Şəkərovun babası Şəkər bəy şücaətli igid insan kimi tanınaraq Bakı xanı Hüseynqulu xanın Maştağada fəaliyyət göstərmiş xüsusi mühafizə dəstəsində xidmət etmişdir. O əslində ilk maştağalı hərbçi hesab olunur.

Məşədi Əbdülqasım Şəkərov 1918-ci ildə ermənilərə qarşı döyüşmək üçün təşkil edilmiş, Maştağa özünümüdafiə dəstələrinin tərkibində döyüşmüşdür. İlk ictimai-siyasi fəaliyyətidə buradan başlamışdır. Odur ki, o Bakının uğrunda qedən döyüşlərdə qazanılan qələbədən sonra öz fəaliyyətini ictimai-siyasi sahəyə 1919-cu ildən ömrünün sonuna kimi müsavatçı olmuş, Azərbaycan Cümhuriyyətinin (1918-1920) dövlət orqanlarında fəal iştirak etmişdir. M.Şəkərovun ərəb, fars və rus dillərini mükəmməl səviyyədə bilməsi onun daha məsuliyyətli işə cəlb olunması üçün şərait yaratmışlı.

1930-cu ildə Əbdülqasım Şəkərovun rəhbərliyi altında «Musavat» partiyasının Bakı təşkilatının fəaliyyəti yenidən canlanmışdı. Bu dövrdə həmin təşkilatın Salyan, Biləsuvar, Sabirabad, Quba, Masallı, Təbriz təşkilatları ilə əlaqələri yarandı.[1]

1931-ci ildə «Musavat» partiyasının Bakı təşkilatı xəyanət nəticəsində dağıdıldı, onun 200 nəfərə qədər fəal üzvü həbs edildi. Məşədi Əbülqasım Şəkərov da tutularaq, qısa müddət ərzində həbsdə saxlanılmış, nəzarət altında azadlığa buraxılmışdı. Onunla birlikdə 1931-ci ildə oğlu Əsədi Təbriz təşkilatı ilə əlaqə saxlanılmaqla günahlandırılaraq bunlada həbs olunmuş, 1934 cü ildə həbsxanada vəfat etmişdir. Sonralar, 22 yaşlı oğlunun ölümündən sarsılan Məşədi Əbdulqasım Şəkərov dərdini dağıtmaq başını qatmaq üçün Maştağa əhalisi arasında «Şəkərqumu» adlandırılan ba-

[1] Xaləddin İbrahimli. «Azərbaycan siyasi mühacirəti». Bakı, 1996.





ğında təsərrüfatda məşğul olur. Lakin 1937-ci ildə yenidən həbs olunur Nargin adasına sürgün edilir və 1943-cü ildə orada vəfat etmişdir.

Sovet hakimiyyətinin 20-ci illərinin sonunda "Allahsızlar" cəmiyyətinin tügyan etdiyi bir dövrdə mövcüd sovet rejimi ilə heç vaxt barışmayan və heç nədən çəkinmədən 1927-ci ildə könüllü şəkildə «Musavat» partiyası sıralarına daxil olub, fəal üzü kimi tanınan Kərbəlayi Salman (Pəlvan) Baxşəli oğlu Əliyev 1886-ci ildə Maştağada anadan olmuşdur. O, kənddə böyük hörmət və nüfüz sahibi olan tacirlərdən biri sayılmışdır. 1917-ci ildə Maştağada "El-yardımı" Xeyriyyə Cəmiyyətinin yaradıcısı kimi də tanınıbdır. Kərbəlayi Salman Əliyev qohumu və yaxın dostu Məşədi Əbulqasım Şəkərovla birlikdə Bakı şəhəri və ətraf kəndləri üzrə Müsavat Partiyası sıralarını 20-30-cu illərdə əqidəli gənclərə daha sıx birləşdirmiş, Aşqabadda qeyri-leqal şəkildə fəaliyyət göstərən müsavatçıların Mərkəzi ilə sıx əlaqələr saxlamış, Azərbaycandakı əziyyətə uyğun təşkilatçılıq işi qurmuşdur. O, öz bacısı oğlanlarını – Tahir Nəriman oğlu Nərimanovu və Qulammirzə Baladadaş oğlu Dadaşovu da "Müsavat" Partiyası sıralarına cəlb etməklə, milli dövlətimizin bərpası uğrunda birlikdə mübarizə aparırdı. Nəhayət 30-cu illərin repressiya maşını dayı ilə bacıoğlanlarını da hədəfə aldı. 1937-ci ildə Kərbəlayi Salman Əliyev və öz bacısı oğulları ilə birlikdə həbs olundu. Sibirə sürgünə göndərilməklə, barələrində ölüm hokum çıxarıldı.

Tanınmış inqilabçı **Məmməd Məmmədqulu oğlu Məmmədyarov** 1875-ci ildə Maştağa kəndində anadan olmuşdur. O Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizlərdən biri hesab olunur.

Məmmədyarov təcrübəli inqilabçı kimi öz yoldaşları arasında böyük nüfuz sahibi olmuşdur, XX əsrin əvvəllərində «Hümmət» təşkilatının yaradılmasında fəal iştirak etmişdir.

1905-ci ildə ona inqilabçı dostları etimad göstərərək Bakı dumasının üzvü seçmişlər. O həmin ildə baş vermiş erməni müsəl-

man qırğınlarının genişlənməsinin qarşısını almağa çalışsa da, buna müvafiq olmamışdır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra M.Məmmədyarov Bakı qəza ictimai təmiant şöbəsinin müdiri, Azərbaycan SSR İctimai Təminat Komissarı olmuşdur. O 1922-27-ci illərdə bu məsul vəzifədə çalışmışdır.

Məmməd Məmmədyarov 1933-cü ildə vəfat etmişdir.

Görkəmli inqilabçı **Baləmi Dadaşov** 1870-ci ildə Maştağa kəndində anadan olmuşdur.

1904-cü ildə yaradılan Hümmət təşkilatının fəaliyyətində də fəal iştirak etmişdir.

1905-ci ildə tanınmış inqilabçı döyüş drujinaların təşkilində və fəalların silahlanmasında mühüm işlər görmüşdü.

O, 1906-cı ildə Neft Sənayesi Fəhlələr ittifaqının rəhbərlərindən biri olmuşdur.

Görkəmli inqilabçı 1918-ci ildə mart ayında öldürülmüşdür.

Hələ XX əsrin əvvəllərində yaşamış görkəmli Azərbaycan ziyalısı, Azərbaycan Demokratik Respublikası Xalq Cümhuriyyət hökumətinin üzvü **Ağa Ağakərim oğlu Əminov** (1887-1921) qısa ömür yolu keçmiş, lakin Azərbaycan Demokratik Respublikanın quruculuğu sahəsində nəzərə çarpacaq fəaliyyət göstərmişdir. (Ağa Əminov tanınmış Azərbaycan ziyalsıçı Məmməd Nuru oğlunun dayısı idi).

A.Əminov müstəqilliyi 1918-ci ilin may ayının 28-də elan olunmuş Azərbaycan Demokraktik Respublikasının həmin ilin dekabr ayının 7-də Bakıda fəaliyyətə başlamış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin təşkil etdiyi birinci kabinədə (14 iyun 1919-cu il) ticarət və sənaye naziri vəzifəsini icra etmişdir.

Ağa Əminov Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasına və yerli sənayeni inkişaf etdirilməsinə böyük səy göstərmişdir.[1]

---

[1] Vəli Nəbioğlu. Maştağa, Bakı, 2003, s.158





## 3. MAŞTAĞA 1920-1991-Cİ İLLƏRDƏ

1920-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti Sovet hakimiyyəti tərəfindən qəsb olunandan sonra, ölkənin elmi-mədəni, ictimai-iqtisadi inkişafının dircəlməsi tələb olunurdu. Odurki ilk dövrdə hər vasitə ilə istedadlı qabiliyyəti və bacarığı olan adamların işə cəlb olunması qarşıda məqsəd vəzifəsi kimi durmuşdu.

Tanınmış dövlət xadimi **Məmməd Muradəli oğlu Baxşıyev** (1920-1968) böyük təşkilatçılıq qabiliyyətinə malik olmuş və uzun illər ərzində partiya işində çalışmışdır.

1950-ci ildə Respublika Ali Sovetinin deputatı seçilmiş Baxşıyev həm də Bakı şəhəri Əzizbəyov Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmışdır.

Vaxtilə Azərbaycan KP MK-nin ikinci katibi vəzifəsində, sonra isə ölkənin qaz sənayesi sahəsində çalışmış **Hüseyn İsgəndərovun** (1909-1984), uzun müddət ərzində Bakı Neftayırma zavoduna rəhbərlik etmiş gözəl mühəndis **Balahüseyn İmamqulu oğlu Hüseynovun** (1909-1977) repsublikanın sosial-iqtisadi problemlərin həll olunmasında müəyyən əməyi olmuşdur. Azərbaycan mədəniffətinin musiqisinin inkişafında əvəzsiz rolu olmuş görkəmli bəstəkar SSRİ xalq artisti, Azərbaycan Respublikası Mədəniyyət Naziri **Rauf Soltan oğlu Hacıyev** (1922-1995) də adını qeyd etmək lazımdır. O, Azərbaycanın mədəniyyət naziri vəzifəsində çalışdığı dövrdə ölkədə mədəniyyətin sahələrində uğurlar qazanılmasına nail olmuşdur.

Maştağa qəsəbəsindən olan əmək veteranları sırasında **Sosialist əməyi qəhrəmanları Ağadadaş Kərbalayı oğlunun** neft sənayesi sahəsində qazandığı uğurları, **Məzahir Ağaverdi oğlu Abdullayevin** Sumqayıt şəhərinin salınmasında fədakarcasına gördüyü işləri və **Zərbəli Mirzağa oğlu Samedovun** təhsil sahəsində pedaqoji nailiyyətlərini xatırlatmaq vacibdir. Bu şəxslərin əmək fəaliyyəti sayəsində ölkəmizin şərəf salnaməsinə xeyli yenilik əlavə olunmuşdur.

## 4. MAŞTAĞANIN ELM XADİMLƏRİ

Maştağadan bir sıra görkəmli ictimai-siyasi xadimlər, elm və mədəniyyət xadimləri çıxmışdır. Onlar ictimai-siyasi həyatın müxtəlif sahələrində çalışsalar da başlıca məqsədləri doğma vətənə xidmət etmək, Azərbaycanın şöhrətini ucaltmaq, milli dövlətçiliyi möhkəmləndirmək olmuşdur.

Maştağa kəndində vaxtilə, XX əsrin əvvəllərində dövrün bir çox inqilabçıları yaşayıb, gizli fəaliyyət göstərib, yerli əhali tərəfindən çar jandarmlarından gizlədilmişdir.

Görkəmli dövlət xadimləri İ.B.Stalin Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə və bir çox başqaları dəfələrlə bu qədim kənddə olmuş, Maştağalı həmkarları sıx əlaqələr saxlamış, əhali ilə görüşərək geniş fəaliyyət işləri aparmış və lazım gəldikdə çar Rusiyasından qorunmaq üçün bu kəndə yaxın dostları tərəfindən ayrı-ayrı evlərdə gizlədilmişlər.

XX əsrin əvvəllərində inqilabi fəaliyyətə qoşulan hər bir kəs çarizmə qarşı mübarizə aparmaqla mövcud həyat şəraitini dəyişdirmək istəyirdi. Maştağa kəndindən də xeyli insan bolşeviklərin bu təbliğatına uyaraq «azad cəmiyyət» uğrunda mübarizə aparırdı. Sonralar bu təbliğatın acı nəticələrini real həyatda görənlər nə qədər böyük səhvə yol verdiklərini başa düşmüşdülər.

Azərbaycanın hər yerində olduğu kimi, Maştağada da hümmətçilərlə və islamçı ittihadçılar la yanaşı, ermənilərə qarşı sərt, barışmaz mövqedə dayanan insanlar arasında birlik, bərabərlik və qardaşlıq münasibətləri yaradan müsavatçılar da geniş iş aparırdılar. 1918-ci ilin mart qırğınlarından sonra xalqın artıq əhalinin böyük əksəriyyəti bolşeviklərdən üzdöndərdi, müsavatçıları xalqı yaranmış böhrandan çıxaran yeganə qüvvə hesab edirdilər.

Maştağada da «Müsavat» partiyasının təşkilatına böyük axın oldu. Təsadüfi deyil ki, Azərbaycan Milli Ordusunun, xalqı erməni qırğınından xilas edən türk ordusunun tərkibində xeyli 1675 nəfər





Maştağa qarnizonun döyüşçüsü olmuşdur.[1] Onlar erməni-bolşevik daşnaqlarına qarşı döyüşlərdə iştirak etməklə fədakarcasına vuruşaraq, Bakı şəhərinin alınmasında 143 nəfəri Maştağanın döyüş şərəfini uca tutmuş, canlarından keçərək şəhid olmuşlar. Onların xatirəsi, "Azərbaycan xalq Cumhuriyyəti və Qafqaz İslam Ordusu" (Bakı-2008) kitabın da onun müəllifləri – Mehman Suleymanov və Mehmet Rıhtım tərəfindən böyük hörmətlə yad edilmiş və adları şəhidlər sirasında izzətlə çəkilməklə qeyd edilmişdir.

XX əsrdə Azərbaycanda bütün elm sahələrinin inkişafı hər bir istedadlı, qabiliyyətli şəxsin qarşısında böyük imkanlar açmışdır.

Azərbaycanın bütün rayon və kəndlərində olduğu kimi Maştağa torpağında elmin bütün sahələrində tanınan layiqli övladlar – alimlər yetirmişdir ki, onlar müxtəlif sahələr üzrə böyük uğur və naliyyətlər əldə etmişdirlər.

**Dəqiq elmlər üzrə.**

Texnika, fizika-riyaziyyat elmləri üzrə bir sıra görkəmli alimlər Maştağadan çıxmışdır. Bunlardan texnika elmləri namizədi, eyni zamanda Azərbaycanın görkəmli islamşünası Əhmədağa Əhmədov (1922-2006), fizika-riyaziyyat elmləri doktoru, professor Ənvər Sadıqzadə (1926), texnika elmləri doktoru, professor, Azərbaycanın əməkdar elm xadimi Zahid Kərimov (1937), fizika-riyaziyyat elmləri doktoru, professor Zərifə İsgəndərzadə (1935), fiziki-riyaziyyat elmləri doktoru, professor Əli Quliyev (1940), fizika-riyaziyyat elmləri namizədi Aslan Məmmədov (1935), texnika elmləri namizədi İsgəndər İsgəndərov (1912), fizika-riyaziyyat elmləri namizədi Şamil İsgəndərov (1915), fizika-riyaziyyat elmləri doktoru Məmməd Əliyev (1941-1985), fizika-riyaziyyat elmləri namizədi Böyükxanım Məmmədova (1939), texnika elmləri namizədi Səlim İbrahimov, fizika-riyaziyyat elmləri namizədi Ziya İsgəndərzadə (1927), texnika elmləri namizədi Vaqif Hüseynov (1945), fizika-riyaziyyat elmləri namizədi Təranə Mahmudova (1963), fizika-riya-

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.1058

ziyyat elmləri doktoru Cavid İsgəndərov, texnika elmləri doktoru, professor Cəfər Hadıyev (1928-1992), texnika elmləri namizədi Abis Hüseynov (1932), fizika-riyaziyyat elmləri namizədi Rəna Ağayeva (1947), fizika-riyaziyyat elmləri doktoru Şahin Əhmədov (1950) dəqiq elmlər sahəsində tanınmış alimlərdəndirlər. Həmin alimlərin bir çoxu vətəndən kənarda dəfələrlə Azərbaycan elmini təmsil etmiş, maraqlı elmi məruzələri və ixtiraları ilə beynəlxalq elmi konfranslarda çıxışlar etmişlər.

**Kimya elmləri üzrə.**

Kimya elminin inkişafında Maştağadan olan bəzi alimlərin böyük rolu olmuşdur. Onların yetişdirdiyi kimyaçı kadrlar bu gün Azərbaycan Respublikasının müəssisələrində, müxtəlif elm ocaqlarında çalışırlar. Kimya elmləri doktoru, professor Ağarəfi Ağayev (1911-1984), kimya elmləri namizədi Yaşar Əzimov (1945), kimya elmləri namizədi Rəfiqə Məmmədova, kimya elmləri namizədi Səltənət Əliyeva, kimya elmləri namizədi Rasim İsgəndərov həmin «kimyaçılar ordusu»nda xüsusilə fərqlənirlər.

**Coğrafiya elmləri üzrə.**

Azərbaycan Respublikasında coğrafiyaşünasların əksəriyyətinin müəllimi olmuş, coğrafiya elmləri doktoru professor Hadı Əliyev (1900-1982) ölkədə bu elmin inkişaf etdirilməsində, coğrafiya üzrə kadrların hazırlanmasında əvəzsiz xidmətlər göstərmişdir.

Azərbaycan meteorologiya elminin əsasını qoymuş şəxslərdən biri coğrafiya elmləri doktoru, porfessor Əliabbas Mədətzadə (1909-1972) olmuşdur. O, Maştağa kəndində dünyaya gəlmişdir. Coğrafiya elmləri namizədi, Şahrux Ağayev (1931), coğrafiya elmləri namizədi Həbibə Soltanova (1948), coğrafiya elmləri namizədi Gülxanım Əliyeva (1933), coğrafiya elmləri namizədi Ədilə Ağayeva (1957), coğrafiya elmləri namizədi Hacıağa quliyev (1943) Maştağada dünyaya gəlmiş, coğrafiya sahəsində araşdırmalar aparan alimlərdəndir.





**Geologiya və meneralogiya üzrə.**

Azərbaycan Respublikasında geologiya elmi sahəsində xeyli maştağalı alim çalışır. Onların elmi araşdırmalarının nəticələri hətta vətənimizdən uzaqlarda da məlumdur və yüksək qiymətləndirilir. Belə ki, geologiya-meneralogiya elmləri doktoru Rüstəm Babayevin (1932) adı dünyanın bütün ölkələrində tanınır. Onun Sakit, Hind və Atlantik okeanlarında apardığı tədqiqatlar, Qafqazın uzaq coğrafi keçmişi ilə bağlı olan araşdırmaları Azərbaycan geologiya elmində özünəməxsus yer tutur.

Geologiya – mineralogiya elmləri namizədi Sevil Əliyeva (1953), geologiya-mineralogiya elmləri namizədi Tamila Hadıyeva (1931), geologiya-mineralogiya elmləri namizədi Firəngiz Məhərrəmova (1928-1998) geologiya-mineralogiya üzrə tədqiqatlar aparan maştağalı alimlər sırasındadır.

**İqtisad elmi üzrə.**

Maştağada iqtisad elminə böyük maraq hələ XX əsrin əvvəllərində yaranmışdır. Bu maraq onunla əlaqədardır ki, qəsəbənin əhalisi sənaye, ticarət sahəsində işləməyə daha çox meyl göstərir, ölkənin müxtəlif sənaye müəssisələrində, ticarət obyektlərində, digər sahələrdə çalışır. Azərbaycan Respublikasında iqtisad elminin inkişafında Maştağadan çıxmış iqtisadçı limlər çoxdur. Azərbaycan Milli ElmlərAkademiyasının müxbir üzvü iqtisad elmləri doktoru, professor Ağasəlim Ələsgərov (1928), iqtisad elmləri namizədi Abbas Nəbiyev (1950), iqtisad elmləri namizədi Mirzə Rzayev (1950), iqtisad elmləri namizədi Mirsəməd Axundov (1952-1993), iqtisadi elmlərinamizədi Molla ağa Quliyev (1931-1994) həmin iqtisadçı alimlərdəndir.

**Tarix, Fəlsəfə və Hüquq elmləri üzrə.**

Azərbaycan Respublikasında tarix, fəlsəfə və hüquq elmləri üzrə çalışan xeyli tanınmış maştağalı alim vardır.

Tarix elmləri doktoru, porfessor Məzahir Abbasov (1918-2002), tarix elmləri namizədi Kamil Muxtarov (1938), tarix elmləri namizədi Qəzənfər Ağayev (1915-1992), tarix üzrə fəlsəfə doktoru Əlibaba Babayev (1967), fəlsəfə elmləri doktoru, pofessor Telman Hacıyev (1937), fəlsəfə elmləri doktoru Əli Abbasov (1950), fəlsəfə elmləri namizədi Eldar Musayev, fəlsəfə elmləri namizədi Rəcəbəli Əliyev (1949), fəlsəfə elmləri namizədi Rəhilə Bədəlova (1949), fəlsəfə elmləri namizədi Vaqif Hacıyev (1961), sənətşünaslıq elmləri namizədi Mina Hüseynova (1969) Maştağa kəndinin yetirmələridir.

**Filologiya üzrə.**

Maştağadan çıxmış ədəbiyyatçılar və dilçilər Azərbaycan Respubikasının ümumi ədəbi-mədəni həyatında mühüm rol oynamışlar. Bakı kəndlərinin əksəriyyətində olduğu kimi, Maştağada da onlar əsasən klassik ədəbiyyatın öyrənilməsinə və tədqiqinə xüsusi diqqət yetirmişlər.

Azərbaycan Respublikasında Vahidşünas alim kimi tanınmış, Əliağa Vahid ədəbi irsinin toplanması, nəşri, təbliği və tədqqi ilə məşğul olmuş filologiya elmləri namizədi Məmməd Nuru oğlu (1923-2002) Maştağa kəndinin yetirməsi idi. Filologiya sahəsindəki tədqiqatları ilə tanınan digər maştağalı alimlər sırasında filologiya elmləri namizədi Əsmətxanım Məmmədova (1941), filologiya elmləri namizədi Aslan Aslanov (1923-1993), İlahiyyat elmləri namizədi Zəkiyyə Babayeva (1962), filologiya elmləri namizədi Xatirə Quliyeva (1962), filologiya elmləri namizədi Sevinc Məmmədova (1965) da vardır.

Maştağa qəsəbəsində yetişmiş pedaqoqların gənc nəslin yetişdirilməsində, təşəkkülündə böyük rolu vardır. Pedaqoji elmlərlə məşğul olanlardan biri də sovet dövrünün «Sosialist Əməyi Qəhrəmanı» adını almış «Azərbaycan Respublikasının əməkdar müəllimi» fəxri adını daşıyan Zərbəli Səmədovdur. O, 1908-ci ildə anadan olmuşdur. Z.Səmədov öz dövrünün məşhur pedaqoqu olmuşdur. Pedaqoji elmlər namizədi Natiq Əliyev (1943), pedaqoji elmlər namizədi Firəngiz Babayeva (1950), pedaqoji elmlər namizədi





İbrahim Məmmədov da pedaqoji elm sahəsində tanınmış maştağalı araşdırıcılardandırlar.

**Tibb elmlər üzrə.**

XX əsrdə Maştağadan olan bir çox alimlər respublikamızın səhiyyə sahəsinin tibb elminin müxtəlif yerlərində çalışmış, xalqımızın sağlamlığı keşiyində layiqincə durmuşlar. Tibb elmləri doktoru, professor Nisə xanım Mirişli (1932), tibb elmləri doktoru Muradəli Başşiyev (1953), tibb elmləri namizədi Yəhya Musayev (1918-1978), tibb elmləri namizədi Ələkbər Quliyev (1921-1965), tibb elmləri namizədi Qulammirzə Quliyev (1924-1976), tibb elmləri namizədi Cəfər Ramazanov (1957), tibb elmləri Nadir Vəliyev (1954), tibb elmləri namizədi Züleyxa Mikayılzadə (1949) təbabət sahəsində böyük uğurlar qazanmış maştağalı alimlərdəndir.

## 5. MAŞTAĞANIN MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ

XX əsrin əvvəllərindən etibarən bəzi mütərəqqi fikirli şəxslər Maştağa əhalisi arasında müəyyən mədəni tədbirlərin aparılması sahəsində çalışmışlar. Keçən əsrin əvvəllərində görkəmli teatr xadimləri Hüseyn Ərəblinskinin və Cahangir Zeynalovun təşkil etdikləri bəzi teatr tamaşaları Bakıda və onun ətraf kəndlərində, o cümlədən Maştağada nümayiş etdirilmişdi. Sonralar adları dillər əzbəri olmuş görkəmli aktyorlar – Hacı Ağa Abbasov, Mirzəağa Əliyev, Sidqi Ruhulla və b. Məhz Bakı ətrafındakı kəndlərdən çıxmış cavanlar idilər. Onlar böyük sənət yoluna məhz həmin dövrdə qədəm qoymuşlar.

Tanınmış fotoqraf Mircavad Axundovun dediyinə görə, Maştağada hələ 1908-ci ildə səssiz film göstərilmişdir. Bu məlumatı ona böyük qardaşı Seyidağa Mirhüseyn oğlu Axundov (1887-1929) vermişdir.

XX əsrin əvvəllərinədək kimya «Sinema» (yaxud «Dumanlı kart») deyərmişlər. Əvvəlcədən filmin nümayişinə hazırlıq işləri

görülmüş, sonra isə Kinooperator faytonda Maştağa kəndinə gətirilmiş və kino Hacı Xalıqın evinin ikinci mərtəbəsində göstərilmişdi.

Kino başlanan kimi lentdə dəniz dalğalarının görüntülərini seyr edən tamaşaçılar «ay aman, qoymayın, su otağı basdı» deyərək haray salmışdılar. Sonra isə filmdə çimərlikdə dincələn qadınları gördükdə tamaşaçılar hər iki kinomexanikə lənət oxuyaraq otağı tərk etmişdilər. Kino sənəti Bakı ətrafındakı kəndlərimizə məhz beləcə, çətinliklə yol açmışdır.[1]

**Musiqiçilər.**

Azərbaycan musiqi sənətində görkəmli yer tutan tarzən Mirzə Fərəc oğlu Rzayev 1847-ci ildə Maştağada anadan olmuşdur. O, Bakının və şəhərin ətrafındakı kəndlərdə toy məclislərində məşhur tarzən kimi şöhrət tapmışdır. Məşhur tarzən Əhsən Dadaşov, mahir fleytaçı, respublikamızın əməkdar artisti, sənətşünaslıq elmləri doktoru Ələkbər İsgəndərov (1921), tanınmış bəstəkar Ağabacı Rzayeva, görkəmli bəstəkar Novruz Aydəmirov, tanınmış muğamşünas Vaqif Əliyev (1939), mahir violonçelçalan, respublikanın əməkdar artisti Eldar İsgəndərov (1950), görkəmli tarzən Sabir Ələkbərov (1948), tanınmış tarzən Tofiq Şahbazov, mahir tarzən İbrahim Məmmədov, hazırda Səid Rüstəmov adına xalq çalğı alətləri orkestrinin konsertmeysteri, görkəmli tarzən Mirzağa Nəbiyev ( 1949-2021) Maştağa kəndinin yetirmələridir.

**Xanəndələr.**

Gözəl səsi, yüksək ifaçılıq qabiliyyəti, mədəniyyəti ilə Azərbaycanda tanınmış xanəndələrdən biri də Kərbəlayı Hüseyn Kazımovdur (1888-1959). Əməkdar incəsənət xadimi, musiqi tədqiqatçısı Firudin Şuşinski müxtəlif əsərlərində və televiziya verilişlərində («İfaçılıq sənəti» Ə.B.) onu «Rahabın mahir ifaçısı» təqdim etmişdir.

Tanınmış xanəndə Güləhməd Məmmədovun (1891-1976) (respublikanın xalq artisti Əlibaba Məmmədovun əmisi – Ə.B.) Azərbaycan ifaçılıq sənətində xüsusi xidmətləri olmuşdur. Təsadüfi deyildir ki, Güləhməd Məmmmədovun dəfn mərasimində Respublikanın xalq artisti Hacıbaba Hüseynov göz yaşlarını silərək belə söyləmişdi: «Biz bu gün Güləhmədi yox, böyük bir kitabxananı dəfn edirik»[1].

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.443-444.





Respublikanın xalq artisti Əlibaba Məmmədov, (1930-2021), Respublikanın xalq artisti Şövkət Ələkbərova (1922-1993), Respublikanın xalq artisti Xuraman və Fidan Qasımova bacıları, Respublikanın xalq artisti Elmira Rərimova (1942), Töfhə Əliyeva (1922-2007), Əmnağa Qasımov (1920-1996), Məmmədli Əliyev Sail (xanəndə, qəzəlxan – Ə.B.), İsmayıl Ələkbərov (1939-2021) Maştağa kəndindən çıxmış mahir xanəndə və müğənnilərdir.

**Rejisorlar.**

Milli teatr tariximizdə öz mövqeyi üslubu olan rejissorların bir qismi Maştağa kəndinin yetirməsidir. Respublikanın əməkdar artisti Əliheydər Ələkbərov (1915-1974), görkəmli kinodramaturqu və rejissoru, yazıçı-publisist, Respublikamızın əməkdar incəsənət xadimi, xalq artisti Həsən Seyidbəli (1920-1980), görkəmli rejissor, əməkdar incəsənət xadimi Zəfər Nemətov (1915-1971), rejissor Məmmədcamal Kazımov (1929), əməkdar incəsənət xadimi Azərpaşa Nemətov (1947), əməkdar incəsənətxadimi Məmməd Əlili (1898-1993), televiziya rejissoru Məmməd Quliyev (1942) belə sənətkarlardandırlar.

**Aktyorlar.**

XX əsrin əvvəllərində şimali Azərbaycanda, xüsusilə Bakı şəhərində sənaye sürətlə inkişaf etdiyinə görə əhalinin artmaqda olan mənəvi tələbatını ödəmək məqsədilə Bakıda müxtəlif mədəni-maarif ocaqları açılmış, yeni qəzetlər nəşrə başlamış, elmə, maarifə, mədəniyyətə meyil güclənmişdi. Bu dövrdə Azərbaycanın təqribən hər yerindən, eləcə də Bakıdan və onun ətraf kəndlərindən olan ziyalılar Azərbaycan mədəniyyətinin inkişafında əvəzsiz rol oynamışlar. Bu

[1] Vaqif Əliyev. Ürək deyir yaşa hələ. Bakı, 2000.

dövrdə teatr sənətinin inkişafında bakılı Cahangir Zeynalovun (1865-1918), Hüseyn Ərəblinskinin (1881-1919), buzovnalı Sidqi Ruhullanın (1886-1959), hövsanlı Mirzağa Əliyevin (1883-1954), maştağalı Hacıağa Abbasovun (1888 -1975) və bir çox başqalarının xüsusilə böyük xidmətləri olmuşdur. Onların hər biri Azərbaycanda peşəkar teatr sənətinin banisi olmuşdur. XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda yaradılmış «Tənqid-təbliğ teatrı»nın fəaliyyəti əsasən Respublikanın xalq artisti Hacıağa Abbasovun adı ilə bağlıdır.

Azərbaycan teatr tarixində iz qoymuş digər sənətkarlar sırasında Məmməd Əlilini, (1898-1993), Ağarza Rzayevi (1910-1978), Rəşid Tahirovu, Məmmədsadıq Nuriyevi, (1919-1975) Hacıbaba Bağırovu (1932-2006), Yaşar Nurini (1951-2012), Elmira Şabanovanı (1940), Rafiq Əzimovu (1938), Ramiz Məlikovu (1943), Rzabala Rzayevi, İdris Rüstəmovu, (1946-2018) Qorxmaz Əlilini (1958) qeyd etmək olar.

**Rəssamlar, heykəltəraşlar.**

Rüstəm Məmməd oğlu Mustafayev Azərbaycan Respublikasında təsviri incəsənət sahəsində mühüm xidmətləri olmuşdur. O, Azərbaycanda realist teatr-dekorasiya sənətinin yaradıcılarından hesab olunur. Respublikanın ən böyük mədəniyyət xəzinələrindən biri olan Azərbaycan Dövlət İncəsənət Muzeyi xalqımızın mədəniyyət tarixində bənzərsiz rol oynamış maştağalı Rüstəm Mustafayevin adını daşıyır.

Maştağalı rəssamlar, heykəltəraşlar sırasında Azərbaycanın xalq rəssamı, əməkdar incəsənət xadimi İsmayıl Axundovu (1907-1969), sənətşünaslıq elmləri doktoru, professor Mürsəl Nəcəfovu (1918-1990), tanınmış rəssam Böyükağa Salahovu (1932-2000), SSRİ Rəssamlar İttifaqının üzvü olmuş Mirteyyub Xəlilovu (1938), rəssamlar Əlirza Əliyevi (1939), Nicat Məmmədovu, Məmmədağa Hüseynovu (1929-2001), Cəbrayıl Əzimovu (1926-1969), Vaqif Hüseynzadəni (1928), Əli İsgəndərovu (1954), Hacı Baladayı Hüseynovu (1952) qeyd etmək olar.





**Jurnalistlər.**

Maştağalı jurnalistlər haqqında bəhs edərkən ilk növbədə Qafar Namazəliyevi, uzun müddət ərzində «Kirpi» jurnalına rəhbərlik etmiş yazıçı Salam Qədirzadəni, yazıçı urnalist Məhərrəm Abbasovu, illər boyu «Azərbaycan» ədəbi jurnalında baş redaktorun müavini vəzifəsində çalışmış şair Novruz Gəncəlini, Azərbaycan televiziyasında hazırladığı bir çox bədii-publisistik verilişləri ilə tanınmış Nailə Muradxanlını adlarını xüsusilə qeyd etmək vacibdir.

**Yazıçılar və şairlər.**

Maştağa kəndi (qəsəbəsi) bir çox şairlərin və yazıçıların vətənidir. Həmin yazıçılar arasında folklorşünas, filologiya elmləri namizədi Həsən Qasmıov (1912-1977), Salam Qədirzadə (1923-1987), Məhərrəm Abbasov xüsusilə fərqlənmişdir.

Cürmi Məmmədov, Atababa Hicri (1863- 1922), İsmayıl Zəbih (1843-1928), Muxtar Bisavad (1847-1938), Mirmahmud Nuri (1895-1958), Hacıbaba Əxkər (1863-1941), Əziz Məhəmməd Məhkum (1908), Əli Məhəmməd Fəna (XIX əsrin II yarısında – XX əsrin əvvəllərində yaşamışdır – Ə.B.), Novruz Gəncəli (1921-1995), Böyükağa Qasımzadə (1916-1957), Məhəmmədəli Şəfai (1890-1967), Ələkbər Şahid (1920-1999), Hacı Məmməd Kazım Hüseynov (1913-1982), Rüstəm Samit (1924-1999), Əminağa Arif (1920 – II Dünya müharibəsi cəbhələrində həlak olmuşdur – Ə.B.), Mir Cəlal (1820-1937), Kərbəlayı Rzaəli Nazim (1856-1926), Əliheydər Rəğbət (1923-1974), Şəfa Nəbiyev (1916-1960), İkram Zeynalov (1924-1994), Seyidağa Həbibov (el arasında «injener – mühəndis Seyidağa» adı ilə tanınırdı – Ə.B.)(1920), Əli Səyyah (1947-2001), Əliheydər Bitəmənna (1950), Namiq Axundov (1936-2001), Ənvər Ağaverdi oğlu (1926-1981), Həsən Qulamov (1935), Dilarə Axundova (1964). Sona Xəyal (1961), Ramiz Abdullayev (1953), Ağarəfi Aciz (1931-1999), Mircəlal Zəkiyev (1945), Əliağa Bakir (1923-1998), Ağanəcəf Qədirov (1955) Maştağa ədəbi mühitinin yetirmələridirlər.

**Meyxanaçı şairlər.**

Meyxana janrı Azərbaycanın başqa bölgələrinə nisbətən Bakı şəhərində və onun ətraf kəndlərində geniş yayılmışdır. Meyxanaçı qısa müddət ərzində bədahətən verilmiş qafiyə ilə bağlı şeir qoşmalı və onu ritmlə dinləyicilərin nəzərinə çatdırmalıdır. Xalq arasında həm gözəl qəzəlxan, həm də meyxana ustadı kimi Əliağa Vahidin böyük nüfuzu olmuşdur.

Deyilənlərə görə, görkəmli Azərbaycan şairləri Mikayıl Müşfiq (1908-1939), Cəfər Cabbarlı (1899-1934), Süleyman Rüstəm (1906), Səməd Vurğun (1906-1956) və başqaları vaxtilə bədahətən meyxana demişlər.[1]

Meyxana ustaları sırasında Ağa Hüseyn Əfsunu, Ağasəlim Çıldağı (1930), Məmmədqulu Əhmədovu (Molla Məmmədi) (1950), Kərim Novruzovu (1964), Ağamirzə Məmmədovu (1962), Elçin Atakişiyevi (1968-1994), Məşədibaba Aydəmirovu (1970-2011), Vüqar Əbdülovu (1974), Cavid Məlikovu (1976) göstərmək olar. Onlar Maştağa meyxana mühitinin tanınmış nümayəndələridirlər.

## 6. MAŞTAĞANIN İDMAN HƏYATI

Maştağada bir sıra idman növləri inkişaf etmişdir. Həmin idman növləri arasında güləş xüsusi yer tutur. Maştağa həmişə güclü pəhləvanları ilə fərqlənmişdir. Burada yaşamış güləşçilərin bir qismi yalnız kənddə deyil, bütün Azərbaycanda, habelə dünya miqyasında məşhurlaşmışdır. Hüseynqulu Hacı Mürsəlqulu oğlu (1789-1871), Əbdüləli (Altıaylıq) XIX əsrin ortalarında idman aləmində tanınmış maştağalı pəhləvanlar olmuşlar. Pəhləvan Əbdüləli (Altıaylıq) Qafqazda, Rusiyada, Yaxın Şərqdə bir çox məşhur güləşçilərlə yarışaraq qalib gəlmişdir.

Dəfələrlə Azərbaycan çempionu olmuş Xosrov Cəfərov (1947) gənclər arasında SSRİ çempionu adınıda qazanmışdır. Mə-

[1] Vəli Həbiboğlu. Maştağa. Bakı, 2003, s.907.





likheydər Seyid Məhəmməd oğlu (1918-1988), Pəhləvan Şirinbala, Akif Manafov (1937), Atababa Musayev, Yaşar Seyidov (1959), Seyid Qurban Seyidov (1969), Vüqar Məcidov (1977), Ağaməli Abbasov (1955), Muxtar Novruzov (1961), Niyazi Əliyev (1986), Müstaleh Aslanov (1985), Hüseyn Quliyev (1992) Maştağanın tanınmış idmançılarındandırlar

## 7. MAŞTAĞANIN QOÇULARI

XIX əsrin sonunda – XX əsrin əvvəllərində Bakı şəhərində və onun ətraflarında neft sənayesinin inkişafı ilə əlaqədar olaraq milli burjuaziya yaranmış, təşəkkül tapmışdı. Milli burjuaziya nümayəndələrinin gəlirlərinin artması onların silahlı dəstələr, mühafizəçi şəxslər saxlamasını labüd etmişdi. Sahibkarlar cangüdənlər saxlayır, onları hər cür yaşayış vasitələri ilə təmin edirdilər. İctimai-iqtisadi, siyasi dəyişiklikləri nəticəsində Azərbaycanın başqa bölgələrindən fərqli olaraq Bakı mühitində sərmayədarlardan başqa heç kimdən asılı olmayan, istədiyi tərzdə hərəkət edən şəxslər fəaliyyət göstərirdi. Həmin şəxslərə «qoçu» adı verilmişdi.

Tədqiqatçı-jurnalist Hafiz Sadıq Qoçu Nəcəfquluya həsr etdiyi məqaləsində ilk dəfə olaraq Bakı qoçularının siması, onların insani keyfiyyətləri haqqında bəhs etmiş, müasir oxucunun təsəvvüründə onların obrazını formalaşdırmağa çalışmışdır. Hafiz Sadıq belə yazmışdır: «Bakının ictimai həyatında «qara ləkələr» qoyan, bəzi bəd əməlləri ilə tanınan qoçular istisna olunmaqla bütün qoçuların üzərindən mürtəce bir qüvvə kimi xətt çəkmək insafdan olmazdı. Qoçuların içərisində elələri olmuşdur ki, ehtiyacı olanlara əl tutmuş, onlara pənah gətirənləri ədalətsizlikdən qorumuş, məhəllənin, rayonun, kəndin qeyrətini çəkmişlər» («And qəzeti», 12 iyun, 1993,-cü il).

Adı dillər əzbəri olmuş Qoçu Nəcəfqulu belə qoçulardan biri idi. Onun əslən maştağalı olan atası Rzaqulu kişi vaxtilə Bakı şəhərinə köçmüş və burada məskunlaşmışdı.

Nəcəfqulu Rzaqulu oğlu Rzayev erkən yaşlarından öz yaşıdları arasında dikbaşlığı, cəldliyi, fərasəti və qorxmazlığı ilə fərqlənmişdir. O, təhsil almağa o qədər də meyl etməmişdir.

Yeniyetməlik dövrünü başa vurmuş Nəcəfqulunun bacarığı və zirəkliyi, ən başlıcası isə fiziki görkəmi bir çox sərvət sahiblərinin diqqətini cəlb etmişdir. Öncə ona varlı qonşusu Hacıbala himayədarlıq etmişdir. Müəyyən müddətdən sonra bu sahədə az-çox təcrübə qazanmış Nəcəfqulu Rzayev öz yaşıdları arasında xeyli fərqləndi. Artıq 23 yaşında olarkən Nəcəfqulunun öz dəstəsi var idi. O, «Qoçu Nəcəfqulu» adı ilə məşhurlaşdı.[1]

Yazıçı Qılman İlkin erməni silahlı dəstələrinin müsəlmanlara qarşı törətdikləri qırğınlar zamanı Bakı qoçularının qorxmazlığı və cəsurluğu, xalqa göstərdikləri yardım barədə yazmışdır: «Ağır, faciəli günlərdə qoçular xalqın köməyinə çatmışdılar. Məsələn, 1905-ci və 1918-ci illərdə müsəlman qırğınında qoçuların fəaliyyətini qeyd etməmək mümkün deyil. 1918-ci ildə daşnakların Ermənikənddən şəhərə hücum edəcəklərini eşitmiş qoçular bir sədd kimi onların qarşısını kəsmişdilər. Ya da ermənilər şəhərin cənub kəndlərinə basqın edəndə qoçular Bülbülə kəndinin yanındakı gölün ətrafını əhatə etmiş, onları Mərdəkan, Binə və Qala kəndlərinə buraxmamışdılar» (Qılman İlkin. Şəhərin qoçuları, «Bərəkət» qəzeti, 8 oktyabr 1991-ci il)

Türkiyə hərbi hissələri 1918-ci ilin sentyabr ayının 20-də Bakı şəhərinə gəldikdən sonra xilaskar qoşun başçısı ermənilərə qarşı böyük igidlik göstərdiyinə və şəhərin müsəlman əhalisini ləyaqətlə müdafiə etdiyinə görə Qoçu Nəcəfqulunu orden ilə təltif etmişdi (şəkil 58).

Məlumdur ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan (1920) sonra yeni siyasi rejim ətrafında özünü bolşevik kimi göstərmiş, əslində isə daşnak simalarını gizlətmiş ermənilər çox idilər. «Yeni» Rusiya hakim dairələrinə arxalanan ermənilər iqtidar sahibi olduqlarına görə 1918-ci ildə Bakı şəhərində ermənilərə

[1] Vəli Həbib oğlu. Maştağa. Bakı, 2003, s.1076.





qarşı cəsurluqla vuruşmuş qoçuların məhv edilməsini arzulayır və bu məqsədlə də onları «yeni hökumətin düşmənləri» kimi qələmə verirdilər. Həmin dövrdə yalnız bir gün ərzində 12 Bakı qoçusu həbs olunmuşdu. Onlar Bayıl həbsxanasına salınmışdılar. Qoçu Nəcəfqulu da həbs olunmuş 12 nəfər sırasında olmuşdur. Onu da qeyd edək ki, Şimali Azərbaycanda Sovet rejimi qurulduqdan sonra bəzi qoçular İrana və Türkiyəyə qaçdılar. Görünür Qoçu Nəcəfqulu, Vətəni tərk etməyi özünə ar bilmişdi. Nəcəfqulu və onun qoçu dostları «inqilabçı» Əli Bayramovun «vəhşicəsinə öldürülməsində» günahlandırılmışdılar.

1920-ci ilin may ayının 21-də indiki M.F.Axundov adına Opera və Balet Teatrında (o zaman «Mayılov teatrı» adlanırdı – Ə.B.) «inqilabi tribunal» öz işinə başladı. Bu məhkəmənin sədri Teymur Əliyev, prokuror isə Əliheydər Qarayev idi.

Məhkəmə prosesi bir həftə davam etdi və 1920-ci ilin may ayının 28-də başa çatdı.

Məhkəmədə Qoçu Nəcəfqulu Əli Bayramovun öldürülməsində heç bir günahı olmadığını bildirdi, həbs edilməsinin əsil səbəbini açıqladı: «Mən Bakıda bir sıra qanlı hadisələrin törədilməsinin iştirakçısı olmuşam, bir sıra cinayətlər törətmişəm. Əgər siz məni bu işlərimə görə mühakimə etsəydiniz, mən sizə minnətdar olardım. Lakin mən nə Əli Bayramovu tanımışam, nə də onun öldürülməsində iştirak etmişəm. Mən Bakının yarısını erməni daşnaklarından qorumuşam. Ona görə də türklərdən mükafat və orden almışam. Bəs bunlar hara getdi?» («And» qəzeti, 12 iyun, 1993-cü il).

Maraqlıdır ki, Qoçu Nəcəfqulu və onun dostları məhz həmin gecə, (yəni mayın 28-dən 29-na keçən gecə – Ə.B.) güllələndilər.

Maştağa kəndində XX əsrin əvvəllərində yaşamış Qoçu Əziz Əbdüləzim oğlu haqqında məlumatı olmayan bir insan tapmaq qeyri-mümkündür. Böyükdən kiçiyə qədər hamı onun adı ilə bağlı müəyyən məlumata malikdir.

Maştağada çox qoçular olmuşdur. Onların hər birinin özünəməxsus fəaliyyəti, həyat yolu, ad-sanı vardır. Onlar haqqında xati-

rələr həm Maştağada, həm də Bakı şəhərinin ətrafındakı kəndlərdə geniş yayılmışdır. Hər bir qoçunun ətrafında bir neçə nəfər toplaşır və onlar əhali ilə bildikləri kimi davranırdılar. Bir çox hallarda bu qoçular arasında yaranmış xırda ixtilaflar sonralar böyük düşmənçiliyə çevrilirdi.

Qoçu Əzizin də düşmənləri var idi. Lakin o, düşmənləri ilə mərdliklə davranırdı. Əldə etdiyimiz məlumatlara görə, başqa kəndlərdə toy mərasimləri keçirilərkən bu düşmənçilik nəzərə çarpmazdı. Qoçu Əziz və onun dəstəsi düşmənçilik bəslədiyi şəxslərə hörmətlə yanaşar, onlarla düşmən olduğunu nümayiş etdirməzdilər.

Qoçu Əziz şəhərə əmtəə aparan şəxslərin əmlakına, məhsullarına zamin olardı. Bir çox hallarda məhsulunu satan şəxslər bu zəmanətinə görə bəzən əmtəələrin müəyyən qismini ona pay kimi ayırardılar. Çünki şəhərə yönəlmiş yolda heç kim onlara və əmlakına toxunmağa cürət edə bilməz, əmtəəsini satacaq şəxs şəhərə rahatca gedər və geri qayıdardı. Bəzən isə əmtəə aparan şəxs şəhərdən qayıtdıqdan sonra həmin xidmətin əvəzini Qoçu Əzizə pulla verərdilər.

Qoçu Əzizin Maştağa kəndi, onun əhalisi qarşısında ən böyük xidmətlərindən biri onun 1918-ci ildə müsəliman qırğınları zamanı əhalini ermənilərə qarşı döyüşlərə səfərbər etməsi, öz evini düşmənə qarşı mübarizə aparan qüvvələrin qərargahına çevirməsi, kənddə bir-birilə düşmənçilik edən şəxslər arasında milli birlik yaratması əhalini silahla və ərzaqla təmin etməsi və onların müdafiəsini təşkil etməsi olmuşdur.

Maştağa kəndinin əhalisi bu illərdə böyük qəhrəmanlıq göstərmişdir. Əhali azğın ermənilərin qarşısını mütəşəkkil surətdə almışdır. Kəndin bir çox gəncləri, yaşlıları bu döyüşlərdə həlak olmuş, lakin Maştağaya bir erməni ayağı da dəyməmişdir.[1]

Deyilənlərə görə, Əzizin Maştağada qəlyanaltı üçün nəzərdə tutduğu məkan olmuş və o, çox zaman orada olarmış.

[1] Vəli Həbib oğlu. Maştağa. Bakı, 2003, s.1080.





Qoçu Əziz öldürüldükdən sonra onun evinin eyvanı, birinci mərtəbəsi əczaxana, ikinci mərtəbəsi uşaq poliklinikası kimi fəaliyyət göstərmişdir. Sonralar ikinci mərtəbədən poçt kimi istifadə olunmuşdur.

Deyilənə görə hal hazırda Maştağa qəsəbəsinin mərkəzində yerləşən 10 saylı Maştağa Musiqi məktəbinin binası vaxtilə Qoçu Əzizin telefonxanası olmuşdur. Bakının heç bir kəndində telefon olmadığı bir zaman Maştağada ayrıca telefonxananın olması, bu qoçunun cəmiyyətdə mövqeyi haqqında təsəvvür yaradır. Sovet hakimiyyəti qurulduqdan dərhal sonra Əzizin həm evi, həm də telefonxanası müsadirə edilmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra din xadimləri ilə varlılarla, qoçularla amansızlıqla rəftar etdilər. Qoçular bir gecədə güllələndilər. Onların bir qismi İrana, Türkiyəyə qaçdı.

Lakin Maştağa qoçuları Nəcəfqulu və Əziz Vətəni tərk etmədilər. Onların hər ikisi Sovet hakimiyyət orqanları tərəfindən öldürüldü.

Deyilənlərə görə, sovet cəlladları Qoçu Əzizi dənizdə batırmışlar. Onun əllərini və ayaqlarını bağlamış, boynundan daş asmış və suda batırmışlar.

Qoçu Əzizlə birgə bir çox şəxslər də bu cür qətlə məruz qaldılar. Çox təəssüf ki, qətlə yetirilənlərin heç birinin adı qorunub saxlanmamışdır.

Başqa bir məlumata görə, Qoçu Əzizi tutub Kömürçü meydanı yaxınlığında həbsxana kimi tikilmiş (sonralar «Karamel fabriki» adlanacaq – Ə.B.) binada güllələmişlər. Həmin dövrdə bu fabrikin binası xüsusi idarənin qərargahı imiş. Əzizin burada güllələnməsini təsdiq edən faktlar daha çoxdur.

Maştağa kənd əhalisi bu igid insanın adını ehtiramla yad edir, onun haqqında olan xeyli rəvayət dövrümüzə qədər gəlib çatmışdır.

**I QARABAĞ MÜHARİBƏSİNDƏ MAŞTAĞA QƏSƏBƏSİNİN QƏHRƏMANCASINA ŞƏHİD OLMUŞ 24 İQİD ÖVLADI BUNLARDIR:**

1. Nurməmmədov Cavid Nadir oğlu (11.12.1988) təyyarə qəzasında
2. Nəsirov İlham Sədulla oğlu (23.02.1993) Ağdərə döyüşlərində
3. Bayramov Firuz Əli oğlu (31.12.1993) Ağdam, Güllücə döyüşlərində
4. Muradov Cümşüd Valeh oğlu (01.02.1994) Füzuli, Horadiz döyüşlərində
5. Musayev Bəxtiyar Tofiq oğlu (04.02.1994) Ağdam ətrafı döyüşlərində
6. İsmayılov Şamil Pirverdi oğlu (04.02.1994) Ağdərə döyüşlərində
7. Əlixanov Akif Baləhməd oğlu (14.02.1994) Füzuli döyüşlərində
8. Mustafayev Elçin Əlikram oğlu (20.03.1994) Ağdam ətrafı döyüşlərində
9. Nurməmmədov Nizami Nadir oğlu (16.04.1994) Füzuli ətrafı döyüşlərində
10. Nəbiyev Çingiz Əlihüseyn oğlu (26.04.1994) Ağdam ətrafı döyüşlərində
11. Həsənov İlqar Həsənqaya oğlu (11.05.1994) Ağdam, Gullücə döyüşlərində
12. Əliyarov Namiq Rza oğlu (26.04.1994) Ağdam ətrafı döyüşlərində
13. Əliyev Andrey Gülbala oğlu (09.09.1994) Füzuli, Horadiz döyüşlərində
14. Hadıyev Saleh Sabir oğlu (12.11.1995) Tərtər rayonu döyüşlərində
15. Muradov Nəsrulla Sədaqət oğlu (22.07.1997) Tərtər rayonu döyüşlərində
16. Əlimirzəyəv Ağamirzə Fəxrəddin oğlu (22.07.1997) Tərtər rayonu döyüşlərində
17. Mirzəyəv Mirəli Vagif oğlu (24.03.1993) Ağdərə döyüşlərində
18. Salmanov Rövşən Sabir oğlu (01.03.1993) Kəlbəcər döyüşlərində





19. Sadıqov Rahil Hacı Rza oğlu (23.03.1993) Ağdərə döyüşlərində
20. Əbülhəsənov Məmməd Qəzənfər oğlu (03.03.1993) Şuşa-Laçın döyüşlərində
21. Kərim Ağarəhimoğlu Eldarov (09.04.1993) Ağdam döyüşlərində
22. Quliyev Rüstəm Rəhman oğlu (07.05.2000) Qarabağ uğrunda döyüşlərində (atəşkəs rejimində)
23. Rüstəmov Vagif Yunus oğlu (07.05.1994) Ağdam döyüşlərində (əsirlikdə)
24. Ağayev İlkin Oqtay oğlu (25.06. 2017) Qarabağın müdafiəsi uğrunda








**AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ VƏ QARABAĞIN İŞĞALDAN AZADLIĞI UĞRUNDA GEDƏN 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ DÖYÜŞLƏRİNDƏ QƏHRƏMANCASINA ŞƏHİD OLAN MAŞTAĞA QƏSƏBƏSİNİN İGİD OĞULLARI AŞAĞIDAKILARDIR:**

1. Əliyev Bəhruz Elman oğlu (24.10.1997-29.09.2020)
2. Məmmədov Əliağa Eldəniz oğlu (26.07.2001-07.10.2020)
3. Səfərov İntiqam Əlihüseyn oğlu (04.11.1998-07.10.2020)
4. Babayev Rəşad Ağabəy oğlu (04.07.1992-13.10.2020)
5. Rzayev Aslan Süleyman oğlu (21.01.1995-13.10.2020)
6. Piriyev Raul Zabil oğlu (04.06.1997-15.10.2020)
7. Səmədov Məhərrəm Elxan oğlu ( 27.03.2001-24.10.2020)
8. Mütəllimzadə Ağacavad Ələsgər (14.08.1997-26.10.2020)
9. Məmmədov İbrahim Ağagül oğlu (23.11.1998- 27.10.2020)
10. Əliyev Tahir Mahir oğlu (20.07.2001- 30.10.2020)
11. Tağıyev Kamran Fikrət oğlu (27.09.2001- 31.10.2020)
12. Məmmədov Zəbiyulla Şahin oğlu (14.10.2000-16.11.2020)
13. Novruzov Rəşad Elşad oğlu (03.04.2002-16.11.2020)
14. Ağayev Vahid Məcnun oğlu (14.09.1996-16.11.2020)
15. Mikayıl Rəşad İbrahim oğlu (30.09.1995-21.11.2020)
16. Şərifzadə Saleh Samir oğlu (23.05.2001-06.02.2021)

# NƏTİCƏ

Elmi tədqiqat əsərində Maştağa kəndinin və onun ətrafında olan yaşayış məntəqələrinin tarixi, memarlıq və maddi mədəniyyət abidələri hərtərəfli şəkildə araşdırılmış «Maştağa» toponimi, əsrlər boyu burada yaşayan tayfalar barədə ətraflı məlumat verilmiş və eyni zamanda arxeoloji araşdırmalar əsasında yerli əhalinin türk olduğu və erkən orta əsrlərdə buraya köçürülmüş irandilli tayfalarla qaynayıb-qarışdığı da müəyyən olunmuşdur.

Bölgədə aşkar olunmuş maddi mədəniyyət nümunələri Maştağa əhalisinin təsərrüfat həyatı, sənətkarlıq sahələri, mədəni həyatı haqqında xeyli məlumat verir. Maştağa kəndi hələ orta əsrlərdə Bakı şəhərindən sonra bölgənin ikinci böyük sənətkarlıq və ticarət mərkəzi olmuşdur.

Maştağa kəndinin tarixi-memarlıq abidələri, o cümlədən dini, müdafiə təyinatlı tikililəri, ovdanlar, hamamlar tədqiq olunmuş və bu tikililəri inşa etmiş memarlar və ustalar barədə ətraflı məlumatlar mövcuddur. Memarlıq abidələrimizin xeyli qisminin bu günə qədər bizə gəlib çatmamasının başlıca səbəbi 1761-ci ildə və 1841-ci ilin dekabr ayının sonunda baş vermiş zəlzələlər olmuşdur. Maştağada olmuş həmin zəlzələlərin abidələrə dağıdıcı təsiri bu hadisələrin şahidi olmuş əcnəbi səyyahların gündəlikləri əsasında təsdiq edilmişdir.

Əsərdə Maştağa kəndinin yetirməsi olmuş görkəmli ictimai xadimlər, alimlər və mədəniyyət, din xadimləri barədə geniş məlumat verilmişdir.

Abşeronun ən qədim və ən böyük yaşayış məskəni olan Maştağa kəndinin çoxəsrlik tarixi təsdiq edir ki, Maştağa kəndi, qəsəbəsi qədim tarixini, minillik maddi-mənəvi dəyərlərini, etnoqrafiyasını, burada məskünlaşmış əhalinin etnik xüsusiyyətlərini, ənənəvi məşğuliyyət sahələrini yaşadır, görkəmli tarixi şəxsiyyətlərini unutmur. Monoqrafiyanın ayrı-ayrı bölməsində Maştağanın





tarixi mənzərəsi, maddi, mənəvi və etnik xüsusiyyətləri hərtərəfli işıqlandırılır. Əsasən, tarixi materiallara, arxeoloji qazıntı nümunələrinə, elmi araşdırmalara istinad olunmaqla nəticələr əldə edilmişdir. A.Bakıxanovun (1794-1846) "Gülüstani-İrəm" (1841) əsərində "Dərbəndnamə" adlı mənbəyə əsaslanaraq Bakı qəzasındakı Maştağa-Məsqətə kəndinin adının massagetlərlə bağlı olduğunu, Herodotun və Strabonun əsərlərində də bu faktın vaxtilə təsdiq olunduğunu göstərirdi. Azərbaycan tarixçilərinin (S.B.Aşurbəylinin və Q.Ə.Qeybullayevin, Rəşidbəy İsmayılovun, Cahangir Zeynaoğlunun, Mahmud İsmayılovun, Kamal Əliyevin ilə Mirəli Seyidovun) tədqiqat əsərlərində bu tarixi mülahizələr elmi cəhətdən qəbil olunur. Bu bölgənin qədim tayfaların məskəni kimi tanınmasına daha bir əsas verir.

Əsrlər boyu Maştağada məskunlaşmış tayfaların əksəriyyəti türk olmuş və erkən orta əsrlərdə buraya gəlmiş tayfalarla qaynayıb-qarışmışdır.

Monoqrafiyada XVII əsrdən XX əsrə və müasir dövrədək Maştağanın xalqımızın ictimai-siyasi həyatındakı mövqeyi və rolu göstərilir. Xanlıqlar, Rusiya işğalı dövründə, XX əsrin əvvəllərində kənddə baş vermiş mühüm hadisələr təhlil edilir, kənd əhalisinin Azərbaycanda maarifçiliyin, milli-azadlıq ideyalarının yayılmasında, 1918-ci ildə erməni daşnaqlarına, bolşeviklərə qarşı mübarizədə mövqeyi və əhəmiyyətli rolu nəzərə çatdırılır.

Monoqrafiyanın "Maştağa XX əsr və bu gün" bölməsində Maştağa kəndinin yetirmələri olan görkəmli alimlər, mədəniyyət xadimləri, ictimai-siyasi xadimləri, din xadimləri anılır, onların Maştağa tarixində yeri, rolu müəyyən edilir.

Axund Hacı Mirzə Əbdülkərim ağa, Axund Mir Əbdülqəni ağa, Axund Mir Ələkbər ağa kimi görkəmli alimlər, tanınmış islamşünas Əhmədağa Əhmədov, məşhur inşaatçı, Sosialist Əməyi Qəhrəmanı Məzahir Abdullayev, tanınmış neftçi, Sosialist Əməyi Qəhrəmanı Ağadadaş Kərbəlayı oğlu, Sosialist Əməyi Qəhrəmanı Zərbəli Səmədov, görkəmli bəstəkar, SSRİ xalq artisti Rauf Hacı-

yev, bəstəkar Ağabacı Rzayeva, rəssamlar Rüstəm Mustafayev, İsmayıl Axundov, rejissorlar Əliheydər Ələkbərov, Həsən Seyidbəyli, Zəfər Nemətov, aktyorlar Hacıağa Abbasov, Yaşar Nuri, Hacıbaba Bağırov, xanəndə-bəstəkar Əlibaba Məmmədov, ustad muğənni Mirzə Babayev, musiqi ifaçıları Mirzə Fərəc, Əhsən Dadaşov, hərbiçilər general Heybət Heybətov (Zuvanov), Əbdüləli Pəhləvan (Altıaylıq) və bir çox başqa şəxslər məhz Maştağa mühitinin yetirmələridir.

Müstəqillik illərində Maştağa qəsəbəsinin ümumi siması xeyli dəyişmiş, burada abadlıq işləri aparılmış, sosial obyektlərin sayı artmışdır. Ziyalılar qəsəbənin sosial-mədəni həyatında fəal iştirak edirlər. Maştağa sakinləri müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi naminə sıx birləşməyə, sələflərinin nurlu əməllərini davam etdirməyə və quruculuq işlərində ön mövqedə olmağa can atırlar.



## ЗАКЛЮЧЕНИЕ

В научно-исследовательской работе были всесторонне исследованы памятники истории, архитектуры и материальной культуры села Маштага и окружающих его поселений. Топониму «Маштага» дана подробная информация о племенах, живших здесь на протяжении столетий. На основании археологических исследований установлено, что местное население было тюркским, а также выявлено, что они смешались с ираноязычными племенами, переселившимися сюда в раннем средневековье.

Образцы материальной культуры, обнаруженные в регионе, дают много информации о хозяйственной, ремесленной и культурной жизни населения Маштаги. Еще в средние века село Маштага было вторым по величине ремесленным и торговым центром региона после города Баку.

В работе изучены историко-архитектурные памятники поселка Маштага, в том числе культовые и оборонительные сооружения, овданы, бани и имеются подробные сведения об зодчих и мастерах, возводивших эти сооружения. Главной причиной того, что большинство наших архитектурных памятников не дошло до нас сегодня, стали землетрясения, произошедшие в 1761 году и в конце декабря 1841 года. Разрушительное воздействие тех землетрясений в Маштаге на памятники подтверждается выписками из дневников иностранных путешественников, ставших свидетелями этих событий.

В работе представлена обширная информация о видных общественных деятелях, ученых, деятелях культуры и религии, которые были выходцами села Маштага.

Многовековая история села Маштага, являющегося крупным населенным пунктом Абшерона, подтверждается тем, что село и поселение Маштага хранят свою древнюю ис-

торию, тысячелетние материальные и нравственные ценности, этнографию, этнические особенности поселившегося здесь населения, традиционные поля занятий и не забывает своих выдающихся исторических деятелей. В отдельном разделе монографии всесторонне освещены историко-ландшафтная, материальная, духовная и этническая характеристики Маштаги. В основном результаты были получены путем обращения к историческим источникам, образцам археологических раскопок и научно-исследовательским работам. А. Бакиханов (1794-1847) в своем труде «Гюлюстани-Ирам» (1841) на основании источника под названием «Дарбанднаме» показал, что название села Маштага-Масгата Бакинского уезда связано с массагетами, и что этот факт также нашло свое подтверждение в произведениях Геродота и Страбона. Эти исторические соображения нашли научное подтверждение в исследованиях азербайджанских историков (С.Б. Ашурбейлин и Г.А.Гайбуллаев, Рашидбей Исмаилов, Джахангир Зейнаоглу, Махмуд Исмаилов, Кямал Алиев и Мирали Сеидов). Это дает еще одну причину признать этот регион домом древних племен.

На протяжении столетий большинство племен, поселившихся в Маштаге, стали тюркскими и смешались с племенами, пришедшими сюда в раннем средневековье.

В монографии показано положение и роль Маштаги в общественно-политической жизни нашего народа с XVII по XX век и до современности. Анализируются важные события, происходившие в селе во времена ханств, российской оккупации, в начале XX века, положение и важная роль сельского населения в распространении идей просвещения и национальной свободы в Азербайджане, учитывая борьбу с армянскими дашнаками и большевиками в 1918 году.

В разделе «Маштага XX век и сегодня» монографии упоминаются имена выдающихся ученых, деятелей культуры, общественно-политических и религиозных деятелей, которые





были выходцами села Маштага, и определяются их роль и место в истории села.

Ахунд Гаджи Мирза Абдулкарим Ага, Ахунд Мир Абдулгани Ага, Ахунд Мир Алекпер Ага, видные ученые, известный исламовед Ахмедага Ахмедов, известный строитель, Герой Социалистического Труда Мазахир Абдуллаев, известный нефтяник, Герой Социалистического Труда Агададаш Кербалаи оглы, Герой Социалистического Труда Зарбели Самадов, выдающийся композитор, народный артист СССР Рауф Гаджиев, композитор Агабаджи Рзаева, художники Рустам Мустафаев, Исмаил Ахундов, режиссеры Алигейдар Алекберов, Гасан Сеидбейли, Зафар Нематов, актеры Гаджиага Аббасов, Яшар Нури, Гаджибаба Багиров, певец-композитор Алибаба Мамедов, мастер-певец Мирза Бабаев, музыканты Мирза Фарадж, Ахсан Дадашов, военные генералы Гейбат Гейбатов (Зуванов), Абдулали Пахлаван (Алтыайлыг) и многие другие люди - выходцы Маштаги.

За годы независимости значительно изменился общий облик поселка Маштага, здесь проведены работы по благоустройству, увеличилось количество социальных объектов. Интеллигенция активно участвует в общественной и культурной жизни поселка. Жители Маштаги объединяются во имя дела укрепления независимой государственности Азербайджана, продолжают светлое дело своих предшественников.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi 7 cilddə, V c., Bakı, 2011.
2. Azərbayccan tarixi (Z.M.Bünyadovun və H.B.Yusifovun redaktəsi ilə), Bakı, 1994.
3. Azərbaycan etnoqrafiyası 3 cilddə. I c., Bakı, 1988.
4. Azərbaycan incəsənəti. Bakı, 1992
5. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı, 1998.
6. Abşeron kolxozçusu qəzeti, 1 may. 1937, №21.
7. Abşeronun qədim rəsədxanası. «Qobustan» jurnalı, 1973, №3.
8. Axundov N. Maştağanın keçmişindən. «Vəhdət» qəzeti, 5 mart, 1993
9. Babayev İ.A. Əhmədov, Q.M. Qəbələ, Bakı, 1981
10. Bünyatov T.A. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı, 1964.
11. Babayev Ə.H. Bakı xanlığının Maştağadakı igamətgahı Abbasqulu ağa Bakıxanov – 200. (1794-1846) Respublika konfransının tezisləri. Bakı, 1994.
12. Babayev Ə.H. Maştağa Cümə məscidi. «İslam dünyası» qəzeti, 4 sentyabr, 1993
13. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951.
14. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989
15. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri, Bakı, 1979
16. Əhmədov Q.M. Azərbaycan şirsiz saxsı məmulatı. Bakı, 1959
17. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi, Bakı, 1985
18. Ələsgərzadə Ə. Şirvanşah İbrahim Dərbəndi dövrünə aid iki kitabə. Azərbaycan MEA-nın Bakıxanov adına Tarix İnstitutunun əsərləri 1 c., Bakı, 1947
19. Əliyev Vaqif. Ürək deyir yaşa hələ. Bakı. 2000
20. Əhmədov B. 1579-1581-ci illər ekspedisiyası və İngiltərə – Azərbaycan ticarət əlaqələrinin kəsilməsi səbəbləri. ADUnun elmi əsərləri (Tarix və Fəlsəfə seriyası), 1967, №3.
21. Əliyev S. Qədimdən qədim Azərbaycanım. Bakı, 1995
22. Əliyev Mövsüm. Abbasqulu bəy Kazımzadə. «İncəsənət» qəzeti 14 oktyabr 1993.
23. Fərzəli Əydər. Dədə Qorqud yurdu. Bakı, 1989
24. Həbiboğlu Vəli. Maştağa. Bakı, 2003
25. Həbiboğlu Vəli. Yarım əsrdən çox xalqın xidmətində. Bakı, 1981
26. İsmayılov M.Ə. Sənin ulu baban. Bakı, 1989
27. İbrahimov F. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti. Bakı, 1988
28. İsmayılov Rəşidbəy. Azərbaycan tarixi. Bakı, 1993
29. İbrahimov Xaləddin. Azərbaycan siyasi mühacirəti. Bakı, 1996
30. Kərəmov N. Abşeron və Böyük Qafqaza səyahət. Bakı, 1957.
31. Kalankaytuklu M. Albaniya tarixi. Bakı, 1993
32. Kərimov Ə. Bakı demoqrafiya güzgüsündə. Bakı, qəzeti 31 mart, 1987
33. Qasımov E.Ə. Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı (IX-XV əsrlər) Bakı, 2002.
34. Quliyev H., Tağızadə N. Metal və xalq sənətkarlığı. Bakı, 1968
35. Qılman İlkin. Bakı və bakılılar. Bakı, 1998
36. Məmmədzadə K.M. Azərbaycanın inşaat səhəti. Bakı, 1978
37. Musəvi T. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı, 1967.
38. Məmmədov A.M. Gəncəbasar IV-XIII əsrlərdə. Bakı, 1993
39. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı. 2002
40. Nuriyev A.B. Qədim Şamaxıda şüşə istehsalına dair. AMM VI c., Bakı. 1965.
41. Nuriyev A.B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi. Bakı, 1981.
42. Nuriyev A., Babayev Ə. Bərdə şəhərinin tarixi arxeoloji oçer-

ki (antik və orta əsrlərdə). Bakı, 2001
43. Nemətov M.S. Azərbaycanın XVII-XVIII əsr epiqrafik abidələri. Bakı, 1963.
44. Osmanov F.Y. Qəbələnin şüşə məmulatı. AMM V c., 1964
45. Süleymanov M. Hacı Zeynəlabdin Tağıyev. Bakı, 1996.
46. Səlimov – Şağani T. Binə, Bakı, 2001
47. Səlimov – Şağani T. Abşeronlular. Bakı, 1993
48. Serabski H. Köhnə Bakı. Bakı, 1982.
49. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989
50. Rzayev N. Qayalar danışır. Bakı, 1985
51. Yaqublu N. Məhəmmədəmin Rəsulzadə. Bakı, 1991
52. Vəlixanlı N. Azərbaycan və ərəb xilafəti. Bakı, 1993
53. Cahangir Zeynaloğlu. Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992

**Rus dilində**

54. Асланов Г.М. Об археологических памятниках Абшерона МКА т IX, Баку, 1980.
55. Асланов Г.М. Археологические раскопки на Абшероне МКА т.VI, Баку, 1965.
56. Асланов Г.М. Кирганы Абшерона. Доклады АН.АзССР, 1974, т.XXX, №1.
57. Асланов Г.М., Атакишиев М.И., Уманов А.А. Производство веревон на Абшероне (XIX – начало XX вв) Доклады Академии Наук Азербайджанской ССР том. XXII, №12.
58. Алиев Ф. Мосты, караван-сараи и овданы на службе торговли во второй половине XVII в. Доклады АН.АзССР, т. XVIII, №3, 1957.
59. Азимбеков И. Селение Нардаран и его древности – ИААК, 1925, вып 1.
60. Алиев Г. Отюды о населении древнего Азербайджана В кн. К проблеме этногенеза азербайджанского народа.





Баку, 1984.
61. Алиев И.Г. Сарматы-аланы на пути в Иран В кн. История Иранского государство и культуры. М., 1971.
62. Алиев И.Н. Абшерон в эпоху бронзы и раннего железа Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук Баку, 1993.
63. Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960.
64. Ашурбейли С.Б. История города Баку. (Период серднековья). Баку, 1992.
65. Ахмедов Р.Дж. Керамика города Баку. IX-XVII вв. Баку, 1992.
66. Богачев В.В.Бинагады – кладбище четвертичной фауны на Абшеронском полуострове. Баку, 1939.
67. Березин И.Н. Путешествие по Дагестану и Закавказью. СПб, 1849.
68. Бутков П.Г. материалы для новой истории Кавказа с. 1722 по 1803, Спб, ч.1, 1869.
69. Баку и его окрестности Тифлис, 1891.
70. Баку в цифрах, Баку, 1967
71. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. т.1. Баку, 1991.
72. Геродат История о девяти книгах перевод и примечения Г.А. Стратановского. Л., 1972, кн. IX, II.
73. Геюшев Р.Б. Глиняные светильники из Габалы, Доклады АН. АзССР, т. XVII, 1961.
74. Джафарзаде И.М. Гобустан. Баку, 1973.
75. Джафарзаде И.М. Археологические разведки на Абшероне. Известия АН Азерб. ССР №6, 1948.
76. Джафарзаде И.М. Историко археологической очерки Гянджи. Баку, 1949.
77. Дадашев С.А. Усейнов. МА Архитектура Азербайджана. М., 1948.

78. Дьяконов И.М. История Мидии от Древнейщих времен до конца IV века до н.ж. М.-Л., 1956.
79. Искендерова М. Бакинское Ханство. Баку, 199
80. Кавказский календарь на 1856. Тифлис, 1855.
81. Лерх И. Извлечения из дневника путешествия доктора Иохана. Якова Лерха в Персию Первое путешествие (перевод М.М.Абезгуза) Научный архив Института Истории АН Азерб.ССР инв, № 486.
82. Левиатов В.Н. Керамика старой Гянджи. Баку, 1949.
83. Маркович В.И. Дагестан и Горная Чечня в древности: Каянентско–Хорочоевская культура. М., 1969.
84. Малиновский И.В. Сейсмичность Абшеронского полуострова – Известия Академии Наук Азербайджанской ССР, №5, 1948.
85. Наджафова Н.Н., Шелковников Б.А. Художественная керамика Азербайджана IX в из. АН ССР, 1958, №4.
86. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана, Баку, 1991
87. Пахомов Е.А. Об осмотре находки кремневого ядра из Зыхского озера Изв. Аз. ФАН ССР, 1938, №2.
88. Пахомов Е.А. Маштагинский клад 1952 года. Доклады АН.АзССР, т. IX, №2, 1953.
89. Пахамов ЕА. Старинные сооружения Абшерона. Труды Института Истории им. А.Бакыханова. т.1., Баку 1947.
90. Рустамов Д.К., Мурадова Ф.М. Раскопки в Гобустане. Археологические открытия 1970 года, м., 1971.
91. Рахмани А.А. Тарихи–алам арайи Аббаси как источник по истории Азербайджана. Баку, 1960.
92. Рахмани А.А. Азербайджан в конце XVI в XVII веке (1590-1700 гг). Баку, 1981.
93. Сейфеддини М. Монеты Ширваншахов: Газета «Тарих», 1990, №6.
94. Страбон География (перевод и средисковие Г.А.Страта-





новского). Л., 1964.
95. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958
96. Спасский–Автономов К.Ф. Описание Бакинского уезда Шемахинской губернии. Кавказский календарь. Тифлис, 1852 г.
97. Стихийные бедствия и экстремальные явления на Ближнем и Среднем Востоке в VII-XVII вв. Баку, 1990.
98. Тагиев Ф.А. История города Баку в первой половине XIX века (1806-1859), Баку, 1999
99. Тмолер В.О. Сейсмическое районирование городов и гормы антисейсмического строительства. Труды сейсмологического института, №63, 1938.
100. Фатуллаев Ш.Д. Абшерон. Баку, 1991.
101. Шеблыкин И.П. Памятники азербайджанского зодчество эпохи Низами Изд. Аз Фан, 1943.



Xəritə 1. Azərbaycan xanlıqlar dövrü xəritəsi.
(A.İliyin-russian-maps livejournal.com)







**Xəritə 2.** Bakı quberniyasının xəritəsində Abşeron yarımadası.
(A.İliyin-russian-maps livejournal.com)




**Xəritə 3.** Bakı quberniyasının xəritəsi.
(A.İliyin-russian-maps livejournal.com)








**Xəritə 4.** Bakı quberniyasının xəritəsi.
(A.İliyin-russian-maps livejournal.com)




**Xəritə 5.** Bakı quberniyasının xəritəsində Abşeron yarımadası. (A.İliyin-russian-maps livejournal.com)




**Xəritə 6.** Azərbaycan Respublikasının xəritəsi (2002-ci il)







**Şəkil 1.** Bilgəhdə aparılmış arxeoloji qazıntı sahəsinin ümumi görünüşü (XV-XVII əsrlər)



**Şəkil 2.** Bilgəhdə arxeoloji qazıntı sahəsində aşkar edilmiş ocaq yeri (XV-XVII əsrlər)



**Şəkil 3.** Bilgəhdə arxeoloji qazıntı sahəsində aşkar olunan axurbaşı. (XV-XVII əsrlər)



**Şəkil 4.** Daş kürəbəndlər (XV-XVII əsrlərdə)







**Şəkil 5.** Bilgəhdə arxeoloji qazıntı sahəsində aşkar olunan daş çarhavuz. (XV-XVII əsrlər)



**Şəkil 6.** Bilgəhdə arxeoloji qazıntı sahəsində aşkar olunan kürənbəndər və sütunlar. (XV-XVII əsrlər)



**Şəkil 7.** Bilgəhdə arxeoloji materiallarla iş zamanı



**Şəkil 8.** Bilgəhdə aşkar olunan təndir qalıqları. (XV-XVII əsrlər)







**Şəkil 9.** Keçənlər qəbristanlığında daş kitabə (XIV əsr)



**Şəkil 10.** Keçənlər qəbristanlığında daş kitabə (XV əsr)



**Şəkil 11.** Seyidlər qəbristanlığında Sənduqə daş kitabə (XVI-XVII əsrlər)



**Şəkil 12.** Seyidlər qəbristanlığında daş kitabə (XVI-XVII əsrlər)







**Şəkil 13.** Seyidlər qəbristanlığında daş kitabə (XVI əsr)



**Şəkil 14.** Seyidlər qəbristanlığında daş kitabə (XVIII əsr)



**Şəkil 15.** Seyidlər qəbristanlığında daş kitabə (XVIII əsr)



**Şəkil 16.** Seyidlər qəbristanlığında daş kitabə (XVIII əsr)







**Şəkil 17.** Seyidlər qəbristanlığında daş kitabə (XVIII əsr)



**Şəkil 18.** "Pirşəhid qəbristanlığında" XIX əsrə aid sərdabələr



**Şəkil 19.** "Pirşəhid qəbristanlığında" XIX əsrə aid sərdabə







**Şəkil 20.** Ağal-bəbə piri kompleksinin ümumi görünüşü



**Şəkil 21.** Ağal-bəbə piri kompleksinin giriş qapısından ümumi görnüşü



**Şəkil 22.** Ağal-bəbə pirinin qapısı üzərindəki daş kitabə



**Şəkil 23.** Ağal-bəbənin Seyid Hüseynin qəbri







**Şəkil 24.** Ağal-bəbə pir kompleksinin qarşısında yerləşən Həşdərnin (səkkiz qapının) ümumi görünüşü



**Şəkil 25.** Ağal-bəbə pir kompleksinin qarşısında yerləşən Həşdərnin (səkkiz qapının) ümumi görünüşü



**Şəkil 26.** Ağal-bəbənin Seyid Hüseynin qızı Məryəm xanımın Həşdərdəki qəbrinin ümumi görünüşü



**Şəkil 27.** Axund Mir Həbib ağa türbəsinin görnüşü







**Şəkil 28.** Axund Mir Həbib ağa türbəsinin giriş qapısının üzərindəki daş kitabənin görnüşü



**Şəkil 29.** Axund Mir Həbib ağanın qəbri




**Şəkil 30.** Seyid İbad ağa ocağının ümumi görünüşü



**Şəkil 31.** Seyid İbad ağa ocağının ümumi görünüşü







**Şəkil 32.** Seyid İbad ağa ocağının girişindəki qədəmgah



**Şəkil 33.** Seyid Ibad ağanın yaşadığı otaq



**Şəkil 34.** Seyid İbad ağanın bacısı Xədicə xanımın yaşadığı otaq







**Şəkil 35.** Hər iki otağın qarşısında olan dəhliz



**Şəkil 36.** Seyid İbad ağanın ev muzeyinin ümumi görünüşü



1



2

**Şəkil 37.** Seyid İbad ağanın ev-muzeyində onun vaxtilə istifadə etdiyi geyim əşyaları (1) və güzgü (2)









**Şəkil 38.** Vaxtilə Maştağada yaşamış və fəaliyyət göstərmiş görkəmli din xadimlərinin fotoları və onlar haqqında məlumatların yerləşdirildiyi sərgi otaq (Seyid İbad ağa ocağı)



**Şəkil 39. Maştağa Cümə məscidi (XIX əsrin axırları)**







**Şəkil 40.** Maşatağa Cümə məscidinin giriş qapısı



**Şəkil 41**. Maştağa Xunxar Cümə məscidinin ümumi görnüşü



**Şəkil 42.** Maştağa "Xunxar" Cümə məhəllə məscidinin həyətində olan su quyusu (XVII-XVIII əsrlər)







**Şəkil 43.** Maştağa "Xunxar" Cümə məhəllə məscidinin həyətində olan su quyusunun içərisində aşkar edilmiş daş kitabələr (XVII-XVIII əsrlər)



**Şəkil 44.** "Gövhər Bikə" məhəllə məscidi (XIX əsr)



**Şəkil 45.** Həsən bəy Məhəllə məscidi (XIX əsr)



**Şəkil 46.** Hacı Aydəmir məhəllə məscidi (XIX əsr)







**Şəkil 47.** Keçənlər məhəlləsi. Qədim Cümə məscidi (XIX əsr)



**Şəkil 48.** Hacı Kərbəlayı Hüseyn məhəllə məscidi (XIX əsr)



**Şəkil 49.** "Aslan bəy" məhəllə məscidi (XIX əsr). Keçmiş bazar meydanı



**Şəkil 50.** "Albalı bağ" massivində XX əsrin 90-cı illərində inşa edilmiş "Əbülfəzağa" məhəllə məscidi







**Şəkil 51.** Aqil Baba ziyarətgahında 2010-cu ildə inşa edilmiş "Hacı Seyid Əkbər" məhəllə məscidi



**Şəkil 52.** Qum hamamı XII-XIII əsrlər



**Şəkil 53.** Şamxal hamamı XIX əsr



**Şəkil 54.** Maştağa Bilgəh yolunun üstündə yerləşən Molla Şərif övladı (XIX əsr)







**Şəkil 55.** Maştağa Quriney bağlarında olan Məşədi Əmiraslan ovdanı (XIX əsr)



**Şəkil 56.** Seyidlər məhəlləsində ovdan XVIII-XIX əsrdə



**Şəkil 57.** Keçənlər məhəlləsində İslam ovdanı. XVIII-XIX əsr







1



2

**Şəkil 58.** Fatmayi-Məhəmmədi-Kürdəxanı,
Ləiş bağlarından keçib son dayanacağı Maştağa olan
Maştağa-Şabran qədim araba yolu



**Şəkil 59.** Maştağada Əhməd və Mirzəağa Dövlətoğulunun mülkündə 1896-cı ildə açılmış bir sinifli təhsil ocağı. Bu təhsil ocağına 1900-cu ildə rəsmi olaraq II Nikolayın adı verilmişdi



**Şəkil 60.** 1918-ci ildə ermənilərlə vuruşan Maştağalı döyüşçülər





**Monoqrafiyadakı sikkə fotolarını Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunun müdiri, t.ü.f.d. Aygün Məmmədova təqdim etmişdir.**

**Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan Şirvanşah-Kəsranilər (XII-XIII yüzillər) dövrünə aid mis sikkələr**



1989-cu ildə Maştağa-Cümə məscidinin həyətində aşkar olunan Şirvanşah-Kəsranilər (XII-XIII yüzillər) dövrünə aid mis sikkə dəfinəsi.



NF 32116. Şirvanşah-Kəsranilər. Gərşasb bin Fərruxzad (1205 - 1225), mis fels, 4,5 q



NF 3787. Şirvanşah-Kəsranilər. III Fəriburz bin Gərşasb (1225 - 1244), mis fels, 3,7 q

**Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan 1952-ci ildə Maştağa qəsəbəsinin Ləiş massivində aşkarlanmış gümüş sikkələr**



1. NF 24760. Cəlairilər. Əhməd (784 – 813 = 1382-1411), Bakuyə, hicri 785 = 1383-1384, ikili gümüş dirhəm, 1,3 q



2. NF 24764. Cəlairilər. Əhməd (784 – 813 = 1382-1411), Şəberan, hicri 785 = 1383-1384, ikili gümüş dirhəm, 1,06 q







3. NF 24769. Cəlairilər. Əhməd (784 – 813 = 1382-1411), Şamaxı, hicri 785 = 1383-1384, ikili gümüş dirhəm, 1,01 q



4. NF 24770. Cəlairilər. Əhməd (784 – 813 = 1382-1411), Gəştaspi, (quştaspi) hicri 785 = 1383-1384, ikili gümüş dirhəm, 0,9 q




**Tablo I**








**Tablo II**




**Tablo III**








**Tablo IV**



**Tablo V**







**Tablo VI**




**Tablo VII**








**Tablo VIII**




**Tablo IX**



Əlibaba Hüseynqulu oğlu Babayev
*tarix üzrə fəlsəfə doktoru*

# MAŞTAĞA VƏ ONUN ƏTRAF ƏRAZİLƏRİNİN TARİXİ

Bakı – 2023

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Dizayner – Samirə QAMBAYEVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

*Kitab "AFPoliqrAF" mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru | Tel.: +994 (12) 510 96 74
afpoliqraf@gmail.com | Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 03.07.2023
Çapa imzalanmışdır: 25.09.2023
Qarnitura: Calibri
Şərti çap vərəqi: 14
Formatı: 64x90 1/16
Tiraj: 100